Bu kitab Azərbaycan xalqının Ümummilli Lideri, ölkənin yeni müstəqil neft-qaz strategiyasının banisi Heydər Əliyevin xatirəsinə dərin hörmət və minnətdarlıq hissi ilə Ulu Öndərin anadan olmasının 100 illiyi münasibətilə qeyd edilən "Heydər Əliyev İli"nə bp şirkətinin hədiyyəsidir.

İLHAM ŞABAN

# "AZƏRİ-ÇIRAQ-GÜNƏŞLİ"

## "Əsrin müqaviləsi", 1994-2022

FAKTLAR, SƏNƏDLƏR VƏ RƏQƏMLƏR TOPLUSU

TEAS PRESS



"Bu müqavilə Azərbaycan xalqının bu gününə, gələcəyinə böyük mənfəətlər verəcək, onun rifah halının yüksəlməsi üçün etibarlı və möhkəm zəmin yaradacaqdır... Biz müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük şirkətləri arasında əlaqələr yaradır, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması üçün əsas yaradırıq... Beləliklə, Azərbaycanın həyatında yeni dövr başlamışdır".

**Heydər Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
20 sentyabr 1994-cü il

"Amma mən hesab edirəm ki, 30 il birinci müqavilənin vaxtıdır. Biz 30 ildən sonrakı on illərdə də bir yerdə olacağıq. Mən buna əminəm".

**Heydər Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
10 oktyabr 1996-cı il

"Biz heç kimdən asılı deyilik, öz taleyimiz öz əlimizdədir və müstəqil siyasət aparmaq imkanlarımız ilk növbədə iqtisadi imkanlarımızdan qaynaqlanır. Bu imkanları da bizə "Əsrin müqaviləsi" yaratdı".

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
14 sentyabr 2017-ci il

“Biz həmişə hesab etmişik və hesab edirik ki, neft bizim üçün məqsəd deyil, vasitədir.

Bu gün Azərbaycan xalqının firavanlığını və gələcək nəsillərin firavanlığını təmin etmək vasitəsi, yeni iş yerlərinin yaradılması üçün vasitə, gələcəkdə yalnız neft sektorundan asılı olmamaq üçün iqtisadiyyatın yeni sahələrinin yaradılmasından ötrü vasitə, Azərbaycan xalqının rifah səviyyəsinin yüksəldilməsi üçün vasitə, maaşların, təqaüdlərin və müavinətlərin artırılması üçün vasitə, ən başlıcası isə Azərbaycan dövlətinin müstəqilliyinin möhkəmlənməsi üçün vasitədir.

Bu gün mən tam məsuliyyətlə bəyan edirəm ki, əgər biz bütün planlarımızı həyata keçirə bilsək, – mən buna şübhə etmirəm, – yaxın gələcəkdə Azərbaycan ən yüksək həyat səviyyəli ölkələrdən birinə çevriləcəkdir. Bu, “Əsrin müqaviləsi”nin təntənəsidir. Bu, Heydər Əliyevin neft strategiyasının təntənəsidir. Bu, müstəqil Azərbaycan dövlətinin xarici və daxili siyasətinin təntənəsidir. Budur “Əsrin müqaviləsi”, budur Heydər Əliyevin neft strategiyası!”

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti



*Müəllif kitabın ərsəyə gəlməsində verdikləri məsləhətlərə görə "BP-Azərbaycan" və SOCAR şirkətlərinin kommunikasiya və xarici əlaqələr üzrə departamentlərinə minnətdarlığını bildirir.*

İlham Şaban
"Azəri-Çıraq-Günəşli".
*Əsrin müqaviləsi, 1994-2022*
*Faktlar, sənədlər və rəqəmlər toplusu*

Layihə rəhbəri: *Ülkər Hüseynova*
Nəşriyyat redaktoru: *Famil Cəfərli*
Texniki redaktor: *Vüsalə Babayeva*
Korrektor: *Flora Əliyeva*
Dizayner: *Mahir Allahverdiyev*
Üz qabığının dizaynı: *Sevinc Ələkbərova*
Çapa məsul: *Rəşad İsmixanov*

Bakı, TEAS Press Nəşriyyat evi, 2023, 236 səh.
ISBN 978 9952 563 15 3

*Kitabın məzmununa və burada istifadə olunan fikir və mülahizələrə görə bp məsuliyyət daşımır.*

www.teaspress.az
Bütün hüquqlar qorunur.

© TEAS-Press Nəşriyyat evi, 2023

# MÜNDƏRİCAT


*Ön söz* ........ *xi*

*Müqəddimə* ........ *xiii*

I FƏSİL. MÜQAVİLƏYƏ APARAN UZUN YOL

Xəzərin dərinsulu hissəsindəki yataqlar ........ 1

"Günəşli" yatağı ........ 2

"Çıraq" yatağı ........ 3

"Azəri" yatağı ........ 4

"Azəri-Çıraq-Günəşli" layihəsinin tarixçəsi ........ 4

Xəzərin dərinsulu hissəsindəki yataqların işlənilməsi planı ........ 10

Müstəqillik dövrünün ilk illərində xarici şirkətlərlə danışıqlar ........ 11

Xarici şirkətlərlə danışıqların müvəqqəti dayandırılması ........ 13

1993-cü ilin ikinci yarısında xarici neft şirkətləri ilə sövdələşmək istəyən qüvvələr ........ 22

II FƏSİL. DANIŞIQLARIN YENİ MƏRHƏLƏSİ

Müqavilə üzrə yeni danışıqlar ........ 25

III FƏSİL. MÜQAVİLƏ

"Əsrin müqaviləsi"nə çevrilən saziş ........ 41

HPB sazişi nədir? ........ 42

Mənfəət neftinin bölüşdürülməsi mexanizmi ........ 45

IV FƏSİL. MÜQAVİLƏNİN HƏYATA KEÇİRİLMƏSİNİN MƏRHƏLƏLƏRİ

AÇG yataqlarının işlənilmə mərhələləri və hasilata başlanılmasının tarixçəsi ........ 65

Tarixi başlanğıclar – Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ........ 72

ABƏŞ-in ilk ili və Azərbaycana xeyri ... 79
"İlkin neft" layihəsi ... 80
"Çıraq" platforması ... 80
İlk mənfəət nefti və Neft Fondunun yaradılması ... 137
AÇG-nin tammiqyaslı işlənilməsi layihəsi ... 143
"Faza-1" layihəsi ... 143
Layihə çərçivəsində inşa edilən platformalar ... 144
"Mərkəzi Azəri" platforması ... 144
"Faza-2" layihəsi ... 146
"Şərqi Azəri" platforması ... 147
"Qərbi Azəri" platforması ... 147
"Faza-3" layihəsi ... 150
"Dərinsulu Günəşli" platforması ... 151
Səngəçal terminalı ... 160
"Qərbi Çıraq" layihəsi ... 162
"Qərbi Çıraq" platforması ... 162

V FƏSİL. AÇG-2

Yeni müqaviləni zəruri edən şərtlər ... 165
Yeni müqavilənin şərtləri ... 173
Müqavilədə pay bölgüsü ... 174
Yeni müqavilənin imzalanma mərasimi ... 174
Layihənin icrası ... 193
Layihə üzrə müqavilələrin imzalanması ... 195
"Azəri-Mərkəzi-Şərqi" (ACE) platforması ... 198

YEKUN ... 200
ƏLAVƏLƏR ... 203
İSTİNADLAR ... 213
İNDEKS ... 215

# ÖN SÖZ

Bu kitab Xəzərin Azərbaycan sektorunda yerləşən və dünyanın ən iri neft yataqlarından biri olan "Azəri-Çıraq-Günəşli"nin (AÇG) işlənilməsi üzrə hasilatın pay bölgüsü sazişi çərçivəsində həyata keçirilən AÇG layihəsinin əməliyyatçısı BP şirkətinin maliyyəsi ilə nəşr edilmişdir.

AÇG-nin işlənilməsi üzrə müqavilə Azərbaycanın neft və qaz sənayesinin yeni erasının simvoludur. Bu müqavilənin reallaşması həm Azərbaycan, həm də müqavilənin iştirakçısı olan şirkətlər üçün əlamətdar hadisədir.

Kitab AÇG-nin ətraf mühitə ziyan vurmadan, səmərəli və təhlükəsiz şəkildə işlənilməsinin uğurlu tərəfdaşlıq tarixini əks etdirir və Azərbaycan ictimaiyyətinə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə töhfəsidir.

# MÜQƏDDİMƏ

Otuz ilə yaxın müddətdə bir daha təsdiqləndi ki, "Azəri", "Çıraq" və "Dərinsulu Günəşli" (AÇG) layihəsi tarixdə, sadəcə, Azərbaycan hökuməti ilə bir qrup xarici neft şirkətinin birləşdiyi konsorsiumda həyata keçirilən hasilatın pay bölgüsü (HPB) tipli sıradan bir saziş olaraq qalmadı.

Bu layihə müstəqil Azərbaycanın qarşıya qoyduğu bir uğur hədəfi idi. Bu hədəf insanlarda gələcəyə inam yaratdı. Müqavilənin reallaşması müxtəlif millət və ölkələrdən olan insanları bir araya gətirdi. Onlar terminallar tikdilər, boru kəməri çəkdilər, platformalar inşa etdilər, Xəzərin dərin qatlarındakı təbii ehtiyatları çıxarmaq üçün müasir texnologiyalar gətirdilər, nəhayət, neft çıxartdılar.

Bu təkcə enerjinin zəfəri deyildi, ölkənin qarşıdakı böyük uğurlarının başlanğıcı və Ulu Öndər Heydər Əliyevin yaradıcısı olduğu "Azərbaycanın neft strategiyası"nın təntənəsi idi.

I FƏSİL

# MÜQAVİLƏYƏ APARAN UZUN YOL

## Xəzərin dərinsulu hissəsindəki yataqlar

Azərbaycan geoloqları Xəzərin dərin hissəsindəki yataqları XX əsrin 50-ci illərinin ikinci yarısından aşkar etməyə başlayıblar. O dövrdə Xəzərin dayaz hissəsində neft hasilatı estakada üsulu ilə aparıldığından suyun dərin hissələrində heç kəşfiyyat qazması aparmaq üçün də texniki imkanlar mövcud deyildi. Buna görə də geoloqların o zamanlar aşkar etdiyi strukturların yataqlara çevrilməsi texniki və texnoloji irəliləyişlər hesabına yalnız sonrakı dövrlərdə baş verib.

"Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqlarının müqavilə sahələri



## "Günəşli" yatağı

"Günəşli" strukturu 1957-ci ildə seysmik kəşfiyyatın "əks olunan dalğa üsulu" ilə aşkar edilib. Yataq 1979-cu ildə kəşf olunub. O, Neft Daşları yatağından 12 km cənub-şərqə doğru yerləşir.

1977-ci ildə "Günəşli" sahəsində Xəzər dənizində ilk dərin dayaqlı stasionar platformanın quraşdırılması başa çatıb. Platforma dənizin 84 metr dərinliyində quraşdırılıb. Qazma ustası İsrafil Hüseynovun briqadası bu platformadan ilk kəşfiyyat quyusunu qazmağa başlayıb. İlk quyu uğursuz olsa da, sonrakı əməliyyatlar gözlənildiyindən də yaxşı nəticələr verib. 1979-cu il avqustun 28-də quyunun mənimsənilməsi zamanı 3455-3423 metr intervalında Balaxanı layının X horizontundan gündəlik 200 tondan çox debitlə neft alınıb.[1]

Bununla da Azərbaycanın neft tarixində Xəzərin dərin hissəsində neft yataqlarının açılması dövrü başlayıb.

1979-cu ildə yataqda həmin platformadan layihə dərinliyi 3500 metr olan 6 №-li quyunun qazılması başlayıb və maili qazma zamanı quyunun vertikal lüləsindən 1350 metrədək göstərici əldə edilib. 3483-3442 metr dərinlikdə məhsuldar laydan gündəlik 300 ton neft alınıb.

Sonrakı illərdə yataqda quyuların qazılması həm stasionar dəniz platformalarından, həm də yarımdalma üzən qazma qurğularının (YÜQQ) köməyi ilə aparılıb. 1981-ci ildə yataqda qazma işlərinə "Kaspmorneft" YÜQQ (hazırda "Dədə Qorqud"), 1982-ci ildən isə "Şelf" tipli YÜQQ cəlb edilib.

Sovet dövründə yataq "28 Aprel" adlandırılmışdı, sonra dəyişdirilərək "28 May" adı verildi. 1992-ci ildən isə yataq "Günəşli" adı ilə tanınır.

"Günəşli" yatağının dərinsulu hissəsində "Əsrin müqaviləsi" layihəsi çərçivəsində ilk neft 2008-ci il aprelin 18-də E02Y №-li quyudan alınıb. 1987-ci ildə o zaman "Xəzərdənizneft" İstehsalat Birliyi baş direktorunun müavini, baş geoloq vəzifəsində çalışan Xoşbəxt Yusifzadə (hazırda SOCAR-ın birinci vitse-prezidenti, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, akademik) "Günəşli" yatağının aşkar edilməsinə və kəşfiyyatına görə SSRİ Neft və Qaz Sənayesi Nazirliyinin qərarı ilə Dövlət mükafatına layiq görülüb.[2]

"BP-Azerbaijan" şirkətinin davamlı inkişaf hesabatlarına və biznesə dair illik məlumatlarına əsasən, işlənilmənin əvvəlindən 2022-ci ilin 1 yanvar tarixinədək "Günəşli" yatağının dərinsulu

hissəsindən 579,3 milyon barel və ya 78,3 milyon ton neft hasil edilib. BP-nin Azərbaycandakı biznesinə dair rüblük məlumatında isə qeyd olunur ki, 2022-ci ilin I yarısında "Dərinsulu Günəşli" platformasından gündəlik orta hasilat 78 min barel təşkil edib. Yəni 2022-ci ilin yanvar-iyun aylarında "Günəşli" yatağının dərinsulu hissəsindən 14 milyon 118 min barel və ya 1,9 milyon ton neft hasil olunub.

## "Çıraq" yatağı

"Günəşli" yatağının cənub-şərq istiqamətində davamı olan "Çıraq" strukturu Azərbaycan geofizikləri tərəfindən 1959-cu ildə seysmik kəşfiyyatın "əks olunmuş dalğa üsulu" ilə aşkar edilib. Burada ilk axtarış-kəşfiyyat quyusunun qazılmasına 1984-cü il yanvarın 17-də "Xəzərdənizneftqazsənaye" Ümumittifaq İstehsalat Birliyi tərəfindən başlanılıb. Qazma işləri "Şelf-2" YÜQQ vasitəsilə həyata keçirilib. 2930 metr dərinlikdə məhsuldar laylar uğurla aşkar olunub, gündəlik debit göstəriciləri 222 ton neft və 20 min kubmetr qaz təşkil edib.[3]

Beləliklə, 1985-ci ildə Xəzərin Azərbaycan sektorunun dərin hissəsində yeni neft və qaz yatağı kəşf olunub.

Açılan yatağın özəlliyi ondan ibarət idi ki, Azərbaycan neftçiləri onu ilk quyu ilə kəşf etməyə nail olmuşdular. Bu, neft kəşfiyyatı sahəsində nadir hadisələrdən biri kimi qiymətləndirilir.

Sovet dövründə açılan yataq "Koveroçkin" adlandırılıb. Müstəqillik dövründə Azərbaycanın o dövrdəki prezidenti Əbülfəz Elçibəyin təşəbbüsü ilə yatağa "Çıraq" adı verilib.

"Əsrin müqaviləsi" çərçivəsində "Çıraq-1" platformasından qazılmış A-01 №-li quyu 1997-ci il noyabrın 12-də fasilə lay dəstəsindən 1648 ton gündəlik hasilatla istismara qəbul edilib.

"BP-Azerbaijan" şirkətinin davamlı inkişaf hesabatlarına və biznesə dair illik məlumatlarına əsasən, işlənilmənin əvvəlindən 2022-ci ilin 1 yanvar tarixinədək "Çıraq" yatağından 963,9 milyon barel və ya 130,3 milyon ton neft hasil edilib. BP-nin Azərbaycandakı biznesinə dair hesabatında isə qeyd olunur ki, 2022-ci ilin I yarısında "Çıraq" platformasında gündəlik orta hasilat 25 min barel, "Qərbi Çıraq" platformasında isə 42 min barel təşkil edib. Yəni 2022-ci ilin yanvar-iyun aylarında "Çıraq" yatağından 12 milyon 127 min barel və ya 1,64 milyon ton neft hasil olunub.

## "Azəri" yatağı

"Azəri" strukturu Azərbaycan geofizikləri tərəfindən 1958-ci ildə seysmik tədqiqat işləri nəticəsində aşkar edilib. Strukturda birinci axtarış quyusunun qazılmasına 1985-ci il dekabrın 13-də YÜQQ "Şelf-1"in köməyi ilə başlanılıb. Qazma işləri uğurla başa çatdırılıb və 1987-ci ildə Xəzərin Azərbaycan sektorunda yeni neft və qaz yatağı kəşf olunub.

"Azəri" yatağı da ilk quyu ilə kəşf edilib. Bu yataq sovet dövründə "26 Bakı komissarı" adı ilə tanınırdı. 1992-ci ildən yataq "Azəri" adını daşıyır. Yataqda hasilat 2005-ci il fevralın 14-də başlayıb. "BP-Azerbaijan" şirkətinin davamlı inkişaf hesabatlarına və biznesə dair illik məlumatlarına əsasən, işlənilmənin əvvəlindən 2022-ci ilin 1 yanvar tarixinədək "Azəri" yatağından 2 milyard 503,2 milyon barel və ya 338,3 milyon ton neft hasil edilib. BP-nin Azərbaycandakı biznesinə dair hesabatında qeyd olunur ki, 2022-ci ilin I yarısında "Mərkəzi Azəri" platformasında gündəlik orta hasilat 108 min barel, "Qərbi Azəri" platformasında 109 min barel, "Şərqi Azəri" platformasında isə 62 min barel təşkil edib. Yəni 2022-ci ilin yanvar-iyun aylarında "Azəri" yatağından 50 milyon 499 min barel və ya 6,82 milyon ton neft hasil edilib.

## "Azəri-Çıraq-Günəşli" layihəsinin tarixçəsi

| | |
|---|---|
| **18 yanvar 1991** | Azərbaycan SSR Nazirlər Sovetinin və SSRİ Neft və Qaz Sənayesi Nazirliyinin qərarına əsasən, "Xəzərdənizneftqaz" İstehsalat Birliyinə "Azəri" yatağının kəşfiyyatı və işlənməsi üçün xarici şirkətlərlə birgə müəssisə yaradılması tapşırılır. |
| **7 sentyabr 1992** | Böyük Britaniyanın keçmiş Baş naziri Marqaret Tetçerin Bakıya səfəri zamanı "Çıraq" yatağında və perspektivli "Şahdəniz" sahəsində ehtiyatların dəqiqləşdirilməsi və hazırlıq işlərinin aparılması haqqında Azərbaycan Respublikasının hökuməti ilə "Britiş Petroleum"/"Statoil" Britaniya-Norveç alyansı arasında saziş imzalanır. |
| **13 sentyabr 1992** | Azərbaycan Respublikası Prezidentinin 200 №-li Fərmanına əsasən Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) təsis edilir. |

| | |
|---|---|
| **Oktyabr 1992** | ARDNŞ-lə ABŞ-nin "Pennzoil" şirkəti arasında "Günəşli" yatağının işlənilməsinə dair razılıq əldə edilir. |
| **May 1993** | ABŞ-nin "Unocal" şirkətinin təklif etdiyi yunitizasiya (birləşmə) layihəsi ARDNŞ tərəfindən qəbul edilir və üç yatağın xarici şirkətlərlə birlikdə işlənilməsi razılaşdırılır. |
| **4 iyun 1993** | ARDNŞ bəyan edir ki, "Azəri", "Çıraq" və "Günəşli" yataqları vahid müqavilə sahəsi əmələ gətirir və birgə işlənilməlidir. Rusiyanın "LUKoil" və Səudiyyə Ərəbistanının "Delta" şirkətləri müqavilədən kənar qalır. Bundan əvvəl isə İran tərəfinin Azərbaycanın Xəzər yataqlarının işlənilməsində iştirak etmək istəyi elə arzu olaraq qalır. |
| **24 iyun 1993** | Azərbaycan hökuməti xarici neft şirkətləri ilə danışıqları müvəqqəti olaraq dayandırır. |
| **4 fevral 1994** | Azərbaycan Respublikası Prezidentinin 56 №-li Sərəncamı ilə karbohidrogen ehtiyatlarının kəşfiyyatı və işlənilməsi üzrə səlahiyyətlərin hamısı ARDNŞ-yə həvalə olunur və Azərbaycan Respublikasının dəniz neft-qaz yataqlarının işlənilməsinin sürətləndirilməsi tələb edilir. |
| **21 iyul 1994** | Rusiya Federasiyasının Prezidenti Boris Yeltsin "Xəzər dənizində Rusiya Federasiyasının maraqlarının qorunması haqda" 396 №-li direktiv imzalayır. |
| **14 sentyabr 1994** | Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Xəzərin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənilməsi haqqında xarici neft şirkətləri konsorsiumu ilə danışıqların yekunları barədə" 206 №-li Fərman imzalayır. |
| **20 sentyabr 1994** | "Azəri-Çıraq-Günəşli" yataqları üzrə hasilatın pay bölgüsü sazişi imzalanır. |
| **2 dekabr 1994** | Azərbaycan Prezidenti Milli Məclisin təsdiq etdiyi AÇG müqaviləsini imzalayır. |
| **12 dekabr 1994** | AÇG müqaviləsi HPB sazişinin müddəalarına uyğun olaraq, ARDNŞ-lə təhvil-təslim aktı imzalandıqdan sonra 30 il müddətinə olmaqla hüquqi qüvvəyə minir. |

| | |
|---|---|
| **24 yanvar 1995** | AÇG üzrə Birinci Rəhbər Komitə toplanır. Prezident Heydər Əliyev Komitəyə müraciətlə çıxış edir. |
| **24 fevral 1995** | Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) təsis edilir. |
| **9 oktyabr 1995** | Üçüncü Rəhbər Komitə "İlkin neft" layihəsini, eləcə də ilkin neftin ixracının iki variantını: Rusiyadan keçən Şimal və Gürcüstandan keçən Qərb variantlarını təsdiq edir. |
| **18 yanvar 1996** | Azərbaycan Respublikası və Rusiya Federasiyası Hökumətləri Azərbaycan neftinin Bakıdan Novorossiyskə boru kəməri ilə tranziti üzrə hökumətlərarası sazişi imzalayır. |
| **8 mart 1996** | Azərbaycan Respublikası və Gürcüstan Respublikası Hökumətləri Azərbaycan neftinin Bakıdan Supsaya boru kəməri ilə tranziti üzrə hökumətlərarası sazişi imzalayır. |
| **20 dekabr 1996** | "Çıraq" yatağındakı ilk qiymətləndirmə quyusunda işlər tamamlanır. |
| **13 may 1997** | "Çıraq" platformasında üst modulların quraşdırılması başa çatır. |
| **1 iyun 1997** | AÇG müqaviləsi çərçivəsində "İlkin neft" layihəsi üzrə Qərb İxrac Boru Kəmərinin (QİBK) Azərbaycan hissəsinin bərpası və tikintisi üçün saziş imzalanır. |
| **12 avqust 1997** | "Çıraq" platformasında ilk istismar quyusunun qazılmasına başlanılır. |
| **5 sentyabr 1997** | Əsas ixrac boru kəmərinə (Bakı-Tbilisi-Ceyhan, BTC) aid işlərin hazırlanması üçün Azərbaycan işçi qrupu təsis edilir. |
| **7 noyabr 1997** | "Çıraq" platformasından ilk neft hasilatı başlayır. |
| **12 noyabr 1997** | Səngəçal terminalının açılışı keçirilir. |
| **12 yanvar 1998** | "Çıraq" yatağından hasil edilən neftin ilk barelləri Bakı-Novorossiysk boru kəmərinə vurulmağa başlayır. |
| **24 mart 1998** | AÇG-nin ilk ixrac tankeri Novorossiysk terminalından dünya bazarlarına yola salınır. |

| | |
|---|---|
| **15 may 1998** | İstanbulda üç dövlətin qarşılıqlı anlaşma barədə imzaladığı Memorandum BTC boru kəməri layihəsinin sənədləri üzrə danışıqların başlanğıcını qoyur. |
| **10 dekabr 1998** | QİBK xəttinin neftlə doldurulmasına başlanılır. |
| **8 aprel 1999** | Supsa terminalında ilk tanker yüklənir. |
| **13 aprel 1999** | Azərbaycanla Türkiyə arasında Bakı-Ceyhan layihəsi üzrə danışıqların başa çatdırılması barədə İstanbul protokolu imzalanır. |
| **18 aprel 1999** | QİBK-in tikintisinin başa çatması və Supsa terminalının istifadəyə verilməsi mərasimi keçirilir. |
| **İyun 1999** | BP şirkəti AÇG yataqlarının işlənilməsi üzrə layihədə vahid operator olur. |
| **17 noyabr 1999** | BTC üzrə hökumətlərarası sazişlər Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri tərəfindən imzalanır. |
| **26 may, 31 may və 21 iyun 2000-ci il** | BTC üzrə hökumətlərarası sazişlər Azərbaycan, Türkiyə və Gürcüstan parlamentləri tərəfindən ratifikasiya edilir. |
| **30 avqust 2001** | AÇG-nin tammiqyaslı işlənilməsi layihəsinin 1-ci mərhələsi ("Faza-1") sanksiyalaşdırılır (hökumətlə icazə sazişi). |
| **1 avqust 2002** | AÇG-dən hasil ediləcək əsas neftin dünya bazarlarına çıxarılmasını təmin etmək üçün Bakı-Tbilisi-Ceyhan Boru Kəməri Şirkəti (BTC Co.) yaradılır. |
| **18 sentyabr 2002** | Azərbaycan hökuməti AÇG-nin tammiqyaslı işlənilməsi layihəsinin 2-ci mərhələsinə ("Faza-2") və BTC layihəsinin həyata keçirilməsinə razılıq verir. |
| **30 iyul 2003** | Azərbaycanda BTC boru kəmərinin çəkilişi başlanır. |
| **3 fevral 2004** | BTC layihəsinin maliyyə sazişləri imzalanır. |
| **9 mart 2004** | "Mərkəzi Azəri" platforması üçün dayaq blokları dənizə yola salınır. |

| | |
|---|---|
| **20 sentyabr 2004** | AÇG-nin tammiqyaslı işlənilməsi layihəsinin 3-cü mərhələsi ("Faza-3") üzrə saziş imzalanır. |
| **10 oktyabr 2004** | "Mərkəzi Azəri" platformasında hasilat, qazma və yaşayış modullarının quraşdırılması başa çatır. |
| **13 fevral 2005** | "Mərkəzi Azəri" platformasında ilk neftin hasilatı başlayır. |
| **11 may 2005** | "Qərbi Azəri" platforması üçün dayaq blokları dənizə yola salınır. |
| **25 may 2005** | Səngəçal terminalında BTC-nin Azərbaycan hissəsinin açılış mərasimi keçirilir. |
| **4 iyun 2005** | "Mərkəzi Azəri" kompressor və suvurma (C&WP) platformasının üst modulları dənizə yola salınır. |
| **11 avqust 2005** | AÇG-dən hasil edilmiş neft BTC kəməri ilə Azərbaycan-Gürcüstan sərhədini keçir. |
| **23 sentyabr 2005** | "Qərbi Azəri" platformasının üst modulları dənizdə quraşdırılır. |
| **12 oktyabr 2005** | BTC-nin Gürcüstan hissəsinin açılış mərasimi keçirilir. |
| **30 dekabr 2005** | "Qərbi Azəri" platformasından ilk neftin hasilatı başlayır. |
| **13 mart 2006** | "Şərqi Azəri" platformasının dayaq bloku dənizdə uğurla quraşdırılır. |
| **26 may 2006** | "Mərkəzi Azəri" platformasından laylara birinci qaz vurulur. |
| **4 iyun 2006** | BTC boru kəməri ilə ixrac edilən ilk neft partiyası Ceyhan terminalından Böyük Britaniyanın "Hawthorne" tankerinə yüklənir. |
| **13 iyul 2006** | Ceyhanda BTC layihəsinin tam istismara verilməsi mərasimi keçirilir. |
| **28 iyul 2006** | "Şərqi Azəri" platformasının üst modulları dənizdə quraşdırılır. |
| **22 oktyabr 2006** | "Şərqi Azəri" platformasından ilk neft hasil edilir. |
| **27 iyul 2007** | "Dərinsulu Günəşli" platformasında ilk modullar uğurla quraşdırılır. |

| | |
|---|---|
| **24 sentyabr 2007** | “Dərinsulu Günəşli” platformasında son modullar uğurla quraşdırılır. |
| **22 aprel 2008** | “Dərinsulu Günəşli” platformasından ilk neft hasil edilir. |
| **9 mart 2010** | “Çıraq Neft Layihəsi” (“Qərbi Çıraq” platformasının və sualtı infrastrukturun tikintisi) təsdiq edilir. |
| **13 sentyabr 2010** | BTC ilə dünya bazarlarına xam neftin 1 milyardıncı bareli nəql edilir. |
| **18 may 2012** | Hasilat başlayandan AÇG-dən 2 milyardıncı barel neft əldə olunur. |
| **23 oktyabr 2012** | “Qərbi Çıraq” platformasının dayaq blokları tamamlanır. |
| **14 sentyabr 2013** | “Qərbi Çıraq” platformasının üst modulları dənizdə uğurla quraşdırılır. |
| **28 yanvar 2014** | “Qərbi Çıraq” platformasından hasilat başlayır. |
| **15 avqust 2016** | Hasilat başlayandan AÇG-dən 3 milyardıncı barel neft əldə edilir. |
| **23 dekabr 2016** | SOCAR və ABƏŞ AÇG yatağının 2050-ci ilədək gələcək işlənilməsinə dair razılaşmanın prinsiplərini imzalayır. |
| **14 sentyabr 2017** | Bakıda AÇG üzrə yenilənmiş HPB sazişi imzalanır və müqavilənin müddəti 2050-ci ilədək uzadılır. |
| **19 aprel 2019** | AÇG müqaviləsi çərçivəsində “Mərkəzi-Şərqi Azəri” layihəsi razılaşdırılır. |
| **Dekabr 2019** | AÇG-də hasilat başlayandan 500 milyon ton neftin çıxarılmasına nail olunur. |
| **30 iyun 2022** | AÇG-də hasilat başlayandan 2022-ci ilin I yarısının sonunadək müqavilə sahəsindən 557 milyon tondan çox neft (4 milyard 123,6 milyon barel) hasil edilir. |

*Qeyd:* AÇG-nin tarixçəsi tərtib edilərkən “BP-Azerbaijan” və SOCAR şirkətlərinin rəsmi məlumatlarından istifadə olunub.

## Xəzərin dərinsulu hissəsindəki yataqların işlənilməsi planı

Xəzər dənizində neft hasilatının artırılması hələ XX əsrin 80-ci illərinin sonlarında aktual məsələyə çevrilmişdi. Bu illərdə hasilat ildən-ilə azalmağa doğru gedirdi. Hasilatın artımına nail olmaq üçün hökmən yeni neft yataqlarının istismara verilməsi lazım idi. 1979-cu ildə kəşf olunmuş "Günəşli" yatağının dərinsulu hissəsində 1985-ci ildə kəşf edilən "Çıraq" və 1987-ci ildə açılan "Azəri" yataqlarında mövcud texnikanın imkanlarından istifadə etməklə hasilata başlamaq imkanları çox aşağı idi. Bu səbəbdən də "Günəşli" yatağının suyun dərinliyi yalnız 200 metrədək olan hissəsində hasilat aparılırdı.

**Cədvəl 1.** Azərbaycan SSR-də neft və qaz hasilatı

| İllər | Neft və kondensat hasilatı (min tonla) | Qaz hasilatı (milyon kubmetrlə) |
|---|---|---|
| 1987 | 13 804 | 12 523 |
| 1988 | 13 741 | 11 826 |
| 1989 | 13 159 | 11 112 |
| 1990 | 12 513 | 9 926 |
| 1991 | 11 742 | 8 621 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Belə bir vaxtda Xəzər dənizinin Azərbaycan sektorunda zəngin neft yataqlarının xarici neft şirkətləri ilə birgə işlənilməsi istisna edilmirdi. Xarici neft şirkətləri Azərbaycan hökuməti ilə danışıqlara artıq 1990-cı ildən başlamışdı.

Tanınmış xarici şirkətlərin Xəzərdəki neft yataqlarına marağını nəzərə alan SSRİ hökuməti belə qərara gəlmişdi ki, həmin şirkətlərlə birgə işlənilməsi üçün müəyyən bir yataq ayırmalıdır. "Xəzərdənizneftqaz" İstehsalat Birliyinin təklifi ilə Azərbaycan SSR Nazirlər Soveti xarici şirkətlərlə işləmək üçün "Azəri" yatağının seçildiyini bildirmişdi.

Azərbaycan SSR Nazirlər Sovetinin və SSRİ Neft və Qaz Sənayesi Nazirliyinin 18 yanvar 1991-ci il tarixli 25/25 nömrəli qərarına əsasən, "Xəzərdənizneftqaz" İB xarici şirkətlərlə BİRGƏ MÜƏSSİSƏ yaratmalı və "Azəri" yatağının birgə kəşfiyyatını və işlənilməsini həyata keçirməli idi.

Birgə müəssisənin yaradılması məqsədilə keçiriləcək tenderdə iştirak etmək üçün "Azəri" yatağı barəsində MƏLUMATLAR PAKETİ 16 xarici şirkətə, o cümlədən ABŞ-nin 7 şirkətinə göndərildi. Qərbdə tenderə maraq heç də böyük olmadı, belə ki, cəmi 6 şirkət sorğulara cavab verdi.

Tenderə 1991-ci ilin iyul ayında yekun vuruldu. ABŞ-nin "Amoco" şirkəti tenderin qalibi elan edildi. Bundan sonra "Amoco" şirkəti riskləri azaltmaq məqsədilə "BP/Statoil" (Böyük Britaniya-Norveç) alyansını, "Unocal" (ABŞ), "McDermott" (ABŞ) və "Remco" (Böyük Britaniya) şirkətlərini layihəyə cəlb etdi.

Ancaq 1991-ci ilin sonunda dünyanın siyasi xəritəsində böyük dəyişiklik baş verdi. Sovet İttifaqı dağıldı. Keçmiş müttəfiq respublikalar müstəqillik əldə etdi.

## Müstəqillik dövrünün ilk illərində xarici şirkətlərlə danışıqlar

Müstəqilliyin əldə edilməsindən dərhal sonra xarici şirkətlərlə əlaqələr intensivləşdi, amma bu, danışıqları müqavilə imzalanması səviyyəsinə gətirib çıxarmadı. Belə ki, 1992-ci ilin yazında Azərbaycanda siyasi vəziyyət gərginləşdi. Ölkədə hakimiyyətin dəyişməsi xarici şirkətlərlə "Azəri" yatağı üzrə danışıqları, o cümlədən kommersiya xarakterli hər hansı sənədin imzalanmasını təxirə saldı.

1992-ci il sentyabrın 7-də Böyük Britaniyanın keçmiş Baş naziri Marqaret Tetçerin Bakıya qeyri-rəsmi səfəri zamanı Azərbaycan Respublikası hökuməti ilə Böyük Britaniyanın "British Petroleum" və Norveçin "Statoil" şirkətlərindən ibarət alyans arasında "Çıraq" yatağında və perspektivli "Şahdəniz" sahəsində ehtiyatların dəqiqləşdirilməsi və kəşfiyyat işlərinin aparılması haqqında sənəd imzalandı. Həmin il sentyabrın 13-də Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ, 2015-ci ildən SOCAR) yaradıldı və bundan sonra xarici neft şirkətləri ilə danışıqlar davam etdirildi.

1992-ci ilin oktyabrında ABŞ-nin "Pennzoil" şirkəti ilə Xəzərin Azərbaycan sektorundakı "Günəşli" yatağının birgə işlənilməsinə dair razılıq əldə olundu. "Amoco", "Pennzoil" və "BP/Statoil" şirkətləri ilə yanaşı, Türkiyənin "Türkiye Petrolleri Anonim Ortaklığı" (TPAO) şirkəti də danışıqlara cəlb edildi. Beləliklə, Azərbaycan üç neft yatağının xarici şirkətlərlə işlənilməsi məsələsini 1993-cü ilədək özü üçün artıq tam aydınlaşdırmışdı və bunlarla bağlı danışıqlar prosesini davam etdirirdi.

ARDNŞ "Azəri" yatağının mümkün işlənilməsi məqsədilə ABŞ-nin "Amoco", "Unocal", "McDermott", Böyük Britaniyanın BP və "Remco", Norveçin "Statoil" şirkətlərindən ibarət qrupla danışıqlar aparırdı. AR Dövlət Neft Şirkətinin "Çıraq" yatağının işlənilməsi üzrə danışıqları "BP/Statoil" alyansı ilə aparılırdı. ARDNŞ "Günəşli" yatağının işlənilməsi üzrə danışıqları ABŞ-nin "Pennzoil" və Böyük Britaniyanın "Remco" şirkətlərindən ibarət qrupla davam etdirirdi.

"Azəri-Çıraq-Günəşli" müqavilə sahəsinin geoloji xəritəsi



Bu ərəfədə "Unocal" şirkəti ARDNŞ-yə hər üç layihənin yunitizasiyası (birləşdirilməsi) layihəsini təklif etdi. ARDNŞ təkliflə tanış oldu, onu bəyəndi və digər layihə iştirakçılarına ünvanladı. Layihələrin birləşdirilərək vahid şəkildə işlədilməsinə prinsipcə kim irad bildirmədi, çünki bu, risklərin azaldılmasında və maliyyə məsələlərinin həllində daha optimal variant idi.

ARDNŞ 1993-cü il iyunun 4-də bəyannamə qəbul edərək bildirdi ki, "Azəri", "Çıraq" və "Günəşli" yataqları vahid müqavilə sahəsi əmələ gətirir və birgə işlənilməlidir. Bütün podratçı tərəflər (Rusiyanın "LUKoil" və Səudiyyə Ərəbistanının "Delta" şirkəti istisna olmaqla, çünki onlar adıçəkilən bəyannamənin iştirakçısı deyildi) bu bəyannaməni qəbul etdi, sənədə uyğun olaraq, ilkin bonusu ödədilər. ARDNŞ bu bonusu qəbul etdi. Lakin 1993-cü il iyunun 21-də imzalanması planlaşdırılan müqavilə ölkədəki gərgin siyasi vəziyyət və hakimiyyət böhranı ilə əlaqədar yenidən təxirə salındı.

## Xarici şirkətlərlə danışıqların müvəqqəti dayandırılması

1993-cü il iyunun 15-də xalqın tələbi ilə Azərbaycanda yenidən hakimiyyətə gəlmiş Ulu Öndər Heydər Əliyev dərin böhran vəziyyətində olan ölkəni xilas etmək üçün siyasi sahədə stabilliyi, iqtisadi sahədə isə neft sənayesinin bərpası və inkişafını prioritet vəzifə kimi qarşıya qoydu.

1993-cü il iyunun 24-də Azərbaycanda siyasi böhran hökm sürdüyü bir zamanda Heydər Əliyev xarici neft şirkətləri ilə danışıqları dayandırmaq qərarına gəldi. Uzun illər (1969-1982-ci illərdə) Azərbaycana rəhbərlik etmiş, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi (1982-1987-ci illərdə) ittifaq sənayesinin idarə edilməsinin incəliklərinə yiyələnmiş Ulu Öndər gözəl başa düşürdü ki, müstəqil Azərbaycanın dirçəldilməsinin optimal yolu neft sənayesindən keçir və bu sektorun tezliklə inkişafı təkcə iqtisadiyyatın deyil, ümumilikdə ölkənin dünya birliyi ilə əlaqələrinin qurulması deməkdir.

Heç kəsə sirr deyil ki, Azərbaycan sektorunun dərinsulu hissəsindəki neft yataqlarının ("Azəri", "Çıraq" və "Günəşli"nin dərinsulu hissəsi) mənimsənilməsi üçün iki mümkün variantdan birini seçmək lazım idi: ya ölkənin maliyyə-iqtisadi vəziyyətinin yaxşılaşması

üçün onilliklər boyunca gözləyərək yataqların işlənilməsini sonradan ölkənin öz imkanları hesabına həyata keçirmək, ya da xarici neft şirkətlərinin maliyyə və texnoloji imkanlarından istifadə etməklə qısa müddətə əlavə neft həcmlərinə nail olmaq. Ancaq bu məsələdə tələsmək də düzgün deyildi. Çünki Azərbaycan xarici tərəfdaşlarla birgə işləmək üçün masa üzərinə özünün ən qiymətli sərvətini qoyurdu. Ozamankı tarixə Azərbaycanın "Azəri-Çıraq-Günəşli" yataqlarından başqa, dəyər ifadəsində ikinci bir neməti yox idi. Ona görə də Heydər Əliyev bir qədər vaxt qazanmaq və Azərbaycan üçün strateji əhəmiyyət daşıyan ilk neft müqaviləsini daha əlverişli şərtlərlə reallaşdırmaq niyyətində idi. Xarici neft şirkətlərinin maliyyə və texnoloji imkanlarından istifadə edilməsi ölkədə onlar üçün yaradılacaq investisiya mühitindən asılı idi. Sovet İttifaqı dağılandan sonra isə Azərbaycan Respublikasının digər respublikalarla qarşılıqlı iqtisadi əlaqələri getdikcə zəifləyir, istehsal müəssisələrinin fəaliyyəti minimuma enir, işsizlik sürətlə artır və öz milli valyutasını təzəcə dövriyyəyə buraxan ölkə hiperinflyasiya dövrünə qədəm qoyurdu. İqtisadiyyata neqativ təsir edən faktorlardan biri də müstəqilliyin ilk anından qonşu Ermənistanın Azərbaycana hərbi təcavüzünün artması və Dağlıq Qarabağın və ətrafındakı yeddi rayonun tam və qismən işğalı məsələsi idi. Ölkə iqtisadiyyatının faktiki olaraq bütün sektorlarında qeyri-sabitlik müşahidə edilirdi.

Belə bir mürəkkəb şəraitdə həm xarici sərmayədarlarda ölkəyə uzunmüddətli dövr üçün kapital yatırılmasına dair hüquqi zəmanət verilməsinə nail olunmalı, həm ölkənin iqtisadi maraqları kifayət qədər qorunmalı, ölkə xaricində bu müqavilənin imzalanmasına qarşı olan qüvvələr loyal mövqeyə gətirilməli, həm də ölkə daxilində buna qarşı olan qüvvələr tutarlı arqumentlərlə inandırılmalı idi.

Bu məsələdə ilk vacib addım Heydər Əliyevin neftçi mütəxəssisləri ətrafına toplayaraq onlarla məsləhətləşməsi oldu. Dövlət başçısının və neftçilərin fikirləri üst-üstə düşdü: xarici neft şirkətlərini Azərbaycana dəvət etmək qərara alındı. Beləliklə, Ulu Öndər Heydər Əliyev uzaqgörən bir siyasətçi kimi neft strategiyasının həyata keçirilməsinə start verdi. Xarici neft şirkətləri ilə danışıqlar bərpa olundu. 1993-cü il avqustun 17-də dünyanın aparıcı neft şirkətlərinin nümayəndələri ilə Bakı şəhərində keçirilən görüş bu baxımdan böyük maraq doğurur.

## Bakıda aparıcı neft şirkətlərinin və korporasiyalarının nümayəndələri ilə görüşdə Heydər Əliyevin çıxışı

*17 avqust 1993-cü il, Bakı şəhəri*

– Hörmətli qonaqlar! Hörmətli neftçilər, alimlər və mətbuat işçiləri!

Hamınızı səmimi-qəlbdən salamlayır və bu gün başladığınız böyük və çox mühüm əhəmiyyət kəsb edən işinizdə sizə uğurlar arzulayıram.

Bugünkü toplantı müstəqil Azərbaycan Respublikasının **neft yataqlarının bundan sonra istifadə olunması problemləri** ilə əlaqədardır. Bildiyiniz kimi, Azərbaycan qədim neft diyarıdır və Bakıda neft çıxarılmasına hələ ötən əsrdən başlanılmışdır. Tarixə nəzər salsaq, böyük iftixar hissi ilə qeyd edə bilərik ki, Azərbaycan dünyada ilk dəfə neft hasil edən və dünyanın bir çox ölkələrinə neft məhsulları göndərən bir ölkə olmuşdur.

İcazə verin, qısa da olsa, neft sənayesinin inkişaf mərhələləri haqqında bir neçə kəlmə söyləyim. Azərbaycanda neft çıxarılmasına və emal olunmasına başlanan kimi Bakı dünyanın inkişaf etmiş ölkələrinin saysız-hesabsız neft şirkətlərinin diqqətini cəlb etmişdir.

Məlumdur ki, Azərbaycanda neft çıxarılması, onun emalı ilk dövrdən həm Azərbaycanın iş adamlarının, həm də xarici şirkətlərin fəaliyyəti ilə bağlı olmuşdur. Bu dövrdə Bakı dünyada bir neft məkanı kimi şöhrət tapmışdı. Sonrakı dövrü götürsək, 1920-ci ildən sonra Azərbaycan nefti keçmiş sovetlər ölkəsinin inkişafında müstəsna rol oynamışdır. O dövrün nailiyyətləri də, çatışmazlıqları da sizin hamınıza yaxşı məlumdur.

Biz indi Azərbaycanın neft sərvətlərindən istifadə olunmasının, necə deyərlər, **üçüncü mərhələsinə** keçmişik. Əgər 1920-ci ilə qədərki dövrə nəzər salsaq, görərik ki, Azərbaycan nefti xarici ölkələrin iri şirkətləri tərəfindən istismar olunaraq daşınıb və xalq neftdən çox az mənfəət götürüb. Əgər son 70 ildəki dövr haqqında danışsaq, yenə də fikirlər müxtəlifdir. Azərbaycanın neft sərvətləri bütün Sovet İttifaqını təmin edir və eyni zamanda

Azərbaycan Respublikasına, Azərbaycan xalqına böyük mənfəət gətirirdi. Burada həqiqət var və mənə elə gəlir ki, bunu inkar etməyə və bu barədə əsassız fikirlər söyləməyə lüzum yoxdur. Tarix hər şeyi öz yerinə qoyacaqdır. Ancaq məlumdur ki, bu dövrdə Azərbaycan keçmiş Sovet İttifaqında, bütün dünyada neft akademiyası kimi məşhur idi, Azərbaycanda dünyaşöhrətli neftçilər, istehsalatçılar, neft ustaları, neft və geologiya sahəsində çalışan alimlər yetişmişlər. Onlar keçmiş Sovet İttifaqının digər regionlarında da fəaliyyət göstərərək neft yataqlarının kəşfiyyatında, istismarında və hasilatının təşkilində mühüm rol oynamışlar. Biz həmin illərdə daim böyük iftixar hissi ilə qeyd etmişik ki, Azərbaycanın neftçiləri: həm alimləri, həm də neft sənayesində çalışanlar böyük sovetlər ölkəsinin hər yerində fəaliyyət göstəriblər və öz təcrübələrini, bilik və bacarıqlarını yeni-yeni neft yataqlarının aşkara çıxarılmasına sərf ediblər və bununla da Azərbaycan neftçilərinin şan-şöhrətini aləmə yayıblar.

Bütün dünyaya məlumdur ki, ilk dəfə dənizdə qara qızıl çıxarılması Azərbaycan neftçilərinin fəaliyyəti nəticəsində həyata keçmişdir. 1949-cu ildə Neft Daşlarında ilk quyunun fontanından sonra dənizdə neft çıxarılması təcrübəsindən bütün dünya istifadə etmişdir. Bu sahədə Azərbaycan neftçilərinin xarici ölkələrdə fəaliyyəti tarixdən heç vaxt silinməyəcəkdir. Sirr deyildir ki, Sovet İttifaqı 1920-1940-cı illərdə yeni bir dövlət kimi öz sənayesini məhz Azərbaycan, Bakı neftinin sayəsində inkişaf etdirə bilib. İkinci Dünya müharibəsində Sovet İttifaqının döyüş qüdrətini təmin etmək üçün neft və neft məhsulları strateji rol oynayırdı və o vaxt ölkənin bu məhsullara olan ehtiyacının 75 faizdən çoxunu Bakı verirdi.

Bütün bunlar tarixi həqiqətdir. Ancaq illər ötdükcə tarixi daha düzgün anlayır, ona daha real qiymət veririk. Bir daha təkrar edirəm, əgər 1920-ci ilə qədərki dövrü biz xarici ölkələrin Azərbaycan neftini istismar etdiyi bir dövr kimi qəbul etmişiksə, əgər son 70 illik dövrü yaxın illərin mətbuatında belə qələmə verməyə çalışıblarsa ki, guya bu dövrdə Azərbaycan nefti vəhşicəsinə talan olunub, Azərbaycan xalqına, dövlətinə heç nə çatmayıb, indi biz yeni mərhələdəyik. Bu tarixi dövrlərə düzgün

qiymət verərək lazımi nəticə çıxarmalı, ibrət dərsi alaraq işi düzgün təşkil etməliyik.

Mən bu sözlərlə heç də indi Azərbaycanda neft çıxarılmasının, bu sahədə elmi tədqiqatların inkişafına təsir göstərmək fikrində deyiləm. Mən, sadəcə olaraq, bir neçə məqamı yada salıram və məqsədim ondan ibarətdir ki, bu gündən işimizi daha da səmərəli quraq. Bir həqiqət də ondan ibarətdir ki, son dövrdə, xüsusən 60-70-ci illərdə Azərbaycanın neft sənayesinin potensialı çox güclü inkişaf etmişdir. Neft sənayesi indi irihəcmli əsas fondlara malikdir, alimlərimiz, geoloqlarımız, neftçilərimiz quruda və dənizdə yeni-yeni zəngin neft yataqları aşkar ediblər. Bu sərvətlərdən istifadə olunması, şübhəsiz ki, birinci növbədə Azərbaycan xalqının, müstəqil Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafını təmin etmək üçün çox mühüm amildir. Neft yataqları torpağın təkində olan zəngin sərvətlərdəndir. Azərbaycanın neft yataqları, dediyim kimi, bir əsrdən çoxdur ki, istifadə olunur, neft dünyanın bir çox ölkələrinə göndərilir. Ancaq yerin təkində neft sərvətləri hələ çoxdur və ondan səmərəli istifadə olunması indiki və gələcək nəsillərin müqəddəs borcudur.

Neft sərvətimiz ilk növbədə müstəqil Azərbaycan Respublikasının inkişafı, xalqın sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, vətəndaşların maddi rifahının yüksəldilməsi üçün istifadə olunmalıdır. Məhz buna görə də bugünkü toplantıda mən bu sözləri deməyi özümə borc bilirəm. Biz əgər bu gün bir sıra xarici ölkələrin şirkətləri ilə yeni əlaqələr qurub respublikanın neft yataqlarından daha səmərəli istifadə olunması mərhələsinə qədəm qoyuruqsa, deməli, hər addımımızı ölçüb-biçməliyik.

Allahın, taleyin xalqa bəxş etdiyi bu zənginlikdən ağılla, düşüncə ilə istifadə olunmalıdır. Şübhəsiz ki, neft yataqlarının istismarında iqtisadi marağı olan xarici ölkə şirkətlərinin mənafeyi təmin edilməlidir. Mən açıq deyirəm, Azərbaycan dövlətinin bu sahədə mövqeyi tam aydın, mənfəətlər isə qarşılıqlı olmalıdır. İlk növbədə dövlətin, xalqın mənafeyinə üstünlük verilməlidir, eyni zamanda xarici şirkətlərin iqtisadi mənafeyi ödənilməli və bu işlər qarşılıqlı fayda, qarşılıqlı anlaşma zəminində təşkil olunmalıdır.

Son illərdə Azərbaycanda baş verən proseslərdə, mətbuat səhifələrində, ayrı-ayrı ictimai-siyasi xadimlərin çıxışlarında belə fikirlər söylənilib ki, əsrlər boyu Azərbaycanın sərvətləri yabançı dövlətlər tərəfindən vəhşicəsinə, insafsızcasına dağıdılıb. Yəqin ki, belə hallar olub və bundan sonra biz buna yol verə bilmərik. Təəssüf ki, son dövrdə Azərbaycanın neft sənayesi səriştəsiz rəhbərlərin əlinə keçib və bu işlərdə dərin məsuliyyət duya bilməyən həmin adamların fəaliyyəti nəticəsində bəzi müqavilələrin hazırlanmasında səhvlərə yol verilib. Məhz buna görə də **biz iyun ayının 24-də xarici şirkətlərlə, demək olar ki, bağlanmaq ərəfəsində olan müqavilələrin müvəqqəti olaraq dayandırılması qərarını qəbul etdik.** Bu heç də o demək deyil ki, biz bu məsələləri daha dərindən araşdırmaq istəyirik. Təkrar edirəm, Azərbaycanın ən böyük sərvəti olan neft yataqlarının bundan sonra xalqın inkişafı naminə istifadə olunmasının daha səmərəli təşkilinə çalışırıq. Başqa heç bir məqsədimiz yoxdur və ola bilməz. Ona görə də 24 iyun tarixli qərarımızdan sonra xarici mətbuatda cürbəcür yazılar və ayrı-ayrı şirkətlər tərəfindən narazılıqlar bizim üçün anlaşılmaz oldu.

Çalışdıq ki, onların hamısına izahat verək və belə güman edirik ki, anlaşılmazlığı aradan qaldıra bildik. İndi biz bu məsələnin yeni mərhələsini başlayırıq. Qarşımızda mühüm məsələlər durur. Təəssüf ki, neft və qaz hasilatı son illər kəskin surətdə azalıb. Bunun müəyyən obyektiv səbəbləri var. Ancaq əsas səbəb işin yarıtmaz təşkili, neft sənayesinə lazımi diqqət verilməməsi, neft sənayesində potensial imkanlardan səmərəli istifadə olunmamasıdır.

İndi Azərbaycanda ildə 10 milyon ton neft, 6 milyard kubmetr qaz çıxarılır. Mənim bildiyimə görə, 70-80-ci illərdə neftçilərimizin, geoloqlarımızın, alimlərimizin, elmi institutlarımızın birgə fəaliyyəti nəticəsində 20 böyük neft yatağı aşkar edilib. Bu neft yataqlarının zəngin potensialı var. Əgər onlardan səmərəli istifadə olunsaydı, indi Azərbaycanda neft və qaz çıxarılması üzrə göstəricilər nəinki azalmazdı, hətta artardı da. Ancaq son dövrdə bir xoşagəlməz meyil meydana çıxıbdır. Tam məsuliyyət hissi ilə deyə bilərəm ki, bu meyil ondan ibarətdir ki, neftdən

xəbəri olmayan, neft terminini bilməyən, neft sənayesindən bixəbər, meydanlarda qışqıran, çayxanada vaxt keçirən adamlar neftin taleyini həll edirlər. Bu adamlar neftdən necə istifadə olunmasını, neft sənayesini hansı yollarla inkişaf etdirməyi anlamırlar. Ona görə də neft sənayesi özbaşına buraxılıbdır. Təxirəsalınmaz əsas vəzifəmiz mövcud imkanlardan, bugünkü neft sənayesi potensialından istifadə edib neft və qaz çıxarılmasını artırmaq, neft sənayesini inkişaf etdirməkdir.

Təxminən son iki-üç ildə bəziləri belə fikir yayırlar ki, bizim neft ehtiyatlarımız çox zəngindir, biz xarici şirkətlərlə əlaqə yaradacağıq ki, onlar gəlib neftin çıxarılmasında, emalında və onun nəql olunub dünya bazarında satılmasında bizə köməklik göstərəcək və bununla da Azərbaycan çətin vəziyyətdən çıxacaqdır. Şübhəsiz, biz bu yolu inkar etmirik və bu yol neft sənayemizin inkişafı üçün müasir dövrdə əsas yollardan biridir. Ancaq neft istehsalını günbəgün, aybaay, ilbəil aşağı salıb gözləsək ki, iki-üç ildən sonra neft şirkətləri ilə bağlanan kontraktlar nəticəsində neftin istehsalı artacaq, sonra nefti satıb valyuta alacağıq, Azərbaycanı inkişaf etdirəcəyik, onda bəs bu iki-üç il ərzində xalqın vəziyyəti nə cür olacaq?

Ona görə də mən neft sənayesinin burada iştirak edən nümayəndələrinə, alimlərimizə və ümumiyyətlə, bütün neftçilərə demək istəyirəm ki, Azərbaycan neftçiləri öz əməyi, bacarığı, sənətinə sadiqliyi ilə bütün dünyada şöhrət tapıblar. Neftçilərimizin bugünkü nəsli tarixi nailiyyətlərdən, sələflərinin təcrübəsindən faydalanaraq, mövcud şəraitdə neft sənayesini qaldırmalı, neftçıxarma prosesini inkişaf etdirməli, neft və qaz hasilatını artırmalıdır. Açıq demək lazımdır, neft bəzi rəhbərlərin əlində yalnız kommersiya vasitəsinə çevrilib, belələri ancaq öz mənfəətlərini güdürlər. Bu, Azərbaycan xalqına xəyanətdir. Biz buna dözə bilmərik.

Mən salonda hörmətli alimlərimizi, Azərbaycanın adlı-sanlı neftçilərini görürəm. Bu adamların ömrü Azərbaycanın neft sənayesinin inkişafı ilə bağlıdır. Onların ömür yolları bizim hamımızın gözünün qabağındadır. 1950-60-cı illərdə, hətta 70-ci illərdə neft sənayesinə dövlət tərəfindən, bütün ictimaiyyət

tərəfindən böyük diqqət vardı. Neftçilərin adı hörmətlə, şərəflə çəkilirdi və onlar böyük qayğı ilə əhatə olunmuşdular. Bəs indi? Hanı o şöhrət, hanı o qayğı? Naşı adamlar belə böyük sahəyə, böyük bir elmə, böyük bir sənayeyə rəhbərlik edə bilməzdilər. Məhz onlar bizi belə bir vəziyyətə gətirib çıxarıblar.

Mənim bu fikirlərimi Azərbaycan neftçiləri, alimləri, istehsalçıları və neftlə əlaqəli bütün adamlar düzgün qəbul elədilər və razılaşdılar ki, indi neft sənayesinin potensialından səmərəli istifadə olunmalıdır. Qeyd etdim ki, neft sənayemizdə yeni bir mərhələ yaranıbdır. Təxminən XIX əsrin ikinci yarısında, XX əsrin əvvəllərində Azərbaycanın neft yataqları, əsasən, Avropa şirkətləri tərəfindən istismar olunurdusa, sonrakı dövrdə neft dövlət sektoruna keçdi və indi də dövlətin əlindədir. Ancaq üçüncü mərhələdə biz yenidən xarici şirkətlərlə əlaqə qurub neft sənayesini inkişaf etdirməyə başlayırıq. Çalışmalıyıq ki, bu mərhələ müstəqil Azərbaycan Respublikası üçün faydalı olsun.

Unutmamalıyıq ki, neft Azərbaycanın tükənməz sərvətidir, amma bu heç də o demək deyil ki, neft tükənməzdir. Yox. Neft yataqlarının da müəyyən bir səddi var. **Əgər biz neft yataqlarından elmi əsaslarla, ağılla, qənaətlə istifadə edə bilməsək, gələcək nəsillər bizi bağışlamaz.** Ona görə də qısa bir mərhələdə böyük gəlir götürmək arzusuna uyan adamlar dərindən düşünməlidirlər. Elə etmək lazımdır ki, gələcək nəsillər də Azərbaycanın bu nadir sərvətindən kifayət qədər istifadə edə bilsin. Ona görə də biz yeni mərhələdə xarici neft şirkətləri ilə əlaqə qurarkən bu əsas məsələni unutmamalıyıq. Ayrı-ayrı adamların bu proseslərdə öz şəxsi mənafelərini güdməsi bütün Azərbaycan xalqına, müstəqil Azərbaycan dövlətinin həm iqtisadiyyatına, həm milli qüdrətinə, həm də dövlətçiliyinə böyük zərbədir. Buna yol vermək olmaz və mən sizi əmin edirəm ki, bu vəzifəni tutduğum dövrdən belə bir mövqedəyəm və buna yol verməyəcəyəm.

Azərbaycanın dənizdə zəngin neft yataqları var: "Azəri", "Günəşli" və s. Bu yataqların hamısı burada əyləşmiş alimlərimizin, geoloqlarımızın, neftçilərimizin böyük əməyi sayəsində kəşf olunub. İndi imkan vermək olarmı ki, yüz minlərlə adamın illər boyu çəkdiyi zəhmətin nəticəsindən ayrı-ayrı üzdəniraq

işbazlar istifadə etsinlər? Buna yol vermək olmaz! Mən buna heç vaxt yol verməyəcəyəm.

Bu məsələlərə, bilirsiniz ki, 70-ci illərdə çox ciddi fikir verilib. 70-ci illərin sonunda Xəzərin dərin yerlərində neft yataqlarını kəşf edəndən sonra biz oradan neftin çıxarılması və nəqli işi ilə məşğul olduq. Məhz o vaxtlar, hələ Sovet İttifaqının tərkibində ikən Azərbaycanda dərin özüllər zavodunun tikintisinə başladıq. Yəqin, burada oturanların çoxu bilmir, ancaq həmin zavodun məhz Azərbaycanda tikilməsi asan problem deyildi. Belə ki, biz SSRİ-nin təsərrüfat potensialına daxil idik, fəaliyyətimizdə sərbəst deyildik.

Ancaq mən sizə çatdırmaq istəyirəm ki, o zaman bizim çox böyük və ardıcıl tədbirlərimiz nəticəsində Moskvada bu zavodun məhz Azərbaycanda tikilməsi qərara alındı. Azərbaycanda, ümumiyyətlə, sovetlər ölkəsində zavodu tikmək üçün avadanlıq yox idi. Avadanlıq almaq üçün SSRİ-nin valyuta fondundan 400 milyon dollar xərcləndi. Amerikadan avadanlıq və texnologiya alındı. Mənə belə məlumat verdilər ki, hətta hazırlanmış yeni müqavilələrdə zavodun istehsal etdiyi dərin özüllərdən istifadə etmək problemi qoyulmayıb, müəssisənin məhsulları kənarda qalıb. Bu müqavilələr gərək çox dolğun və düzgün yazılsın. Heç kəs heç kəsi aldatmağa çalışmasın, hərə gərək öz tərəfinin mənafeyini qorusun. Qarşılıqlı münasibətlər, qarşılıqlı iqtisadi əlaqələr ən yüksək səviyyədə olmalıdır.

Güman edirəm ki, xarici ölkələrin neft şirkətlərinin burada iştirak edən nümayəndələri mənim bu sözlərimi düzgün anlayacaq və düzgün qəbul edəcəklər. Bir daha deyirəm ki, Azərbaycan Respublikasının ən zəngin sərvəti olan neft yataqlarının xarici şirkətlərlə birgə istismarına müsbət yanaşıram. Ancaq bu münasibətlər və bu bağlaşmalar gərək ağıllı və səliqəli olsun.

Müqavilələrin bu əsasda olmasını biz təmin edəcəyik, mən sizə dövlət tərəfindən zəmanət verə bilərəm. Eyni zamanda qeyd etmək istəyirəm ki, əgər dünyanın böyük ölkələrinin neft şirkətləri Azərbaycanın neft yataqlarına maraq göstərirsə, güman edirəm ki, o ölkələrin dövlət dairələrini Azərbaycan Respublikasının bugünkü ictimai-siyasi vəziyyəti də maraqlandırmalıdır. Güman edirəm ki, neft şirkətlərinin əksəriyyəti təmsil

olunduqları dövlət dairələri ilə sıx bağlıdır. Onların burada fəaliyyət göstərməsi bu dövlətlərin Azərbaycana olan münasibətinin daha da yaxşılaşacağına ümid verir.

Bu sözləri sizə çatdıraraq əlavə etmək istəyirəm ki, Azərbaycan Respublikası, müstəqil Azərbaycan dövləti bütün ölkələrlə qarşılıqlı faydalı əlaqələr qurmağı bundan sonra da davam etdirəcəkdir. Azərbaycan demokratik respublika kimi, sivilizasiyalı dövlət kimi bundan sonra inkişaf edəcəkdir. Azərbaycan Respublikasında bütün beynəlxalq hüquq normaları, beynəlxalq qanunlar tətbiq olunacaqdır. Azərbaycan Respublikasında insan hüquqları bundan sonra da qorunacaqdır, bu işlərə daha ciddi fikir veriləcəkdir. Heç kəsin buna şübhəsi olmasın, Azərbaycanın bir demokratik respublika kimi bundan sonra inkişaf etməsinə kimsə mane ola bilməz.

Azərbaycan dünya demokratik ölkələri birliyinə daxil olmuş bir dövlətdir və siyasi plüralizmin və insan hüquqlarının qorunması prinsipləri əsasında bundan sonra da inkişaf edəcəkdir. Güman edirəm ki, bu şərtlər Azərbaycan Respublikası Neft Şirkətinin xarici ölkələrin neft şirkətləri ilə əlaqələrinin qurulmasının əsas amillərindən biri olacaq. Biz xarici ölkələrin burada təmsil olunan şirkətləri ilə iqtisadi əlaqələrimizin davam etməsinin tərəfdarıyıq və buna kömək edəcəyik. Bütün məsələlərə lazımi səviyyədə, yüksək elmi səviyyədə baxılmasına şərait yaradacağıq.

Sizin hamınıza işlərinizdə müvəffəqiyyət arzu edirəm və bugünkü toplantıdan sonra Azərbaycan Respublikasının Neft Şirkəti ilə xarici şirkətlərin əlaqələrinin daha da düzgün istiqamətdə inkişaf etməsinə əmin olduğumu bildirmək istəyirəm.

## 1993-cü ilin ikinci yarısında xarici neft şirkətləri ilə sövdələşmək istəyən qüvvələr

1993-cü il iyunun 24-də xarici neft şirkətləri ilə müvəqqəti dayandırılmış danışıqlar, çox keçmədi ki, bərpa olundu. Azərbaycanın siyasi hakimiyyətinin bu addımı atması ölkə xaricində heç də birmənalı qarşılanmadı. Əsasən də Qərb mətbuatında neft şirkətlərinin narazılıqlarını ifadə edən məqalələr yer almağa başladı.

Düzdür, Azərbaycan rəhbərliyi bununla bağlı diplomatik korpusun nümayəndələrinə, Bakıya səfər edən diplomatlara dolğun cavab versə də, bunun müvəqqəti addım olduğunu nəzərə çatdırsa da, görünən o idi ki, neft müqaviləsinin gələcək taleyi ilə bağlı bir təşviş hissi var və vəziyyətin belə qalması hazırkı şəraitdə heç də Azərbaycanın maraqları çərçivəsində deyil.

Bu baxımdan 1993-cü il iyulun 26-da xarici neft şirkətləri ilə danışıqları davam etdirmək məqsədilə Azərbaycan hökuməti maraqlı bir addım atdı. Danışıqları əvvəllər olduğu kimi hökumət adından ARDNŞ deyil, hökumətin verdiyi mandatla xüsusi bir qrup aparmağa başladı.

Danışıqlar prosesinin bu həssas məqamına 1999-cu il sentyabrın 20-də *Respublika sarayında keçirilmiş və "Əsrin müqaviləsi"nin beşinci ildönümünə həsr olunmuş təntənəli mərasimdə ARDNŞ-nin birinci vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyev də öz məruzəsində toxunub:*

"Belə bir ağır şəraitdə xalqın istəyi və tələbi ilə rəhbərliyə gələn Heydər Əliyev ölkəni fəlakətdən və parçalanmaqdan, vətəndaş müharibəsindən və iqtisadi böhrandan xilas etdi. Biz hamımız o illər Azərbaycanda yaşamışıq və həmin günləri yaxşı xatırlayırıq. Buna görə də bu barədə uzun-uzadı danışmağa ehtiyac duymuram. Azərbaycanın 1993-cü ildəki acınacaqlı halını və indiki vəziyyətini müqayisə etmək belə kifayətdir. Zənnimcə, bayramımızda iştirak edən əcnəbi qonaqların da bir qismi o zaman Azərbaycanda olmuş, real vəziyyəti öz gözləri ilə görmüşdür. Onlar da bunu təsdiq edə bilərlər. Azərbaycanın yeni rəhbərliyi yaranmış şəraitdə ölkənin milli maraqlarına xələl gətirən bu müqavilənin *1993-cü il iyunun 21-nə* təyin olunmuş imzasından imtina etməyə məcbur oldu. Hadisələrin sonrakı inkişafı yenə də çətinliklərsiz ötmədi.

Özünü "böyük neft mütəxəssisi" kimi qələmə verən Baş nazirin müavini Rəsul Quliyev yaranmış vəziyyətdən sui-istifadə edərək təşəbbüsü öz əlinə aldı. Azərbaycan hökuməti adından Rəsul Quliyev xarici şirkətlərlə danışıqlar aparmaq səlahiyyətini Slovakiya vətəndaşı Marat Manafova həvalə etdi və bunun üçün 1993-cü il iyul ayının 26-da xüsusi mandat imzaladı. Rəsul Quliyev öz şəxsi maraqları naminə ölkənin bütün iqtisadi inkişafının taleyini neft sahəsi ilə heç bir əlaqəsi olmayan, neft müqavilələri haqqında elementar təsəvvürü belə olmayan digər dövlətin vətəndaşına həvalə etdi.

Manafov tərkibində Azərbaycanın heç bir nümayəndəsi olmayan ekspertlər qrupu yaratdı və Londonda xarici şirkətlərlə müqavilə üzrə danışıqlara başladı. Təsəvvür edin ki, əgər Manafovun hazırladığı və Rəsul Quliyevlə razılaşdırılmış müqavilənin variantı qəbul edilsəydi, Azərbaycan xalqını nələr gözləyirdi. Vaxtınızı çox almadan bəzi məqamlar üzərində dayanmaq istəyirəm.

Həmin variantda kəşfiyyat dövrü üçün 6 il müəyyən olunmuşdu və bu dövrdə xarici sərmayələrin həcmi cəmi 21 milyon dollar təşkil etməli idi. Müqayisə üçün deyim ki, artıq indi, yəni "Əsrin müqaviləsi"nin imzalanmasından beş il keçəndən sonra sərmayələrin həcmi 2 milyard dollar təşkil edir. Müqavilənin əvvəlki variantına əsasən, "Çıraq" yatağından neft yalnız 2007-ci ildə, yəni müqavilə imzalandıqdan 13 il sonra hasil olmalı idi. Biz isə neft hasilatının başlanmasına 1997-ci ildə, daha doğrusu, müqavilə imzalandıqdan 3 il sonra nail ola bildik və bu da "Əsrin müqaviləsi"nin mütləq bir şərti idi. Həmin gündən indiyə qədər "Çıraq" yatağından 5,5 milyon ton neft hasil edilmişdir. Daha sonra. Müqavilənin əvvəlki variantına əsasən, səmt qazı Azərbaycana bazar qiymətinə satılmalı idi. Biz isə bütün səmt qazının Azərbaycana pulsuz verilməsinə nail olduq. Bu günədək konsorsium tərəfindən 1,2 milyard kubmetr səmt qazı çıxarılmış və Azərbaycana pulsuz verilmişdir. Belə bir sual ortaya çıxır: məgər Rəsul Quliyev Azərbaycanı hansı uçuruma itələdiyini anlamırdımı? Xeyr, o bunu çox gözəl başa düşürdü. Lakin onun üçün bunun heç bir əhəmiyyəti yox idi. Onun üçün özünün şəxsi maraqları xalqın maraqlarından üstün idi və bu maraqlar naminə o, ölkənin bütün neft sərvətlərini girov qoymağa hazır idi. Quliyevin göstərişi ilə Manafov xarici neft şirkətlərindən 300 milyon dollar rüşvət ala bilmək üçün onlara belə sərfəli şərtlər etmişdi. Həmin 300 milyon dollar isə, əslində, bonuslar şəklində Azərbaycan Respublikasının xəzinəsinə daxil olmalı idi.

Qeyd etməliyəm ki, xarici neft şirkətləri yüksək ləyaqət göstərərək bu sövdələşməyə getmədi və öz dövlətlərinin ölkəmizdəki səfirləri vasitəsilə Azərbaycan Prezidentinə bu barədə məlumat çatdırdı. Prezident məlumat alan kimi Manafov tərəfindən aparılan danışıqların davam etdirilməsini qadağan etdi və müqavilə üzrə danışıqların aparılmasını bilavasitə Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə tapşırdı".

II FƏSİL

# DANIŞIQLARIN YENİ MƏRHƏLƏSİ

## Müqavilə üzrə yeni danışıqlar

Azərbaycan tərəfi ilə xarici neft şirkətlərinin danışıqlarının növbəti, yekun mərhələsi 1994-cü ilə təsadüf edir. İlkin olaraq dövlət başçısı yenidən Azərbaycan Dövlət Neft Şirkətinə danışıqlar prosesində Azərbaycan tərəfini təmsil etmək səlahiyyəti verdi. Bununla bağlı məsələlər hüquqi müstəvidə həllini tapdı.

Xarici şirkətlərlə danışıqlar 90-cı illərin əvvəlindən mərhələli şəkildə aparılsa da, mövqelər danışıq prosesinə cəlb olunmuş tərəflər üçün bəlli olsa da, onun yekun mərhələsi heç də asan olmayıb. Çünki tərəflər kommersiya maraqlarının qorunması məsələsində cidd-cəhdlə mübarizə aparır, bəzən müəyyən məsələlərdə kompromisə getməyin mümkün olmadığını qeyd edirdi.

ARDNŞ-nin birinci vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyev xarici neft şirkətləri ilə müxtəlif ölkələrdə baş tutan görüşlərin təfərrüatına "Əsrin müqaviləsi"nin beşinci ildönümünə həsr olunmuş təntənəli mərasimdəki çıxışında xüsusi yer ayırıb:

"Müqavilə üzrə danışıqlar faktiki olaraq yenidən başladı. Deyə bilmərəm ki, onlar asan gedirdi. Hər bir tərəf, təbii ki, öz maraqlarını maksimum dərəcədə təmin etməyə çalışırdı. Hərdən işlər düyünə düşürdü. Danışıqların 1994-cü ilin yazında və yayındakı – **İstanbul** və **Hyustondakı** son mərhələləri xüsusilə çətin keçdi.

Danışıqların gedişi zamanı böhran anları da olurdu və Azərbaycan tərəfi danışıqları dayandırmağa yaxın idi. Çünki bəzi şərtləri ölkənin milli maraqları üçün qəbuledilməz hesab edərək onlarla razılaşa bilmirdi. Biz xarici şirkətlərə deyirdik: **siz ayrı-ayrı şirkətlərin**

maraqlarını müdafiə edirsiniz, biz isə ölkənin və Azərbaycan xalqının maraqlarını müdafiə edirik. Əgər siz səhvə yol versəniz, bu sizin şirkətin yalnız bir layihəsində öz əksini tapacaq, əgər biz səhv etsək, bu səhv bütün Azərbaycan xalqının mənafeyinə xələl yetirəcək. Başqa sözlə, biz heç cür heç bir səhvə yol verə bilmərik.

"Azərbaycan Respublikasında dəniz neft və qaz yataqlarının işlənilməsinin sürətləndirilməsi haqqında"

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Respublikanın dəniz neft və qaz yataqlarının kəşfində və işlənilməsində xarici neft şirkətlərinin iştirakı barədə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti rəhbərliyinin məlumatını nəzərə alaraq qərara alıram:

1. Xarici neft şirkətləri ilə ["Amoco", "British Petroleum" ("Statoil", "Pennzoil"), "Ramco", "Unocal", "McDermott", TPAO] aparılan danışıqların əsas istiqamətləri barədə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin təklifləri bəyənilsin.
2. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə yuxarıda adları çəkilən xarici neft şirkətləri ilə birlikdə "Azəri" və "Çıraq" yataqlarının kəşfinə və işlənilməsinə dair danışıqların aparılması, müqavilənin hazırlanması və bağlanması səlahiyyəti verilsin.
3. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə tapşırılsın ki, iki həftə müddətinə "Günəşli" yatağında neft hasilatının sabitləşdirilməsi proqramını hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər Əliyev**
Bakı şəhəri, 4 fevral 1994-cü il

Deməliyəm ki, Natiq Əliyevin, Xoşbəxt Yusifzadənin, Valeh Ələsgərovun, mənim və başqa mütəxəssislərimizin daxil olduğu Azərbaycan danışıqlar qrupu bu çətin sınaqdan şərəflə çıxdı və böyük zəhmət hesabına Azərbaycanın maraqlarına tamamilə cavab verən müqavilə şərtlərinə nail olduq".

### Xəzərin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənilməsi haqqında xarici neft şirkətləri konsorsiumu ilə danışıqların yekunları barəsində

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

"Azərbaycanda dəniz neft və qaz yataqlarının işlənilməsinin sürətləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 4 fevral tarixli sərəncamında ifadə edilmiş prinsiplərə uyğun olaraq, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti "Amoko Kaspian Si Petroleum ltd", "Bi-Pi Eksploreyşn (Kaspian Si) ltd", "Den Norske Stats Olyeselskap a. s.", "LUKoyl" Səhmdar Cəmiyyəti, "MakDermott Azərbaycan, ink", "Pennzoyl Kaspian Korporeyşn", "Remko Xəzər Enerji ltd", "Türkiyə Petrolleri a. s.", "Yunokal Xəzər ltd" şirkətlərinin daxil olduqları xarici neft şirkətləri konsorsiumu ilə Xəzər dənizinin Azərbaycan sektorunda "Çıraq", "Azəri" yataqlarının, habelə "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi haqqında Sazişin bağlanması barəsində üç ildən artıq davam edən danışıqları başa çatdırmışdır. Həmin yataqların neft ehtiyatı 500 milyon tondan artıq qiymətləndirilir.

Dövlət Neft Şirkətinin Azərbaycan Respublikası Prezidentinə təqdim etdiyi məruzədə hazırlanmış Sazişin layihəsi Azərbaycan Respublikası üçün iqtisadi cəhətdən səmərəli və münasib variant kimi səciyyələndirilir. Qeyd edilir ki, yataqların işlənilməsi üçün lazım olan investisiyaların 80 faizi konsorsium tərəfindən qoyulacaq, Saziş qüvvəyə mindikdən sonra ilk neft 18 ay ərzində çıxarılacaq, neft hasilatına əsas yataqlarda 48 aydan gec olmayaraq başlanacaq və Azərbaycan neftinin beynəlxalq bazara

səmərəli yolla çıxmasını təmin edən neft kəmərinin tikintisi isə 54 ay ərzində başa çatdırılacaqdır. Sazişə görə, Azərbaycan neft yataqlarının istismarına nəzarət və istismarın idarə edilməsi hüquqlarını özündə saxlayır.

Bu prosesdə Azərbaycanın gəliri üç mənbədən alınacaqdır: təbii ehtiyatların mülkiyyətçisi hüququndan irəli kələn gəlirlər; yataqların işlənilməsinə investisiya qoyuluşlarında iştirak ilə bağlı gəlirlər; respublika büdcəsinə konsorsiumun gəlirinin dörddəbir hissəsi məbləğində vergi ayırmaları. Bunlar hamısı gəlirli neftin 80 faizinin Azərbaycana çatmasını təmin edəcəkdir. Əlavə olaraq, neft ilə birgə çıxan və ehtiyatları 55 milyard kubmetr həcmində qiymətləndirilən səmt qazı da Azərbaycanın mülkiyyətini təşkil edəcəkdir. Konsorsiumla bağlanan Sazişin əhatə etdiyi sahədə 90 milyard kubmetr həcmində qiymətləndirilən azad qaz yataqlarının istismarı Azərbaycanın müstəsna səlahiyyətində saxlanılır və bu da Sazişin iqtisadi səmərəsini daha da artırır.

Neft yataqlarının birgə işlənilməsi 30 il müddətinə nəzərdə tutulmuşdur. Bu, XXI əsrin astanasında Azərbaycan Respublikasında xalqın iqtisadi və sosial rifahının təməlini qoyacaq, real nəticələr isə yaxın illər ərzində əldə ediləcəkdir. Bazar iqtisadiyyatına keçid şəraitində on milyardlarla valyuta mədaxili bütün iqtisadiyyatın və hər şeydən əvvəl, neft sənayesinin elmi və istehsal-texniki bazasının keyfiyyətcə yeniləşməsini təmin edəcəkdir. Uzun müddət durğunluq vəziyyətində olmuş neft-maşınqayırma, neft emalı və neft kimyası sənayesinə yeni təkan veriləcəkdir, bu da ümumi iqtisadi göstəricilərin artımı ilə yanaşı, kadr potensialının möhkəmlənməsinə də kömək edəcək, yeni iş yerlərinin yaradılmasına imkan verəcəkdir. Azərbaycan sənayesi suyun dərinliklərində olan karbohidrogen yataqlarının istismarı sahəsində qabaqcıl xarici təcrübəyə yiyələnəcəkdir, bu da gələcəkdə belə yataqlardan müstəqil istifadə etməyə imkan verəcəkdir.

Əldə edilən mənfəət Azərbaycan iqtisadiyyatının bir çox sahələrində yüksək texnologiyalara keçilməsini təmin edəcək, o cümlədən infrastrukturun yeniləşdirilməsinə imkan verəcəkdir. İri neft şirkətlərinin Azərbaycan Respublikasında uğurlu işi

xaricdə dövlətimizə etimadı möhkəmləndirəcək və şübhəsiz ki, yeni xarici investisiyaların cəlb edilməsinə zəmin yaradacaqdır.

Yuxarıda göstərilənləri rəhbər tutaraq, Xəzərin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənilməsi haqqında xarici neft şirkətləri konsorsiumu ilə Saziş layihəsinin Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin məruzəsində müsbət qiymətləndirilməsini nəzərə alaraq qərara alıram:

1. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin məruzəsi və Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "Amoko Kaspian Si Petroleum ltd", "Bi-Pi Eksploreyşn (Kaspian) ltd", "Den Norske Stats Olyeselskap a. s", "LUKoyl" Səhmdar Cəmiyyəti, "MakDermott Azərbaycan, ink", "Pennzoyl Kaspian Korporeyşn", "Remko Xəzər Enerji ltd", "Türkiyə Petrolleri a. o.", "Yunokal Xəzər ltd" şirkətləri arasında Sazişin layihəsi bəyənilsin.
2. Dövlət Neft Şirkətinin Prezidenti Natiq Əliyevə tapşırılsın ki, Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və neft hasilatının pay şəklində bölüşdürülməsi haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə "Amoko Kaspian Si Petroleum ltd", "Bi-Pi Eksploreyşn (Kaspian Si) ltd", "Den Norske Stats Olyeselskap a. s", "LUKoyl" Səhmdar Cəmiyyəti, "MakDermott Azərbaycan, ink", "Pennzoyl Kaspian Korporeyşn", "Remko Xəzər Enerji ltd", "Türkiyə Petrolleri a. o.", "Yunokal Xəzər ltd" şirkətləri arasında Sazişi imzalasın.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər Əliyev**
Bakı şəhəri, 14 sentyabr 1994-cü il

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Qərb ölkələrinin neft şirkətləri ilə bağlanacaq sazişlə əlaqədar keçirdiyi brifinqdə jurnalistlər qarşısında bəyanatı

*16 sentyabr 1994-cü il, Bakı*

– Hörmətli jurnalistlər, mətbuat işçiləri!

Üç ildən artıqdır ki, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Qərb ölkələrinin neft şirkətləri arasında Azərbaycanın Xəzərdə olan neft yataqlarının müştərək istismar olunması haqqında danışıqlar aparılır. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ayrı-ayrı Qərb ölkələrinin neft şirkətləri ilə danışıqlar aparmış, sonra isə 1992-ci ildə həmin şirkətlər birləşib ümumi bir konsorsium təşkil etmiş və danışıqlar bu konsorsiumla davam etdirilmişdir.

Bilirsiniz ki, 1993-cü il iyulun axırlarında Azərbaycanda müəyyən dəyişikliklər əmələ gələndən sonra, mən respublika Ali Sovetinin sədri olarkən, eyni zamanda Azərbaycan Prezidentinin səlahiyyətlərini həyata keçirən vaxt bu danışıqların dayandırılması haqqında qərar qəbul etmişdim. Bu qərar ona görə qəbul olundu ki, o vaxt gələn siqnallar, məlumatlar göstərirdi ki, artıq hazırlanmaqda olan müqavilə layihəsində müəyyən çatışmazlıqlar, səhvlər var və həmin layihə hazırlandığı şəkildə Azərbaycan Respublikası üçün əlverişli deyil. Bu məlumatları araşdırmaq, layihənin Azərbaycan Respublikasının mənafelərinə nə qədər uyğun olduğunu müəyyən etmək üçün mən həmin danışıqların dayandırılması haqqında qərar qəbul etdim. Bundan sonra Azərbaycan Respublikası Dövlət Neft Şirkətində hazırlanmış materiallara bir daha baxdılar, müəyyən təhlillər aparıldı.

O vaxt Qərb neft şirkətlərinin prezidenti və başqa rəhbərləri Azərbaycana gəldilər, mənimlə təkbətək görüşdülər. Sonra isə Azərbaycanın neft sənayesində çalışan bizim alimlər, mütəxəssislər, bu sahənin rəhbərləri və bu işlə məşğul olan başqa şəxslər müəyyən bir toplantıya yığışdılar. Biz orada geniş danışıq apardıq və mən Azərbaycanın bu barədə mövqeyini bəyan etdim.

Orada müqavilələrin dayandırılması səbəbləri aydınlaşdırıldı, yəni mən bunun səbəblərini dedim və Qərb şirkətlərini əmin etdim ki, onlar narahat olmasınlar, bu iş davam edəcək, ancaq neft Azərbaycanın ən böyük, ən dəyərli sərvəti olduğuna görə bu məsələyə dərindən baxmaq, ətraflı müzakirə etmək lazımdır. Belə bir saziş əldə olundu və bundan sonra işlər davam etdirildi.

Azərbaycan Dövlət Neft Şirkəti bu işləri aparmaq üçün ilk mərhələdə Qərb ölkələrinin bitərəf ekspertlərini – Amerika Birləşmiş Ştatlarından, Kanadadan və digər ölkələrdən ekspertləri cəlb etdi. Bu məsələlər onların iştirakı ilə təhlil, müzakirə olundu. Sonra danışıqlar Londonda bir müddət yenidən başlandı. Ancaq Londonda gedən danışıqların nəticələri mənə təqdim olunarkən mən bunların Azərbaycan Respublikasının milli mənafelərinə yenə də uyğun olmadığını görərək, orada hazırlanmış layihəni kənara qoydum və onu qəbul etmədim.

Bundan sonra Azərbaycan Dövlət Neft Şirkəti mənim tapşırığımla respublikanın alimləri, mütəxəssisləri ilə, neft sənayesində çalışan təcrübəli adamlarla birlikdə Azərbaycanın bu danışıqlarda mövqeyini bir daha müəyyənləşdirdi. Onlar Azərbaycan Respublikasının Prezidenti kimi mənə rəsmi raport yazaraq öz təkliflərini verdilər ki, Azərbaycan Respublikası bu danışıqları hansı prinsiplər əsasında davam etdirə bilər. Mən bu prinsiplərə baxıb təhlil edəndən, bizim rəhbər orqanlarda məhz bu işlərlə məşğul olan məsul şəxslərlə məsləhətləşəndən sonra bu il fevralın 4-də Azərbaycan Dövlət Neft Şirkətinin danışıqları həmin prinsiplər əsasında davam etdirməsi barədə fərman verdim. Azərbaycan Dövlət Neft Şirkətinə, onun prezidenti Natiq Əliyevə bilavasitə səlahiyyət verdim ki, o bu danışıqları davam etdirsin və təqdim olunan təkliflər əsasında aparsın. Bundan sonra işin yeni mərhələsi başlandı.

Azərbaycan Dövlət Neft Şirkəti Qərb ölkələrinin neft şirkətləri ilə danışıqları Bakıda apardı. Sonrakı mərhələdə Qərb neft şirkətlərinin xahişi ilə bu danışıqlar Türkiyə Respublikasının İstanbul şəhərində getdi və iyulda sona çatdı. Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev iyul ayında mənə bu danışıqların nəticəsi haqqında yenə də yazılı məruzə verdi.

Həmin məruzəyə baxıb təhlil etdikdən sonra mən belə qərara gəldim ki, bu danışıqlar zamanı əldə olunmuş razılıqlar əsasında müqavilələrin hazırlanması mərhələsinə başlamaq olar.

Mən o vaxt həm Azərbaycan Dövlət Neft Şirkətinin rəhbərlərini: prezidenti, prezidentin müavinlərini və sonra Dövlət Neft Şirkətinin Qərb ölkələrinin neft şirkətləri ilə danışıq aparan heyətini bütün tərkibdə qəbul etdim. Onları dinləyəndən sonra bu heyəti Qərb neft şirkətlərinin danışıq aparan nümayəndələri ilə birlikdə qəbul etdim. Həm Azərbaycan Dövlət Neft Şirkətinin rəhbərliyi və danışıqlar aparan nümayəndə heyətinin tərkibinə daxil olan şəxslərin hamısı, həm də Qərb neft şirkətləri konsorsiumunun nümayəndələri mənə məlumat verdilər ki, İstanbulda aparılan danışıqlarda tərəflər arasında razılıq əldə olunub. Ona görə də bu razılıq əsasında müqavilənin layihəsini hazırlamaq mümkündür. Mən bununla razı oldum və razılıq verdim ki, Azərbaycan Dövlət Neft Şirkətinin Qərb neft şirkətləri konsorsiumu ilə, onların nümayəndəsi ilə İstanbul danışıqlarının sona çatması və müqavilə layihəsinin hazırlanmasına başlanması haqqında Bakıda protokol imzalansın. Belə bir protokol iyulun ortalarında burada imzalandı.

İyulun 21-də Azərbaycan Dövlət Neft Şirkətinin danışıqlar aparan heyəti Qərb neft şirkətləri konsorsiumunun dəvəti ilə Amerika Birləşmiş Ştatlarının Hyuston şəhərinə getdi. Orada 45 gün layihənin hazırlanması üzərində işlədilər. Oradan daim aldığımız məlumatlardan və nəhayət, nümayəndə heyətimiz Bakıya qayıdandan sonra onların verdiyi məlumatlardan aydın oldu ki, layihənin üzərində işləyərkən bir çox çətinliklər meydana çıxmışdır. Azərbaycan Dövlət Neft Şirkətinin səlahiyyətli heyəti bu çətinlikləri aradan qaldırmağa çalışmışdır. Mən hesab edirəm ki, onların çalışqanlığı, səriştəliliyi nəticəsində bu gərgin vəziyyətdə çətinliklər aradan qaldırılmış və nəhayət, müqavilənin layihəsi hazır olmuşdur.

Nümayəndə heyətimiz Hyustondan qayıdandan sonra mən Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyevi qəbul etdim. O, Hyuston danışıqlarının nəticəsi haqqında, orada baş vermiş çətinliklər və onların aradan qaldırılması barədə

mənə yazılı məlumat təqdim etdi, izahat verdi. Eyni zamanda Azərbaycan Dövlət Neft Şirkəti nümayəndə heyətinin fikrini bildirdi ki, hazırlanmış layihələr imzalana bilər. Sonra mən bu məsələləri və əldə olunan nəticələri Azərbaycan dövlətinin rəhbər dairələri: Ali Sovetin, Nazirlər Kabinetinin rəhbərləri ilə, Prezident Aparatında bu işlərlə məşğul olan məsul şəxslərlə, əlaqədar nazirliklər, nazirlərlə müzakirə etdim. Nəhayət, qərar qəbul etdim ki, hazırlanmış layihəni imzalamaq olar. Mən bu barədə müvafiq fərman vermişəm. Bu məlumatı ictimaiyyətə rəsmi çatdırmaq üçün də sizi – mətbuat nümayəndələrini buraya dəvət etmişəm.

Mənim qəbul etdiyim qərar, verdiyim fərman belədir ki, Qərb Neft Şirkətinin Konsorsiumu ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında hazırlanmış müqavilə bu il sentyabrın 20-də Bakıda Gülüstan sarayında imzalanacaqdır.

Uzun illər, yəni üç ildən artıq aparılan iş, mən hesab edirəm ki, müsbət nəticə vermişdir. Şübhəsiz ki, təqdim olunan müqavilə layihəsi bizim bütün istəklərimizi, arzularımızı təmin etmir. Aydındır, mən bunu dəfələrlə bəyan etmişəm, bu gün də – layihə hazır olandan və bu barədə qərar qəbul edəndən sonra da demək istəyirəm ki, biz indi də, gələcəkdə də Azərbaycanın təbii sərvətlərindən, xüsusən ən böyük təbii sərvətimiz olan neft yataqlarından çox ehtiyatlı, səriştəli istifadə olunmasına çalışmalıyıq. Çalışmalıyıq ki, bu sərvətlərdən Azərbaycan xalqının bu günü və gələcəyi üçün maksimum mənfəət götürək.

Mən bu prinsipləri həmişə əsas tutmuşam, bu gün də əsas tuturam. Həmin prinsiplər baxımından, şübhəsiz ki, bütün istəklərimiz, arzularımız bu layihədə əks olunmayıb. Biz həmin layihədən bundan artıq mənfəət götürmək istəyirik. Ancaq bilirsiniz, müştərək iş görmək belədir ki, hər iki tərəf öz mənfəətini götürməyə çalışır və götürməlidir. Əgər qarşılıqlı mənfəət prinsipi olmasa, şübhəsiz ki, saziş də, müqavilə də ola bilməz.

Bilirsiniz ki, "Amoco", "British Petroleum", "Statoil", "Pennzoil", "Remco", "Unocal", "McDermott" Qərb neft şirkətləridir. İştirakçı şirkətlərin biri Türkiyə, digəri – "LUKoil" Rusiya şirkətidir. Qərb şirkətləri çox böyük neft şirkətləridir, dünyanın bir çox regionlarında neftçıxarma işi ilə məşğul olurlar.

Şübhəsiz ki, bunlar Azərbaycana öz mənfəətləri üçün gəlib – bu da təbiidir və onlar öz mənfəətlərini həyata keçirməyə çalışıblar. Azərbaycan tərəfi də ilk dəfə, hər halda, bizim əsrimizdə, – keçmiş vaxtlarda da Azərbaycanda neft hasilatında yabançı, əcnəbi ölkələrin şirkətləri iştirak edib, bilirsiniz ki, 1920-ci ildən sonra belə olmayıb, – ilk dəfə belə bir böyük sazişin, layihənin əldə olunmasına doğru gedir. Şübhəsiz ki, bir il içərisində, şəxsən mənim bu məsələyə qarışmağım nəticəsində aparılan əlavə işlər ancaq və ancaq Azərbaycanın bu sazişdə maksimum mənfəət əldə etməsinə yönəldilmişdir.

Mən hesab edirəm ki, bizim bütün istəklərimiz bu layihədə əks olunmasa da, ancaq təqdim edilən layihə Azərbaycan Respublikasının, Azərbaycan xalqının iqtisadi mənafelərini bu gün də, gələcəkdə də təmin edir və ona görə də mən bu müqavilənin imzalanması haqqında qərar vermişəm.

Bu layihə böyükdür, onun haqqında danışmağa ehtiyac yoxdur. Ancaq bir neçə iqtisadi göstəricini sizə çatdırmaq istəyirəm. Birinci müqavilə Azərbaycanın Xəzərdə olan neft yataqlarının istifadə edilməsi, yəni neftin müştərək çıxarılması və çıxarılan neftin bölünməsi ilə əlaqədardır. Bu neft yataqları "Çıraq", "Azəri" və "Günəşli" yataqlarıdır. Bilirsiniz ki, indi "Günəşli" yatağını biz istismar edirik və oradan təxminən 6,5 milyon ton neft hasil edirik. Ancaq "Günəşli" yatağının bir hissəsindən – dənizin çox dərin sahəsində yerləşən hissəsindən istifadə edə bilmirik. Yatağın həmin hissəsi bu konsorsiumda müştərək istifadə olunmaq üçün verilir.

Deməк, "Azəri" yatağı bütövlükdə, "Çıraq" yatağı bütövlükdə, "Günəşli" yatağının isə suyun dərinliyi 200 metrdən çox olan hissəsi – bu yataqlardan müqaviləyə əsasən 511 milyon ton neft çıxarılacaqdır.

Müqavilə 30 il müddətinə nəzərdə tutulmuşdur. 511 milyon ton neft həmin 30 il ərzində çıxarılacaqdır. Bu müqaviləni həyata keçirmək üçün kapital qoyuluşunun 80 faizini Qərb şirkətləri, yəni bu konsorsiuma daxil olan şirkətlər təmin edəcəkdir. Kapital qoyuluşu bugünkü qiymətlərlə təxminən 7,4 milyard dollardır. **Çıxarılan neftin 253 milyon tonu Azərbaycana çatacaqdır.**

Mən başqa iqtisadi rəqəmlər gətirmək istəmirəm, lakin dolların bugünkü məzənnəsini nəzərə alsaq, onda görərik ki, **bu müqavilənin həyata keçirilməsindən Azərbaycan 34 milyard dollar məbləğində mənfəət götürəcəkdir**. Şübhəsiz ki, bu 30 il müddətində dolların da məzənnəsi dəyişəcəkdir. Bu halda müəyyən nisbətdə bu rəqəmlər də dəyişə bilər.

Müqavilənin ən mühüm cəhətlərindən biri də budur ki, neftlə bərabər, qaz da çıxarılır. Bunun nə demək olduğunu siz bilirsiniz. Ola bilər ki, bu bəzilərinə məlum deyildir. Bir var ki, quyulardan birbaşa qaz çıxır, bir də var ki, quyuların əksəriyyətindən neftlə bərabər, qaz da çıxarılır. Hesablamalar göstərir ki, bu müddətdə 55 milyard kubmetr qaz hasil olunacaqdır. Onun hamısı Azərbaycana çatacaqdır, yəni bu qaz daha bölünməyəcəkdir. Həmin üç yataqla konsorsiumla müştərək surətdə neft çıxarılan dövrdə Azərbaycan Dövlət Neft Şirkəti, Azərbaycan Respublikası özü orada müstəqil olaraq qazma işləri apararaq qaz çıxara bilər və bu qaz da yalnız onun özünün olacaqdır.

Ola bilər ki, qazın çıxarılması haqqında da gələcəkdə hər hansı bir şirkətlə, yaxud elə bu konsorsiumun özü ilə müəyyən saziş bağlansın. Onu demək istəyirəm ki, həmin yataqlardakı qazın hamısı, eləcə də neftlə yanaşı çıxan qazın hamısı Azərbaycana çatacaqdır.

Mənə elə gəlir ki, iqtisadi göstəricilər bundan ibarətdir. Azərbaycan Dövlət Neft Şirkəti "Çıraq" neft yatağında bir platforma qurmuşdur. Amma o platforma hələ istifadə edilmir. Onun istismarı da bu konsorsiuma həvalə olunur. Bunun da müəyyən şərtləri var.

Dediyim kimi, müqavilə 30 il müddətinə imzalanır. Şübhə yoxdur ki, iş başlanandan sonra ayrı-ayrı mərhələlərdə işin gedişindən asılı olaraq, çıxarılan neftin miqdarı artacaqdır. Mən sizə hansı rəqəmləri gətirə bilərəm? Müqaviləyə görə, "Çıraq" neft yatağındakı platformadan neft çıxarılması 18 ay ərzində təmin ediləcəkdir. Bu, Qərb Konsorsiumu ilə Azərbaycan Dövlət Neft Şirkətinin birgə çıxardığı neft olacaqdır. Bütün bu yataqlarda neftin çıxarılması üçün işlər 48 ay ərzində görülüb başa çatdırılacaqdır. 54 aydan sonra isə bütün yataqlardan neft

çıxarılması təmin ediləcəkdir. Yəni bu 54 ay ərzində neft nəql edilən boru kəməri çəkilib qurtaracaq və bundan sonra çıxarılan neftin Qərb şirkətlərinə düşən payını onlar istədikləri yerlərə apara biləcəklər.

Beləliklə, hamı gərək açıq-aydın bilsin ki, bu müqavilə necə həyata keçiriləcəkdir. Müqavilənin həyata keçirilməsinə başlanması da çox prinsipial məsələdir. Aparılan danışıqlar nəticəsində belə bir razılıq əldə olunmuşdur ki, müqavilə imzalanandan sonra Azərbaycan parlamenti tərəfindən təsdiqlənəcək və elə həmin gündən qüvvəyə minəcəkdir, yəni Qərb şirkətləri Konsorsiumu Azərbaycan Dövlət Neft Şirkəti ilə artıq işə başlamalıdır. Müqavilənin həyata keçirilməsinə başlanması vaxtı həmin gündən hesab ediləcəkdir. Ümidvaram ki, bu müqaviləni imzaladıqdan az müddət sonra parlament də onu nəzərdən keçirib təsdiqləyəcəkdir.

Bütün bu mənfəətdən savayı, Qərb neft şirkətlərinin Azərbaycan Respublikasına gəlməsi, Azərbaycan Dövlət Neft Şirkəti ilə müştərək iş aparması iqtisadiyyatımızda böyük dəyişikliklər əmələ gətirəcəkdir. Birinci dəyişiklik bundan ibarətdir ki, bununla biz xarici ölkələrin Azərbaycanda investisiya qoymasına böyük yol açırıq. Heç də az investisiya qoyulmayacaq – onun məbləği 7,4 milyard dollar olacaqdır. Bu çox böyük məbləğdir.

Azərbaycanın azad iqtisadiyyat, bazar iqtisadiyyatı yolu ilə getməsi üçün, dünya iqtisadiyyatına sıx bağlanması üçün bu sənədin çox böyük əhəmiyyəti var. Azərbaycan özünün həm ictimai-siyasi həyatında, həm də iqtisadiyyatında bir demokratik respublika kimi bütün dünya miqyasında daha çox tanınacaq və bu öz əksini əməli surətdə tapacaqdır.

Əlbəttə, burada müqavilənin həyata keçirilməsi üçün çox böyük işlər görüləcəkdir, neft yataqlarında iri platformalar tikiləcəkdir. Bildiyiniz kimi, bu platformaların tikilməsi üçün 80-ci illərin əvvəllərində nəhəng dərinlik özülləri zavodu inşa edilmişdir. Sizə bildirmək istəyirəm ki, o vaxtlar həmin zavodun Azərbaycanda tikilməsi üçün şəxsən mən çox səy göstərmişəm və bu müəssisənin Bakıda inşa edilməsi Azərbaycan üçün böyük qənimətdir. O vaxtlar zavod keçmiş Sovet İttifaqının bütün

dənizlərində neft quyuları qazmaq, neft çıxarmaq üçün platformalar hazırlayan yeganə müəssisə idi. Biz zavodun məhz Azərbaycanda tikilməsinə çox çətinliklə nail olduq. Onun alınması üçün o vaxtın dəyəri ilə 400 milyon dollar xərcləndi. Amma indi biz bu zavoddan istifadə edə bilmirik. Çünki o, yenidən qurulmalıdır. Müqavilə qüvvəyə mindikdən sonra bu müəssisə tamamilə yeni bir fəaliyyətə başlayacaqdır. Bundan ötrü orada əlavə işlər görüləcək, müəssisə yenidən qurulacaqdır. Onun buraxacağı platformalardan Xəzərin nəinki Azərbaycana aid hissəsində, həm də digər hissələrində suyun dərin yerlərindən neft çıxarılması üçün istifadə edilə biləcəkdir.

Ola bilsin, sizlərdən bəzilərinin yadındadır ki, 70-ci illərin təxminən ikinci hissəsində və 80-ci illərin əvvəllərində Azərbaycanda Xəzərin dərin yerlərindən neft çıxarmaq üçün biz "Şelf-1" və "Şelf-2" platformaları almışıq. Onlar Qərbdə hazırlanmış və buraya böyük çətinliklə gətirilərək istifadəyə verilmişdi.

İndi dərinlik özülləri zavodunda onlardan da nəhəng platformalar istehsal ediləcəkdir. Odur ki müəssisənin yenidən qurulması, genişləndirilməsi Azərbaycan iqtisadiyyatı üçün yeni bir sərvət olacaqdır. Bayaq dediyim kimi, onun məhsulundan Xəzərin digər ölkələrə aid olan hissələrində də istifadə ediləcəkdir. Məsələ bununla bitmir. Böyük miqdarda neft çıxarmaq, bu nefti sahilə göndərmək və nəhayət, onun Qərb şirkətlərinə düşən hissəsini neft kəməri vasitəsilə nəql etmək üçün hələ çox işlər görülməli, iri qurğular yaradılmalı, nəhəng müəssisələr tikilməlidir. Söz yox ki, bunların hamısı yaradılacaqdır.

Bildiyiniz kimi, indi Azərbaycan neft çıxarmaq üçün keçmiş Sovet İttifaqından qalan qurğulardan, gəmilərdən istifadə edir. Bunların əksəriyyəti köhnəlmişdir, təzələrini almağa isə imkanımız yoxdur. Şübhəsiz, bu müqavilə qüvvəyə mindikdən sonra Xəzərdə müştərək işlər görülməsi üçün yeni gəmilər, tankerlər, yeni qurğular alınıb gətiriləcəkdir. Bunların hamısı da gələcəkdə yenə Azərbaycanın sərvəti olacaqdır.

Yadımdadır, hələ 70-ci illərdə Neft Daşlarında qurulmuş estakadaların bərbad vəziyyətə düşməsi bizi bərk narahat edirdi və o vaxtlar çox çalışırdıq ki, həmin estakadaları dəyişdirib

təzələyək. Amma buna vəsait çatmırdı və ona görə də səy göstərirdik ki, Sovet İttifaqının paytaxtından, Moskvadan əlavə vəsait alıb estakadaları dəyişdirək. Yadıma düşən bu hadisələr 15-20 il bundan əvvəl olmuşdur. Təsəvvür edin ki, bu estakadalar indi nə vəziyyətə düşmüşdür. Bunların hamısını bərpa etmək, yararlı hala salmaq üçün bizə çox böyük məbləğdə vəsait gərəkdir. Şübhəsiz ki, bu işlərin də hamısı görüləcəkdir.

"Azəri", "Çıraq", "Günəşli" neft yataqlarından savayı, bizim digər yataqlarımız da var. Onların da gələcəkdə istismar edilməsi qarşımızda bir vəzifə kimi durur. Buna görə də Qərb neft şirkətlərinin ən müasir, ən yüksək səviyyədə olan texnikasının və texnologiyalarının Azərbaycana gətirilməsi, burada tətbiq edilməsi həm neft sənayemizdə texnikanın və texnologiyanın inkişafına təkan verəcək, həm də gətirilən bütün bu avadanlıq gələcəkdə Azərbaycanın sərvəti olacaqdır. Yəni biz onlardan 30 il müddətində müştərək istifadə edəcəyik və sonra bütün bu texnika və texnologiyalar respublikamıza qalacaqdır.

Əlbəttə, nəzərdə tutulan işlərin hamısını yerinə yetirmək üçün xeyli mütəxəssis lazım olacaqdır. Belə ki, həm neftayırma və maşınqayırma zavodlarımız işləyəcək, digər müəssisələrimiz müəyyən işlər görəcək, həm də sənayenin başqa sahələri fəaliyyət göstərəcəkdir. Sənayemizin bütün sahələrinin tam gücü ilə işləməsi iqtisadiyyatımızın inkişafına, şübhəsiz, çox böyük kömək edəcəkdir. Bu layihənin həyata keçirilməsinə cəlb edilən mühəndislər, mütəxəssislər, iqtisadçılar, texniklər, fəhlələr, bir sözlə, bütün şəxslər həm yaxşı işə malik olacaq, həm də maddi cəhətdən yaxşı təmin ediləcəklər.

Bütün bunlar Azərbaycanın həm bu günü, həm də gələcəyidir. İndi biz 9 milyon ton neft çıxara bilirik. Lakin sizə deməliyəm ki, bizim neft qurğularının, buruqlarımızın, yataqlarımızın böyük təmirə ehtiyacı var. Böyük işlər görülməsinə ehtiyacımız var. Bunları da görmək üçün bizə vəsait lazımdır. Bu konsorsiumdan alınan vəsait, payımıza düşən neftdən istifadə edilməsi neft sənayemizin həyatında yeni bir mərhələ açacaqdır. Bütün bunlar Azərbaycanın həm bu günü üçün, həm də gələcəyi üçün olduqca gərəklidir. Bu müqavilənin

imzalanması sayəsində qabaqcıl Qərb ölkələrinin çox təcrübəli şirkətləri ilə müştərək işə başlayacağıq və bunun həm iqtisadi, həm texniki, həm elmi, həm də digər müsbət nəticələrini hər kəs özü müəyyən edə bilər. Mən bunu özüm üçün müəyyən etmişəm və belə hesab edirəm ki, biz indi bu addımı atarkən Azərbaycanın bu günündən çox gələcəyi üçün çalışırıq. Mən sizə bu rəqəmləri dedim – 18 ay, 48 ay, 34 ay. Göründüyü kimi, bunun çoxu gələcək nəsillər üçündür.

Əlbəttə, indi, yaxın vaxtlarda da böyük işlər görüləcəkdir. Elə bu işlərə başlanması Azərbaycanın həyatında da, iqtisadiyyatında da köklü dəyişikliklər əmələ gətirəcəkdir. Deməli, biz təkcə bu gün üçün, özümüz üçün yox, gələcək nəsillər üçün də çalışırıq. Ona görə də ümidvaram ki, bu 30 illik müqavilə yeganə müqavilə olmayacaqdır. Biz başqa müqavilələr də imzalayacağıq. Mən heç şübhə etmirəm ki, bunun da davamı olacaqdır. Yəni biz Azərbaycan xalqının XXI əsrdə həyatının, iqtisadiyyatının, rifah halının təmin edilməsi üçün çox ciddi, çox məsuliyyətli, eyni zamanda, zənnimcə, çox gərəkli bir addım atırıq.

Bax bunların hamısını nəzərə alaraq, Azərbaycan neft sənayesinin keçmiş tarixini də varaqlayaraq, Azərbaycanın neft sənayesi ilə 25 ildən artıq bir müddətdə məşğul olduğunu və bütün gördüyüm işləri, keçmiş Sovet İttifaqının neft sənayesinin düşdüyü vəziyyəti nəzərə alaraq, mən müqavilənin təqdim edilmiş indiki layihəsinin imzalanması barədə fərman vermiş, qərar qəbul etmişəm. Mən üzərimə böyük bir məsuliyyət götürürəm və onu bu gün də, gələcəkdə də daşımağa hazıram.

Mən sizi buraya bu məlumatları vermək üçün dəvət etmişəm. Əgər suallar olarsa, mən onlardan heç birinə cavab vermək istəmirəm. Hesab edirəm ki, söylədiyim bu sözlərlə bütün suallara cavab verdim. Mən bu müqavilənin əsas məğzini sizə çatdırdım və əgər biz onu sentyabrın 20-də imzalayırıqsa, deməli, bütün suallara cavab vermişəm. Müqavilə imzalandıqdan sonra kimin nə sualı varsa, verə bilər. Sağ olun. Ayın 20-də sizi müqavilənin imzalanması mərasiminə dəvət edirəm.

III FƏSİL

# MÜQAVİLƏ

## "Əsrin müqaviləsi"nə çevrilən saziş

Azərbaycan (o dövrün xüsusiyyətləri nəzərə alınaraq, həm latın, həm də kiril qrafikalı əlifba ilə çap edilib), rus və ingilis dillərində tərtib edilən müqavilə öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adını alıb. 212 səhifədən ibarət olan müqavilə 31 maddədən və 12 əlavədən ibarətdir.[4]

"Əsrin müqaviləsi"nin imzalanması mərasimində Azərbaycan prezidenti Heydər Əliyevin BP rəhbəri Con Braunla görüşü



Müqavilədə dünyanın 7 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç və Səudiyyə Ərəbistanı) 11 neft şirkəti ("Amoco", BP, "McDermott", "Unocal", ARDNŞ, "LUKoil", "Statoil", "Türkiye Petrolleri", "Pennzoil", "Ramco", "Delta Nimir") iştirak edib.

Bununla da müstəqil Azərbaycanın neft strategiyası və doktrinasının əsası qoyulub. Bu qlobal layihə Azərbaycanın suveren dövlət kimi öz təbii sərvətlərinə sahib çıxmaq, milli mənafelərini, iqtisadi və strateji maraqlarını müdafiə etmək əzmini bütün dünyaya göstərib, dövlət müstəqilliyinin mühüm təminatına çevrilib.

## HPB sazişi nədir?

"Hasilatın pay bölgüsü" sazişi (HPB/PSA) - hazırda bazar iqtisadiyyatının yenicə formalaşdığı ölkələrdə daha geniş yayılmış müqavilə münasibətləri formasıdır.

Bu tip müqavilə müəyyən edilmiş zaman çərçivəsində (il ərzində) minimal xərclərin ödənilməsindən sonra yerdə qalan hasil olunmuş neftin bölüşdürülməsi üçün dəqiq bir prinsip ortaya qoyur. Dünyada məhsulun bölüşdürülməsi üzrə vahid bir müqavilə şərtləri yoxdur, yalnız ümumi prinsiplər mövcuddur. Məsələn, məhsulun birbaşa bölgüsü əvəzinə məhsulun bölgüsündə dövlətin iştirakı (adətən, dövlət şirkəti vasitəsilə) nəzərdə tutulur. Bu, müqavilələri daha çevik edir. HPB müqavilələrini mineral ehtiyatlarla zəngin istənilən tip yataqlara tətbiq etməyə imkan verir, eyni zamanda müqavilənin əsas iqtisadi elementlərini mövcud sərt qanunvericilik məhdudiyyətləri sahəsindən çıxararaq, dövlətlə sərmayədarlar arasındakı münasibətlərə müqavilə çərçivəsində transfert etməyə imkan yaradır.

"Hasilatın pay bölgüsü" sazişi üzrə ilk müqavilə İndoneziyanın milli neft şirkəti "Permina" (hazırkı adı "Pertamina") tərəfindən 1966-cı ilin avqustunda imzalanıb və sonradan geniş istifadə edilib.

Hasilatın pay bölgüsü razılaşmasının əsas elementləri aşağıdakılardır:

- şirkətləri qəbul edən tərəf (ev sahibi) kimi dövlət neft şirkəti tərəfindən təmsil olunan hökumət çıxış edir;

- əgər dövlət neft şirkəti yoxdursa, ev sahibi ölkənin birbaşa iştirakını təmin etmək məqsədilə onun yaradılmasını həyata keçirir;
- bir çox ölkələrdə kommersiya neft ehtiyatları aşkarlanana qədər dövlətin sazişdə iştirak şərtləri açıq qalır;
- axtarış və kəşfiyyat işləri üzrə bütün riskləri podratçı şirkət daşıyır, müqavilədə göstərilən müddətdə kommersiya ehtiyatları aşkar edilmədikdə bu işlərin dəyəri ödənilmir;
- podratçı axtarış-kəşfiyyat işlərini, yatağın işlənilməsi və istismarını tam maliyyələşdirir;
- kommersiya ehtiyatları aşkar edildikdə podratçıya "kompensasiya nefti" adlanan bu sahədən axtarış və kəşfiyyat işlərinə, yatağın istehsala hazırlanmasına və istismarına çəkilən bütün xərcləri ödənilir. Hasilat dövründə "kompensasiya nefti"nin xüsusi çəkisi müqavilədə öz əksini tapır. Məsələn, İndoneziyada imzalanmış HPB üzrə ilk sazişdə göstərilirdi ki, "kompensasiya nefti"nin hasilatda xüsusi çəkisi 40 faizdən çox olmamalıdır. Hal-hazırda bu tip sazişi tətbiq edən əksər ölkələrdə bu nisbət, əsasən, 20-50 faiz arasında dəyişir, baxmayaraq ki, bəzi ölkələrdə (Malayziya) bu, 20 faizdən az da ola, digərlərində (Filippin) isə 50 faizi keçə bilər. Burada bir məsələyə diqqət yetirmək lazımdır ki, "kompensasiya nefti"nin payı, bir qayda olaraq, daha mürəkkəb ətraf mühit şəraitində daha yüksək olur və istehsal səviyyəsindən asılı olaraq dəyişə bilər;
- məhsulun qalan hissəsi, yəni bölüşdürülən və ya mənfəət nefti podratçı şirkətlə yerin təkinin sahibi olan dövlət arasında bölünməyə məruz qalır. Hər bir ölkədə mənfəətin bölüşdürülməsi sırf fərdi nisbətlərdə həyata keçirilir. Bəzi ölkələrdə sahənin yerləşdiyi yerdən (Misir, Kot d'İvuar), neftin sıxlığından (Peru), xarici bir şirkətin vergilərə qədər qazanc səviyyəsindən (Ekvatorial Qvineya, Liberiya) asılı olaraq dəyişir. HPB sazişlərinin bağlanmasını tətbiq edən əksər neft istehsal edən ölkələrdə (Anqola, Banqladeş, Hindistan, İndoneziya və s.) mənfəət neftinin bölüşdürülməsi nisbətləri

hasilatın artımı ilə dəyişir. Bundan əlavə, müxtəlif ölkələrdə ayrı-ayrı dövlətlərin fərdi şərtlərinin məcmusu ilə müəyyən edilən eyni nisbətlər istehsalın əhəmiyyətli dərəcədə fərqli səviyyələri üçün müəyyən edilə bilər;

- bölüşdürülən neftin xarici şirkətin payına düşən hissəsi vergitutma obyektinə aid edilir. Buna görə də dövlət müxtəlif mənfəət vergisi dərəcələrini tətbiq etməklə bölüşdürülən məhsulun fərqli nisbətləri ilə şirkətin əməliyyatlarının gəlirliliyini tənzimləmək imkanına malik olur;
- HPB sazişlərinin ilkin mərhələlərində mədən vergisi - royalti yox idi. Ancaq indi bu tip müqavilələrdə şirkətlərin müqavilə sahələrindən ödədiyi stabil vergi növüdür.

## AÇG müqaviləsinin şərtləri

| | |
|---|---|
| **Müqavilənin tipi** | Hasilatın pay bölgüsü sazişi (Production Sharing Agreement) |
| **İmzalanma tarixi** | 20 sentyabr 1994-cü il |
| **Milli Məclisdə təsdiqi** | 15 noyabr 1994-cü il |
| **Qüvvəyə minmə tarixi** | 12 dekabr 1994-cü il |
| **Bitmə müddəti** | 12 dekabr 2024-cü il |
| **Müqavilə sahəsi** | 432,4 kv.km[5] |
| **Bonus** | 300 milyon $[6] |
| **İlkin neft hasilatı** | qüvvəyə minmə tarixindən sonrakı 18 ay müddətində (12 iyun 1996-cı il tarixinədək)[7] |
| **Yataqların tammiqyaslı işlənilməsi sahəsindən ilkin neft hasilatı** | qüvvəyə minmə tarixindən sonrakı 48 ay müddətində (12 dekabr 1998-ci il)[8] |
| **Xam neftin əsas ixrac boru kəmərinə verilməsinə başlanılması** | qüvvəyə minmə tarixindən sonrakı 54 ay müddətində (12 iyun 1999-cu il)[9] |

| | |
|---|---|
| **Mənfəət vergisi** | mənfəət vergisi hər podratçı tərəfin vergi qoyulan mənfəətindən təqvim ili üçün sabit dərəcə ilə 25% tutulur[10] |
| **Mənfəət neftinin bölüşdürülməsi** | layihə üzrə xərclər mərhələli şəkildə ödənilməklə Azərbaycan dövlətinin payı 80%-ə qədər yüksəlir[11] |
| **Azərbaycana çatacaq mənfəət neftinin həcmi** | 253 milyon ton |
| **Azərbaycanın əldə edəcəyi mənfəət dəyərlə** | 34 milyard dollar |

**Müqavilə müddəti ərzində işçi heyətin Azərbaycan vətəndaşlarından komplektləşdirilməsi**[12]

| | Mühəndis-texniki işçilər | Fəhlə heyəti |
|---|---|---|
| Yataqların tammiqyaslı işlənilməsi başlananadək | 30-50% | 75% |
| Yataqların tammiqyaslı işləndiyi sahədə ilkin hasilat başlayanda (faktiki hasilat – 14.02.2005) | 70% | 85% |
| Yataqların tammiqyaslı işləndiyi sahədə ilkin hasilat başlayandan beş il sonra | 90% | 95% |

## Mənfəət neftinin bölüşdürülməsi mexanizmi[13]

Birinci növbədə ümumi hasilat həcmindən bütün əməliyyat məsrəfləri (istismar xərcləri) ödənilir.

İkinci növbədə podratçının əməliyyat məsrəflərinin ödənilməsi üçün tələb olunan xam neftin həcmi çıxıldıqdan sonra ümumi hasilat həcmində qalan xam neftin əlli (50) faizdən çox olmayan həcmindən podratçının bütün əsaslı məsrəfləri (kapital xərcləri) ödənilir.

Məsrəflərin ödənilməsi hesabı təqvim rübü əsasında aparılır.

## Müqavilə iştirakçıları[14]

| Podratçı tərəflər | Pay faizləri | Ölkələr |
|---|---|---|
| ARDNŞ | 20,0000 | Azərbaycan |
| BP | 17,1267 | Böyük Britaniya |
| "Amoco" | 17,0100 | ABŞ |
| "LUKoil" | 10,0000 | Rusiya |
| "Pennzoil" | 9,8175 | ABŞ |
| "Unocal" | 9,5200 | ABŞ |
| "Statoil" | 8,5633 | Norveç |
| "McDermott" | 2,4500 | ABŞ |
| "Remco" | 2,0825 | Böyük Britaniya |
| TPAO | 1,7500 | Türkiyə |
| "Delta" | 1,6800 | Səudiyyə Ərəbistanı |
| Cəmi | 100,0000 | |

## Xəzər şelfində yataqların birgə işlənilməsi haqqında Bakıda Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici neft şirkətlərinin konsorsiumu arasında müqavilə imzalanması mərasimində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi

*20 sentyabr 1994-cü il, Bakı, Gülüstan sarayı*

– Xanımlar və cənablar, hörmətli qonaqlar!

Bu gün Azərbaycan Respublikasının həyatında tarixi bir hadisə baş verir. Xəzərin Azərbaycan Respublikasına aid sektorunda "Azəri", "Çıraq" neft yataqlarının və "Günəşli" neft yatağının bir hissəsinin müştərək işlənilməsi haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə xarici ölkələrin neft

şirkətləri arasında üç il davam edən danışıqlar sona çatmış və müştərək işlər aparılması üçün müqavilənin layihəsi hazırlanıb təqdim edilmişdir.

Bu gün biz Azərbaycanın paytaxtında, Bakıda, bu gözəl Gülüstan sarayında müqavilənin imzalanması mərasiminə toplaşmışıq. Müqavilənin imzalanması ilə əlaqədar olaraq, Bakıya xarici ölkələrdən dövlət nümayəndələri, qonaqlar gəlmişlər. Bakıya, bu mərasimdə iştirak etməyə gələn qonaqlarımızın hamısını ürəkdən salamlayır, onlara "Xoş gəlmisiniz" deyirəm.

Azərbaycan Dövlət Neft Şirkətinin xarici ölkələrin neft şirkətləri ilə apardığı danışıqlar bu ölkələrin dövlət və hökumətlərinin himayəsi altında olmuş və onlar tərəfindən dəstəklənmişdir. Müqavilənin imzalanması mərasiminə xarici ölkələrin nümayəndə heyətləri gəlmişdir. Bu mərasimdə iştirak edən Amerika Birləşmiş Ştatlarının, Rusiya Federasiyasının, Böyük Britaniya Krallığının, Türkiyə Cümhuriyyətinin, Norveçin nümayəndə heyətlərini ürəkdən salamlayır, onlara "Xoş gəlmisiniz!" deyirəm.

Bu tarixi mərasimdə iştirak edən Türkiyə Cümhuriyyətinin dövlət naziri hörmətli Nəcməddin Cövhərini salamlayıram. Böyük Britaniya Krallığının energetika naziri hörmətli cənab Timoti Eqqarı salamlayıram. ABŞ energetika nazirinin müavini hörmətli cənab Uilyam Uaytı salamlayıram. Norveç dövləti sənaye və energetika nazirinin birinci müavini hörmətli cənab Qunnar Mirvantı salamlayıram. Rusiya Federasiyasının Yanacaq və Energetika Nazirliyi Baş İdarəsinin rəisi hörmətli cənab Stanislav Puqaçı salamlayıram. Bu mərasimdə iştirak etmək üçün zəhmət çəkib Bakıya gələn və bizim sıralarımızda olan Böyük Britaniya parlamentinin üzvlərini, İngiltərə-Azərbaycan Dostluğu Cəmiyyətinin nümayəndə heyətini salamlayıram. Bizim mərasimdə iştirak edən İslam İnkişaf Bankının prezidenti hörmətli cənab Osam Cəfər Fakihi salamlayıram. Azərbaycandakı diplomatik korpusun nümayəndələrini, hörmətli səfirləri, beynəlxalq təşkilatların nümayəndələrini və rəhbərlərini salamlayıram.

Azərbaycan Dövlət Neft Şirkəti xarici ölkələrin neft şirkətləri ilə və onların sonradan birləşdikləri konsorsium ilə üç il müddətində danışıqlar aparmış, müqavilənin layihəsini birlikdə hazırlamışdır. Bu böyük neft şirkətlərinin nümayəndə heyətləri bizim bugünkü mərasimdə iştirak edir. Mən onları ürəkdən salamlayıram.

"Amoco" şirkətinin prezidenti cənab Uilyam Laurini salamlayıram. BP şirkətinin nümayəndə heyətini, onun başçısı, şirkətin prezidenti cənab Con Braunu salamlayıram. "Statoil" şirkətinin nümayəndə heyətini, onun başçısı cənab Yohan Nik Voldu salamlayıram. "LUKoil" şirkətinin nümayəndə heyətini, onun başçısı, şirkətin prezidenti cənab Vahid Ələkbərovu salamlayıram. "McDermott" şirkətinin nümayəndə heyətini, onun başçısı cənab Uilyam Vitnisi salamlayıram. "Pennzoil" şirkətinin nümayəndə heyətini, onun başçısı, şirkətin prezidenti cənab Tomas Hamiltonu salamlayıram. "Remco" şirkətinin nümayəndə heyətini, onun başçısı, şirkətin prezidenti Stiven Remponu salamlayıram. "Türkiye Petrolleri" şirkətinin nümayəndə heyətini, onun başçısı cənab Sidqi Səncəri salamlayıram. "Unocal" şirkətinin nümayəndə heyətini, onun başçısı, şirkətin prezidenti cənab Con Ameli salamlayıram. "Delta İnternational" şirkətinin nümayəndə heyətini, onun başçısı, şirkətin prezidenti cənab Fateh əl-Albanı salamlayıram.

Hörmətli xanımlar və cənablar!

Neft Azərbaycan Respublikasının və Azərbaycan xalqının ən böyük milli sərvətidir. Azərbaycan qədim dövrlərdən neft diyarıdır, neft və qaz kimi təbii sərvətlərə malikdir. Buna görə də Azərbaycanı "Odlar diyarı" adlandırırlar. Azərbaycanda neft çıxarılması, ondan istifadə edilməsi, neftin emal olunması böyük tarixə malikdir. 1847-ci ildə Azərbaycanda: Bakıda, Bibiheybətdə ilk dəfə olaraq neft fontan vurmuşdur. Azərbaycanda neftin sənaye üsulu ilə çıxarılması prosesi də o vaxtdan başlanmışdır. 1872-ci ildə Nobel qardaşları Bakıda ilk neft şirkəti yaratmışlar və bununla da Azərbaycan neftindən istifadə etmək üçün xarici ölkələrin firmaları, xarici kapital ölkəmizə gəlməyə başlamışdır.

Beləliklə, XIX əsrin ikinci yarısında bir sıra dünya ölkələri, inkişaf etmiş dövlətlərin firmaları Azərbaycanda, Bakıda neft çıxarılmasına böyük maraq göstərmişdir. Həmin əsrin sonundan etibarən Bakı neftinin çıxarılması üçün bir çox xarici ölkələrin şirkətləri fəaliyyətə başlamışdır. 1872-ci ildə Azərbaycanda 26 min ton neft çıxarılmışdır. Cari əsrin əvvəlində, 1900-cü ildə Azərbaycanda artıq 10 milyon ton neft hasil olunmuşdur ki, bu da Rusiyada çıxarılan neftin 95 faizini, dünyada çıxarılan

neftin isə 50 faizini təşkil etmişdir. XX əsrin birinci 20 ilində də Azərbaycanda xarici ölkələrin neft şirkətləri və yerli sahibkarlar Bakı neftinin çıxarılması, emalı üçün çox böyük fəaliyyət göstərmişlər və Azərbaycanda neft sənayesi inkişaf etmişdir.

Bu dövrü şərti olaraq Azərbaycanda neft sənayesi tarixinin **birinci mərhələsi** adlandırmaq olar. Həmin dövrdə Bakı neftindən bütün dünyada istifadə edilmişdir. Azərbaycan nefti xarici ölkələrin şirkətlərinə böyük mənfəət gətirmişdir. Azərbaycanda böyük sahibkarlar meydana çıxmış, onlar külli miqdarda mənfəət əldə etmişlər. Həmin dövrdə Azərbaycan neft sənayesinin inkişafı Bakının, ümumiyyətlə, Azərbaycanın inkişafına böyük təkan vermişdir. Azərbaycanın paytaxtı Bakı böyük sənaye şəhərinə çevrilmiş və o vaxtlar Rusiya imperatorluğunun ərazisində ən iri sənaye mərkəzlərindən biri olmuşdur. Qədim tarixə malik olan Bakımız həmin dövrdə yeni sima kəsb etmiş, genişlənmiş, gözəlləşmişdir və burada o vaxtın tələblərinə uyğun müasir binalar, istehsal müəssisələri, zavodlar, digər sənaye obyektləri tikilmişdir. Bu gün biz həmin mərhələdə görülmüş işləri layiqincə qiymətləndirməli və Azərbaycanın, Bakının inkişafında neftimizin böyük rol oynadığını qeyd etməliyik.

1918-ci ildə ölkəmizdə demokratik dövlət yaradılmış, Azərbaycan öz müstəqilliyini əldə etmiş, iki ilə yaxın müddətdə müstəqil dövlət kimi yaşamışdır. Bu dövlət xalqımıza mənsub olan sərvətlərdən onun rifahı naminə istifadə edilməsi üçün səylər göstərmişdir. Lakin təəssüflər olsun ki, bu səylər istənilən nəticəni verməmişdir. Çünki 1920-ci ildə Azərbaycan demokratik dövləti süquta uğramışdır.

Həmin il Azərbaycanda sovet sosialist hakimiyyəti qurulmuşdur. Bundan sonra 70 il ərzində Azərbaycan həmin quruluş şəraitində, Sovet İttifaqının tərkibində olmuşdur. Azərbaycan xalqının ən böyük sərvəti olan neftdən Sovet İttifaqının mənafeyi naminə istifadə edilmişdir. Həmin dövrü neft sənayesinin həyatında **ikinci dövr** adlandırmaq olar. Bu dövrdə Azərbaycanın neft sənayesi sürətlə inkişaf etmişdir. Sovet İttifaqının sənayesinin və iqtisadi qüdrətinin, sənaye potensialının inkişafı üçün Azərbaycanın neft sənayesi çox lazımlı olduğuna görə buraya böyük səylər yönəldilmişdir. Odur ki Azərbaycanda neft sənayesinin inkişafında mühüm nailiyyətlər qazanılmışdır.

O dövrdə Azərbaycan neftçilərinin böyük ordusu yaranmışdır. Azərbaycan neft və qaz sənayesi sürətlə inkişaf etmiş, böyük müəssisələr inşa olunmuşdur. Neft sahəsində böyük elm ocaqları, elmi-tədqiqat institutları yaradılmışdır. Neft sənayesi üçün yüksək səviyyəli mütəxəssislər hazırlamaq məqsədilə institut – indi Neft Akademiyası adlandırılan institut açılmışdır. Azərbaycan neftçiləri, mütəxəssisləri, alimləri – bir sözlə, neft sahəsində çalışan bütün adamlar respublikanın neft sənayesinin inkişafı üçün fədakarcasına işləmiş, Azərbaycanın tarixinə şanlı səhifələr yazmışlar.

Dediyim kimi, Azərbaycan neftindən onun özünün deyil, bütün Sovet İttifaqının inkişaf etməsi üçün istifadə olunmuşdur. 1941-1945-ci illərin İkinci Dünya müharibəsi dövründə Azərbaycan nefti bütün ölkədə çıxarılan neftin 75 faizini təşkil etmişdir. Həm də Azərbaycanın neft sənayesi, bizim neftçilərimiz bütün dünya üçün təhlükəli olan alman faşizminin məğlubiyyətə uğradılmasında, məhv edilməsində böyük xidmət göstərmişlər. Sovet İttifaqının hər yerində yeni neft yataqlarının aşkara çıxarılmasında, onların istismar edilməsində Azərbaycanın neft sahəsində çalışan alimlərinin, mütəxəssislərinin, neftçilərimizin güclü fəaliyyəti olmuşdur. Təsadüfi deyildir ki, onların səyləri və əməyi sayəsində Sovet İttifaqı ərazisində aşkara çıxarılan yeni neft yataqları "İkinci Bakı", "Üçüncü Bakı" və "Dördüncü Bakı" adlandırılmışdır. Rusiyanın ən böyük neft yataqları olan Sibir, Tümen yataqlarının kəşf və istismar olunmasında, orada böyük neft və qaz komplekslərinin yaradılmasında Azərbaycan neftçilərinin əvəzsiz xidmətləri var və indiyədək də onlar həmin bölgələrdə çalışan neftçilərin əksəriyyətini təşkil edirlər.

Bu gün mən bütün bu məlumatları qonaqlarımıza çatdırmağı, Azərbaycan xalqına bir daha xatırlatmağı lazım bilirəm. Çünki bunların hamısı Azərbaycan xalqının fəxridir, şöhrətidir, xalqımızın, neftçilərimizin dünya iqtisadiyyatına göstərdikləri böyük xidmətlərdən xəbər verir. Azərbaycan neftçilərinin böyük nailiyyətlərindən biri də ondan ibarətdir ki, onlar Xəzərdə neft çıxarılması üçün çox çalışmışlar. Bu sahədə istər 1920-ci illərin əvvəllərində, istərsə də 1930-cu illərdə bir çox addımlar atılmış, lakin Xəzər dənizində bol neft çıxarılmasına 1949-cu il noyabrın 7-dən başlanmışdır. Həmin gün Xəzərin indi "Neft

Daşları" adlandırdığımız sahəsində neft quyusu ilk dəfə fontan vurmuşdur. Azərbaycanın dəniz neftçilərinin təcrübəsi ötən 45 il ərzində istər keçmiş Sovet İttifaqında, istərsə də dünyanın bir çox ölkələrində dənizin dərin qatlarından neft çıxarılması üçün örnək olmuşdur. Azərbaycan alimlərinin, neftçilərinin bu sahədə xidmətləri böyükdür.

Bildiyiniz kimi, üç il bundan qabaq xalqımız öz azadlığını əldə etmiş, Azərbaycan müstəqil respublika olmuşdur. Azərbaycan xalqı öz taleyinin sahibinə çevrilmişdir. Xalqımız öz təbii sərvətlərindən özü istədiyi kimi istifadə etmək imkanları qazanmışdır. Beləliklə, Azərbaycanın həyatında yeni dövr başlanmışdır. Neft sənayemizin tarixində də şərti olaraq **üçüncü mərhələnin** bünövrəsi qoyulmuşdur.

İndi biz yeni mərhələdə müstəqil Azərbaycan Respublikasının iradəsini ifadə edərək, onun öz təbii sərvətlərindən istifadə etməsi üçün lazımi tədbirlər görürük. Son üç il ərzində xarici ölkələrin neft şirkətləri ilə danışıqlar aparılmış və sazişlər əldə edilmişdir.

Bu gün, bu tarixi gündə, Azərbaycanda neftin sənaye üsulu ilə hasil və emal edilməsinə başlandığı dövrdən təxminən 150 il sonra mən Azərbaycan neftçilərinin bütün nəsillərinə, respublikamızın neft sahəsində çalışan alimlərinin, mütəxəssislərinin, mühəndislərinin və fəhlələrinin hamısına bu dövrdə təbii sərvətlərimizi çıxarıb xalqımızın rifahının müəyyən qədər yaxşılaşmasına səy göstərdiklərinə görə, fədakar əməklərinə görə, böyük elmi kəşflərinə görə təşəkkürümü bildirirəm və onları indiyədək qazandıqları nailiyyətlər münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycanda neftin sənaye üsulu ilə istehsalına başlandığı vaxtdan indiyədək ölkəmizin ərazisində yerin təkindən – quruda və dənizdə **1 milyard 325 milyon ton neft** çıxarılmışdır. Xəzərin Azərbaycana aid hissəsində 45 ildə 400 milyon ton neft hasil edilmişdir. Bu müddətdə eyni zamanda 400 milyard kubmetrədək qaz çıxarılmışdır. Bütün bunlar böyük nailiyyətlərdir və gələcəkdə Azərbaycan Respublikasının iqtisadiyyatının, neft sənayesinin inkişafı üçün böyük əsas və təməldir. Biz ötən dövrlərdə nə qədər çox neft çıxarsaq da, nə qədər böyük nailiyyətlər əldə etsək də, bir həqiqəti nəzərə çarpdırmalıyıq ki, son vaxtlaradək, yəni Azərbaycanın müstəqilliyi əldə olunan dövrədək xalqımız heç vaxt öz təbii sərvətlərinin sahibi olmamışdır.

1920-ci ilə qədər neftimiz həm xarici neft şirkətləri tərəfindən, həm də Azərbaycanın öz sahibkarları tərəfindən hasil edilsə də, Azərbaycanın, xüsusən Bakının inkişafı üçün böyük işlər görülsə də, xalq bu sərvətin sahibi deyildi. 1920-ci ildən başlayaraq Azərbaycanın həyatında çox böyük dəyişikliklər baş vermişdir. Azərbaycan iqtisadiyyatı inkişaf etdirilmiş, respublikada nəhəng sənaye potensialı, elmi potensial yaradılmış, neft sənayemiz böyük tarixi yol keçmişdir. Ancaq yenə də Azərbaycan öz neftinin yeganə və tam sahibi olmamışdır. Bütün bu sərvətlərimiz özümüzə yox, sovet dövlətinə məxsus olmuşdur.

İndi isə biz yeni bir mərhələdə yaşayırıq. Azərbaycan Respublikası müstəqil dövlətdir. Azərbaycan xalqı öz təbii sərvətlərinin sahibidir. Bu sərvətlərdən necə istifadə edilməsini xalqımızın özü sərbəst surətdə müəyyənləşdirir. Neft yataqlarımızın müştərək işlənilməsi haqqında Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici ölkələrin aparıcı neft şirkətləri arasında danışıqlar üç il ərzində məhz bu prinsiplər əsasında aparılmışdır.

Şübhəsiz, danışıqlar hamar yolla getməmişdir. Burada çətinliklər də olmuşdur, enişlər və yoxuşlar da. Lakin danışıqlar, nəhayət, başa çatdırılmışdır. Xarici ölkələrin zəngin təcrübəli böyük neft şirkətlərinin Azərbaycan neftinə marağı təbii haldır və biz bunu məmnuniyyətlə qəbul etmişik. Elə özümüz də buna böyük maraq göstərmişik və göstəririk. Keçmiş dövrlərdən fərqli olaraq, indi bu məsələlər barədə Azərbaycan Respublikası hər bir ölkə ilə, o cümlədən bu neft şirkətlərinin mənsub olduqları ölkələrlə, xarici dövlətlərin neft şirkətləri ilə müstəqil surətdə danışıqlar aparır və danışıqlarda öz prinsiplərinin qəbul edilməsinə çalışır.

Xəzərin Azərbaycana aid sektorundakı "Azəri" və "Çıraq" neft yataqlarının, "Günəşli" neft yatağının bir hissəsinin müştərək işlənilməsi haqqında müqavilə Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici ölkələrin neft şirkətləri arasında danışıqlar nəticəsində, nəhayət, hazırlanıb başa çatdırılmışdır. Bu müqavilə mənə, Azərbaycan prezidentinə təqdim edilmişdir. Sizə məlum olduğu kimi, sentyabrın 14-də müqavilənin layihəsi təhlil edildikdən sonra mən onun Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən imzalanması haqqında fərman vermişəm. Xarici ölkələrin neft şirkətləri də layihənin imzalanması haqqında qərar qəbul etmişdir. Bu şirkətlərin mənsub olduqları ölkələrin dövlət rəhbərləri də

xeyir-dua vermişlər. Bütün bunların nəticəsində indi biz buraya, müqavilənin imzalanması mərasiminə toplaşmışıq.

Açıq demək istəyirəm, müqavilədə Azərbaycan tərəfinin istək və arzularının heç də hamısı öz əksini tapmamışdır. Lakin biz başa düşürük ki, hər hansı bir müqavilə hər iki tərəfin mənafelərini təmin etməlidir. Qərb neft şirkətlərinin konsorsiumu öz mənafelərini təmin etməyə çalışmış, Azərbaycan Dövlət Neft Şirkəti isə Azərbaycan Respublikasının milli mənafelərini təmin etməyə səy göstərmişdir.

Deyə bilərəm ki, görülən böyük və gərgin işin nəticəsində, tərəflərin məsələyə yüksək məsuliyyətlə yanaşması nəticəsində, nəhayət, hər iki tərəfin mənafelərinə cavab verən layihə hazırlanmışdır. Ona görə də mən bu gün imzalanacaq müqaviləni Azərbaycan Respublikasının indisi və gələcəyi üçün iqtisadi baxımdan mənfəətli hesab edirəm və onun imzalanmasına qərar vermişəm. Biz belə bir addım atmaqla Azərbaycanın dünya üçün, dünya iqtisadiyyatı üçün açıq ölkə olduğunu nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, Azərbaycanın tam müstəqil dövlət olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk. Biz müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük şirkətləri arasında əlaqələr yaradır, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması üçün əsas yaradırıq. Biz bu müqaviləni imzalamaqla dünyaya bir daha nümayiş etdiririk ki, müstəqil Azərbaycan Respublikası demokratik və hüquqi dövlətdir.

Azərbaycanda demokratik prinsiplərin bərqərar olması və inkişaf etməsi üçün geniş meydan açılmışdır. Azərbaycan Respublikası bazar iqtisadiyyatı yolu ilə getmək əzmindədir. Bu müqavilənin imzalanması bazar iqtisadiyyatının Azərbaycanda həyata keçirilməsi üçün ilk böyük addımdır. Biz bu müqaviləni imzalamaqla xarici ölkələrdən Azərbaycana investisiya qoyulması üçün böyük yol açırıq, digər sahələrdə çalışan şirkətlərin də Azərbaycanda fəaliyyət göstərməsi üçün zəmin yaradırıq, müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatında və ictimai-siyasi həyatında hökm sürən sabitliyi dünyaya bir daha nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla müqavilədə iştirak edən

şirkətlərin mənsub olduqları böyük ölkələrlə – Amerika Birləşmiş Ştatları, Rusiya, İngiltərə, Türkiyə, Norveç kimi dövlətlərlə dostluq əlaqələrinin, iqtisadi əməkdaşlığın və ümumiyyətlə, bütün sahələrdə əlaqələrin möhkəmlənəcəyinə ümid bəsləyirik.

Beləliklə, müqavilənin imzalanması üçün gözəl şərait yaranmışdır və biz bu gün böyük bir hadisənin şahidiyik. Müqavilənin imzalanması Azərbaycan Respublikasının həyatında, iqtisadiyyatında və xüsusən neft sənayesində yeni bir mərhələ açır. Müqavilə 30 il müddətinə bağlanır.

Deməli, qarşımızda uzun bir yol var və böyük işlər, böyük vəzifələr durur. Müqaviləni hazırlayanlar yaxşı bilirlər, lakin mən buraya toplaşanlara, bütün Azərbaycan xalqına bəyan etmək istəyirəm ki, bu müqavilənin bağlanması nə qədər çətin idisə, onun həyata keçirilməsi ondan da çətin olacaqdır. Müqavilənin hər iki tərəf üçün, o cümlədən Azərbaycan xalqı üçün, müstəqil Azərbaycan Respublikası üçün mənfəəti və müsbət nəticələri onun ardıcıl surətdə icrasından asılıdır. Müqavilə ikitərəfli hərəkət olan yola bənzəyir: gərək hər iki tərəf eyni sürətlə hərəkət etsin. Şübhəsiz ki, burada xarici neft şirkətlərinin üzərinə çox böyük vəzifələr düşür.

Ümidvar olduğumu bildirmək istəyirəm ki, həmin şirkətlər və onların mənsub olduqları ölkələrin dövlət orqanları bu müqavilənin həyata keçirilməsi üçün vaxtında lazımi tədbirlər görəcəkdir. Azərbaycan Respublikasının üzərinə düşən vəzifələr daha çətin, daha ağırdır. Bilirsiniz ki, Azərbaycan iqtisadiyyatı ağır böhran içərisindədir. Neft sənayesində də böyük çətinliklər yaranmışdır. Məhz bu böhrandan çıxmaq, Azərbaycan iqtisadiyyatını inkişaf etdirmək, xalqımızın rifahını qısa müddətdə lazımi səviyyəyə qaldırmaq üçün hamı əl-ələ verib müqavilənin həyata keçirilməsinə çalışmalıdır.

Ümidvaram ki, Azərbaycanın qəhrəman və təcrübəli neftçiləri, alimləri, mütəxəssisləri, iqtisadiyyatımızda bu sahə ilə məşğul olan şəxslər – bir sözlə, hamı bu vəzifəni ən böyük, ən şərəfli vəzifə kimi qəbul edib, onun həyata keçirilməsinə çalışacaqdır. Mən Azərbaycan Prezidenti kimi bu müqavilənin imzalanmasına qərar verərək öz məsuliyyətimi hiss edirəm, sizə söz verirəm ki, onun həyata keçirilməsi üçün əlimdən gələni əsirgəməyəcəyəm. Bu gün bu təntənəli və möhtəşəm mərasimdə mən Azərbaycan neftçilərini, Azərbaycan xalqını, bütün

Azərbaycan vətəndaşlarını bu əlamətdar tarixi hadisə münasibətilə təbrik edirəm. Azərbaycan Dövlət Neft Şirkətinin bu sahədə çalışan nümayəndə heyətinin əməyini, ümumiyyətlə, şirkətin bu sahədə gördüyü işləri qiymətləndirirəm və onları nail olduqları müvəffəqiyyətlər münasibətilə təbrik edirəm.

Bu müqavilənin hazırlanıb başa çatdırılması üçün böyük işlər görmüş olan xarici ölkələrin neft şirkətləri konsorsiumunun rəhbərlərini, həmin şirkətlərin işçilərinin hamısını ürəkdən təbrik edir, onlara xoş arzularımı yetirir və əmin olduğumu bildirmək istəyirəm ki, əməkdaşlığımız uğurlu olacaqdır. Xarici neft şirkətlərinin mənsub olduqları ölkələrin: ABŞ-nin, Rusiyanın, Böyük Britaniyanın, Türkiyənin, Norveçin dövlət və hökumət başçılarını bu hadisə münasibətilə ürəkdən təbrik edirəm.

Biz bu müqavilə əsasında sıx birləşir, böyük əməkdaşlığa başlayırıq və mən şübhə etmirəm ki, əməkdaşlığımız uğurlu olacaqdır, buna maneçilik törədən bütün qüvvələr dəf ediləcəkdir, müstəqil Azərbaycan Respublikası öz taleyinin, öz sərvətlərinin sahibi kimi bu əməkdaşlıq sayəsində dünya birliyində, dünya iqtisadi birliyində öz layiqli yerini tutacaqdır.

Sizi, bu mərasimə toplaşanları, bütün bu məsələlərə müsbət maraq göstərənlərin hamısını bir daha ürəkdən təbrik edir, müqavilənin imzalanması üçün xeyir-dua verirəm. Xeyirli olsun, uğurlu olsun. Azərbaycan xalqının xoşbəxt gələcəyi naminə bu müqavilənin bu gün burada imzalanmasını ürəkdən təbrik edirəm. Sağ olun.

## Müqavilənin imzalanması mərasimində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyevin çıxışı

– "Əsrin müqaviləsi" və Azərbaycanın neft və qaz yataqlarının sənaye üsulu ilə işlənilməsi 140 il bundan əvvəl başlamışdır. 1901-ci ildə dünya neft hasilatının təqribən yarısını Azərbaycan nefti təşkil etmişdir. Əsrin əvvəllərində bizim neft sənayeçilərimiz dünya bazarlarında Avropanın və Şimali Amerikanın neft

şirkətləri ilə uğurlu rəqabət aparırdılar. Eyni zamanda həmin illərdə xarici sərmayədarlar Azərbaycanda neftçıxarmanın, neftayırmanın, neft maşınqayırmasının, nəqliyyat kommunikasiyalarının inkişafına böyük kömək göstərirdilər. Birinci Dünya müharibəsi qurtaranda Rusiya imperiyası parçalanandan sonra Azərbaycan müstəqil inkişaf yoluna qədəm qoydu. Tarixin gedişi cəmi 23 ay ömür sürmüş Azərbaycan Demokratik Respublikasını bu imkandan hərtərəfli istifadə etməyə qoymadı, lakin indi ölkəmizin və onun vətəndaşlarının tərəqqisi naminə dövlətçiliyin, demokratik təsisatların bərqərar olunub möhkəmləndirilməsi üçün yenidən real şərait yaranmışdır.

Hazırda Azərbaycan Respublikasının neft sənayesi öz inkişafının keyfiyyətcə yeni mərhələsindədir ki, bu da bir tərəfdən ən əvvəl respublikanın 1991-ci ildə müstəqillik əldə etməsi, digər tərəfdən çox böyük neft və qaz yataqlarının aşkar edilməsi, onların mənimsəmək üçün geniş perspektivlər açılması sayəsində mümkün olmuşdur. Lakin bir sıra obyektiv səbəblər üzündən son illər Azərbaycanda neft hasilatı xeyli azalmışdır və deməliyik ki, bu ölkənin siyasi-iqtisadi vəziyyətini, onun maliyyə-texniki imkanlarını güzgüdə olduğu kimi əks etdirir.

Azərbaycan iqtisadiyyatına xarici sərmayələrin geniş miqyasda cəlb edilməsinə hələ 1990-cı ildə, keçmiş SSRİ-nin mövcud olduğu dövrdə başlanmışdı, həm də qeyd edilməlidir ki, keçmiş SSRİ-nin ərazisində bu işə ilk dəfə bizim respublikamız Xəzər dənizində "Azəri" neft və qaz yatağının işlənilməsinə dair tender elan etməklə başlamışdı. Lakin onda da, Azərbaycan siyasi müstəqillik əldə edəndən sonra da dəqiq strategiya, möhkəm siyasi iradə və sarsılmaz qətiyyətin olmaması, həmçinin daxili və xarici qarşıdurmalar bu prosesi müvəffəqiyyətlə başa çatdırmağa imkan vermədi.

Təqribən üç il davam edən danışıqlar 1993-cü ildə, əslində, çıxılmaz vəziyyətə düşdü. 1994-cü ilin fevralından başlayaraq həmin ilin dekabrınadək ardıcıl surətdə həm yeni, çox məsul qərarlar qəbul etmək, həm də konkret əməli işlər görmək lazım gəldi ki, təkcə bizim respublikamız üçün deyil, eləcə də digər dövlətlər, o cümlədən Azərbaycanla həmsərhəd dövlətlər üçün böyük və prinsipial əhəmiyyətə malik sənəd – Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının

işlənilməsi və neft hasilatının pay bölgüsü haqqında saziş onun bütün iştirakçıları tərəfindən razılaşdırılıb imzalansın və Azərbaycan parlamenti tərəfindən təsdiq edilsin. Son mərhələdə altı dövləti: ABŞ-ı, Böyük Britaniyanı, Rusiyanı, Norveçi, Türkiyəni və Səudiyyə Ərəbistanını təmsil edən "Amoco", BP, "Pennzoil", "Unocal", "Statoil", "McDermott", "LUKoil", "Türkiye Petrolleri Anonim Ortaklığı", "Delta" və "Remco" kimi güclü şirkətlərin daxil olduğu xarici neft şirkətləri konsorsiumu ilə üç ildən çox aparılan danışıqlar 1994-cü il sentyabrın 20-də Bakıda sazişin təntənəli şəkildə imzalanması mərasimi ilə başa çatdı.

Sazişin imzalanması yolu keşməkeşli olmuşdur. Ermənistanla elan edilməmiş müharibə vəziyyətində olan, daxili siyasi çəkişmələrə məruz qalan respublikamız tərəflərin iqtisadi mənafelərinin ədalətli tarazlığını tapmaqla yanaşı, bəlkə də, daha mühüm addım atmalı, daha ciddi siyasi qərar qəbul etməli idi: Azərbaycanın qapılarını bütün ölkələrin sərmayədarlarının üzünə geniş açmaq, onu çoxtərəfli beynəlxalq əməkdaşlıq meydanına çevirmək. Biz möhkəm və qəti əminik ki, inkişaf etmiş bazar iqtisadiyyatına malik olan, dünyanın bütün bölgələri ilə iqtisadi əlaqələr saxlayan demokratik, güclü, çiçəklənən, dinc Azərbaycan məhz bu yolla yaranacaqdır.

Xəzər dənizinin Azərbaycan sektorunda ümumi sahəsi 432,4 kvadrat kilometr olan "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və neft hasilatının pay bölgüsü haqqında saziş respublikanın siyasi və iqtisadi həyatında unikal hadisədir, Azərbaycan xalqının sosial vəziyyətinin yaxşılaşdırılmasında və maddi rifahının yüksəldilməsində son dərəcə mühüm rol oynamalıdır.

Bu yataqlarda güman edilən neft ehtiyatları 511 milyon ton, səmt qazı ehtiyatları 70 milyard kubmetrdir. Sazişə uyğun olaraq, gözlənilən **55 milyard kubmetr səmt qazı** təmənnasız, haqqı ödənilmədən Azərbaycana verilir və müqavilənin iqtisadi cəhətdən qiymətləndirilməsində nəzərə alınmır.

**90 milyard kubmetr həcmində qeyri-səmt qazına** gəlincə, şərtləşdirildiyinə görə, yataqların qaz laylarının işlənilməsi hökumətin icazəsinə əsasən həmin konsorsiumla bağlanmalı olan ayrıca sazişdə nəzərdə tutulacaqdır.

**Yataqların işlənilməsi** bu saziş Milli Məclis tərəfindən təsdiq olunandan sonra 30 illik bir dövrü əhatə edəcəkdir. Onun **birinci**

**mərhələsində qiymətləndirmə dövrünün** gedişində minimum proqrama uyğun olan məcburi işlər görülməlidir. Həmin işlər müqavilənin qüvvəyə mindiyi tarixdən sonra 18 aydan gec olmayaraq "Çıraq-1" platformasından (bundan əvvəl ARDNŞ-nin qüvvəsi ilə tikilmiş, xarici şirkətlərin rekonstruksiya edib modernləşdirəcəkləri və lazım bildikləri qaydada istifadə edəcəkləri platforma) ilkin neft hasilatının təmin olunmasına imkan verəcəkdir.

**İkinci mərhələ** yataqların **tammiqyaslı işlənilməsinə** keçiddir ki, bu da qüvvəyə minmə tarixindən sonra 48 ay ərzində birinci platformanın tikilib qurtarmasını, ilk quyunun qazılıb istifadəyə verilməsini, beləliklə, müvafiq neft layının işlənilməyə başlamasını nəzərdə tutur.

**Üçüncü mərhələdə**, qüvvəyə minmə tarixindən məhz 54 ay keçəndən sonra xam neftin əsas ixracat boru kəmərinə verilməsinə başlamaq planlaşdırılır. Yataqların işlənilməsinə başçılıq etmək Rəhbər Komitəyə həvalə olunmuşdur.

Rəhbər Komitəyə bərabər nisbət əsasında sazişin iştirakçısı olan tərəflərin hərəsindən 10 nümayəndə daxildir. Komitənin sədrini Azərbaycan tərəfi təyin edir, katib isə podratçı tərəfindən onun Rəhbər Komitəyə seçdiyi nümayəndələr arasından təyin olunur. Rəhbər Komitənin müzakirəsinə verilən hər hansı məsələyə dair qərar qəbul edilərkən həm ARDNŞ, həm də podratçı bir səsə malikdir.

Müqavilədə nəzərdə tutulmuşdur ki, Azərbaycanda neftə daxili tələbatın ödənilməsi zərurəti yarananda xarici şirkətlər özlərinə məxsus neftin **10 faizini respublikaya sata bilər**. Üstəlik ARDNŞ əsas ixracat boru kəmərinin son məntəqəsindəki nöqtədə xam neftin podratçıya məxsus payından daha 10 faizə qədərini satın almaq hüququna malikdir.

Sazişdə xarici şirkətlərin 300 milyon dollar məbləğində **bonus** ödəmələri nəzərdə tutulur. Bonus aşağıdakı mərhələlərlə ödənilməlidir:

- 50 faizi – sazişin qüvvəyə minmə tarixindən 30 gün sonra;
- 25 faizi – orta sutkalıq debit 40 000 barelə çatdırılandan sonra;
- 25 faizi – ixrac boru kəməri işləməyə başlayandan sonra.

Müqaviləyə görə, məsrəflərin ödənilməsi hesabı təqvim kvartalı əsasında aparılır – ümumi hasilat həcmindən birinci növbədə istismar məsrəfləri, sonra isə qalan xam neftin 50 faizdən çox olmayan həcmindən əsaslı məsrəflər ödənilir. Ödənilməmiş məsrəflər tam ödənilənədək sonrakı dövrlərə keçirilməklə, **Libor +4%** dərəcəsi ilə faizlə hesablanır. İstismar məsrəfləri və əsaslı məsrəflər ödəniləndən sonra qalan xam neft kapital qoyuluşunun tam səmərəliliyinin real norması dinamikasına əsaslanan şkalalar əsasında tərəflər arasında bölüşdürülür.

Podratçı tərəflərin mənfəətindən sazişin müvafiq maddələrinə uyğun olaraq, **25 faiz** həcmində vergi tutulacaqdır.

Müqavilənin ARDNŞ texniki proqramından və baza şkalasından istifadə edilməklə aparılan təhlili göstərir ki, onun əsas iqtisadi nəticələri belədir: yataqların işlənilməsinin bütün dövrü ərzində əsaslı məsrəflər **7,5 milyard dollar** (1993-cü ilin qiymətləri ilə) təşkil edəcək, qeyri-rentabelli illər çıxılmaqla neft hasilatı **504 milyon ton** və istismar məsrəfləri **5,8 milyard dollar** olacaq, neftin bir tonu 133 dollara (bir barel üçün təxminən 18 dollar – müəl.) satılarsa, ümumi gəlirin 49,7 faizi Azərbaycanın payına, 12,8 faizi xarici tərəfdaşların payına düşəcəkdir.

Mənfəət nefti bu nisbətlə bölüşdürüləcəkdir – Azərbaycana **80 faiz**, digər tərəflərə **20 faiz**. Bu zaman inflyasiya nəzərə alınmadan daxili mənfəət norması ümumən layihə dövründə 24 faizə çatacaqdır. Sazişin iqtisadi mexanizmi tərəflərin mənafelərinin qarşılıqlı uyğun gəlməsini təmin edir.

Podratçı tərəflər bu sazişə əsasən podratçının götürdüyü bütün öhdəliklər üçün ümumi və fərdi məsuliyyət daşıyır. Öz növbəsində saziş Azərbaycan Respublikasının və İngiltərənin qanunları üçün ümumi hüquq prinsiplərinə, hər hansı məsələ barəsində ümumi prinsiplər olmadığı hallarda isə **Kanadanın Alberta əyalətinin ümumi hüquqi prinsiplərinə** uyğun olaraq tənzim və təfsir edilir.

Bundan başqa, sazişin əsas müddəalarında nəzərdə tutulmuşdur ki, tərəflərin iqtisadi mənafelərinin pozulduğu halda mənafelər ya sazişə müvafiq düzəlişlər keçirilməsi, ya da meydana çıxan itkilərin, ziyanların və ya zəruri ödənilməsi yolu ilə tarazlanıb bərpa edilməlidir.

Sazişin şərtlərinə görə, podratçı tərəflər bu sazişdəki paylarının hamısını və ya bir qismini sərbəst surətdə özlərinin ortaq

şirkətlərinə vermək hüququna malikdir, üçüncü tərəflərə vermək üçün isə hökmən ARDNŞ-nin razılığı gərəkdir. Sazişə görə, podratçı neft-qaz əməliyyatlarını lazımi səmərə ilə və təhlükəsizlik qaydalarına əməl etməklə aparmağı, beynəlxalq neft sənayesinin hamılıqla qəbul olunmuş standartlarına riayət etməyi və ətraf mühitin ümumi tarazlığının hər hansı potensial pozuntusu hallarını minimuma endirməkdən ötrü yuxarıda göstərilən standartlara uyğun olaraq, bütün ağlabatan tədbirləri görməyi öhdəsinə götürür. Bununla birlikdə bu uzunmüddətli layihənin həyata keçirilməsi xarici sərmayədarların hüquqi cəhətdən müdafiə olunmasını, onlar üçün maksimum dərəcədə əlverişli "sərmayədarlıq iqlimi" yaradılmasını tələb edir.

Respublika bunu əsas tutaraq Azərbaycan parlamentində müqaviləyə qanun qüvvəsi verilməsi öhdəliyini öz üzərinə götürməklə Azərbaycan hökuməti adından bir sıra güzəştlər və əlavə imtiyazları müəyyənləşdirəcək, o cümlədən:

- qüvvədə olduğu bütün müddət ərzində müqavilənin şərtlərinin iqtisadi sabitliyi;
- xarici iştirakçıların hüquqlarının və əmlakının müsadirə edilməsi, milliləşdirilməsi və ya hər hansı digər yollarla özgəninkiləşdirilməsi imkanlarının aradan qaldırılması;
- Azərbaycanda qanunvericilik dəyişiklikləri nəticəsində itirilmiş hüquqların və yaxud əmlakın tam kompensasiyasına təminat verilməsi;
- müqavilənin gedişində həyata keçirilən neft-qaz əməliyyatlarına daxil olan maddi ehtiyatların, maşınların, avadanlığın və materialların sərbəst ixrac (idxal) rejimi qoyulması;
- lazımi lisenziyaların və icazələrin alınmasında hər cür kömək göstərilməsi;
- neft-qaz əməliyyatlarını həyata keçirmək üçün mövcud olan və lazım gələn infrastruktura sərbəst buraxılışın təmin edilməsi.

Məqsəd birdir – Azərbaycanın malik olduğu imkanlardan tam istifadə etmək.

# Azərbaycan Respublikası Nazirlər Kabineti

## QƏRAR №385

*11 noyabr 1994-cü il, Bakı şəhəri*

### Xəzərin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və neft hasilatının pay bölgüsü haqqında Sazişə Azərbaycan Respublikası hökumətinin təminatı və öhdəlikləri haqqında

Azərbaycan Respublikasının dəniz neft və qaz yataqlarının işlənilməsini sürətləndirmək haqqında Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 4 fevral tarixli 56 nömrəli Sərəncamına əsasən, Dövlət Neft Şirkətinin xarici neft şirkətləri ilə danışıqları başa çatdıraraq, "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və neft hasilatının pay bölgüsü haqqında Saziş"i 1994-cü il 20 sentyabr tarixində imzaladığını nəzərə alaraq, Nazirlər Kabineti qərara alır:

Göstərilən Sazişin 5 nömrəli əlavəsində qeyd olunmuş Azərbaycan Respublikası hökumətinin təminatı və öhdəlikləri təsdiq edilsin.

Baş nazir vəzifəsini icra edən
**Fuad Quliyev**

## Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və neft hasilatının pay bölgüsü haqqında Sazişin qəbul və təsdiq edilməsi, onun həyata keçirilməsinə icazə verilməsi barədə

# Azərbaycan Respublikasının Qanunu

Xəzər dənizinin Azərbaycan sektorunun neft yataqlarının birgə işlənilməsi haqqında xarici neft şirkətləri konsorsiumu ilə danışıqların yekunları barəsində Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 14 sentyabr tarixli Fərmanına uyğun olaraq, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə xarici neft şirkətləri konsorsiumunun Xəzər dənizinin Azərbaycan sektorunda "Çıraq", "Azəri" yataqlarının, habelə "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi haqqında Saziş 1994-cü il sentyabrın 20-də imzalanmışdır.

### Azərbaycan Respublikası Milli Məclisi

Azərbaycan Respublikası qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq imzalandığını, karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikası qanunlarının olmadığını və həmin Sazişin şərtlərinə görə qanunvericilik orqanı tərəfindən təsdiq edildikdən sonra Sazişin qanun olmasını, bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına (Əsas Qanununa) tam uyğun olduğunu nəzərə alaraq, habelə Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikası Konstitusiyasına (Əsas Qanununa) əsasən qərara alır:

1. Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və neft hasilatının pay bölgüsü haqqında Azərbaycan Respublikası Dövlət Neft

Şirkəti ilə “Amoko Kaspian Si Petroleum Limited”, “Bİ-Pİ Eksploreyşn (Kaspian Si) Limited”, “Delta Nimir Xəzər Limited”, “Den Norske Stats Olyeselskap a.s.”, “LUKoil” Səhmdar Cəmiyyəti, “McDermott Azərbaycan İnk.”, “Pennzoil Kaspian Korporeyşn”, “Remko Xəzər Enerci Limited”, “Türkiye Petrolleri A.O.”, “Yunokal Xəzər LTD.” arasında Saziş qəbul və təsdiq edilir, onun həyata keçirilməsinə icazə verilir.

**2.** Sazişə əsasən Azərbaycan Respublikası Nazirlər Kabineti adından və onun tapşırığı ilə Azərbaycan Respublikasının Baş naziri vəzifələrini icra edənin 1994-cü il noyabrın 11-də imzaladığı Azərbaycan Respublikası hökumətinin təminatı və öhdəlikləri barədə sənəd qəbul və təsdiq edilir, onun həyata keçirilməsinə icazə verilir.

**3.** Bu Qanun qüvvəyə mindikdən sonra Saziş və 1994-cü il noyabrın 15-də imzalanmış Azərbaycan Respublikası hökumətinin təminatı və öhdəlikləri barədə sənəd qanun olurlar, habelə onlar Sazişdə konkret surətdə başqa cür göstərilmiş hallar istisna edilməklə və Sazişin qüvvədə olduğu müddət ərzində Azərbaycan Respublikasının müddəaları bu Sazişə və təminatlar barədə sənədə uyğun gəlməyən və ya zidd olan hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanundan, fərmandan, yaxud inzibati sərəncamdan (və ya onun bir hissəsindən) üstün tutulur.

**4.** Bu qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan konkret sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, konkret və ya bu cür başqa sənədlərlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin xarici pay iştirakçılarına konkret sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabineti, nazirlikləri, dövlət komitələri, baş idarələri və digər dövlət orqanları Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına və Birgə Əməliyyat Şirkətinə bütün lisenziyaların, gömrük icazələrinin, vizaların, başqa səlahiyyətlərin və sanksiyaların verilməsini təmin edir.

**6.** Sazişə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər edilməsi və ya Sazişin öz qüvvəsini itirməsi yalnız Sazişin tərəflərinin yazılı razılığı ilə, yaxud Sazişin şərtlərinə və müddəalarına uyğun olaraq həyata keçirilir.

**7.** Bu Qanun imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər Əliyev**
Bakı şəhəri, 2 dekabr 1994-cü il

IV FƏSİL

# MÜQAVİLƏNİN HƏYATA KEÇİRİLMƏSİNİN MƏRHƏLƏLƏRİ

## AÇG yataqlarının işlənilmə mərhələləri və hasilata başlanılmasının tarixçəsi

"Əsrin müqaviləsi" 1995-ci ilin əvvəlindən həyata keçirilməyə başlayıb. Müqavilə sahəsində üç yataq yerləşir və beynəlxalq konsorsium onların işlənilməsini mərhələli şəkildə həyata keçirib.

"İlkin neft" layihəsi "Çıraq" yatağından neft hasilatına başlamağı nəzərdə tuturdu. AÇG-nin işlənilməsi dövründə ən mürəkkəb və məsuliyyətli mərhələ məhz "İlkin neft" layihəsi olub. Çünki burada təşkilati məsələlələrin həllinə xeyli vaxt sərf edilib, layihəni icra edəcək komanda formalaşdırılıb və hər şey, necə deyərlər, "ağ vərəq"dən yaradılıb. Ona görə də ilkin neftin hasilatı, ixracı və əsas ixrac boru kəmərinin tikintisi heç də müqavilədə göstərildiyi zaman kəsiyində həyata keçirilməyib.

Ancaq əsas məsələ budur ki, layihə addım-addım irəliləyir və son nəticədə hasil edilən neft dünya bazarlarına axır, həm xarici şirkətlər, həm də Azərbaycan layihədən qazanc əldə etməyə başlayırdı.

AÇG-nin növbəti mərhələlərinin (layihənin tammiqyaslı işlənilməsi) həyata keçirilməsinin müqavilədə nəzərdə tutulduğu qrafikdən geri qalması obyektiv səbəblərlə bağlı idi. Yəni əsas ixrac boru kəməri olmadan irihəcmli kapital xərcləmələrinə gedib platformalar tikməyin, sualtı və sahilyanı infrastrukturun vaxtından

əvvəl yaradılmasının əhəmiyyəti olmayacaqdı. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisi yalnız 2002-ci ilin sentyabrında sanksiyalaşdırıldı və bu, "Faza-2" layihəsi üzrə sazişin imzalanması ilə eyni günə təsadüf etdi.

2002-2007-ci illər Azərbaycanın müasir neft sənayesi tarixində həm kapital baxımından, həm də masştabına görə ən zəngin il olub. Bu illərdə ölkədə beş dəniz platforması (dördü AÇG layihələri çərçivəsində, biri isə "Şahdəniz-1" layihəsi üzrə), iki magistral ixrac kəməri (Bakı-Tbilisi-Ceyhan neft kəməri və Cənubi Qafqaz Qaz Kəməri) tikilib, Səngəçal terminalı genişləndirilib, yeni qaz terminalı inşa olunub, dəniz dibində 500 km-dən çox sualtı infrastruktur yaradılıb, nəhayət, 2003-cü ildə Bakıda yeni üzən qazma qurğusu istismara verilib.

AÇG üzrə növbəti mərhələlərdə tikilən platformaların məqsədi isə çıxarılan neftin artımına yox, hasilatın stabilləşdirilməsinə xidmət etmək olub.

<table>
<tr><th colspan="2">Layihənin mərhələləri</th><th>Platformanın adı</th><th>Sanksiyalaşdırma tarixi</th><th>İlk neft hasilatı tarixi</th></tr>
<tr><td colspan="2">"İlkin neft" layihəsi</td><td>"Çıraq"</td><td>Yanvar 1995</td><td>Noyabr 1997</td></tr>
<tr><td rowspan="3">Tam miqyaslı işlənilmə</td><td>Faza-1</td><td>"Mərkəzi Azəri"</td><td>Avqust 2001</td><td>Fevral 2005</td></tr>
<tr><td>Faza-2</td><td>"Qərbi Azəri"<br>"Şərqi Azəri"</td><td>Sentyabr 2002<br>Sentyabr 2002</td><td>Dekabr 2005<br>Oktyabr 2006</td></tr>
<tr><td>Faza-3</td><td>"Dərinsulu Günəşli"</td><td>Sentyabr 2004</td><td>Aprel 2008</td></tr>
<tr><td colspan="2">COP</td><td>"Qərbi Çıraq"</td><td>Mart 2010</td><td>Yanvar 2014</td></tr>
<tr><td colspan="2">Yeni müqavilə (AÇG-2)</td><td>"Azəri-Mərkəzi-Şərqi"</td><td>Aprel 2019</td><td>I rüb 2024 – proqnoz</td></tr>
</table>



## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin AÇG müqaviləsini həyata keçirən Rəhbər Komitənin ilk iclasının açılışında çıxışı

*24 yanvar 1995-ci il, Azərbaycan Tarixi Muzeyi*

– Hörmətli xanımlar və cənablar! Hörmətli qonaqlar!

Bir neçə il müddətində hazırlanmış və artıq imzalanmış neft müqaviləsinin – əsrin böyük müqaviləsinin həyata keçirilməsi üçün bu gün əməli iş başlanır.

Bu müqavilənin bağlanması üçün aparılan danışıqlar, görülən hazırlıq işləri və nəhayət, onun imzalanması ərəfəsindəki proseslərin hamısı, bir daha qətiyyətlə deyə bilərik ki, hamar, asan olmamışdır. Bu tarixi hadisə böyük zəhmətin, əməyin və eyni zamanda inadla həyata keçirilən işin nəticəsi olmuşdur.

Azərbaycan neft ölkəsidir. Qədim zamanlarda bizim ölkəmizə, vətənimizə "Odlar diyarı" deyərdilər və biz bu adla fəxr edirik. Məlumdur ki, XIX əsrin ikinci yarısından başlayaraq bizdə, ola bilər ki, dünyada ilk dəfə olaraq neft istehsalına başlanılıb. Azərbaycanın neft sənayesi böyük tarixə malikdir. O, bir çox mühüm mərhələlərdən keçibdir. Neft sənaye üsulu ilə çıxarılmağa başlayanda Qərb ölkələrinin neft şirkətləri Azərbaycanda fəaliyyət göstərib, burada neft hasilatı və emalı sahəsində müştərək işlər aparıb. Sonra bu şirkətlərin Azərbaycanda fəaliyyəti

dayandırılıb, neft sənayesi sovet dövləti tərəfindən milliləşdirilibdir, istehsal edilən neft uzun illər Sovetlər İttifaqının ehtiyaclarını təmin etmək üçün istifadə olunubdur.

Xalqımız üç il bundan əvvəl öz müstəqilliyini, milli azadlığını əldə edib. Azərbaycan xalqı, Azərbaycan dövləti öz sərvətlərinin sahibi olub. Bütün bunlar müstəqil Azərbaycan dövlətinin neft yataqlarından müstəqil, özü istədiyi kimi istifadə etməsi üçün imkanlar yaradıb. Məlumdur ki, Azərbaycan neftçilərinin neftçıxarma sahəsində həm elmi, həm texniki, həm də əməli iş aparılmasında böyük təcrübəsi, potensialı vardır. Azərbaycan alimlərinin, mühəndislərinin, geoloqlarının, neftçilərinin, neft ustalarının gərgin əməyi və böyük fəaliyyəti nəticəsində 45 ildən artıqdır ki, Xəzər dənizində neft hasil olunur. Bunlar hamısı müstəqil Azərbaycan dövlətinin öz sərvətlərindən, o cümlədən onun zəngin sərvəti olan neft yataqlarından istifadə etməsi üçün çox gözəl əsas yaratmışdır.

Ancaq eyni zamanda indiki mərhələdə biz bu neft yataqlarından səmərəli istifadə etmək üçün dünyanın böyük təcrübəyə, böyük potensiala malik olan neft şirkətləri ilə əməkdaşlıq etməyi də lüzumlu və zəruri hesab edirik. Məhz bunların nəticəsində Xəzər dənizinin Azərbaycan bölməsindəki neft yataqlarından xarici ölkələrin böyük neft şirkətləri ilə müştərək istifadə olunması barədə üç ildən çox müddətdə danışıqlar aparılıb. Böyük məmnuniyyət hissi ilə qeyd etməliyəm ki, bu danışıqlar nə qədər çətin də olsa, müvəffəqiyyətlə başa çatıb və neft yataqlarından birlikdə istifadə olunması üçün böyük neft müqaviləsi imzalanıbdır.

Neft yataqlarından istifadə olunması üçün dünyanın iri neft şirkətləri ilə üç ildən artıq bir dövrdə aparılan danışıqlar Azərbaycan və demək olar ki, dünya ictimaiyyətinin daim diqqət mərkəzində olub. Bu müqavilənin hazırlanmasına və danışıqların aparılmasına çox böyük maraq göstərilibdir. Azərbaycan xalqı, ictimaiyyəti bu danışıqlara, nəhayət, müqavilənin hazırlanıb imzalanmasına böyük ümidlə baxıb. Bu işə dünya ictimaiyyətinin bəzi dairələrində çox qısqanclıqla yanaşan və mənfi münasibət bəsləyən qüvvələr də olub, bu müqavilənin hazırlanmasına və imzalanmasına cürbəcür istiqamətlərdən maneçilik törədən çox güclü qüvvələr də olubdur.

Ancaq müstəqil Azərbaycan Respublikası dövlətinin iradəsi və xarici ölkələrin neft şirkətləri ilə bizim sağlam əsasda olan əməkdaşlığımız bütün bu maneçiliklərin aradan götürülməsinə imkan verib.

Nəhayət, 1994-cü il sentyabrın 20-də neft müqaviləsi imzalanıbdır. Müqavilə imzalanan kimi xarici ölkələrin ayrı-ayrı dairələrindən bu sənədi pozmağa cəhdlər də göstərilib, hücumlar da olub. Bunlar artıq məlumdur. Biz bunların hamısının qarşısını almışıq. Müqavilə hazırlanarkən mən əmin idim ki, bütün bu maneələrin, hücumların, təzyiqlərin qarşısını biz öz iradəmizlə alıb, onlara layiqli cavab verə biləcəyik və biz bunu etdik.

Müqavilə artıq işləyir, "Əsrin müqaviləsi" kimi dillərə, tarixə düşüb. İmzalanmış müqavilə Azərbaycan parlamentində müzakirə edilib, Milli Məclis tərəfindən qəbul olunub. 1994-cü il dekabrın 2-də mən bu müqavilənin təsdiq olunması haqqında xüsusi qanun imzalamışam. Beləliklə, müqavilənin əməli surətdə həyata keçirilməsi üçün siyasi, iqtisadi və hüquqi əsaslar yaranıbdır. İndi əməli iş getməlidir. Əvvəllər görülmüş işlərin hamısını yüksək qiymətləndirərək, mən bu gün əmin olduğumu bildirmək istəyirəm ki, artıq bu müqavilə sürətlə həyata keçirilməlidir. Bunun üçün xüsusi işçi qrupları, müqavilənin rəhbər komitəsi yaradılıb, əməli işlər aparılması üçün başqa təşkilati tədbirlər görülüb. Mən bunların hamısını bəyənirəm və əməli işə başlamağınız münasibətilə sizi və bu müqavilədə indən sonra işləyəcək adamların hamısını təbrik edirəm.

Qeyd etmək lazımdır ki, müqavilənin hazırlanması prosesi nə qədər ağır, çətin yollardan keçmiş olsa da, onun həyata keçirilməsi bundan da çətin olacaqdır. Qarşıda çox gərgin, çox mühüm işlər durur. Mən əminəm ki, müqavilədə iştirak edən konsorsiumun, şirkətlərin nümayəndələri və rəhbərləri Azərbaycan Dövlət Neft Şirkəti ilə bərabər bu məsələlərin ardıcıl surətdə davamlı olaraq, gecikmədən həll olunmasını təmin edəcəklər.

Müqavilə 30 il müddətinə nəzərdə tutulmuşdur. Şübhəsiz ki, birinci illər çətin, ağır olacaq. Bizi – Azərbaycan tərəfini, Prezident kimi şəxsən məni ilk illərin işi xüsusi maraqlandırır. Hesab edirəm ki, birinci illər üçün nəzərdə tutulan proqram

vaxtından əvvəl yerinə yetirilməlidir. Siz bu gün burada 1995-ci ilin proqramını, büdcəsini müəyyənləşdirəcək, görüləcək işlər haqqında müzakirələr aparıb qərarlar qəbul edəcəksiniz. Mən arzu edərdim ki, birinci il – 1995-ci il üçün nəzərdə tutulan işlər yüksək səviyyədə olsun və onların ardıcıl olaraq günbəgün, aybaay həyata keçirilməsi üçün lazımi tədbirlər görülsün.

Bilirsiniz ki, bu müqavilə haqqında, onun ətrafında indi də müxtəlif dairələrdə, mətbuatda, ayrı-ayrı ölkələrdə danışıqlar davam edir. Haradasa belə fikirlər yayırlar ki, müqavilə bağlanıbsa da, ancaq guya Qərb şirkətləri onun həyata keçirilməsinə tələsməyəcək. Bəziləri deyirlər ki, müqavilənin həyata keçirilməsi birinci illərdə – 1995-1998-ci illərdə Azərbaycan iqtisadiyyatı üçün o qədər də xeyirli olmayacaqdır. Bu qüvvələr müqavilənin imzalanmasına mane ola bilmədisə də, onun həyata keçirilməsinə cürbəcür zərbələr vurmaq istəyirlər. Güman edirəm ki, Qərb neft şirkətləri, konsorsiuma daxil olan neft şirkətlərinin rəhbərləri bütün iftiralara, yalanlara, bu müqavilənin əleyhinə çıxan qüvvələrin hamısına cavab vermək üçün öz səylərini əsirgəməyəcəklər. Bunları nəzərə alaraq, **sizdən rica edirəm ki, müqavilənin həyata keçirilməsi sayəsində birinci illərin, 3-4 ilin proqramı çox dəqiq olsun və onun əvvəllər nəzərdə tutulandan da tez yerinə yetirilməsi üçün lazımi tədbirlər görülsün.**

Bu müqavilənin həyata keçirilməsi üçün Azərbaycan Dövlət Neft Şirkətinin, neftçilərimizin, alimlərimizin üzərinə çox böyük və şərəfli vəzifələr düşür. Əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycan neftçiləri, Dövlət Neft Şirkətində çalışan məsul şəxslər, alimlərimiz, bu sənədin yerinə yetirilməsinə qoşulmuş bütün adamlar Azərbaycanın bu günü və gələcəyi üçün müqavilənin nə qədər böyük əhəmiyyətə malik olduğunu bir daha dərk edəcək və onun həyata keçirilməsinə çalışacaqlar. Mən bu gün bir daha qeyd etmək istəyirəm ki, biz bu müqaviləni hazırlayarkən, onu imzalayarkən və mən bir Prezident kimi müqavilənin hüquqi qüvvə alması üçün qanun imzalayarkən Azərbaycanın bu günü və gələcəyi haqqında düşünmüşük. Hamı da bilməlidir ki, biz bu arzularla, niyyətlərlə müqavilənin işə başlamasını istəyirik.

Müqavilənin həyata keçirilməsi respublikamızın böhran vəziyyətində olan iqtisadiyyatında qarşıdakı illərdə böyük dəyişikliklər etmək üçün mühüm əhəmiyyət kəsb edir. Müqavilənin həyata keçirilməsi eyni zamanda Azərbaycanın gələcək inkişaf perspektivi üçün çox əhəmiyyətlidir. Bu müqaviləni imzalayanda da biz Azərbaycanın gələcək nəsillərinin həyatı barədə düşünürdük.

Müqavilənin həyata keçirilməsi üçün aparılan işlər Azərbaycan Respublikasının neft sənayesinin başqa sahələrinə də təsir edəcəkdir. Azərbaycan torpaqlarında yerin təkində hələ istifadə olunmamış çox böyük neft və qaz sərvətlərimiz var. Alimlərimiz, geoloqlarımız tərəfindən Xəzər dənizinin Azərbaycan bölməsində kəşf olunmuş başqa zəngin neft və qaz yataqları da var. Biz bu müqaviləni həyata keçirərək, təcrübə toplayaraq o yataqların da – həm dənizdə, həm də quruda olan neft yataqlarının istifadə edilməsi üçün lazımi tədbirlər görəcəyik. Bu məsələlərin həll olunması üçün xarici ölkələrin neft şirkətləri ilə də əməkdaşlıq etməyə hazırıq. Bu baxımdan müqavilənin həyata keçirilməsi təcrübəsi gələcək işlərimiz üçün daha əhəmiyyətli olacaqdır. Hesab edirəm ki, konsorsiuma daxil olan neft şirkətləri, Azərbaycan Dövlət Neft Şirkəti bütün bu perspektivləri nəzərə alaraq, işlərini yaxşı təşkil edəcəkdir.

Konsorsiumun iştirakçısı olan xarici ölkələrin neft şirkətlərinin burada iştirak edən nümayəndələrini bu müqavilənin həyata keçirilməsinə başlanması münasibətilə ürəkdən təbrik edirəm. Onları əmin edirəm ki, dövlət tərəfindən, Azərbaycan Prezidenti kimi mənim tərəfimdən bu müqavilənin həyata keçirilməsi həm daxili nəzarət altında olacaqdır, həm də bu işlərin vaxtlı-vaxtında aparılması üçün lazımi tədbirlərin görülməsi təmin olunacaqdır. Azərbaycan Dövlət Neft Şirkətini, onun rəhbərliyini, neftçiləri, xalqımızı bu müqavilənin əməli surətdə həyata keçirilməsinə başlanması münasibətilə təbrik edirəm.

Hörmətli xanımlar və cənablar! Hörmətli qonaqlar! Bu mühüm işdə sizin hamınıza uğurlar arzulayıram! Xeyirli olsun! Uğurlu olsun!

# Tarixi başlanğıclar – Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti



Qərb Neft Konsorsiumunu təşkil edən 11 şirkət hazırda yeni yaradılan şirkətin – Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ/AIOC) çətiri altında fəaliyyət göstərir. ABƏŞ-in ilk prezidenti, hazırda konsorsiuma rəhbərlik edən "British Petroleum" şirkətinin təmsilçisi **Terri Adams** "Azerbaijan International" nəşri ilə fikirlərini bölüşüb (1995-ci il, yay buraxılışı[15]).

## ABƏŞ necə təşkil olunub?

ARDNŞ və xarici neft şirkətləri yataqların gündəlik istismarını həyata keçirmək üçün müştərək əməliyyat şirkəti yaratdı. Razılaşmaya əsasən, ABƏŞ-in fəaliyyətinə nəzarət etmək üçün Rəhbər Komitə yaradıldı. Bu, ARDNŞ prezidenti tərəfindən rəhbərlik edilən və ARDNŞ/Azərbaycan hökuməti və xarici neft şirkətlərindən bərabər təmsilçiliyi ehtiva edən qurumdur. Rəhbər Komitənin nümayəndələrinin 50 faizi xarici neft şirkətlərinin, 50 faizi isə Azərbaycan hökumətinin və ARDNŞ-nin təmsilçilərindən təşkil olunub. Rəhbər Komitədə bütün qərarlar konsensus əsasla qəbul olunmalıdır. ABƏŞ xarici neft şirkətlərinin əməliyyatçı qurumu rolunu oynayır və özü Podratçı İdarəetmə Komitəsinə tabedir, əsas etibarilə İdarəetmə Komitəsinə təqdim ediləcək bütün təkliflərlə razılaşan əməliyyat şirkətləri şurasıdır. ABƏŞ "mənfəətsiz/zərərsiz" şirkət kimi fəaliyyət göstərir. ABƏŞ xarici sərmayədarların adından bir layihəni hazırlamaq, uzunmüddətli planlaşdırma, eləcə də gündəlik cari işləri həyata keçirən bir qurumdur.

## İlk prezidenti kimi bu işə hansı şəxsi təcrübənizi gətirirsiniz?

Son 30 ildə bir neçə konsorsiumda fəaliyyət göstərmişəm. Bakıdakı təyinata qədər mən Əbu-Dabidəki "Onshore Operating

Company"nin baş direktoru idim. Bəlkə, kimsə taleyə inanırsa, karyera yolum bu dövrdə məni hər hansı sənayedə nadir hallarda baş verən tarixi macəranın bir hissəsi olmaq üçün Bakıya gətirdi. "Onshore Operating Company" şirkəti BP, "Shell", "Exxon", "Mobil", "Total Parteks" və yerli dövlət neft şirkəti ADNOC-dan ibarət olan konsorsiumda birləşmişdi. Bu şirkət gündə 1 milyon bareldən çox neft istehsalında iştirak edirdi. Şirkətin təxminən 1700 işçisi var idi, ancaq 40 nəfəri Qərbdən olan mütəxəssislər idi. Bakıda ABƏŞ üçün işçi bir model kimi onu götürdük, çünki bir çox cəhətlərdən oxşarlıq vardı: Əbu-Dabi hökuməti 60 faiz paya sahib idi, konsorsium "mənfəətsiz" əməliyyat şirkəti idi və qərarların qəbulu üçün də yekdillik tələb olunurdu.

**ABƏŞ-də azərbaycanlılar üçün hansı iş imkanları olacaq?**

Fəaliyyətə başladığımız ilk il ərzində təxminən 150 nəfərlik heyətimizdə 50 əcnəbi və 100 azərbaycanlının yer alacağını təsəvvür edirik. Podratçı şirkətlərimizdə də xeyli sayda yerli işçi çalışacaq. Azərbaycanda neft hasilatının uzun bir tarixi var – yüz ildən çoxdur. Bizim araşdırmamız onu göstərdi ki, ictimaiyyət üzvləri arasında elmi təhsil səviyyəsi Bakıda xarici ölkələrlə müqayisədə daha yüksəkdir. Bu, ABƏŞ üçün çox tez bir zamanda Azərbaycanda çoxlu sayda ölkə vətəndaşının çalışdığı dominant mövqe tutan bir şirkət halında inkişaf etməsinə imkan verəcək. ABƏŞ-in necə inkişaf etdiyini müşahidə etmək maraqlı olacaq. Çox sürətli bir dəyişiklik dövrü olacaq. Uzun müddət neft sənayesi ənənəsinə sahib olan Bakının öz iş nümunəsi, standartları – öz neft sənayesini idarəetmə yolu var. Digər tərəfdən, biz qərblilər artıq Bakıya fərqli bir iş standartları gətiririk. Beləliklə, Azərbaycanda gələcək əməliyyatların uğuru ilk növbədə bu standartların necə və hansı sürətlə bir-birinə birləşməsindən, sintezindən asılı olacaq. Nəticədə üçüncü bir fərqli model yarana bilər.

**Cəmi bir neçə ay fəaliyyət göstərməyinizə baxmayaraq, artıq çox məşğul olduğunuz görünür.**

Əslində, ABƏŞ-in inkişaf etdiyi sürət olduqca heyrətamizdir. Onsuz da ARDNŞ və ABƏŞ tandemdə sıx işləyir. İki idarəetmə

qrupunun nəinki bir-biri ilə peşəkar şəkildə işləmələrini, həm də sosial baxımdan yaxşı dost olmalarını görmək maraqlıdır. Hər iki qrup arasındakı əlaqələr son dərəcə müsbətdir və yaxşı bir gələcəyə ümid edirik.

**İnsanlar tez-tez Azərbaycanı Şimal dənizi və ya Küveytlə müqayisə edirlər. Bu bölgənin real potensialı nədir?**

Keçmiş Sovet İttifaqının dağılması ilə əvvəllər siyasi və ticari baxımdan Qərb neft sənayesi üçün əlçatmaz olan Xəzəryanı regiona daxil olan ərazilər xarici sərmayənin üzünə açılır. Xüsusilə Xəzər özü yüksək dərəcədə diqqəti cəlb etdi, çünki biz həqiqi resurs potensialını indi anlamağa başlamışıq. Xəzərin geologiyası məlumdur və sınanmamış ehtiyat potensialı əhəmiyyətli hesab olunur. Cənubi Xəzərdəki Azərbaycan və Türkmənistanın sübut edilmiş ehtiyatları 17,5 milyard barel neftlə qiymətləndirilir ki, bu da təsadüfən bütün Şimal dənizinin sübut edilmiş ehtiyatlarına tam bərabərdir. Məlum olan yoxlanılmamış perspektivlərdən və dənizdəki qazılmamış strukturlardan bu qiymətləndirmənin ən azı iki dəfə artacağını görə bilərsiniz. Potensial çox əsaslıdır. Yalnız Azərbaycan və Türkmənistanın Xəzər sektoruna baxırıq. Əlavə edək ki, Cənubi Xəzər və Qazaxıstan, o cümlədən İran sektoru yaxın onillikdə bu bölgənin qlobal əhəmiyyətə malik əsas neft vilayətinə çevriləcəyini təsəvvür etməyə imkan verə bilər. O zaman Şimal dənizi və Alyaska kimi digər böyük hövzələrdə neft hasilatı və ehtiyatlar azalmağa başlayacaq. Dünyada neftə tələbat da artacaq. Növbəti əsrin gələcək onilliyində Xəzər istər-istəməz başqa bir Küveyt kimi olacaq və ya rolu, bəlkə də, daha da artacaq.

**Bəs, həqiqətən, Xəzər neftini "açmaq" və beynəlxalq bazarla əlaqə yaratmaq mümkündürmü?**

Xəzər neftinin açılması məsələsi tamamilə boru kəmərlərindən asılıdır. Qərbə regional bir boru kəməri olmasa, bu qaynaqlar sürətlə inkişaf etməyəcək. Ancaq ilkin bir boru kəmərinin Qərb bazarları ilə əlaqə yaratmasına nail olunsa, investisiya və inkişaf tempi sürətlənəcək. Bəziləri neftin Azərbaycana bir xeyrinin olduğunu söyləyirlərsə, digərləri bunun böyük bir lənət olduğunu

söyləyirlər. Bu sonuncu da çox təxribatçı bəyanatdır. Tarixən Qafqaz həmişə siyasi iğtişaşlar zonası olub. Bölgədə maraqları olan digər dövlətlər müdaxilələr edib – Rusiya və İngiltərə arasında keçən əsrdə oynanan "Böyük oyun"un ("Great Game") təkrarlanması. Biz yalnız ümid edə bilərik ki, Trans-Xəzər boru kəmərinin yaradılması ilə bir sıra dövlətlərin mənafeləri və ticari maraqları eyni dərəcədə ödənilər və bunun nəticəsində bölgədə sülh və sabitlik əldə edilə bilər. Bu gün üzərində işlədiyimiz məsələ bax budur. Azərbaycan bir çox cəhətlərdən olduqca unikal bir ölkədir. Bu, yeni yaranan müstəqil demokratiyadır, bəlkə də, bütün digər inkişaf etməkdə olan dövlətlərlə müqayisədə uğur qazanmaq üçün ən böyük şansı var. Nisbətən kiçik bir əhalisi var – təxminən 99 faiz savadlılıq səviyyəsi ilə yeddi milyon insan. Resurs bazası baxımından London boyda şəhəri maliyyələşdirmək üçün Şimal dənizindən istifadə etmək misalına bənzəyir. Lakin Azərbaycanın öz iqtisadiyyatını daha da inkişaf etdirmək üçün kənd təsərrüfatı və digər mineral ehtiyatları da var. Buna görə də sabit və demokratik cəmiyyət yaratmaq üçün iqtisadi imkan son dərəcə vacib amildir. Ölkəyə xarici təsirlərin tarazlaşdırılacağı təqdirdə optimist olmaq olar.

### ABƏŞ ilə əlaqəli müxtəlif layihələrdən ötrü podratçı seçmək üçün meyarlar hansılardır?

ABƏŞ üçün açıq rəqabətli tender prosedurlarına əməl etməyimiz tamamilə vacibdir. İş prosesimizin ümumilikdə sənaye üçün şəffaf olması birmənalıdır. Biz çalışırıq ki, müqavilələrdə rəqabətli qiymətin, keyfiyyətin və sifarişçiyə vaxtında çatdırılma qabiliyyətinin yüksək tələb kimi irəli sürülməsi keçirdiyimiz tenderin əsas prioriteti kimi seçim apardığımız hər bir şirkətə əvvəlcədən bəlli olsun. Hasilatın pay bölgüsü sazişinə uyğun olaraq, kommersiya məqsədləri üçün yerli podratçılara ehtiyac duyduğumuz bu üç meyara cavab vermək şərtilə üstünlük veriləcək. Azərbaycan sənayesi üçün iqtisadi potensial böyükdür. Biri digər hövzələrə və Şimal dənizi kimi neft inkişaflarının baş verdiyi digər bölgələrə nəzər salır. 60-cı illərin sonlarında Şimal dənizində hasilat başlayanda lazımi infrastruktur yox

idi. Bəzi mənalarda Azərbaycanın vəziyyəti ilə müqayisə oluna bilər. Buradakı vəziyyəti əhəmiyyətli dərəcədə dəyişmək üçün təxminən üç il vaxt lazım olacaq, amma təcrübə göstərir ki, ABƏŞ-in birbaşa sərmayəsi nəticəsində iqtisadiyyata yatırılan hər dollar özü ilə digər sahələrə 5-10 dollar arasında başqa gəlirlərin də daxil olmasına şərait yaradacaq. Ancaq ehtiyatla gələcəyə addımlamaq lazımdır. Gözləntilər real olmalıdır. Güclü bir iqtisadiyyat bir gecədə yaranmır. Belə bir infrastruktur qurulmalı və proqramın səmərəli işləməsi üçün müxtəlif iqtisadi amillər həll edilməlidir. Əvvəl də dediyim kimi, ən inkişaf etmiş sektorlarda belə yatırımların iqtisadiyyatı sürətləndirməyə başlaması üçün iki-üç il keçməlidir. Beynəlxalq kontekstdə hasilatın pay bölgüsü sazişi Azərbaycan üçün çox yaxşı bir müqavilədir. Unutmayın, ABƏŞ-in həyata keçirdiyi layihə sonra davamı olacaq neçə belə layihənin birincisidir. Onu bir diyircəkli mexanizm kimi də təsəvvür edə bilərik ki, sonda Trans-Xəzər maşınını işə salmaq qüdrətində ola bilər. Kommersiya tarixi göstərir ki, hər hansı bir layihəyə ilk daxil olan şirkətlər, ümumiyyətlə, uzunmüddətli dövr üçün əməkdaşlığa gedən şirkətlərdir. Onlar layihələrin inkişafında ən aktiv iştirak edən şirkətlərdir və təbii ki, sonradan qazanılacaq mənfəətdən də öz paylarını almalıdırlar.

### Layihə üçün vaxt qrafiki necə inkişaf edir?

Çox diqqətlə qurulmuş perspektiv işçi planı var. Minimum məcburi iş proqramı 30 ay ərzində təxminən 200 milyon dollar dəyərində tamamlanmalıdır. Buraya 3D seysmik qiymətləndirmə qazması, ətraf mühitin yoxlanılması və ətraf mühitin təməl işlərinin hamısı daxildir. Bu iş artıq başlayıb və sürətlə irəliləyir. Layihənin ratifikasiya tarixindən (12 dekabr 1994-cü il) sonrakı ilk altı ay ərzində ilkin neft potensialının qiymətləndirilməsini həyata keçirəcəyik. Layihənin icrasına başlanıldığı tarixdən 18 ay ərzində isə ilkin neft hasil edilməlidir. Lakin bu "ilkin neft sxemi" iki kritik amilin həllindən asılıdır. Birincisi, artıq dənizdə yerləşən "Çıraq-1" platforması adlı mövcud dəniz strukturunun texniki vəziyyətindən. Bu anda bu obyektin "İlkin neft"

layihəsi çərçivəsində beynəlxalq standartlara uyğunlaşdırılacağı məsələsində nikbinik. İkincisi, ilkin neftin planlaşdırılan həcminin gündə 80 min barelə qədərinin regional bazarlara çıxarılmasına baxırıq. Yenə də buna nail olmaq perspektivləri məqbul görünür. Beləliklə, 1995-ci ilin ortalarına qədər investisiya dəyəri 350 milyon dollar olan, gündə 80 min barel neft hasil edəcək "İlkin neft" layihəsi AÇG-nin işlənilməsinin I mərhələsi olaraq bizim reallaşdırmaq istədiyimiz ilk məqsədimizdir. İlk 30 ay ərzində gələcəkdə AÇG-dən hasil ediləcək neft həcmlərinin artımını nəzərə alaraq, əsas regional boru kəməri üçün bir marşrut da axtarırıq. Bölgədəki bütün ölkələrin dəstəklədiyi qənaətbəxş bir marşrut tapmağımız çox vacibdir. Marşrut beynəlxalq maliyyə cəlb edəcək təhlükəsizlik səviyyəsinə malik olmalıdır və bu boru kəməri ilə yalnız Azərbaycandan və ya reallaşdırdığımız "İlkin neft" layihəsindən deyil, həm də Trans-Xəzər boru kəməri ilə başqa ölkələrdən və Azərbaycanın özünə yeni sərmayələrdən hasil olacaq böyük həcmdə neft daşınacaq. Həmin boru kəməri marşrutunun 30 ay ərzində tapılması, maliyyə məsələlərinin həll edilməsi ilə daha sonra tikinti mərhələsi başlaya bilər.

Qeyd edim ki, bundan sonra ABƏŞ daha iki mərhələdə "Çıraq", "Azəri" və "Dərinsulu Günəşli"nin inkişafını həyata keçirməyi planlaşdırır. ABƏŞ əvvəlcə gündə təxminən 300 min barel neft istehsal etməli, sonra istehsalı daha 700 min barel artırmalıdır. Layihənin ümumi proqnozu 8 milyard dollara yaxındır. Bu çox ciddi bir sərmayədir.

### ABƏŞ boru kəməri danışıqlarında iştirak edəcəkmi?

ABƏŞ-in xam neft ixracı üzrə vitse-prezidenti yanında Londonda yaradılan bir qrup var. Bu qrupdakı mütəxəssislərə regional boru kəmərinin texniki, habelə maliyyə həllini tapmaq tapşırılıb. Ehtimal ki, bu layihə hazırkı səhmdarların iştirak edəcəyi yeni bir boru kəməri şirkətində inkişaf edəcək və ya bu layihə daha əvvəl Xəzərdə sərmayə qoyan digər şirkətlərin iştirakı ilə daha geniş əsaslı ixrac boru kəməri şirkəti ola bilər. Bu qrup birbaşa ARDNŞ

və Azərbaycan hökuməti ilə əlaqədə olacaq. Onların qarşısında duran vəzifə marşrut variantlarını müəyyənləşdirmək, daha sonra bankların, xüsusən də Dünya Bankının və Beynəlxalq Maliyyə Korporasiyasının maliyyələşdirilməsini cəlb etmək üçün hökumətə sonradan öhdəliklərə çevriləcək protokolların həyata keçirilməsində dəstək verməkdir.

**Şəxsi planda danışsaq, ABƏŞ-dəki işinizin ən çətin tərəfi nədir?**
ABƏŞ kimi bir qurum yaratmaq olduqca dramatik təcrübədir. Düşünürəm ki, belə mürəkkəbliyin beynəlxalq konsorsiumunu ilk dəfə görürəm. Müxtəlif milli maraqlar var ki, nəzərə alınmalı və tanınmalıdır. Milli maraqlar ölkədən-ölkəyə çox dəyişir. Bu da öz növbəsində bu xalqların siyasətində öz əksini tapır, nəticədə xarici neft şirkətlərinə təzyiqlər edilir. Şimalda Rusiya, Qərbdə Türkiyə, eləcə də ABŞ və İngiltərə – hamısı Zaqafqaziya bölgəsi haqqında çox fərqli təsəvvürlərə malikdir. Bu cür müxtəlif baxışlardan ibarət idarəetmə qrupu üçün layihənin idarə edilməsində bir xeyli problemlər yaranır. Alfred Nobel XIX əsrin sonlarında bölgəyə gələndə bu bölgədə "neft, qan və siyasətin tamamilə bir-birinə qarışdığı"nı bəyan etmişdi. 100 il sonra vəziyyət çox da dəyişmədi.

**İşinizlə bağlı nəyi ən çox xoşlayırsınız?**
Bu, bəlkə də, hazırda beynəlxalq neft biznesində həyata keçirilən ən maraqlı layihədir. Burada tarix yaradırıq. Təzəcə qurulmuş bir ölkəyə daxil oluruq. Burada bir sovet biznes ənənəsi ilə qarşılaşırıq və Qərbin iş standartlarını tətbiq etməyə çalışırıq. Bu müddətdə bizi yalnız növbəti onilliyə deyil, həm də növbəti minilliyə aparacaq üçüncü bir iş standartları yaratmaq istəyirik. Məni o təəccübləndirdi ki, belə bir qısa müddət ərzində bizi Bakıda xalq çox məmnun etdi. Şirkət tez bir araya gəldi və çox yaxşı bir komanda kimi birləşdi. Sözün əsl mənasında, qrup bir şirkət olaraq fəaliyyət göstərir. Milli heyət və beynəlxalq heyət təkcə ofisdə deyil, səhər 9-dan axşam 6-ya qədər həm də ictimai toplantılarda qarşılıqlı əlaqə qurur və işçilərin bir-birilərinə hörmət etdikləri və ehtiramla yanaşmaları çox nəzərə çarpır. Bu mənə böyük zövq verir. Azərbaycanlılar mehriban, səxavətli və

son dərəcə isti bir xalqdır. Onlar super insanlardır – son dərəcə təhsilli və mədəniyyətlidirlər. Bu, Qərbdə anladığımız və paylaşdığımız bir mədəniyyət və təhsil sistemidir. Digər tərəfdən, burada yaşamaq asan deyil. Bir insanın öz yaşayış səviyyəsinə uyğun olaraq, gözlədiyi açıq rahatlıqlar var. Burada yaşayış səviyyəsi daha kasıbdır, amma deyərdim ki, mədəni həyatın və sosial həyatın keyfiyyəti gözlədiyimizdən xeyli yüksəkdir. Burada olmaqla əlaqədar müəyyən risklər də mövcuddur. Biz yalnız yerli qeyri-sabitlik dövrünü (1995-ci il mart hadisələri) keçdik. Azərbaycan tez-tez siyasi təhdidlərin olduğu bir ərazidə yerləşir. Ancaq burada yaşamağı bir çağırış kimi öyrənin, sadəcə, çətinlik kimi yox. Açılan fürsətləri görmək və dəyişikliklərə can atan bir cəmiyyətə Qərb sərmayələrini cəlb etməklə onlarda iştirak etmək üçün bundan böyük məmnuniyyət ola bilərmi? Burada sosial müavinətlərlə birlikdə gələcək sürətli və kəskin dəyişikliyi görəcəyik. Hesab edirəm ki, ABƏŞ prezidenti olmağımdan çox məmnunam. Əvvəllər bu kimi digər konsorsiumları idarə etməkdə təcrübəm var. Əgər uğurlu olsaq, daha doğrusu, "müvəffəq olduğumuz zaman" deməliyəmsə, təkcə Azərbaycan üçün deyil, qlobal neft sənayesi üçün də çox vacib olan əlamətdar bir hadisənin iştirakçısı olduğumuza böyük məmnuniyyətlə baxacağıq. Bu şirkət irəliləməyə başladıqca növbəti onillikdə neft sənayesində tanınan komponentlərindən biri olacaq.

## ABƏŞ-in ilk ili və Azərbaycana xeyri

1996-cı ilin fevralında "Qarabağ" strukturu üzrə müqavilə Milli Məclisdə müzakirə edilərkən deputatlar ARDNŞ prezidenti Natiq Əliyevə sual ünvanlayırlar ki, Azərbaycanın ilk neft müqaviləsi "Azəri-Çıraq-Günəşli" üzrə yaradılmış beynəlxalq konsorsium artıq bir ildir ki, fəaliyyətdədir, bundan ölkəyə nə xeyir gəlib ki, biz ikinci müqaviləni təsdiq etməyə hazırlaşırıq.

O zaman ARDNŞ prezidenti millət vəkillərinin şübhələrinə heç bir əsas olmadığını sübut etmək üçün bir neçə fakt gətirir: "Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti tərəfindən 1995-ci il ərzində layihələrin icrası üçün Azərbaycanın dövlət müəssisələrinin

hesabına 14 milyon 284 min ABŞ dolları vəsait köçürülüb. Bundan əlavə, ABƏŞ Azərbaycan vətəndaşı olan işçi heyətinə 1 milyon 700 min dollar dəyərində əməkhaqqı ödəyib. Həmçinin büdcəyə 857 min dollar dəyərində vergi ödəyib. Bundan əlavə, Bakıda beynəlxalq neft və qaz sərgisinin keçirilməsinə yardım şəklində 400 min dollar vəsait ayırıb. ABƏŞ-in sponsorluğu ilə mədəni-yaradıcılıq layihələrinə 110 min dollar vəsait xərclənib".[16]

## "İlkin neft" layihəsi

### *"Çıraq" platforması*

"Çıraq" platforması Bakıdan 120 kilometr şərqdə, Xəzər dənizində suyun dərinliyinin təxminən 120 metr olduğu yerdə yerləşən dəniz hasilat, qazma və yaşayış (HQY) platformasıdır. Bu platforma AÇG yatağından "ilkin neft" adlanan neftin hasilatına başlamaqla 1997-ci ildən istismardadır.

"Çıraq" obyektlərinə aşağıdakılar daxildir:

- Suvurma avadanlığı olan 24 quyu gövdəsinə HQY platforması;
- Səngəçal qəbul terminalınadək 176 km uzunluğunda 24 düymlük neft kəməri;
- Neft Daşlarınadək 48 km uzunluğunda 16 düymlük qaz kəməri;
- "Mərkəzi Azəri" kompressor və suvurma platformasına qədər 12 km uzunluğunda 18 düymlük qaz kəməri.

"Çıraq" platformasında hasilat 1997-ci il noyabrın 7-də başlayıb. Platformada illik olaraq ən çox neft hasilatı 2005-ci ildə qeydə alınıb (gündəlik orta hasilat 145,5 min barel və ya illik 7 milyon tondan çox). 2022-ci ilin I yarısının yekunlarına görə, platformada gündəlik hasilat orta hesabla 25 min barel təşkil edib. Hasilat başlayandan 1 iyul 2022-ci il tarixinədək "Çıraq" platformasından 103 milyon ton neft hasil edilib.



"Çıraq" platforması


DADA GORGUD
AIOC



## “Dədə Qorqud” qazma qurğusunun fəaliyyətə başlamasına həsr olunmuş tədbirdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı

*24 avqust 1996-cı il, Bakı*

– Hörmətli xanımlar və cənablar! Hörmətli qonaqlar, əziz neftçilər! Hörmətli dostlar!

Sizi, Azərbaycanın bütün vətəndaşlarını, xalqımızı bugünkü əlamətdar hadisə – “Dədə Qorqud” qazma qurğusunun işə başlaması münasibətilə ürəkdən təbrik edirəm. Bu gün biz tarixi hadisənin şahidiyik. 1994-cü ilin sentyabrında Azərbaycan Dövlət Neft Şirkəti ilə bir çox xarici ölkələrin böyük neft şirkətləri arasında imzalanmış müqavilənin – “Əsrin müqaviləsi”nin əməli surətdə həyata keçirilməsinin yeni və çox mühüm bir mərhələsini qeyd edirik.

Bu gün “Dədə Qorqud” adı verilmiş yarımdalma qazma qurğusu müqavilənin əsasında qazma, gələcəkdə isə Azərbaycanda suyun çox böyük dərinliyində və yerin dərinliyində olan yataqlardan neft çıxarılması işinin başlanmasını təmin edəcəkdir. Gördüyünüz kimi, “Dədə Qorqud” qazma qurğusu nəhəng, həddindən artıq mürəkkəb və çox müasir texnologiyaya malik olan, Azərbaycan neft sənayesində görkəmli yer tutan böyük bir istehsal müəssisəsidir. Azərbaycan neftçiləri Xəzər dənizindən neft çıxarmaqla, hasil etməklə 1949-cu ildən məşğuldurlar. Onlar dəniz neftçiləri kimi, dünyada dənizin dərinliyindən neft çıxarmaq sahəsində yüksək nailiyyətlər əldə etmiş neftçilər kimi böyük şöhrət qazanmışdırlar. Azərbaycan neftçilərinin, alimlərinin, geoloqlarının, mühəndislərinin, texniklərinin, mütəxəssislərinin 1949-cu ildən indiyədək gördükləri iş, əldə etdikləri nailiyyətlər Azərbaycan xalqına xidmət etmiş, respublikamızın sərvətlərini zənginləşdirmiş və ölkəmizin neftçilərinə, xalqımıza dünyada böyük şöhrət gətirmişdir. Azərbaycanın dəniz neftçilərinin fəaliyyəti tarixinə nəzər salsanız, görəcəksiniz ki, onlar 1949-cu ildən başlayaraq ilbəil öz təcrübələrini artırmış, ilbəil sahildən dənizin ortalarına getmişlər. Əvvəl suyun

dərinliyi 20-30 metr olan yerlərindən neft çıxarılırdısa, 1970-ci illərdə artıq suyun 150 metr dərinliyindən neft çıxarmağa nail ola bilmişlər. Azərbaycan neftçilərinin keçmiş illərdə əldə etdiyi nailiyyətlər, iş təcrübəsi, elmi ixtiraları dünyanın bir çox ölkələrində tətbiq edilmiş, onlardan istifadə olunmuşdur.

Beləliklə, Azərbaycan neftçiləri, alimləri dənizin dərinliyindən neft hasil etmək sahəsində dünya təcrübəsinə öz böyük töhfələrini vermişlər. Məhz Azərbaycan neftçilərinin gərgin fəaliyyəti, elmi axtarışları nəticəsində Xəzər dənizində böyük neft yataqları kəşf edilmiş, onların neft potensialı ilbəil öyrənilmiş, dəqiqləşdirilmişdir. İndi biz onlardan geniş miqyasda istifadə etmək imkanı əldə etmişik. 1994-cü ilin sentyabrında imzalanmış böyük neft müqaviləsində Xəzər dənizinin Azərbaycan sektorunda olan "Azəri", "Çıraq" yataqlarından və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsindən 30 il müddətində neft hasil edilməsi nəzərdə tutulubdur. Xatırlatmaq istəyirəm ki, bu yataqlar Azərbaycan neftçiləri, geoloqları tərəfindən 1970-ci illərdə kəşf olunmuşdur. Neft potensialı müəyyən edilmiş, həmin neft yataqları bundan sonra daha da dərindən öyrənilmiş və Azərbaycan xalqının böyük sərvətinə çevrilmişdir. Məhz bunlar mövcud olduğuna görə də 1994-cü ildə "Əsrin müqaviləsi" imzalanmışdır. İndi ətrafına toplaşdığımız və bu gün təntənə ilə yeni həyat verəcəyimiz qazma qurğusu da məhz 1970-ci illərdə görülən işlərin nəticəsində 1981-ci ildə fəaliyyətə başlamış, Xəzər dənizinin bir çox yerlərində qazma işi aparmış, neft çıxarmış, Azərbaycanda neft hasilatını artırmışdır.

Bu gün biz Azərbaycanın, Bakının gözəl bir guşəsində toplaşmışıq. Xəzər dənizinin sahilindəki bu gözəl mənzərə Azərbaycanın təbiətinin nə qədər gözəl olduğunu əyani surətdə nümayiş etdirir. Bu gün bu mərasimə gələn qonaqlar və Azərbaycan Respublikasının dövlət orqanlarının, neft sənayesinin nümayəndələri görürlər ki, bu yerlər cəmi 15-20 il içərisində nə qədər dəyişilibdir. Burada Azərbaycanın sənayesini, neft sənayesini nümayiş etdirən nəhəng bir şəhərcik yaranıbdır. Respublikamızın neft sənayesini inkişaf etdirmək, Xəzərin Azərbaycan sektorundakı neft yataqlarından səmərəli istifadə etmək üçün 1970-ci illərdə

burada, durduğumuz bu yerdə dərin özüllər zavodunun, yəni belə böyük, nəhəng qurğular qurub-yaratmaq üçün iri bir zavodun tikilməsi haqqında qərar qəbul etdik. Belə bir zavodun tikilməsi üçün biz çox axtarışlar apardıq, çox layihələrə baxdıq. Nəhayət, 70-ci illərin sonunda Amerika Birləşmiş Ştatlarının bir şirkətindən bu zavodun texnologiyasını, qurğularını almaq üçün 400 milyon ABŞ dolları məbləğində vəsaitdən istifadə edərək məhz burada, Xəzərin sahilində belə bir zavodu tikməyə başladıq. İndi biz bu nəhəng zavodun binalarını, burada yaranmış istehsal sahələrini böyük iftixar hissi ilə görürük.

Mən bu gün buraya gələrkən, Xəzərin sahilində, vaxtilə tamamilə boş olan bir yerdə böyük zavod korpuslarını və nəhəng qurğuları, sahili və bu sahənin ətrafında artıq yüksəklərə qalxmış yaşıl ağacları görüb bir daha iftixar hissi keçirdim. Mən bu gün çox xoşbəxtəm, çox sevinirəm. Xoşbəxtəm, sevinirəm ona görə ki, bütün burada gördüklərimizin əsasını qoyanlardan biriyəm, onun təməlini qoyanlardan biriyəm, onun təşəbbüskarıyam. Vaxtilə bu işlərin görülməsi üçün illərlə zəhmət çəkmişəm, illərlə fəaliyyət göstərmişəm, bunların reallığa çevrilməsi üçün illərlə çox çətin yollardan keçmişəm. Azərbaycan neftçiləri ilə, öz həmkarlarımla birlikdə xalqımız, millətimiz üçün, respublikamızın böyük sənayesini qurmaq üçün, neft sənayesini gələcəkdə inkişaf etdirmək üçün bunları yaratmağa çalışmışam. Nəhayət, bunlar yaranıb. Mən bunları görməkdən, bunları seyr etməkdən özümü həddindən artıq xoşbəxt hiss edirəm. Beləliklə, 1994-cü ilin sentyabrında böyük neft müqaviləsini imzalayarkən biz böyük təmələ əsaslanırdıq. Yəni biz bu müqaviləni boş yerdə imzalamamışdıq. Bizim əlimizdə böyük sərvətlər var. Həm Xəzər dənizində olan böyük neft yataqları, həm burada yaranmış bu böyük sənaye kompleksi, həm də bu gün üzərində durduğumuz, ətrafına toplaşdığımız bu qazma qurğusu Azərbaycan xalqının sərvətidir. Məhz bu sərvətlərimizi hiss edərək, bu sərvətlərimizin sahibi olaraq biz xarici ölkələrin neft şirkətləri ilə danışığa getmişik və onlarla neft müqaviləsi imzalamışıq. Bu müqaviləni imzalayarkən həmişə onu dərk etmişik ki, bizim sərvətimiz var, bu sərvətimizin sahibiyik və bu sərvətimizdən xarici ölkələrin

neft şirkətləri ilə müştərək istifadə etmək üçün bu addımları atmağa bizim haqqımız var.

Xarici ölkələrin neft şirkətləri də Azərbaycan ilə böyük neft müqaviləsini bağlamaq istəyərkən və bu müqaviləni imzalayarkən çox yaxşı bilirdi ki, Azərbaycanın böyük imkanları var. Əgər onlar xalqımızın, Azərbaycan Respublikasının bu imkanlarının mövcud olduğunu dərk etməsəydilər, tək bir yatağa görə gəlib bizimlə bu böyük müqaviləni bağlamazdılar, yaxud buna çox ehtiyat edərdilər. Məhz Azərbaycanın belə təbii sərvətləri olduğuna görə, respublikamızın bu böyüklükdə sənaye potensialı, ölkəmizin yüksək səviyyəli mütəxəssisləri, neftçiləri olduğuna görə və burada sərbəst şərait yarandığına görə xarici ölkələrin neft şirkətləri Azərbaycan ilə bu böyük və tarixi əhəmiyyətə malik müqaviləni imzaladı.

Hörmətli dostlar, bu gün bu cəsarətli addımları atmaq üçün görürsünüz keçmiş illərdə nə qədər böyük işlər aparılıbdır. Eyni zamanda o işlər həmin vaxtlarda görülməsəydi, biz bu gün bu addımları da ata bilməzdik, şübhəsiz ki, böyük işləri də başlaya bilməzdik. Bu da onu göstərir ki, 1970-ci illərdə görülən işlər, yaranan bu böyük iqtisadi, sənaye potensialı və neft sənayesi sahəsində görülən işlər, yaranmış potensial Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əsasıdır. Əgər onlar olmasaydı, biz bu gün dövlət müstəqilliyini əlimizdə bu qədər möhkəm saxlaya bilməzdik. Əgər onlar olmasaydı, biz bu gün dövlət müstəqilliyimizə nail ola bilməzdik. Demək, o illərdə görülən işlər həmin bu illər üçün, Azərbaycanın müstəqil yaşaması üçün yaranan əsasdır. Bu gün sizə bəyan etmək istəyirəm ki, o illərdə bu işləri görərkən mən məhz Azərbaycanın gələcəyini, bugünkü müstəqilliyini düşünürdüm. O işləri görərkən mən əmin idim ki, onlar Azərbaycanın sərbəst, müstəqil yaşaması üçün əsas yaradır.

Məmnuniyyət hissi ilə qeyd edirəm ki, konsorsiumun yaratdığı əməliyyat şirkəti qəbul olunmuş proqramı ardıcıl surətdə həyata keçirir. Müqavilə yaşayır, öz bəhrələrini verir və əməli surətdə yerinə yetirilir. Bugünkü gün, bu mərasim müqaviləyə görə opponentlərimizə, xarici ölkələrdə və respublikamızın

daxilində bizə müxalif olan qüvvələrə, hesab edirəm ki, çox kəsərli cavabdır. Məlumdur ki, bu müqaviləni imzalamaq üçün biz nə qədər çətin yollardan keçdik. Məlumdur ki, bu müqaviləni imzalamaq üçün bizə çox maneçiliklər oldu. Müqavilə imzalanandan sonra biz cürbəcür təzyiqlər aldıq. Bəyanatlar verildi ki, bu müqavilənin işləməsinə yol verilməyəcəkdir. Ayrı-ayrı qüvvələr müxtəlif ölkələrdə indiyədək də bu müqavilənin həyata keçirilməsinə mane olur. Məlumdur ki, respublikamızın daxilində də bəziləri – o bədxah insanlar, qüvvələr bu müqavilənin kağız üzərində qalacağı haqqında sözlər deyirdilər və çox çalışırdılar ki, onların fikirləri doğru olsun. Bu gün onların hamısına cavab verilir. Müqavilə işləyir, öz proqramını yerinə yetirir. Bir daha deyirəm, müxalif olan bütün qüvvələrin hamısına bugünkü mərasim çox əyani cavab verir.

Konsorsiuma daxil olan şirkətlərin nümayəndələri Beynəlxalq Əməliyyat Şirkətində təmsil olunublar. Hesab edirəm ki, onlar cənab Terri Adamsın başçılığı ilə çox işlər görüblər və onların qarşısında çox böyük vəzifələr durubdur. Azərbaycan Dövlət Neft Şirkəti Beynəlxalq Əməliyyat Şirkəti ilə birlikdə çox ahəngdar çalışır. Onların hamısının birlikdə gördükləri işlərin nəticəsində biz bu gün bu mərasimə toplaşmışıq. Əmin olduğumu bildirmək istəyirəm ki, nəzərdə tutulmuş proqram bundan sonra da vaxtında, ardıcıl surətdə həyata keçiriləcəkdir.

"Dədə Qorqud" qazma qurğusu bu gün işə başlayır. Biz bu gün onun ayrı-ayrı bölmələri, cihazları ilə tanış olduq və ondan sonra buraya sizinlə görüşə gəlmişik. Tanış olduğumuz bu qurğunun müasir vəziyyəti onu göstərir ki, əvvəlki qurğunun üzərində çox işlər görülübdür. Doğrudan da, qurğu müasir texnologiya prinsiplərinə əsasən modernləşdirilibdir, müasir səviyyəyə çatdırılıbdır. Verilən məlumatdan mən belə görürəm ki, bu qurğu bu gündən sonra sahili tərk edib, sahildən uzaq neft yataqlarımıza yola düşəcək və nəzərdə tutulmuş proqram əsasında orada qazma işlərinə başlayacaqdır.

Bu qurğunu modernləşdirib "Dədə Qorqud" adına layiq səviyyəyə çatdırdıqlarına görə konsorsiumun Beynəlxalq Əməliyyat Şirkətinə, onun modernləşdirilməsi ilə məşğul olan

"Sante-Fe" şirkətinə və Azərbaycan Dövlət Neft Şirkətinə, bu qurğunun müasir vəziyyətə gətirilməsi üçün çalışmış bütün mütəxəssislərə, fəhlələrə və bu sahədə fəaliyyət göstərən insanların hamısına mən səmimi təşəkkürümü bildirirəm. "Sante-Fe" şirkətinə və onun başçısına xüsusi təşəkkür edirəm. Onlar çox işlər görüblər. Bu işin bir nəticəsi də ondan ibarətdir ki, burada xarici ölkələrdən dəvət olunmuş mütəxəssislərlə yanaşı, yerli, azərbaycanlı mütəxəssislər də çalışıb, hazırlaşıblar və burada birgə işləyirlər. Mən bu gün bu qurğunu gəzərkən, seyr edərkən, onun ayrı-ayrı hissələrinə baxarkən hər yerdə iki nəfəri gördüm. Onlardan biri xarici ölkədən gəlmiş mütəxəssisdir. Şübhəsiz ki, o, xarici dildə danışır; o biri isə bizim yerli mütəxəssisdir, Azərbaycan dilində danışır. Bunun özü də gözəl bir haldır. Bu qurğudakı işlər bir də onu göstərir ki, Azərbaycan Respublikasının mütəxəssisləri: neftçiləri, mühəndisləri, fəhlələri xarici neft şirkətlərinin mütəxəssisləri ilə yanbayan, bərabər işləməyə qadirdirlər və müştərək iş görməyə hazırdırlar.

Bizim bundan sonra da görəcəyimiz müştərək işlərimiz çox müvəffəqiyyətli olacaqdır. Müsbət hal bir də ondan ibarətdir ki, bu müştərək işlərin nəticəsində xaricdən gələn mütəxəssislər Azərbaycan dilini, dövlət dilimizi öyrəniblər, mənimsəyiblər. Cənab Terri Adamsın tərcüməçisi bir il bundan əvvəl tərcümə zamanı ancaq ingilis dilindən rus dilinə tərcümə edirdi və rus dilində danışırdı. Amma bu gün o, Azərbaycan dilində danışır və cənab Terri Adamsın nitqini Azərbaycan dilinə çox gözəl tərcümə edib bizə çatdırdı. "Sante-Fe" şirkətinin başçısının da öz çıxışının ilk cümlələrini Azərbaycan dilində söyləməsi məni çox sevindirdi. Bunlar hamısı onu göstərir ki, dövlət dilimiz, ana dilimiz – Azərbaycan dili ölkəmizdə hakim dildir. Nəinki azərbaycanlılar, respublikamıza xaricdən gələn qonaqlarımız, dostlarımız, həmkarlarımız da bu dilə hörmət edirlər, bu dili öyrənmək, bu dildə danışmaq istəyirlər. Bu çox sevindirici haldır. Bu eyni zamanda müstəqil respublikamızın əsas atributlarından biri olan Azərbaycan dilinin inkişaf etməsini göstərir.

Bu qazma qurğusuna **"Dədə Qorqud"** adı verildi. Bu adın verilməsi haqqında da biz müzakirə aparmışdıq. Bu mərasimə

hazırlaşarkən cənab Terri Adams və Natiq Əliyev bu tədbir və görülən işlər haqqında mənə ətraflı məruzə etdilər. Biz bir çox məsələləri müzakirə etdik. Xüsusən bundan sonra görüləcək işlər haqqında, nəhayət, bu qurğunun adı haqqında da geniş müzakirə apardıq. Bilirsiniz ki, bu qurğunun adı indiyədək **"Kaspmorneft"** olubdur. Şübhəsiz ki, bu da bizim bugünkü həyatımıza uyğun olmayan bir addır. Eyni zamanda bu qurğu yenidən doğulubdur. Ona görə də onun yeni adı olmalıdır. Deyə bilərəm ki, mənə Azərbaycan xalqının tarixinə, ənənələrinə və ayrı-ayrı tarixi yerlərə məxsus 10-a qədər cürbəcür adlar təqdim olundu. Təqdim olunan adların hamısı, doğrudan da, dəyərli idi.

Ancaq mən bu qurğuya "Dədə Qorqud" adının verilməsi barədə qərar qəbul etdim. Hesab edirəm ki, hər bir azərbaycanlı üçün bu, müqəddəs və əziz ad, bu qurğu üçün ən dəyərli, görkəmli addır. "Dədə Qorqud" qurğusuna böyük uğurlu yol arzulayıram! "Dədə Qorqud" qurğusunun əmək kollektivinə, bu qurğuda çalışanlara: Azərbaycan vətəndaşlarına, xaricdən gəlmiş mütəxəssislərə müştərək, müvəffəqiyyətli iş arzu edirəm! Bu qurğuda çalışanların hamısına cansağlığı və yeni-yeni uğurlar arzulayıram! Yaşasın "Dədə Qorqud" qurğusu! "Dədə Qorqud" qurğusunun açılması, işə başlaması münasibətilə sizi təbrik edirəm.

## "DƏDƏ QORQUD" QAZMA QURĞUSU İLƏ TANIŞLIQDAN SONRA FƏXRİ QONAQLAR KİTABINA YAZILMIŞ ÜRƏK SÖZLƏRİ:

***"Bu gün Azərbaycan neft sənayesinin həyatında əlamətdar hadisə baş verir. "Əsrin müqaviləsi"nin həyata keçirilməsinin nəticəsi olaraq birinci yarımdalma qazma qurğusu fəaliyyətə başlayır. Bu qurğuya bu gün xalqımız üçün əziz və müqəddəs olan "Dədə Qorqud" adı verilir. Qurğuya uzun ömür, uğurlu yol arzulayıram. Bu qurğunu bərpa edib müasir səviyyəyə çatdıranlara təşəkkür edirəm. Böyük neft müqaviləsini icra edən beynəlxalq konsorsiuma müvəffəqiyyətlər arzulayıram. Təbrik edirəm.***

## "Əsrin müqaviləsi"nin iki illik fəaliyyətinin yekunlarına həsr olunmuş müşavirədə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı

*Bakı, Prezident sarayı, 10 oktyabr 1996-cı il*

### GİRİŞ NİTQİ

– Bugünkü müşavirə 1994-cü ilin sentyabrında Azərbaycan Dövlət Neft Şirkəti ilə dünyanın böyük şirkətlərinin təşkil etdiyi konsorsium arasında imzalanmış neft müqaviləsinin həyata keçirilməsinin iki illik yekunlarına həsr olunubdur.

Müqavilə imzalandıqdan sonra konsorsiumun işini təşkil etmək və müqaviləni həyata keçirmək üçün konsorsium tərəfindən Beynəlxalq Əməliyyat Şirkəti yaradılıbdır. Beynəlxalq Əməliyyat Şirkəti Azərbaycanda yerləşir və bu müqavilənin həyata keçirilməsi üçün fəaliyyət göstərir. Müqavilə qüvvəyə mindikdən sonra, – müqavilə Azərbaycan parlamenti tərəfindən ratifikasiya olunub və ratifikasiya sənədi Azərbaycan dövlətinin qanunu kimi 1994-cü ilin dekabrında Azərbaycan Prezidenti tərəfindən imzalanıb, – iş başlayıbdır. Bu müddətdə görülən işlər daim şəxsən mənim nəzarətim altında olub.

Azərbaycan Dövlət Neft Şirkəti, Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti cənab Terri Adams və başqa şəxslər müqavilənin həyata keçirilməsi haqqında vaxtaşırı məlumat veriblər. Son günlər Bakıda Beynəlxalq Əməliyyat Şirkətinin bir neçə toplantısı keçirilibdir. Konsorsiuma daxil olan neft şirkətlərinin yüksək səviyyəli nümayəndələri bu toplantıda iştirak ediblər, öz işlərini təhlil ediblər və 1997-ci il üçün iş planı tərtib ediblər, büdcə müəyyənləşdiriblər. Bunların nəticəsində mən dünən Beynəlxalq Əməliyyat Şirkətinin və konsorsiumun iştirakçısı olan şirkətlərin nümayəndələri ilə görüş keçirmişəm. Eyni zamanda hələ bir neçə ay bundan öncə mənim iş planımda Beynəlxalq Əməliyyat Şirkətinin, Azərbaycan Dövlət Neft Şirkətinin hesabatını dinləmək nəzərdə tutulmuşdu. Biz "Dədə Qorqud" qazma qurğusunu istismara verərkən və Beynəlxalq Əməliyyat Şirkətinin Azərbaycandakı nümayəndəliyini açarkən mən bu məsələni irəli sürmüşdüm və nəhayət, bu planı yerinə yetirmək üçün bugünkü müşavirəni

çağırmışam. Müşavirənin məqsədi indiyə qədər görülən işləri təhlil etmək, onlara qiymət vermək və qarşıda duran vəzifələri müəyyən etməkdir. Bu vəzifələr Beynəlxalq Əməliyyat Şirkəti və Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən müəyyən olunubdur, ancaq mən bu barədə məruzələri dinləmək, vəziyyətlə ətraflı tanış olmaq istəyirəm. Eyni zamanda qarşıda duran məsələlərin həlli üçün respublikanın hakimiyyət, dövlət orqanlarının nümayəndələri ilə birlikdə müəyyən işlərin görülməsi nəzərdə tutulur.

## YEKUN SÖZÜ

**– Hörmətli xanımlar və cənablar!**

Azərbaycan Dövlət Neft Şirkəti ilə, Azərbaycan Respublikası ilə dünyanın böyük neft şirkətlərinin təşkil etdiyi konsorsium arasında iki il bundan öncə imzalanmış müqavilənin həyata keçirilməsi haqqında bugünkü müzakirə çox məzmunlu və çox əhəmiyyətlidir. Hesab edirəm ki, biz müqavilədə nəzərdə tutulmuş proqramın həyata keçirilməsi haqqında, əldə olunan nailiyyətlər haqqında və gələcək planlar haqqında çox ətraflı məlumat aldıq. Mən bu müzakirədən, verilən məlumatlardan, edilən məruzələrdən çox məmnunam.

İki il bundan öncə müqaviləni imzalamaq haqqında fərman verərkən və sonra müqaviləni imzalayarkən mən şəxsən inanırdım ki, bu müqavilə uğurlu olacaqdır, həyata keçiriləcəkdir və öz müsbət nəticələrini verəcəkdir. Ancaq eyni zamanda bu müqavilənin həyata keçirilməsi ilə əlaqədar proqramın yerinə yetirilməsi məsələsi ilə mən bu keçən iki ildə daim maraqlanmışam, ona nəzarət etmişəm. Bir çox məlumat və məruzələrə əsasən, bu müqavilənin, ümumiyyətlə, uğurla həyata keçirilməsinə arxayın idim. Ancaq buna baxmayaraq, bu gün çox təfsilatlı, ətraflı, geniş və hərtərəfli məlumatlar məni daha da rahatlandırır və daha çox məmnun edir.

Dörd saatdan artıq davam edən bugünkü müzakirədən və verilən geniş məlumatlardan sonra biz tam qətiyyətlə deyə bilərik ki, müqavilə həyata keçirilir və öz bəhrələrini verir. Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti cənab Terri Adams

və Beynəlxalq Əməliyyat Şirkəti prezidentinin müavinləri burada çox geniş, maraqlı, əhəmiyyətli məlumatlar verdilər. Mən bu məlumatları dinləyərkən belə fikrə gəlirəm ki, əgər iki il bundan öncə müqaviləni imzalayanda biz böyük ruh yüksəkliyi içərisində idiksə, indi iki il keçəndən sonra onun həyata keçirilməsi haqqında verilən məlumatlar bizi daha çox sevindirməlidir və hesab edirəm ki, biz daha böyük ruh yüksəkliyi içində ola bilərik. Bu müzakirəyə Azərbaycan Dövlət Neft Şirkətinin və xüsusən Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin çox məsuliyyətlə hazırlıq aparmasını və bugünkü müzakirəyə çox əsaslı sənədlər və məlumatlar təqdim etməsini xüsusi qeyd edirəm.

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti konsorsiumun tərkibini əks etdirərək, konsorsiuma daxil olan şirkətlərin nümayəndələrindən ibarət olaraq çox mürəkkəb bir orqandır. Mən bunu ona görə deyirəm ki, bu konsorsiuma on bir şirkət daxildir. Hər şirkətin özünəməxsus dəst-xəti var, özünəməxsus maraqları var, özünəməxsus da iş üslubu var. Bu şirkətlərin nümayəndələrinin bir yerdə belə ahəngdar işləməsi və müştərək iş sahəsində bu qədər nailiyyətlər əldə etməsi çox sevindirici haldır. Bu baxımdan mən hesab edirəm ki, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin iş təcrübəsindən biz hamımız istifadə etməliyik.

Mən bugünkü müzakirə haqqında cənab Terri Adamsa müraciət edərkən, şübhəsiz, düşünürdüm ki, o, geniş bir məlumat hazırlayacaq. Ancaq təsəvvür etmirdim ki, bu məlumat bu qədər təfsilatlı olacaqdır və təkcə cənab Terri Adams yox, onun hər bir sahə üzrə müavinləri də məsələləri çox konkret izah edəcəklər, konkret işıqlandıracaqlar və ümumiyyətlə, həm müqavilə haqqında, həm də onun həyata keçirilməsi haqqında bizim təəssüratlarımızı bu qədər genişləndirəcəklər. İşin bu cür təşkil olunması çox təqdirəlayiqdir. Mən bunu çox yüksək qiymətləndirirəm və geniş məlumatlara görə, izahatlara görə, burada nümayiş etdirilən diaqramlara, ayrı-ayrı sxemlərə, ayrı-ayrı cədvəllərə görə təşəkkür edirəm.

İndi mən görülən işlər haqqında bir neçə kəlmə öz fikrimi demək istəyirəm. Öncə onu demək istəyirəm ki, müqavilədə nəzərdə tutulmuş proqram ardıcıl surətdə və demək olar ki,

əsasən, vaxtlı-vaxtında yerinə yetirilir. Bəzi məsələlərdə müəyyən gecikmələr olubdur. Amma onlar səbəbsiz deyil, onların obyektiv səbəbləri var. Ona görə də bunlar ümumi işin nəticələrinin qiymətinə heç bir mənfi təsir göstərə bilməz. Xarici şirkətlərin nümayəndələrinin nəzərinə çatdırmaq istəyirəm ki, biz keçmiş illərdə, ümumiyyətlə, planla yaşamışıq. Sovet iqtisadi sistemində beşillik planlar olubdur, illik planlar olubdur, ayrı-ayrı məsələlərin həyata keçirilməsi üçün ayrı-ayrı planlar olubdur və biz bu planları tərtib etməyi, həyata keçirməyi öyrənmişik və bu barədə müəyyən təcrübəmiz var. Məhz buna görə də sosialist iqtisadi sisteminə "planlı iqtisadi sistem" adı verilmişdi. Hesab edilirdi ki, kapitalist iqtisadiyyatında plan yoxdur. Belə fikir var idi ki, bu plan ancaq sosialist sistemində var. Ancaq görünür ki, hər yerdə plan var imiş və indi də var, yəqin ki, gələcəkdə də olacaqdır. İş ondadır ki, planlar nə cür tərtib olunur, nə cür qurulur və nə cür həyata keçirilir.

Keçmiş zamanlarda, məsələn, Azərbaycanda planların yerinə yetirilməsində, xüsusən 70-ci illərdə biz çox böyük nailiyyətlər əldə etmişdik. Məsələn, beşillik planları – xalq təsərrüfatının, iqtisadiyyatın inkişafına dair beşillik planları biz vaxtından qabaq yerinə yetirirdik. Bu da həqiqət idi. Bunu bu gün mən bir daha bir həqiqət kimi qeyd etmək istəyirəm. Ona görə də o sistem çərçivəsində Azərbaycanın iqtisadiyyatı o illərdə çox yüksək sürətlə inkişaf etmişdi. Ancaq eyni zamanda elə hallar olurdu ki, Azərbaycanda da və başqa respublikalarda da, ümumiyyətlə, Sovet İttifaqında nəzərdə tutulan planlar yerinə yetirilmirdi və buna cürbəcür bəhanələr, cürbəcür səbəblər göstərilirdi. Yəni bizim planları müvəffəqiyyətlə yerinə yetirmək təcrübəmiz də var və planları yerinə yetirməmək təcrübəmiz də var.

İndi, iqtisadiyyatımızın bu keçid dövründə, ümumiyyətlə, dövlətimizin bu keçid dövründə, şübhəsiz ki, biz nəzərdə tutulmuş planların bir çoxunu vaxtında yerinə yetirə bilmirik. Bunun obyektiv səbəbləri də var, amma subyektiv səbəblər də var. Hesab edirəm ki, müəyyən bir dövrdən sonra biz bu sahədə də lazımi səviyyəyə qalxa biləcəyik. Neft müqaviləsi proqramının yerinə yetirilməsi bizim üçün çox yaxşı nümunədir.

Doğrusu, mən bu iki il müddətində bu işlərə nəzarət edirdim və bəzən məndə narahatlıq hissi əmələ gəlirdi. Ancaq bugünkü müzakirə məni çox məmnun etdi və tam qətiyyətlə deyirəm ki, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti bu iki il müddətində çox müvəffəqiyyətlə işləyibdir və onların işini yüksək qiymətləndirmək lazımdır. Görülən işlər haqqında burada deyildi, mən artıq bu barədə konkret fikirlər söyləmək istəmirəm. Ancaq "Dədə Qorqud" qazma qurğusunun hazırlanması, onun işə salınması, "Çıraq" neft yatağında quyunun qazılması və 1200 metr dərinliyə çatması – bu artıq işin konkret nəticəsidir. Mən bu gün burada verilən məlumatları və vədləri nəzərə alıram. Nəzərə alıram ki, 1996-cı ilin sonunda Şimal marşrutu ilə neft kəməri hazır olacaqdır. Mən nəzərə alıram ki, 1997-ci il avqust ayının 28-də "Çıraq" yatağından konsorsiumun proqramı əsasında ilk neft hasil olunacaqdır. Mən nəzərə alıram ki, gecikməsinə baxmayaraq, 1997-ci ilin mart ayında Qərb marşrutu ilə neft kəmərinin tikilməsinə başlanacaqdır və 1998-ci ilin sonunda bu neft kəməri hazır olub istismara veriləcəkdir.

Bunların hamısını, bu məlumatları bu gün mən qəbul edirəm və yenə də deyirəm, nəzərə alıram. Şübhəsiz, əmin olduğumu bildirmək istəyirəm ki, bu verilən sözlər, vədlər vaxtında yerinə yetiriləcəkdir. Şimal marşrutu ilə neft kəmərinin başa çatması barədə mən sual verdim. Azərbaycan ərazisində bu neft kəməri hazır olub başa çatacaqdır. Amma biz gərək bu neft kəmərinin Rusiya ərazisində bu ilin sonuna qədər hazır olması məsələsinə tam arxayın olaq, yəni inanaq ki, bu olacaqdır.

Ona görə də Artur Rasizadəyə, Natiq Əliyevə göstəriş verirəm ki, onlar dərhal Rusiya hökuməti ilə və "Transneft" şirkəti ilə əlaqəyə girsinlər, – bu barədə mən dedim, bir daha təkrar edirəm, – bu məsələnin müzakirə olunmasını təşkil etsinlər. Biz bu məsələnin məhz Azərbaycanda müzakirə olunmasını təklif edirik. Onları buraya dəvət etmək, müzakirə etmək lazımdır. Mən özüm bu işə nəzarət etməliyəm. Biz tam proqramı almalıyıq ki, bizim sərhəddən o tərəfə – Novorossiysk limanına qədər neft kəməri bu ilin axırına qədər hazır olsun.

Bildirmək istəyirəm ki, Şimal neft kəməri ilə 1997-ci ilin əvvəlində biz Azərbaycan neftini, yəni özümüz hasil etdiyimiz neftin bir

hissəsini ixrac etmək istəyirik. Ona görə də bu neft kəmərinin hazır olması bizim üçün xüsusi əhəmiyyət kəsb edir. Hesab edirəm ki, 1997-ci ilin avqust ayında konsorsium neft hasil edərkən artıq bu neft kəməri yoxlanılmalıdır, tamamilə sınaqdan keçirilməlidir və hazır olmalıdır ki, konsorsiumun planı ilə hasil olunan neft dərhal ixrac edilə bilsin. Ona görə də mən bu məsələyə xüsusi əhəmiyyət verirəm və bu barədə artıq öz tapşırıqlarımı verdim.

Bu gün bütün bu məlumatları dinləyərkən bu iki il müddətində müqavilənin həyata keçirilməsi nəticəsində Azərbaycanın həyatında baş vermiş dəyişiklikləri bir kino lenti kimi gözümün qabağından keçirirəm. Güman edirəm ki, siz də belə təəssürat altındasınız və böyük məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu iki il müddətində qısa bir zamanda nə qədər çox iş görülüb, nə qədər dəyişikliklər meydana çıxıbdır. Şübhə yoxdur ki, neft hasil olunmağa başlayandan sonra Azərbaycanın iqtisadiyyatı bunun müsbət nəticələrini görəcək və bu da həm iqtisadiyyatın inkişafına, həm də Azərbaycan vətəndaşlarının rifah halının, həyat tərzinin yaxşılaşmasına çox böyük müsbət təsir göstərəcəkdir.

İndi görün Azərbaycanın neft sənayesinə nə qədər xarici sərmayə qoyulubdur. Bu sərmayə qoyuluşu davam etdirilir və ilbəil artacaqdır. Şübhəsiz ki, bu həm Azərbaycana, həm də konsorsiumda iştirak edən şirkətlərə mənfəət gətirəcəkdir. Amma eyni zamanda bu, Azərbaycanın neft sənayesinin simasını tamamilə dəyişdirir. Azərbaycana yeni texnologiya gəlir, müasir texnologiya gəlir. Təkcə neft hasilatı sahəsinə yox, qazma sahəsinə yox, neft sənayesi ilə bağlı olan bütün sənaye sahələrinə yeni texnologiya, müasir texnologiya gəlir. Bunun özü də bizim üçün böyük nailiyyətdir. Konsorsiumun sayəsində nə qədər Azərbaycan vətəndaşları işə cəlb olunublar. Onlar xarici ölkələrdə hazırlıq keçiblər, ixtisaslarını artırıblar, dil öyrəniblər, yeni, müasir texnologiyaya, müasir tələblərə uyğun iş öyrəniblər. Bunun özü də xalqımız üçün çox böyük sərvətdir. Nə qədər gəmilərimiz təmir olunur, nə qədər istehsal müəssisələri modernləşdirilir, şübhəsiz, istehsal imkanları artır. Bunların özü də çox əhəmiyyətlidir. Yeni neft kəmərləri tikilir, daxildə, yeni dənizdə qaz kəmərləri çəkilir, terminallar tikilir.

Bütün bunlar Azərbaycan Respublikasının sənayesinin, xüsusən neft sənayesinin istehsal fondlarıdır, bunlar bizimdir. Bakının, Azərbaycanın infrastrukturunda nə qədər dəyişikliklər baş verir. Əgər biz iki il müddətində bu qədər dəyişikliklərin şahidiyiksə, təsəvvür edin, gələcək illərdə dəyişikliklər bir neçə qat artıq sürətlə genişlənəcək və inkişaf edəcəkdir. Burada məni sevindirən cəhətlərdən biri də odur ki, cənab Terri Adams və onun müavinləri öz məruzələrində dünyanın inkişaf etmiş ölkələri tərəfindən bu müqaviləyə görə, onun həyata keçirilməsinə görə Azərbaycana sərmayə gətirmək meyillərinin nə qədər artdığını qeyd etdilər. Bu da bizim üçün çox əhəmiyyətli faktdır.

Birinci neft müqaviləsindən sonra daha iki neft müqaviləsi imzalanıbdır. Ancaq indi yeni neft yataqları üzərində nə qədər işlər gedir və bizə müraciətlər var. Məsələn, cənab Terri Adams dedi ki, Amerikanın ən böyük neft şirkəti olan "Exxon" şirkəti müqavilə imzalanandan sonra – 1995-ci ilin yayında bu konsorsiuma daxil oldu. Ancaq mən yenidən bu şirkətin prezidentindən məktub almışam. Onlar Xəzər dənizinin Azərbaycan sektorunda yeni yataqlar üzərində işləyirlər və burada müştərək iş görmək üçün bizim razılığımızı almaq istəyirlər. Yaponiyanın "İtochu" şirkəti artıq konsorsiuma daxil olub, burada öz nümayəndəliyini açıb və bizim neft sənayemizdə və sənayemizin başqa sahələrində iş görmək üçün bir çox təkliflər irəli sürübdür.

Dünən mən Böyük Britaniyanın baş naziri cənab Meycordan məktub almışam. O, məktubda yazır ki, Böyük Britaniyanın "Remco" şirkətinin, Fransanın "Total" şirkətinin və Amerikanın "Mobil" şirkətinin nümayəndələri bu günlərdə buraya gələcəklər. Müştərək iş görmək üçün onların təklifləri var. Cənab Con Meycor mənə müraciət edir ki, onların təkliflərinə diqqətlə baxılıb, bu təkliflərin həyata keçirilməsinə kömək edilsin.

Fransanın "Elf Akiten" şirkətinin bu müqavilədə yer alması mümkün olmasa da, o, "Şahdəniz" müqaviləsində yer alıbdır, onun hissəsi var və həmin şirkət bundan sonra da bir neçə neft yatağında müştərək iş görmək üçün müraciət edir. Bunlar hamısı bizim iki il bundan öncə imzaladığımız müqavilədən bəhrələnən, yəni onun nəticəsi olan, baş verən hadisələrdir. Amma

eyni zamanda əgər bu müqavilə əməli surətdə həyata keçirilməsəydi, Azərbaycan Respublikasında indi mövcud olan ictimai-siyasi sabitlik əldə olunmasaydı, Azərbaycanda demokratik dəyişikliklər, dövlətimizin, iqtisadiyyatımızın, cəmiyyətimizin demokratikləşməsi prosesi getməsəydi, dünyanın belə böyük, çox mötəbər, çox hörmətli neft şirkətləri və başqa şirkətlər Azərbaycana bu qədər maraq göstərməzdi.

Hesab edirəm ki, bizim bu müştərək işimizin, iki il ərzində gördüyümüz işin gözəl əlamətlərindən biri də odur ki, biz bu gün dörd saatdan artıqdır ki, müştərək işimizi bir yerdə müzakirə edirik. Biz Azərbaycanda bir çox müxtəlif müzakirələr, müşavirələr, beynəlxalq görüşlər keçirmişik. Amma bu tərkibdə, bu şəkildə müştərək işi müzakirə etməyimiz birinci dəfədir. Bu çox sevindirici haldır. Mən bugünkü tərkibdə, bu məzmunda görüşdən və müzakirədən xeyli məmnun olduğumu bildirmək istəyirəm.

Mən çox tərifli sözlər dedim, güman edirəm ki, bunlar hamısı əsaslıdır. Amma eyni zamanda bunlar bizi heç də işimizdən soyutmamalıdır, əksinə, əldə olunan nailiyyətlər əsasında biz işimizi bundan sonra daha da sürətləndirməliyik. Bu çox vacibdir. Çünki əldə olunan nailiyyətlərlə bərabər, işdə nöqsanlar da var, çatışmazlıqlar da var və məruzələr zamanı mən bu barədə öz fikrimi dedim. Bəzi məsələlərin yerinə yetirilməsi gecikdirilibdir, nəzərdə tutulan vaxtda olmayıbdır. Ona görə də biz bundan sonra çalışmalıyıq ki, bu nöqsanlar artıq olmasın. Məsələn, verilən izahatlara baxmayaraq, mən hesab edirəm ki, Qərb marşrutu ilə neft kəmərlərinin çəkilməsi gecikir. Çünki biz bu məsələ ilə çoxdan məşğuluq.

Doğrudur, bu barədə qərar bu ilin əvvəlində qəbul olunubdur, ancaq bu marşrutun olması və mütləq ikinci bir marşrutun olması haqqında hələ keçən il müzakirələr aparılmış və bu barədə müəyyən hazırlıq işləri də görülmüşdü. Ona görə də bunun 1998-ci ilin axırına qədər uzadılması, mən hesab edirəm ki, məqsədəuyğun deyil. Doğrudur, mən indi bir şey edə bilmərəm, öz fikrimi deyirəm, – bu gərək daha tez olaydı, – və hesab edirəm ki, bunu daha tez etmək olardı. Çünki bunda konsorsiumun da marağı var idi, Gürcüstan hökumətinin də marağı

var idi, bizim də marağımız var idi. Bunu daha tez yerinə yetirmək olardı. Ancaq indi belə görünür ki, deyilən vaxtdan tez yerinə yetirmək mümkün deyil. Mən bunu ona görə deyirəm ki, artıq ondan da o tərəfə, yəni 1998-ci ilin sonundan o tərəfə keçməsin, burada gecikmə olmasın. “Çıraq-2” platformasının yaranması haqqında burada deyilən fikirlər də çox maraqlıdır və mən hesab edirəm ki, bu işlə ciddi məşğul olmaq lazımdır. Mən Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə tapşırıram və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətindən rica edirəm ki, bu məsələyə konkret baxılsın və bu məsələnin necə həll olunması haqqında mənə məlumatlar verilsin.

Biz dünən görüşən zaman fikir mübadiləsində belə bir fikir də meydana çıxdı, – bu, konsorsium tərəfindən deyildi, – mən bunu çox sevinclə qəbul etdim ki, müqavilədə nəzərdə tutulmuş həcmdən də artıq neft hasil etmək, – yəni bu konsorsiumun çərçivəsində, – imkanı var. Elədirmi? Dünən belə bir fikir söyləndi. Bu fikri mən tutdum, bunu çox əhəmiyyətli hesab edirəm və güman edirəm ki, bu fikrin, bu təklifin üzərində də işləmək lazımdır. Mən bu gün böyük neft kəmərinin tikilməsi haqqında suallar verirdim. Nəhayət, cənab Terri Adams belə cavab verdi ki, bu, kommersiyadan asılı olacaq. Yəni əgər çox neft olsa, bu neft kəməri tikiləcəkdir, amma çox neft olmasa, tikilməyəcəkdir.

Birincisi, hesab edirəm ki, müqavilədə nəzərdə tutulmuş həcmdə neft olacaqdır. Məhz onu əsas tutaraq müqavilədə böyük neft kəmərinin tikilməsi və onun 54 aya hazır olması yazılıbdır.

İkincisi də, onu nəzərə almaq lazımdır ki, bu müqavilədən sonra biz daha iki müqavilə imzalamışdıq: “Qarabağ” neft yatağı ilə əlaqədar müqavilə, sonra da “Şahdəniz” neft yatağı ilə əlaqədar müqavilə. Başqa neft yataqları da var, biz onların üzərində işləyirik və bizim konsorsiumun üzvləri də yaxşı bilirlər, onların şirkətlərinin bir çoxu o yataqlara böyük maraq göstərir.

Orada bizim ehtiyatlarımız var ki, “Chevron” şirkəti Qazaxıstanda çıxarılan neftin bir hissəsini Azərbaycan ərazisindən nəql etmək istəyir. Mən səhv etmirəmsə, sabah “Chevron”

şirkətinin prezidenti buraya gələcək və bizimlə görüşəcəkdir. Bunlar hamısı böyük neft kəmərinin tikilməsi üçün əvvəlki illərdə, məsələn, iki il bundan öncə nəzərdə tutulduğundan da çox əsas yaradır. Ona görə də bu barədə əməli iş görmək lazımdır. Cənab Terri Adams dedi ki, böyük neft kəməri üçün bir neçə marşrutun variantı var. Bu, həqiqətdir, bu variantlar çoxdan mövcuddur və dəfələrlə müzakirə olunub.

Heç bizim özümüzdən asılı olmayaraq, onlar dünyanın bəzi beynəlxalq maliyyə mərkəzlərində, ayrı-ayrı ölkələrdə müzakirə olunur. Məsələn, Avropa Birliyinin nümayəndə heyəti bir neçə gün bundan öncə buraya gəlmişdi. Onlar bu məsələni müzakirə edirlər. Bu məsələ Vaşinqtonda, Dünya Bankında da müzakirə olunur. Avropa Birliyi Azərbaycanın Xəzər dənizində olan neft yataqlarına və bu kəmərin tikilməsinə böyük maraq göstərir, başqa Qərb ölkələri də maraq göstərir. Odur ki bu barədə artıq əməli tədbirlər görməliyik. Ona görə də mən cənab Terri Adamsdan rica edirəm, bu barədə tədbirlərimizi konkretləşdirməliyik və müəyyənləşdirməliyik ki, nə vaxt təkliflər alacağıq. Natiq Əliyevə göstəriş verirəm ki, bu məsələ ilə məşğul olsun və mənə bildirsin ki, nə vaxt bu konkret təklifləri ala biləcəyik ki, müzakirə edək.

Mən şəxsən belə fikirdəyəm ki, belə bir neft kəmərinin tikilməsinə ehtiyac var. Bu ehtiyac gündən-günə artır və biz bu məsələni gecikdirməməliyik. Şübhəsiz ki, bütün görülən işlər kommersiya prinsiplərindən asılıdır. Burada kommersiya prinsiplərinə uyğun olmayan heç bir iş görülə bilməz. Bu, şübhəsizdir. Cənab Makhafinin sözündən mən belə başa düşdüm ki, konsorsium, yəni Beynəlxalq Əməliyyat Şirkəti işlədiyi binaya artıq yerləşmir. Görürəm ki, onlar yeni bina gözaltı eləyiblər, almaq istəyirlər. Mən əvvəlcədən deyirəm, Beynəlxalq Əməliyyat Şirkətinin bu barədə bütün təkliflərini dəstəkləyirəm və bundan sonra da kömək edəcəyəm ki, siz yaxşı iş şəraiti qura biləsiniz. Ümumiyyətlə, bu gün bilmək lazımdır ki, müqavilə 30 il üçün nəzərdə tutulubdur. Biz 30 il bir yerdə olacağıq. Buna heç kəsin şübhəsi olmasın. Keçən iki il onu göstərdi ki, işlər çox uğurla gedir. Demək, get-gedə bizim işlərimiz genişlənəcəkdir.

Amma mən hesab edirəm ki, 30 il birinci müqavilənin vaxtıdır. Biz 30 ildən sonrakı on illərdə də bir yerdə olacağıq. Mən buna əminəm.

Mən bu gün bir daha bildirirəm ki, Xəzər dənizinin Azərbaycan sektorunda olan neft yataqlarının dünyanın inkişaf etmiş şirkətləri ilə müştərək işlənilməsi prinsipini Azərbaycan üçün, Azərbaycanın iqtisadiyyatı üçün çox uğurlu hesab edirəm və bundan sonra da məhz bu prinsiplər əsasında müştərək işimizi davam etdirməyə çalışacağıq. Mən bunu dəfələrlə demişəm və bu gün bir daha Azərbaycan ictimaiyyəti üçün deyirəm ki, bunlar həm Azərbaycanın iqtisadiyyatı üçün, həm Azərbaycanın coğrafi-siyasi vəziyyəti üçün, həm də Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək və gücləndirmək üçün düzgün yoldur və biz bundan sonra da bu yolla gedəcəyik.

Bu gün burada meydana çıxan bəzi məsələlərin həyata keçirilməsi üçün və şübhəsiz ki, müzakirənin yekunları üçün bir sənəd əldə etmək lazımdır. Mən belə fikirdəyəm ki, bu müzakirənin yekunu ilə əlaqədar bir qərar, sərəncam imzalayacağam və Artur Rasizadəyə, Vahid Axundova, Natiq Əliyevə və bizim şöbə müdiri Şahin Əliyevə tapşırıram: burada bir çox məsələlər var, mən göstərişlər vermişəm, – onların hamısını mən indi deməmdim, ancaq müzakirə vaxtı bir neçə məsələ meydana çıxdı, o barədə mən göstərişlər verdim, – bunların hamısını cəmləyib, sabaha bir sərəncam layihəsi hazırlayasınız, bunu mən imzalayacağam. Burada müəyyən təkliflərimi də əks etdirəcəyəm.

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinə bu iki il müddətində görülən işlərə görə bir daha təşəkkür edirəm. Bu işlərin daha da sürətlə aparılması üçün həm Beynəlxalq Əməliyyat Şirkətinə, həm də Azərbaycan Dövlət Neft Şirkətinə uğurlar arzulayıram. Respublikanın bütün orqanları: nazirliklər, komitələr, ayrı-ayrı konsernlər, Nazirlər Kabineti, Prezidentin İcra Aparatı bu məsələlərin həyata keçirilməsi üçün lazımi kömək göstərməlidir. Sağ olun. Gələn görüşlərədək.

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Çıraq-1" platformasından ilkin neftin alınması münasibətilə keçirilən təntənəli mərasimdə nitqi

*12 noyabr 1997-ci il*

– Bu gün burada gördüyüm "Çıraq" platforması mənə və güman edirəm burada toplaşanların hamısına çox böyük təsir bağışlayıbdır. Biz üç il müddətində görülən gərgin işin gözəl nəticələrini müşahidə edirik. Azərbaycan neftçiləri hələ 50 il bundan öncə Xəzər dənizində platformalar yaradıb və neft çıxarmağa başlayıblar. "Çıraq" neft yatağında olan platformanı da vaxtilə Azərbaycan neftçiləri yaratmışlar.

Ancaq üç il bundan öncə, "Əsrin müqaviləsi" imzalanandan sonra biz konsorsiumun iştirakçısı olan şirkətlərlə birlikdə bu platformanı yenidən qurmuşuq və o bugünkü müasir vəziyyətə gəlib çatıbdır. Mən bu gün böyük iftixar hissi keçirirəm. Xəzərin ortasında, açıq dənizdə belə gözəl platforma yaranıb və o, dünyada dənizdən neft çıxarılması sahəsində ən yüksək standartlara uyğun platformadır. Bu platformanı tikən, quran və yaradanların hamısına, burada işləyənlərin hamısına, burada toplaşmış, bir çox ölkələrdən olan mütəxəssislərə: mühəndislərə, texniklərə, fəhlələrə, hamıya təşəkkür edirəm və "Çıraq-1" platformasının işə başlaması, neftin alınması münasibətilə hamınızı ürəkdən təbrik edirəm.

Biz böyük bir işin əsasını qoymuşuq. Heç şübhə yoxdur ki, Xəzər dənizində həm "Əsrin müqaviləsi" ətrafında toplaşmış şirkətlərin yaratdığı konsorsiumun fəaliyyətinin nəticəsində, həm də imzalanmış başqa müqavilələrin həyata keçirilməsi nəticəsində bir çox belə gözəl platformalar yaranacaq, Xəzərin neft və qaz ehtiyatları dünya iqtisadiyyatına böyük kömək edəcəkdir.

Bu gün bizim ölkəmizdə bayram günüdür – müstəqil Azərbaycan Respublikasının ilk demokratik Konstitusiyasının qəbul olunmasının ikinci ildönümüdür. Bu gün eyni zamanda qədim neft diyarı olan Azərbaycan neft sənayesinin inkişafında yeni bir mərhələnin açılması günüdür. Bu iki bayram bir-birinə

qarışmışdır. Ancaq bunlar bir-biriylə sıx əlaqədə olan bayramlardır. Sizi bu bayramlar münasibətilə təbrik edir və zəhmət çəkib "Çıraq-1" platformasına gəlmiş xarici ölkələrdən olan qonaqlarımıza təşəkkür edirəm. Hamınıza səadət, xoşbəxtlik, əmin-amanlıq arzulayıram. Xeyirli olsun, uğurlu olsun! Yeni-yeni uğurlar arzulayıram! Sağ olun.

## Yaşayış modulunun qonaq salonunda qoyulmuş xatirə lövhəsinin açılış mərasimi

**Terri Adams:** Cənab Prezident, Sizi bu gün burada, aramızda görməkdən böyük şərəf duyuruq. Bu gün işlərimizin zirvə nöqtəsidir. Yəqin, xatırlayırsınız, mən ictimai yerlərdə çıxış edərkən həmişə cənab Çörçilldən sitatlar gətirirəm. Cənab Çörçillin məhz bu günə uyğun olan çox gözəl bir kəlamı var. Çörçill İkinci Dünya müharibəsi zamanı döyüşdə ilk qələbədən sonra demişdi: bu bizim işlərimizin sonu deyil, hətta sonun başlanğıcı da deyil, başlanğıcın sonudur.

Cənab Prezident, xahiş edirik bu xatirə lövhəsini açasınız.

**Heydər Əliyev:** Mən sizin sözlərinizi və cənab Çörçillin sözlərini təsdiq edirəm və xatirə lövhəsini məmnuniyyətlə açıram.

XATİRƏ LÖVHƏSİNDƏ YAZILMIŞ SÖZLƏR:

***"Zati-aliləri Prezident Heydər Əliyevin ilk neftin çıxarılması münasibətilə "Çıraq-1" platformasına rəsmi səfərindən xatirə. 12 noyabr 1997-ci il".***

Həmin gün səhər Azərbaycan Prezidenti Heydər Əliyev və onunla birlikdə Rusiya Baş nazirinin birinci müavini Boris Nemtsov, Britaniyanın dövlət xarici işlər naziri Federiko Penya da "Çıraq-1" platformasına gəldilər. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti Terri Adams, ARDNŞ-nin prezidenti Natiq Əliyev, ARDNŞ-nin birinci vitse-prezidenti İlham Əliyev və platformanın meneceri, Amerikanın "Amoco" şirkətinin mütəxəssisi Hyu Oliver platformada Azərbaycan Prezidentini qarşıladılar. Prezident Heydər Əliyevə təmizlənmiş neftin platformadan Səngəçal terminalınadək çəkilmiş 176 km uzunluğunda sualtı neft kəmərinə vurulması barədə məlumat verildi.

## Xəzər dənizinin Azərbaycan sektorunda xarici şirkətlərlə müştərək işlənilən neft yataqlarından ilkin neftin çıxarılması münasibətilə təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi

*12 noyabr 1997-ci il, Respublika sarayı*

***Mərasimdə Gürcüstan Respublikasının prezidenti Eduard Şevardnadze, Türkiyənin Baş naziri Məsud Yılmaz, Rusiya Baş nazirinin birinci müavini Boris Nemtsov, ABŞ-nin energetika naziri Federiko Penya, Böyük Britaniyanın dövlət xarici işlər naziri Derik Façet, Ukrayna Baş nazirinin birinci müavini Anatoli Qolubçenko, Özbəkistan Baş nazirinin müavini Kayum Xakulov, Norveçin energetika və sənaye nazirinin müavini Hokon Gil, Almaniya, Yaponiya və Qazaxıstanın, Avropa Birliyi Komissiyasının, Avropa Birliyi Energetika Xartiyasının nümayəndələri və başqa rəsmi şəxslər iştirak edirdilər.***

– Hörmətli xanımlar və cənablar! Hörmətli qonaqlar, əziz dostlar!

1994-cü il sentyabrın 20-də Azərbaycanda tarixi bir hadisə baş vermişdir. Dünyanın 7 ölkəsinə mənsub olan 11 böyük neft şirkəti bir araya gələrək konsorsium yaratmış və Azərbaycan Respublikası, Azərbaycan Dövlət Neft Şirkəti ilə Xəzər dənizinin

Azərbaycan sektorunda olan "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin müştərək işlənilməsi haqqında müqavilə imzalamışdır. Bu müqavilə "Əsrin müqaviləsi" adlandırılmış, dünyaya geniş səs yaymış və böyük əks-səda vermişdir. Bu müqavilənin həyata keçirilməsi üçün Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti yaradılmışdır. Bu müqaviləyə, konsorsiuma daxil olan şirkətlər və ölkələr məlumdur. Həmin ölkələrin bayraqları burada asılıbdır və o şirkətlərin də bayraqları burada nümayiş etdirilir. Bunlar Amerika Birləşmiş Ştatlarının "Amoco", "Unocal", "Pennzoil", "Exxon", Böyük Britaniyanın "British Petroleum", "Remco", Rusiyanın "LUKoil", Norveçin "Statoil", Türkiyənin "Türkiye Petrolleri", Səudiyyə Ərəbistanının "Delta", Yaponiyanın "İtochu" şirkətləridir.

Onlar Azərbaycan Dövlət Neft Şirkəti ilə birlikdə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti yaratmışlar. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti müqavilədə nəzərdə tutulmuş layihəni həyata keçirməyə başlamış, üç il müddətində proqram əsasında nəzərdə tutulmuş işlərin hamısı yerinə yetirilmişdir. Bütün icbari işlər görülmüş və onların nəticəsində "Çıraq" neft yatağında yaradılmış nəhəng platforma vasitəsilə ilkin neft hasil olunmuşdur.

XIX əsrin sonunda, XX əsrin əvvəlində Azərbaycan dünyanın neft hasil edən ən böyük ölkəsi olubdur. XX əsrin əvvəlində dünyada hasil edilən neftin 50 faizindən çoxu Azərbaycanda, Bakıda çıxarılmışdır. Azərbaycan XX əsrdə neft ölkəsi kimi çox inkişaf etmişdir. Azərbaycanın neft sənayesi mənsub olduğu Sovetlər İttifaqının, xüsusən Rusiyanın ərazisində yeni neft yataqlarının kəşf olunmasında böyük xidmətlər göstərmişdir. Təsadüfi deyil ki, Rusiyanın ərazisində olan böyük neft yataqlarına sonralar "İkinci Bakı", "Üçüncü Bakı", "Dördüncü Bakı" adları verilmişdir.

İkinci Dünya müharibəsi zamanı alman faşizmi ilə mübarizədə Sovetlər İttifaqının istifadə etdiyi neftin 75 faizi Azərbaycanda hasil olunmuşdur. Bu gün biz böyük iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan, Azərbaycanın xalqı, neftçiləri alman faşizmi üzərində çalınmış qələbədə öz layiqli xidmətlərini göstərmişlər. Azərbaycan dünyada neftin sənaye üsulu ilə hasil edilməsində irəlidə gedən ölkə olduğu kimi, suda, dənizdə

də, suyun dərinliklərində də neft yataqlarının kəşf olunmasında və onlardan istifadə edilməsində də ilk addımları atan bir ölkə olmuşdur. Xəzər dənizində, "Neft Daşları" adlandırılan əfsanəvi bir yerdə məhz 1949-cu ilin noyabrında – bu ayda, 48 il bundan əvvəl ilk neft quyusu fontan vurmuş və bununla da Xəzər dənizində neft istehsalı sənayesi yaranmış və inkişaf etmişdir. Azərbaycan alimləri, neftçiləri, mütəxəssisləri Xəzər dənizinin mineral ehtiyatlarının öyrənilməsində və neft-qaz yataqlarının kəşf edilməsində böyük xidmətlər göstərmiş və həmişə irəlidə getmişlər. Mən bu gün cəsarətlə deyə bilərəm ki, Xəzər dənizində neft yataqlarının tam əksəriyyəti Azərbaycan neftçiləri, alimləri tərəfindən kəşf olunubdur. Azərbaycan neftçiləri Xəzər dənizində neft çıxarmaq sahəsində böyük nailiyyətlər əldə etmişlər.

1949-cu ildən indiyə qədər Azərbaycanda Xəzər dənizindən 420 milyon ton neft çıxarılmışdır, 320 milyard kubmetr qaz hasil olunmuşdur. "Neft Daşları" adlanan yerdə on kilometrlərlə uzanan estakadalar qurulmuş, ayrı-ayrı neft yataqlarında neft çıxarmaq üçün platformalar yaradılmışdır. Çox sərt və çətin şəraiti olan Xəzər dənizində Azərbaycan neftçiləri qəhrəmanlıq nümunələri göstərmişlər və Xəzər dənizindən daim neft hasil etmək üçün çox görkəmli işlər görmüşlər. Bunlar hamısı – ötən illərdə Azərbaycanda neft sənayesi sahəsində yaranmış elmi-texniki, maddi-texniki baza və böyük texniki qurğular müstəqil Azərbaycanın neft sənayesində yeni mərhələdə böyük işlər görülməsi üçün yaxşı əsas yaratmışdır. Məhz bunlara: əlimizdə olan böyük təcrübəyə, sərəncamımızda olan böyük maddi-texniki bazaya görə Xəzər dənizində, suyun dərinliyində yerləşən yataqlardan neft istehsal etmək üçün Azərbaycan yeni addımlar atmağa başlamışdır. İndi Azərbaycan bu mərhələdə bu işləri dünyanın bir çox ölkələrinin böyük neft şirkətləri ilə birlikdə görür. Məhz bunun nəticəsində 1994-cü ilin sentyabr ayında ilk neft müqaviləsi imzalandı. Məhz bunun nəticəsində ondan sonrakı dövrdə, ötən üç il müddətində Xəzərin Azərbaycan sektorunda yerləşən bir çox başqa neft və qaz yataqlarında dünyanın böyük neft şirkətləri ilə müştərək iş görmək üçün yeni müqavilələr imzalanıbdır. Birinci müqavilədən sonra əlavə 8 neft-qaz yatağında

müştərək iş görmək üçün müqavilələr imzalanıb. İndi Xəzər dənizinin Azərbaycan sektorunda imzalanmış müqavilələrdə 12 ölkəyə mənsub olan 20 böyük neft şirkəti iştirak edir.

Beləliklə, Azərbaycan Xəzər dənizində neft yataqlarının kəşfində və istismar olunmasında ilk addımlarını atan bir ölkə kimi indi – XX əsrin sonunda, XXI əsrin astanasında Xəzər dənizinin böyük enerji ehtiyatlarından həm Azərbaycan, həm bütün Xəzəryanı ölkələr, həm də dünya iqtisadiyyatı üçün istifadə olunması sahəsində görkəmli təşəbbüslər göstərmişdir və bunların nəticəsində də son üç ildə böyük işlər görülmüşdür.

Mən məmnuniyyətlə deyə bilərəm ki, artıq Xəzər dənizinə dünyanın hər yerində böyük maraq bəslənilir. Xəzər dənizinin Azərbaycan sektorunda olan neft-qaz yataqlarında müştərək işləmək üçün bizə çoxsaylı şirkətlər müraciət edir. Böyük məmnuniyyət hissi ilə demək istəyirəm ki, digər Xəzəryanı ölkələr də: Rusiya, Qazaxıstan, Türkmənistan, İran da Xəzər dənizinin onlara mənsub olan sektorlarında artıq iş görməyə başlayıb. Ümidvaram ki, bu işlər də uğurlu olacaqdır.

Xəzər dənizinin enerji ehtiyatları bəşəriyyət üçün çox əhəmiyyətli olduğu üçün bəşəriyyətin də inkişafına sərf ediləcəkdir. Bu gün bizi buraya toplayan hadisə ilkin neftin alınması ilə əlaqədardır. Ancaq bu gün eyni zamanda Azərbaycan Respublikası üçün böyük bayram günüdür – müstəqil Azərbaycan Respublikasının ilk demokratik Konstitusiyasının qəbul olunmasının ikinci ildönümüdür.

Mən bu bayram münasibətilə, Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunması günü bayramı münasibətilə sizi, bütün Azərbaycan vətəndaşlarını təbrik edirəm və Konstitusiyanın əsasında Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunda hamınıza uğurlar arzulayıram. Bu gün – Azərbaycan üçün əziz olan Konstitusiya Günü, eyni zamanda Xəzər dənizindəki yataqlarda üç il görülən işlər nəticəsində ilkin neftin hasilatının qeyd olunması mərasimi bir-biri ilə üzvi surətdə bağlıdır. Çünki məhz Azərbaycan dövlət müstəqilliyi əldə edəndən, xalqımız öz sərvətlərinin sahibi olandan, öz sərvətlərindən istədiyi kimi istifadə etmək imkanı əldə edəndən sonra Azərbaycan müstəqil olaraq

dünyanın bir çox ölkələri, şirkətləri ilə "Əsrin müqaviləsi" kimi müqavilə imzalamağa nail ola bildi. Məhz müstəqil Azərbaycan özünün ilk demokratik Konstitusiyasını qəbul edibdir. Azərbaycanda demokratik dövlət quruculuğu prosesi gedir. Bunlar bir-biri ilə bağlı, bir-birini tamamlayan hadisələrdir.

Bu gün bizi buraya toplayan "Çıraq" neft yatağından ilkin neftin alınması bayramıdır. Biz "Çıraq" neft yatağında qurulmuş platformaya bu gün səhər erkən vertolyotla getdik, onun işləri ilə tanış olduq və platformanı seyr etdik.

Dənizin ortasında, həqiqətən, bir möcüzə yaranıbdır. Azərbaycanlıları dənizdə olan estakadalarla, platformalarla təəccübləndirmək mümkün deyil. Güman edirəm ki, vertolyotla "Çıraq" yatağına uçan qonaqlarımız bunu təsdiq edərlər. Çünki sahildən "Çıraq" platformasına qədər uçarkən biz vertolyotdan Xəzər dənizində saysız-hesabsız platformaları və Neft Daşlarında yaradılmış, çox kilometrləri olan estakadaları və orada olan yaşayış binalarını gördük. Bunların hamısını Azərbaycan xalqı yaradıbdır. Ona görə bunlar bizi o qədər də təəccübləndirmir. Ancaq bununla yanaşı, "Çıraq" neft yatağında üç il müddətində yaradılmış platforma, həqiqətən, möcüzədir, insanı, həqiqətən, təəccübləndirir.

Çünki o, Xəzər dənizində olan başqa platformalardan, estakadalardan öz müasir texnikası, texnologiyası, müasir imkanları ilə fərqlənir. O platformanı görən adam heyran olur. Çünki bu, böyük bir kombinatdır, zavoddur, demək olar ki, böyük bir şəhərdir. Orada insanlar yaşayırlar da, işləyirlər də. Orada insanlar neft istehsal etməyə, neft çıxarmağa başlayıblar. Bu işin həm iqtisadi, həm siyasi, həm də mənəvi cəhəti var. Bunun iqtisadi cəhəti ondan ibarətdir ki, bizim başladığımız iş bu il də, gələcək illərdə də həm Azərbaycana, həm də Xəzər dənizində Azərbaycanla bərabər müştərək iş görən şirkətlərə və ölkələrə böyük iqtisadi fayda gətirəcəkdir.

Ancaq bunun mənəvi, siyasi cəhəti ondan ibarətdir ki, biz dünyada mövcud olan müasir texnikanı, texnologiyanı orada bir yerdə tətbiq edirik və dünyanın bir çox ölkələrindən yüksək səviyyəli mütəxəssislər, mühəndislər, fəhlələr gəlib burada

Azərbaycan neftçiləri, mütəxəssisləri ilə yan-yana birgə iş görürlər. Bu çox sevindirici haldır. Bu bizim gələcək işlərimizin başlanğıcıdır və çox gözəl başlanğıcdır.

Üç il müddətində görülmüş işlər yüksək qiymətə layiqdir. Çünki "Çıraq" neft yatağında böyük bir platforma yaranıbdır. Orada, suyun dərinliyi 120 metr olan yerdə 3000 metr dərinlikdə bir quyu qazılıbdır. O quyudan neft alınıbdır. Plana görə, gələcəkdə həmin platformadan ikinci quyu qazılacaq, sonra daha 8 quyu qazılacaq, ümumiyyətlə isə, orada 24 quyu qazılacaqdır. Bu platformadan ildə 6 milyon tona qədər neft çıxarılacaqdır. Ancaq bu platforma ilə yanaşı, bu üç il müddətində görülən işlər çıxarılan neftin dərhal ixrac olunması üçün bütün maddi-texniki bazanı yaradıbdır. Platformadan sahilə 176 kilometr məsafədə neft borusu tikilib istismara verilibdir. Artıq "Çıraq" platformasından çıxan neft bu boru ilə sahilə gəlir. Quyulardan neftlə bərabər səmt qazı çıxır. Həmin səmt qazından istifadə etmək üçün "Çıraq" platformasından Neft Daşlarına 48 kilometr məsafədə qaz borusu çəkilibdir. Səmt qazı oraya gedəcək, oradan sahilə gətirilib istifadə ediləcəkdir. Çıxarılan neftin toplanması və xarici bazara göndərilməsi üçün Bakının yaxınlığında, dənizin sahilində – Səngəçalda böyük bir terminal, kompleks tikilibdir.

Demək, çıxan neftin sahilə gəlməsi və yerləşdirilməsi təmin olunubdur. Onun dünya bazarına, xaricə ixrac edilməsi üçün də neft kəməri artıq tikilibdir. Bilirsiniz ki, vaxtilə biz Xəzər dənizinin Azərbaycan sektorunda, ümumiyyətlə, Azərbaycanda çıxan neftin ixracı üçün iki neft kəmərinin tikilməsini planlaşdırmışıq. Birinci neft boru kəməri Rusiya ərazisindən Qara dənizin Novorossiysk limanına, ikinci neft boru kəməri isə Gürcüstan ərazisindən Qara dənizin Supsa limanına çıxacaqdır. Birinci neft kəməri böyük çətinliklərdən sonra artıq işə başlayıbdır. Azərbaycanın ərazisində bu neft kəmərinin uzunluğu 230 kilometrdir, amma onun Novorossiyskə qədər uzunluğu 1400 kilometrdir. Rusiyanın ərazisində görülən işlər nəticəsində Şimali Qafqazda baş vermiş çətinliklər aradan götürülmüşdür. Həmin neft borusunda olan Azərbaycan nefti bu il oktyabrın 25-də Azərbaycan-Rusiya sərhədini keçmişdir. Bu gün səhər

bizə verilən məlumata görə, bu boru xətti ilə neft artıq Qroznı şəhərini də keçmişdir. Güman edirəm ki, neft yaxın vaxtlarda Novorossiysk limanına çatacaqdır. Ancaq bu gün bizə məlumat verdilər ki, "Çıraq" yatağından çıxan neft həmin boru ilə gələn ilin fevral ayında Novorossiysk limanına çatacaqdır.

Yəni bu işlər hamısı eyni səviyyədə yaranıbdır, tənzimlənibdir. Mən keçən illərin, keçən dövrlərin təcrübəsini bilirəm. Bəzən işin bir hissəsi görülürdü, o biri hissəsi görülmədiyinə görə bütün bu işlər də öz nəticəsini verə bilmirdi. Amma burada iş kompleks şəklində görülübdür. İkinci neft boru kəməri Gürcüstan ərazisində tikilməkdədir. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin rəhbərliyi məlumat verir ki, bu neft boru kəməri gələn ilin sentyabr ayında hazır olacaqdır. Beləliklə, təkcə "Çıraq" yatağından yox, digər yataqlardan hasil olunan neft də iki müxtəlif istiqamətdə neft boru kəmərləri ilə dünya bazarlarına çıxarıla biləcəkdir. Şübhəsiz ki, bütün bu görülən işlər konsorsiuma daxil olan şirkətlərin böyük fəaliyyəti və onların qoyduqları kapitalın nəticəsindədir.

Beynəlxalq Əməliyyat Şirkətinin rəhbərliyi altında bu üç il müddətində görülən işlərə konsorsiumun səhmdarları tərəfindən hamısı birlikdə bir milyard dollar məbləğində kapital qoyulubdur. Bu özü çox əlamətdar hadisədir. Bir milyard dollar, bəlkə də, hansısa dövlət üçün xırda bir məbləğ hesab olunur. Ancaq bizim region üçün, Azərbaycan üçün bu üç il müddətində burada bir milyard dollar məbləğində müştərək iş görülməsi çox böyük və sevindirici bir hadisədir.

Bildirmək istəyirəm ki, görülən bu işlər dünyanın bir çox şirkətlərini Azərbaycana gətirib çıxarıbdır, onlar burada fəaliyyət göstərirlər. Məhz bu birinci müqavilənin proqramını həyata keçirmək üçün görülən işlərdə dünyanın ayrı-ayrı ölkələrindən cəlb olunmuş 400-dən artıq şirkət iştirak edir. Bu şirkətlər bir milyard dollar həcmində olan həmin sərmayədən, investisiyadan istifadə edib və hər biri mənfəət götürüb.

Burada Amerika Birləşmiş Ştatlarının, Böyük Britaniyanın, Avropanın bir sıra ölkələrinin şirkətləri də çoxdur. Məmnuniyyət hissi ilə deyə bilərəm ki, müştərək iş görən bu şirkətlərin içərisində 72 müəssisə Azərbaycan Respublikasının sənaye və yaxud

tikinti müəssisələridir. Azərbaycan Respublikası müəssisələrinin gördükləri işin dəyəri 163 milyon dollardır. Beləliklə, bu müqavilənin həyata keçirilməsinə həm dünyanın bir çox ölkələri, şirkətləri, həm də Azərbaycanın neft sənayesində işləyən şirkətlər, müəssisələr, alimlər, mütəxəssislər, yüksək professional səviyyədə olan fəhlələr cəlb ediliblər. Bizi sevindirən hal odur ki, bu işlərin həyata keçirilməsində xaricdən cəlb olunan yüksək dərəcəli mütəxəssislərin sayı get-gedə azalır, Azərbaycan Respublikasının özündən olan mütəxəssislərin sayı artır. Bu da təbiidir. Çünki Azərbaycan neft sənayesi sahəsində böyük elmi-texniki potensiala malikdir. Azərbaycanın bu potensialından istifadə etmək lazımdır. Bu, iqtisadi nöqteyi-nəzərdən daha da səmərəlidir. Bir daha qeyd etmək istəyirəm, görülən bütün bu işlər Xəzər dənizinin enerji ehtiyatlarını dünyaya nümayiş etdiribdir.

Mən sizə bildirdim ki, artıq Azərbaycan sektorunda olan yataqlar üzrə 9 müqavilə imzalanıbdır. Birinci müqavilənin sərmayəsi 8 milyard dollar həcmində nəzərdə tutulubdur. İmzalanmış bütün müqavilələrin hamısının nəzərdə tutulmuş investisiyası 30 milyard dollar həcmindədir. Bunlar hamısı Xəzərin Azərbaycan sektorunda olan yataqlar üçün nəzərdə tutulmuş investisiyalardır. Ancaq Xəzəryanı digər ölkələrə mənsub olan sektorlarda da çox zəngin neft-qaz yataqları var. Hesab edirəm ki, Azərbaycan sektorunda görülən bu işlər, əldə olunmuş təcrübə onların hərəkətə gəlməsi üçün çox əhəmiyyətli ola bilər. Biz bu təcrübəni bütün Xəzəryanı ölkələrlə bölüşdürməyə, Xəzər dənizinin enerji ehtiyatlarından istifadə edilməsində öz xidmətlərimizi göstərməyə hazırıq.

Mən bütün bu işlərin haqqında danışarkən ilk müqaviləyə daxil olan bütün şirkətlərə imzalanmış müqavilələrin həyata keçirilməsində onların göstərdiyi xidmətlərə görə təşəkkür edirəm.

Beynəlxalq Əməliyyat Şirkətində çalışan bütün mütəxəssislərə, neftçilərə, həm xarici ölkələrdən gəlmiş, həm də Azərbaycandan olan bütün insanlara təşəkkürümü bildirmək istəyirəm. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin rəhbərliyinə və xüsusən onun başçısı, "British Petroleum" şirkətinin nümayəndəsi olan cənab Terri Adamsa təşəkkür edirəm.

Hesab edirəm ki, bizim bu üç il müddətində gördüyümüz müştərək iş gələcəyə böyük, geniş bir yol açmışdır. Biz Azərbaycana gəlmiş bütün şirkətlərlə, bütün bu işlərdə iştirak edən ölkələrlə gələcəkdə də müştərək iş görməyə hazırıq. Biz arzu edirik ki, Xəzəryanı ölkələr öz sektorlarındakı imkanlardan istədikləri qədər istifadə edə bilsin. Biz bu işlərdə də qonşu, dost ölkələrlə həmişə bir yerdəyik və onlarla müştərək iş görməyə, öz təcrübəmizi onlara öyrətməyə hazırıq.

Dediyim kimi, Xəzər dənizi dünyanın ən zəngin enerji ehtiyatları olan bir su hövzəsi kimi məşhurlaşıbdır. Eyni zamanda Xəzər dənizinin digər sahilində, Mərkəzi Asiya ölkələrinin ərazisində də çox zəngin neft yataqları vardır. Bu yataqların – həm quruda, həm də dənizdə olan neft yataqlarının işlənilməsi, istifadə edilməsi gələcəkdə qarşımızda duran böyük vəzifələrdəndir. Biz bu vəzifələrin həyata keçirilməsində öz xidmətlərimizi göstərmək istəyirik. Bu işlər XXI əsrin iqtisadi strategiyasını yaratmaq üçün çox əhəmiyyətlidir. Bizim imzaladığımız müqavilələrin hamısı təxminən 30 il müddətinə bağlanıbdır. Ancaq mən güman edirəm ki, bu müqavilələr 30 il yox, ondan da çox illər işləyəcəkdir. Mən hesab edirəm ki, Azərbaycan Respublikasının dünyanın böyük neft şirkətləri ilə imzaladığı müqavilələr XXI əsrdə həm Azərbaycan üçün, həm də Azərbaycanla müştərək iş görən şirkətlər, ölkələr üçün çox əhəmiyyətli sənədlərdir.

Biz böyük, xoşbəxt gələcəyin astanasında durmuşuq. Biz bunun təməl daşını, əsasını qoymuşuq. Bugünkü təntənəli mərasim də məhz buna həsr olunmuşdur. Ona görə də mən həm Azərbaycan xalqına, həm də bütün Xəzəryanı ölkələrin xalqlarına, Xəzərin ehtiyatlarından istifadə etmək istəyən bütün ölkələrə, şirkətlərə bu böyük işlərin XXI əsrdə də uğurla getməsini arzulayıram.

Bir mühüm məsələ də meydana çıxır. O da gələcəkdə hasil ediləcək neftin ixrac olunmasıdır. Dediyim kimi, ilk müqavilə üzrə hasil edilən neftin ixrac olunması üçün artıq iki neft boru kəmərinin tikilməsi məlumdur. Ancaq bizim ilk müqaviləmizdə nəzərdə tutulubdur ki, əsas, böyük boru kəməri də tikilsin. Bu, bir müqavilədə nəzərdə tutulubdur. Ancaq nəzərə alsaq ki, bundan sonra 8 müqavilə imzalanıbdır və 9-cu müqavilə – "Kürdaşı" neft

yatağının birgə işlənilməsi barədə müqavilə imzalanmaq ərəfəsindədir, demək, 9 müqavilə imzalanır və bu müqavilələrin əsasında böyük işlər görüləcək, on milyon tonlarla neft çıxarılacaqdır. Məsələn, bizim ilkin hesablamalarımıza görə, 5-6 ildən sonra bu müqavilələr üzrə Azərbaycanda təxminən 50-60 milyon ton neft hasil olunacaqdır. Bunların ixrac olunması üçün əsas neft kəməri və bir neçə istiqamətdə gedən alternativ boru kəmərlərinin tikilməsi lazımdır. Bu, indi qarşıda duran əsas vəzifələrdən biridir. Demək istəyirəm, təəssüf ki, bu, indi beynəlxalq aləmdə müxtəlif fikirlər, mübahisə doğuran məsələlərdən biridir. İndi çox ölçübbiçirlər ki, Azərbaycan, Xəzər nefti haradan, hansı istiqamətdən, hansı ölkələrin ərazisindən gedəcəkdir. Şübhəsiz ki, bu məsələlərin əsasını təşkil edən onun iqtisadi səmərəliliyidir. Məsələn, mən bu ilk müqavilənin səhmdarları ilə bir neçə dəfə danışmışam. Onlar bu məsələnin kommersiya, yəni iqtisadi tərəfinə çox ciddi fikir verirlər. Çünki bu əsas neft kəmərini şimala da, cənuba da, qərbə də aparmaq olar. Yəqin ki, şərqə aparmaq mümkün deyil. Ancaq bunların hansı iqtisadi nöqteyi-nəzərdən daha səmərəlidir, hansı etibarlıdır və hansının təhlükəsizliyi tamamilə təmin olunur? Şübhəsiz ki, bu məsələlər ölçülməlidir, biçilməlidir.

Birinci növbədə neft şirkətləri, konsorsiumlar bu barədə öz sözlərini deməlidir. Şübhəsiz ki, biz də öz fikirlərimizi bildirməliyik. İndi iki neft kəməri var. Əsas neft kəmərinin marşrutu haqqında bir çox söhbətlər gedir ki, o, cənubamı, ya qərb tərəfdən Qara dənizə getsin, yaxud Türkiyənin ərazisindən, yaxud şimal tərəfdən Rusiya ərazisindən keçsin. Mən yenə də deyirəm, bunların hamısı ölçülüb-biçilməlidir. Bir məsələ də var. Qazaxıstanda böyük neft yataqları vardır, oradan neft çıxarılır. Amerikanın "Chevron" neft şirkəti "Tengiz" yatağından neft hasil edir və onu ixrac etmək üçün yollar axtarır. "Chevron" neft şirkəti bizə müraciət etdi. Biz "Chevron" neftinin Qazaxıstanın Xəzər dənizində olan Aktau limanından tankerlərlə Bakıya gətirilib, buradan isə dəmir yolu vasitəsilə Gürcüstan ərazisindən Qara dənizin Batumi limanına qədər aparılmasına razılıq vermişik. Mart ayından indiyədək bu yolla 500 min ton, yəni yarım milyon ton "Chevron" – "Tengiz" nefti nəql olunub və Batumi limanına çatdırılıbdır. Hesab edirəm

ki, bu rəqəm get-gedə artacaq, gələn il bu yolla 2 milyon ton neft ixrac etmək mümkün olacaqdır.

Ancaq bu yol da çox ağır yoldur. Ona görə də bu ilin yayında Qazaxıstan prezidenti ilə Azərbaycan prezidenti – mən Aktau limanından Xəzər dənizinin dibi ilə Bakıya qədər neft boru kəməri tikilməsi haqqında sənəd imzalamışıq. Biz buna razılıq vermişik. Bu, Qazaxıstanın nefti üçün lazımdır. Bizim Azərbaycandakı terminallarımız və indi Azərbaycandan şimal, qərb istiqamətlərində gedən boru kəmərlərimiz neftin ixrac olunmasına imkan verir. Ona görə də güman edirəm ki, bu məsələnin həll edilməsi gələcəkdə çıxarılacaq neftin dünya bazarlarına çatdırılması üçün əsas məsələlərdən biri olardı.

Bundan əlavə, məsələn, Türkmənistandan Azərbaycana qaz kəmərinin çəkilməsi haqqında da danışıqlar aparılmışdır. Bu ilin may ayında Aşqabadda hətta bir saziş də imzalanmışdır. Əgər bu məsələ də həll oluna bilsə, bunlar da Qərbə çox böyük fayda verər. Qara dəniz hövzəsində olan ölkələr, məsələn, Gürcüstandan əlavə, Ukrayna, Bolqarıstan, Rumıniya, oradan o tərəfə – Yunanıstan və ondan da o tərəfə Avropanın digər ölkələri Xəzər dənizindən çıxan neftdən istifadə etmək istəyir. Beləliklə, əgər biz nefti bu kəmərlərlə Türkiyəyə, Qara dəniz sahilinə – Gürcüstanın, yaxud Türkiyənin sahilinə çıxara bilsək, bu neft Türkiyənin ərazisindən gedə bilsə, şübhəsiz ki, bu ölkələr də təmin oluna bilər. Bu ölkələr Xəzər dənizindəki yataqlardan çıxarılan neftə böyük maraq göstərir. Bütün bunları ölçüb-biçmək lazımdır.

Bizim ilkin layihəmizdə əsas, böyük neft kəmərinin Bakı-Ceyhan istiqamətində getməsi nəzərdə tutulubdur. Doğrudur, investorlar, səhmdarlar bu boru xəttinin baha olduğunu deyirlər. Bunun iqtisadi tərəfini onlar aydınlaşdırmalıdırlar. Biz hesab edirik ki, bu marşrut, xətt Azərbaycan neftinin, Xəzər dənizi neftinin ixrac edilməsi üçün əsas xətlərdən biri ola bilər. Ona görə də biz bu neft kəmərinin tikilməsini əvvəl də dəstəkləmişik, bu gün də dəstəkləyirik. Amma məsələnin son həlli, şübhəsiz ki, şirkətlərdən, konsorsiumdan və səhmdarlardan asılıdır.

Bu gün Rusiya Baş nazirinin birinci müavini Boris Nemtsov şimal istiqamətində yeni bir neft kəmərinin Rusiya Federasiyasının

ərazisindən keçməsi barədə məsələ qoymuşdur. Bu məsələyə də baxmaq, onu müzakirə etmək olar. Başqa istiqamətlərdə də çox işlər görülə bilər. Hər halda, mən hesab edirəm ki, həm Xəzər dənizinin Azərbaycan sektorundan, başqa sektorlardan, həm də Mərkəzi Asiyadan, xüsusən Qazaxıstandan çıxan neftin ixracı, xüsusən Qərbə ixracı üçün çox işlər görülməlidir, bir çox neft kəmərləri tikilməlidir. Biz bu işlərdə fəal iştirak edəcəyik.

Bizim gördüyümüz bütün bu işlər Asiya ilə Avropa arasında yeni bir nəqliyyat xəttinin də yaranmasına gətirib çıxarıbdır. Qədim "İpək yolu"nun bərpa olunması məsələsi artıq reallaşıbdır. Biz keçən il bir saziş imzalamışıq, bu saziş əsasında Mərkəzi Asiyadan, Xəzər dənizi üzərindən, Azərbaycandan Gürcüstana, Qara dənizdən Avropaya bir nəqliyyat dəhlizi açmışıq. Bu nəqliyyat dəhlizi artıq işləyir. Həm Mərkəzi Asiyadan Avropaya, həm də Avropadan Mərkəzi Asiyaya yüklər gedir. Bu da iqtisadi cəhətdən çox səmərəlidir. Bu yükləri Xəzər dənizi üzərindən Azərbaycana məxsus olan bərələr gətirir. Azərbaycan, Gürcüstan ərazisindən yüklər dəmir yolu ilə gedir. Sonra bunlar Qara dənizdən gəmilərlə Avropaya çatdırılır. Bu nəqliyyat dəhlizinin çox böyük əhəmiyyəti, gələcəyi var. Biz bunu da dəstəkləmişik və bu nəqliyyat dəhlizinə qoşulan ölkələrlə birlikdə əməkdaşlıq edirik və bu əməkdaşlığı bundan sonra da edəcəyik.

Hesab edirəm ki, həm neft boru kəmərləri, həm Asiya-Avropa, Avropa-Asiya nəqliyyat dəhlizi bu ölkələrin iqtisadiyyatını bir-birinə daha da bağlayacaq, onların əlaqələrini daha da möhkəmləndirəcəkdir.

Hörmətli xanımlar və cənablar!

Bugünkü təntənə, əldə edilən nailiyyətlər yalnız və yalnız Azərbaycanın dövlət müstəqilliyinin qazanılmasından sonra mümkün olmuşdur. Biz bu gün Azərbaycanın müstəqil dövlət olmasının bəhrələrini görürük. 1994-cü ilin sentyabr ayında biz ilk böyük neft müqaviləsini imzalayarkən dünyaya nümayiş etdirdik ki, Azərbaycan müstəqil dövlətdir və müstəqil dövlət kimi öz təbii sərvətlərinin sahibi olaraq onlardan istifadə edilməsi haqqında qərarlar qəbul edir.

Üç il keçəndən sonra biz bir daha təsdiq edirik ki, Azərbaycan müstəqil dövlətdir, Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir və biz artıq bu müstəqilliyimizin gözəl bəhrələrini görürük. Bizim bu gün gördüyümüz işlər XXI əsr, gələcək nəsillər üçün görülən işlərdir. Biz bu gün ilkin neftin alınmasını bayram edirik.

Gələn il "Çıraq" neft yatağından 2 milyon ton neft çıxarılacaqdır. Ancaq bir neçə ildən sonra 5-6 milyon ton, 5-6 ildən sonra müqavilə sahəsindən 40-50 milyon ton neft hasil olunacaqdır. Ondan sonra daha da çox neft çıxarılacaqdır. Deməli, XXI əsrdə Azərbaycanın iqtisadiyyatı bu neft sənayesi vasitəsilə yüksələcək və dirçələcəkdir. Biz belə hesab edirik ki, bu təkcə neft sənayesi üçün deyil, Azərbaycan iqtisadiyyatının bütün sahələrini, müstəqil dövlət kimi Azərbaycanı inkişaf etdirmək, ölkəmizdə bazar iqtisadiyyatını inkişaf etdirmək üçün çox gözəl bir imkandır. Biz bu imkanlardan istifadə edəcəyik. Bugünkü mərasim, bu görüşlər bir daha onu göstərir ki, Azərbaycanın qapısı dünya iqtisadiyyatına açıqdır. Azərbaycan dünya iqtisadiyyatı ilə gündən-günə daha da sıx bağlanır. Azərbaycan öz iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə qurur. Azərbaycan öz iqtisadiyyatını bundan sonra da bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirəcəkdir. Biz artıq bunun gözəl nəticələrini görürük.

Sizə bir neçə məlumat vermək istəyirəm. Məhz son illərdə respublikamızın iqtisadiyyatında aparılan islahatlar və demokratik dövlət quruculuğu Azərbaycanın iqtisadiyyatında 5-6 il əvvəl olmuş tənəzzülü aradan qaldırdı. İndi Azərbaycanın iqtisadiyyatında artım başlayıbdır. Ölkəmizdə keçən il ümumi daxili məhsul 1,3 faiz artıbdır, bu il isə 5 faiz artıbdır. Sənaye istehsalı hər il 20-25 faiz aşağıya düşürdü. İndi aşağıdüşmə dayanıbdır. Bu ilin 9 ayında təxminən 1 faiz artım olmuşdur. Azərbaycanda 1994-cü ildə inflyasiya il ərzində 1600 faiz idi. Keçən il bu, 6 faiz olmuşdur. Bu ilin 9 ayında inflyasiya yoxdur, sıfıra endirilibdir.

Azərbaycanda iqtisadi islahatlar gedir. Torpaq haqqında qəbul olunmuş qanun torpağın xüsusi mülkiyyətə verilməsini təmin edibdir. İndi torpaq xüsusi mülkiyyətə verilir. Mülkiyyət özəlləşdirilir və biz bu özəlləşdirmənin bəhrəsini görürük. Xarici

ticarət liberallaşdırılıbdır, xarici ticarətin dövriyyəsi 9 ayda 30 faiz artıbdır. Biz bu il bütün iqtisadiyyatımıza ümumən 1 milyard 500 milyon dollar dəyərində kapital qoyuluşu nəzərdə tuturuq. Bunun 1 milyard dolları xarici investisiya olacaqdır. Bunlar hamısı Azərbaycanda gedən demokratik proseslərin, dəyişikliklərin, bazar iqtisadiyyatı tətbiq edilməsinin nəticəsidir. Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatı ilə bağlılığının ahəngdar surətdə inkişaf etməsinin nəticəsidir. Bunlar bizi sevindirir.

Təbiidir ki, mən bu sevinc hisslərimi bu gün sizə və bizim mərasimdə iştirak edən qonaqlara çatdırmağı özümə borc bilirəm. Mən bu əlamətdar tarixi hadisə münasibətilə sizi bir daha təbrik edirəm. Azərbaycan neftçilərinə və Azərbaycanda indi bizimlə müştərək iş görən bütün şirkətlərə, neftçilərə, mütəxəssislərə, iqtisadçılara – hamıya gələcək işlərində uğurlar arzulayıram. Sağ olun.

## YEKUN NİTQ

**– Hörmətli xanımlar və cənablar! Hörmətli qonaqlar, dostlar!**

Bugünkü təntənəli mərasim "Çıraq" neft yatağından ilkin neftin alınmasının nə qədər əlamətdar, qiymətli və tarixi hadisə olduğunu parlaq şəkildə nümayiş etdirdi. Bu mərasimdə iştirak edən qonaqlarımızın nitqləri, bu münasibətlə Azərbaycana gəlmiş təbrik məktubları və bu sarayda hökm sürən böyük ruh yüksəkliyi bir daha onu göstərir ki, müstəqil Azərbaycan öz iqtisadiyyatını, həyatını, öz dövlətini qurmaqda doğru yoldadır. Biz bu yolla inamla gedəcəyik, müstəqil Azərbaycanın dövlət müstəqilliyini günü-gündən möhkəmləndirəcəyik. Biz Azərbaycana məxsus olan bütün sərvətlərdən, bütün potensialımızdan xalqımızın rifah halının yaxşılaşdırılması naminə səmərəli istifadə etməyə, xalqımızın gələcəkdə firavan, xoşbəxt yaşamasına çalışacağıq.

Mən bizim hörmətli qonaqlarımıza onların çox gözəl, mənalı nitqlərinə, Azərbaycan Respublikasının ünvanına deyilən xoş sözlərinə, təbriklərinə görə təşəkkür edirəm. Bütün ölkələrə, xalqlara, millətlərə sülh, əmin-amanlıq və səadət arzulayıram.

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinə, onun prezidenti cənab Terri Adamsa bu münasibətlə yaratdıqları qızılgülə görə minnətdarlığımı bildirirəm və arzu edirəm ki, bütün xalqların gələcək yolları, o cümlədən Azərbaycan xalqının gələcək yolları daim qızılgüllər olan bağların içindən keçsin.

Azərbaycanın nefti bəşər tarixində öz görkəmli yerini tutubdur. Azərbaycanın nefti bəşəriyyətə böyük xidmətlər edibdir. Azərbaycanın nefti bu gün respublikamızın iqtisadiyyatının inkişafında və dünya ölkələri ilə iqtisadi əlaqələrinin yaranmasında həm xalqımıza, həm də dünyanın bir çox ölkələrinə böyük xidmətlər göstərir. Azərbaycanın nefti gələcəkdə də bəşəriyyətə, sülhə və əmin-amanlığa xidmət edəcəkdir. Sizi bu tarixi hadisə münasibətilə bir daha təbrik edirəm! Hamınıza cansağlığı, xoşbəxtlik arzu edirəm! Sağ olun.

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Xəzər dənizinin Azərbaycan sektorunda xarici şirkətlərlə birgə işlənilən neft yataqlarından ilkin neftin çıxarılması münasibətilə keçirilən təntənəli mərasimə qatılmış qonaqların şərəfinə rəsmi qəbuldakı çıxışı

*12 noyabr 1997-ci il, Gülüstan sarayı*

– Hörmətli qonaqlar! Hörmətli xanımlar, cənablar və dostlar!

Bu gün bizim üçün çox sevincli bir gündür. Bu gün çox böyük bayram günüdür və xalqımız, millətimiz, Azərbaycanın bütün vətəndaşları bayram edirlər. Çünki bu, müstəqil Azərbaycan Respublikasının ilk demokratik Konstitusiyasının qəbul olunmasının ikinci ildönümü münasibətilə və eyni zamanda bizim çoxdan gözlədiyimiz, üç il gərgin işimizin nəticəsi kimi, ilkin neftin alınması münasibətilə keçirdiyimiz bayramdır.

Artıq gün sona çatır. Güman edirəm, qətiyyətlə demək olar ki, bayram çox yaxşı keçibdir və bu bayramın yaxşı keçməsinin əsasını təşkil edən, əlbəttə ki, əldə olunan nailiyyətin çox yüksək

əhəmiyyətli nəticəsidir. Eyni zamanda bayramın çox gözəl keçməsinə səbəb, yəni onun gözəlliyini təşkil edən bu bayram münasibətilə Azərbaycana yüksək səviyyəli qonaqların gəlməsidir. Mən bizim bu bayram şənliklərində iştirak edən və bu gün səhərdən axşama qədər çox gərgin iş rejimində olan qonaqlarımıza bir daha dərin təşəkkür edirəm.

Azərbaycanın ictimaiyyəti respublikamıza bayram günü yüksək səviyyəli qonaqların gəlməsini çox yüksək qiymətləndirir. Mən çox məmnunam ki, bizim bayram şənliklərində Gürcüstan Respublikasının prezidenti, bizim dostumuz Eduard Şevardnadze iştirak edir. Türkiyə Cümhuriyyətinin Baş naziri, bizim dostumuz Məsud Yılmaz iştirak edirlər. Rusiya Federasiyası Baş nazirinin birinci müavini, bizim dostumuz Boris Nemtsov iştirak edir. Amerika Birləşmiş Ştatlarından, okeanın o tərəfindən əziyyət çəkib Azərbaycana – bizim bölgəyə gəlmiş ABŞ-nin energetika naziri, bizim dostumuz Federiko Penya iştirak edir. Ukrayna Respublikası Baş nazirinin birinci müavini, Özbəkistan Respublikası Baş nazirinin müavini, bir çox nazirlər və yüksək səviyyəli dövlət, hökumət nümayəndələri iştirak edirlər.

Bir çox ölkələrdən yüksək səviyyəli qonaqların bu əlamətdar gündə Azərbaycanda olması bizim bayramımıza xüsusi bir əhəmiyyət veribdir və onun səviyyəsini daha da yüksəklərə qaldırıbdır. Mən bütün qonaqlara təşəkkür edirəm və badələri Azərbaycan neftçilərinin şərəfinə, Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" və "Günəşli" neft yataqlarında və bütün başqa neft yataqlarında birgə işləmək üçün Azərbaycanla müştərək iş qurmuş və fəaliyyət göstərən şirkətlərin şərəfinə, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin şərəfinə, "Çıraq" neft yatağı və orada qurulmuş platformanın şərəfinə, Xəzər dənizində "Çıraq" neft yatağından alınmış ilkin neftin şərəfinə, Azərbaycan Respublikasının ilk demokratik Konstitusiyasının şərəfinə, bütün ölkələrin sülhsevər insanlarının şərəfinə, dünyada sülhün, əmin-amanlığın şərəfinə, dostluğun, əməkdaşlığın, mehribanlığın şərəfinə, əziz dostlar, sizin şərəfinizə qaldırmaq istəyirəm.

Sağ olun.

## Bakı-Supsa neft kəmərinin açılışına həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi

*17 aprel 1999-cu il, Supsa*

– Zati-aliləri, hörmətli Gürcüstan prezidenti Eduard Şevardnadze! Zati-aliləri, hörmətli Ukrayna prezidenti Leonid Kuçma!

Xanımlar və cənablar, qonaqlar, dostlar!

Mən sizi ürəkdən salamlayıram və bu xoş görüşlə əlaqədar çox böyük sevinc hissi keçirdiyimi bildirirəm. Gürcü xalqına, bütün Gürcüstan vətəndaşlarına səmimi salamımı yetirir, sülh, firavanlıq və tərəqqi arzulayıram.

Bu gün biz tarixi bir hadisənin şahidiyik. Bakı-Supsa neft kəmərinin inşasına dair böyük səmərəli iş başa çatdırılmışdır və biz Azərbaycanın Xəzər nefti yüklənmiş ilk tankerinin dünya bazarlarına yola salınmasını təntənəli şəraitdə qeyd edirik. Əsrimizin əvvəllərində Bakı-Batumi neft kəməri – Avropada ilk neft kəməri çəkilmişdir. İndi, XX-XXI əsrlərin ayrıcında biz Bakı-Supsa neft kəməri çəkmişik və o, Azərbaycan neftinin dünya bazarlarına ixracını həyata keçirəcəkdir. Bu, Gürcüstanın, Azərbaycanın və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinə daxil olan neft şirkətlərinin birgə səyləri sayəsində mümkün olmuşdur. Bu, 1995-1996-1997-ci illərdə başlanmış səylərimizin məntiqi nəticəsidir. Bu, Azərbaycanda 1994-cü il sentyabrın 20-də Azərbaycan Dövlət Neft Şirkəti ilə dünyanın 7 ölkəsini təmsil edən 11 ən iri neft şirkətləri arasında imzalanmış "Əsrin müqaviləsi"nin praktiki surətdə həyata keçirilməsidir.

1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması müstəqil Azərbaycanın yeni neft strategiyası və doktrinasının başlanğıcıdır. Azərbaycan qədim neft və qaz ölkəsidir. 50 il bundan öncə Azərbaycan dünya praktikasında ilk dəfə olaraq dənizin dərinliklərindən sənaye üsulu ilə neft çıxarmağa başlamışdır. 1949-cu ilin noyabrında Xəzər dənizində, Neft Daşlarında güclü neft fontanı vurmuş və bu, dünyaya dənizdə neft hasilatının yeni mərhələsinin başlandığını bildirmişdir.

Bizim zəmanəmizdə Azərbaycan dünyanın bir çox ölkələrinin neft şirkətlərinin iştirakı ilə Xəzər dənizində karbohidrogen xammalı hasilatının təşəbbüsçüsü olmuşdur. 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" bu neft doktrinasının həyata keçirilməsinin başlanğıcını qoymuşdur. Bu, asan olmamışdır. Biz müqaviləni imzalamaq, həyata keçirmək üçün böyük sınaqdan çıxmalı, böyük maneələri dəf etməli olmuşuq. Lakin biz müqavilə imzalandıqdan sonra da böyük çətinliklərlə, hətta faciəli hadisələrlə qarşılaşdıq. Bilin ki, müqavilə imzalandıqdan cəmi bir neçə gün sonra Azərbaycanda ölkəmizin siyasi xadimlərinə qarşı terror aktları keçirildi. Bundan bir neçə gün sonra Azərbaycanda silahlı dövlət çevrilişi cəhdi oldu, onu bəzi ölkələrin xüsusi idarələri və daxili irtica etmişdi. Ancaq bununla iş qurtarmadı. Bir neçə aydan sonra dövlət çevrilişi cəhdi yenidən təkrar edildi. Sonra bir sıra terror aktları törətməyə cəhd göstərildi. Bütün bunlar məhz onunla bağlı idi ki, müstəqil dövlət olan Azərbaycan müstəqil siyasət aparmağa başlamışdı, Azərbaycan özünün təbii ehtiyatlarından, neft və qaz sərvətlərindən necə istifadə etməyi özü, müstəqil surətdə müəyyənləşdirdi və bunu Qərbin neft şirkətləri ilə birlikdə həyata keçirməyi qərara alaraq Azərbaycana və bütün Xəzər hövzəsi məkanına xarici sərmayələrin axınını təmin etmişdi. Biz bütün çətinlikləri dəf etdik. "Əsrin müqaviləsi" həyata keçirilir.

1997-ci ilin noyabrında biz "Çıraq" yatağından ilk nefti çıxartdıq və onu Bakı-Novorossiysk neft kəməri ilə nəql etməyə başladıq. Bu neft kəməri Rusiya Federasiyası ilə Azərbaycan arasında imzalanmış müqavilə əsasında xüsusi olaraq bunun üçün çəkilmişdi. Lakin biz hələ onda, neftin dünya bazarlarına ixracı marşrutlarını planlaşdırdığımız vaxtlarda qərb marşrutu üzrə alternativ neft kəmərinə malik olmağı lazım bildik. Açığını deyim ki, bu bəzi dairələrdə, bəzi ölkələrdə böyük narazılıqla, etirazla qarşılandı. Amma biz öz istədiyimizə nail olduq. Gürcüstan ilə Azərbaycan arasında saziş imzalayaraq Bakı-Supsa neft kəmərini layihələşdirməyə başladıq və bu boru kəmərinin praktiki surətdə inşası üçün işləri təşkil etdik.

Bu gün mən son dərəcə sevinc hissi keçirirəm ki, neftin hasilatına və ixracına dair çox böyük proqramı dörd ildən bir qədər

artıq müddətdə reallaşdırmağa müvəffəq ola bilmişik. Təbii ki, bunların hamısı ümumi səylərin nəticəsidir. Əlbəttə, biz 1994-cü ildə ilk müqaviləni imzalayaraq, bu işi dünyanın bir çox neft şirkətləri ilə davam etdiririk. Dünyanın neft şirkətlərinin dəstəyi, Xəzərdəki, Xəzər dənizinin Azərbaycan sektorundakı təbii ehtiyatlara, karbohidrogen xammalına onların böyük marağı, xarici sərmayələr bu layihənin uğurla həyata keçirilməsini təmin edəcəkdir. 1994-cü ilin sentyabrından sonra ötən dövrdə Azərbaycan Dövlət Neft Şirkəti Xəzər dənizinin Azərbaycan sektorundakı və Azərbaycan ərazisinin quru hissəsindəki neft və qaz yataqlarının birgə işlənilməsi haqqında daha 15 iri müqavilə imzalamışdır. Bu müqavilələrdə dünyanın 14 ölkəsini təmsil edən 32 iri neft şirkəti iştirak edir. Bu, Xəzər dənizinin təbii ehtiyatlarının istismarı üçün sərmayələr cəlb olunması sahəsində apardığımız çox böyük işdir. Biz bu təşəbbüsü göstərməklə Xəzər dənizinin başqa sektorlarında da neft və qaz hasilatı işini stimullaşdırdıq. Qazaxıstan, Türkmənistan, Rusiya, İran sektorlarında böyük iş görülür.

Bütün bunlar bizi sevindirir, çünki Xəzər dənizində olduqca böyük neft və qaz ehtiyatları var, bunlar bütün Xəzəryanı ölkələr üçün kifayət edər. Hər ölkə öz sektoruna malikdir və Xəzər dənizindəki öz sektorunda ehtiyatların sahibidir. Azərbaycan öz sektorunun hüdudları daxilində fəaliyyət göstərir, Azərbaycan sektorunda böyük neft və qaz ehtiyatları var.

Neft strategiyamızın həyata keçirilməsinə mane ola bilməyən bəzi düşmən dairələr müxtəlif xəbərlər, fikirlər uydurub yaymağa başladı ki, demə, Azərbaycan dünya birliyinə yalan məlumat verib, Xəzər dənizində güman edildiyi qədər neft yoxdur və guya bəzi neft şirkətləri Xəzər dənizinə və xüsusən Azərbaycan sektoruna marağı itirir. Bu, yalandır, uydurmadır!

Təbii ki, bu yalan informasiyalar ictimai rəyi dəyişdirə bilməz. Lakin aydın olsun deyə bildirmək istəyirəm ki, imzalanmış 16 müqavilə üzrə Azərbaycana təxminən 50 milyard dollar məbləğində sərmayə qoymaq nəzərdə tutulur. Bu müqavilələrin əhatə etdiyi ərazilərdə neftin həcmi 4 milyard tondan 10 milyard tonadək qiymətləndirilir. Lakin bütün bunlar hələ ilkin rəqəmlərdir. Yeri gəlmişkən, bizdə Xəzərdə və quruda öz istismarını

gözləyən neft yataqları hələ çoxdur. Yaxın vaxtlarda Amerikanın neft şirkətləri ilə üç iri müqavilə imzalanması nəzərdə tutulur. Bax bu bəzi ölkələrin müxtəlif kütləvi informasiya vasitələrində yayılan uydurma xəbərlərə cavabdır.

Beləliklə, 1994-cü ildə başlanmış işlər artıq öz praktiki nəticələrini verir. Bakı-Supsa neft kəməri, burada tikilmiş gözəl terminal, müvəffəqiyyətlə işləmək və nefti fasiləsiz olaraq vurmaq, onu dünya bazarlarına daşımaq üçün yaradılmış gözəl şərait buna inandırıcı sübutdur. Bakı-Supsa neft kəməri Gürcüstan ilə Azərbaycan arasında dostluğa, əməkdaşlığa parlaq misaldır. Bizim xalqlarımız həmişə səmərəli və müvəffəqiyyətlə əməkdaşlıq etmişdir. Gürcü və Azərbaycan xalqlarının çoxəsrlik dostluğu bizim əvəzsiz sərvətimizdir. Biz bu dostluğu qoruyur və yeni şəraitdə inkişaf etdirir, genişləndiririk.

Gürcüstanın və Azərbaycanın səmərəli əməkdaşlığına dair misallar çoxdur. Lakin Bakı-Supsa neft kəməri, şübhəsiz ki, indiki mərhələdə bu əməkdaşlığın zirvəsidir. Bununla yanaşı, əməkdaşlığımızın böyük perspektivi var. Ötən ilin oktyabrında Ankarada biz Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşası haqqında bəyannamə imzalamışıq. Bu iş davam edir. Lap bu yaxınlarda, bir neçə gün öncə Amerika Birləşmiş Ştatlarının strateji tədqiqatlar mərkəzi Bakı-Tbilisi-Ceyhan layihəsinin İstanbulda böyük müzakirəsini keçirmişdir. Müzakirədə indi burada olan cənab Morninqstar və cənab Kalitski, Türkiyə və Azərbaycan nümayəndələri iştirak etmişlər. Orada Bakı-Tbilisi-Ceyhan neft kəməri inşasının həyata keçirilməsinə dair konkret praktiki tədbirlər haqqında Türkiyə ilə Azərbaycan arasında protokol imzalanmışdır. Müəyyən edilmişdir ki, Bakı-Tbilisi-Ceyhan layihəsinin həyata keçirilməsinin növbəti mərhələsinə başlamaq üçün bütün texniki və maliyyə məsələləri üç ay ərzində diqqətlə öyrənilməlidir. Digər mühüm layihə Türkmənistan qazının Azərbaycan və Gürcüstan vasitəsilə Türkiyəyə nəqli barədədir. Bu haqda saziş ötən ilin oktyabrında Türkiyə ilə Türkmənistan arasında imzalanmışdır və layihə indi həyata keçirilir. Bu layihənin həyata keçirilməsində Gürcüstan da, Azərbaycan da mühüm yer tutur.

Bir sözlə, qarşıda böyük işlər durur. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Türkmənistan-Azərbaycan, Gürcüstan-Türkiyə qaz kəməri əməkdaşlığımızı, xüsusən Gürcüstanla Azərbaycan arasında əməkdaşlığı təmin edəcək çox iri layihələrdir. Deməliyəm ki, bütün bu işlərdə biz dostlarımızın dəstəyini, xeyirxah münasibətini görürük. Bu dostların arasında Ukrayna və onun prezidenti çox hörmətli Leonid Daniloviç Kuçma da var. Azərbaycanın, Gürcüstanın Ukrayna ilə əməkdaşlığı, prezident Leonid Daniloviç Kuçmanın bu sahədə fəal səyləri çox mühüm rol oynayır. Bizim səylərimiz sayəsində Xəzər dənizi ilə Qara dəniz iqtisadi cəhətdən birləşir. Qara dənizdə Ukrayna və Gürcüstan, Xəzərdə Azərbaycan, Qazaxıstan, Türkmənistan, Rusiya və digər ölkələr regionumuzun iri layihələrinin həyata keçirilməsi üçün daha sıx birləşməlidir. Bütün bu işlər, indiki halda Bakı-Supsa neft kəməri Qafqazda sabitliyin və sülhün möhkəmlənməsinə mühüm töhfədir. Sülh bizə çox gərəkdir, bizə dinc Qafqaz gərəkdir, bizə sabitlik gərəkdir, biz silahlı münaqişələrə son qoymalı, Qafqaz ölkələri ilə regionumuzu əhatə edən ölkələr arasında ən yaxşı və mehriban münasibətlər yaratmalıyıq. Bununla əlaqədar Bakı-Supsa neft kəməri regionumuzda sabitliyin, sülhün böyük amilidir.

Bütün bu işlərdən danışarkən Xəzər dənizinin karbohidrogen ehtiyatlarından istifadə edilməsinə maraq göstərən dünyanın bir çox ölkələrinin, xüsusən Amerika Birləşmiş Ştatlarının böyük dəstəyini qeyd etməliyəm. Biz 1994-cü ildə "Əsrin müqaviləsi" imzalanarkən aldığımız dəstəyi qiymətləndiririk. Biz Qərb, Bakı-Supsa marşrutunun çəkilişi məsələsinin həlli zamanı aldığımız dəstəyi qiymətləndiririk. Biz indi Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşası barədə aldığımız dəstəyi qiymətləndiririk. Amerika Birləşmiş Ştatları hökumətinin çox böyük səyləri sayəsində Türkmənistan-Türkiyə Trans-Xəzər qaz kəməri layihəsi reallığa çevrilmişdir. Bu gün biz Amerika Birləşmiş Ştatlarının prezidenti Bill Klintonun bu təntənəli hadisə ilə əlaqədar təbrik göndərməsindən böyük sevinc hissi keçiririk.

Hesab edirəm ki, bütün bunlar Gürcüstanın da, Azərbaycanın da, Ukraynanın da Qərb, Avropa ölkələri ilə, Avropa Birliyi, Amerika Birləşmiş Ştatları ilə əməkdaşlığı üçün yaxşı bünövrə qoymuşdur.

Biz buna böyük əhəmiyyət veririk və bu əməkdaşlığın daha uğurlu olması üçün gələcək işlərimizdə bütün tədbirləri görəcəyik.

Əziz dostlar, Gürcüstan prezidentini, dostum Eduard Şevardnadzeni, bütün gürcü xalqını, buraya toplaşan bütün dostları bu əlamətdar hadisə münasibətilə ürəkdən təbrik edirəm. Əziz dostlar, sizə xoşbəxtlik, firavanlıq və yeni-yeni uğurlar arzulayıram. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətini "Əsrin müqaviləsi"nin həyata keçirilməsində, Bakı-Novorossiysk və Bakı-Supsa neft kəmərlərinin inşasında nail olduğu gözəl nəticələr münasibətilə təbrik edirəm. Qısa müddətdə çox böyük iş görülmüşdür.

Qeyd etməliyəm ki, bizim planlarımıza müqavimət göstərən qüvvələr o vaxtlar deyirdi ki, bu layihə real deyil, həyata keçirilə bilməz. Bu ilin sentyabrında müqavilənin imzalanmasının beş ili tamam olacaq, amma bir baxın, necə böyük iş görülmüşdür və işin bundan sonra da davam etməsi üçün necə böyük bünövrə qoyulmuşdur. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin

Bakı-Supsa neft kəmərinin açılışı. 17 aprel 1999-cu il, Supsa



konsorsiumuna daxil olan bütün şirkətlər və bu şirkətin rəhbərləri çox sağ olsunlar. Leonid Daniloviç Kuçmanı burada, Gürcüstanda, eyni zamanda Azərbaycanda, – bunun fərqi yoxdur, eyni şeydir, – ürəkdən salamlayıram. Gürcüstanda olmaq həm də Azərbaycanda olmaq deməkdir. Onu salamlayıram və şadam ki, o bu hadisəyə böyük diqqət göstərmişdir. Şadam ki, Xəzər dənizinin ehtiyatlarından istifadə barəsində Ukraynanın öz planları var. Hesab edirəm ki, Odessa-Brodı və oradan Polşaya çəkiləcək neft kəməri də reallıqdır və biz bu reallığı nəzərdə tutmalı, onun üzərində işləməliyik. Buna görə də Ukrayna prezidenti hörmətli Leonid Kuçmanın burada olması tamamilə qanunauyğundur və eyni zamanda bizim hamımız üçün fərəhli hadisədir.

Sizin hamınızı ürəkdən təbrik edir və inanıram ki, Bakı-Supsa neft kəməri bütün XXI əsr ərzində yaşayacaq və işləyəcəkdir. Diqqətinizə görə çox sağ olun. Sizin hamınıza möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq arzu edirəm.

## Respublika sarayında "Əsrin müqaviləsi"nin beşinci ildönümünə həsr edilmiş təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı

*20 sentyabr 1999-cu il*

– Hörmətli xanımlar və cənablar! Hörmətli qonaqlar, dostlar!

Sizi, bütün Azərbaycan xalqını, vətəndaşlarını bu bayram – "Əsrin müqaviləsi"nin beşinci ildönümü münasibətilə ürəkdən təbrik edirəm. "Əsrin müqaviləsi" və onun icrasının beş illik tarixi, əldə olunmuş gözəl nailiyyətlər müstəqil Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesinin bəhrəsidir, Azərbaycan dövlətinin düşünülmüş xarici və daxili siyasətinin nəticəsidir, Azərbaycanda bazar iqtisadiyyatı prinsiplərinin bərqərar olması, ölkəmizin dünya iqtisadiyyatı ilə inteqrasiyası və Azərbaycan dövlətinin respublikamıza xarici sərmayələrin




"Əsrin müqaviləsi" nin beşinci ildönümünə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışı, 20 sentyabr 1999-cu il, Bakı, Respublika sarayı

cəlb edilməsi sahəsində apardığı ardıcıl siyasətin nəticəsidir. Bu bizim hamımızın birlikdə beş il bundan öncə müqaviləni imzaladıqdan sonra gördüyümüz müştərək işin nəticəsidir.

Mən bu gün bu münasibətlə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətini və orada çalışan bütün əməkdaşları, Azərbaycan Dövlət Neft Şirkətini, bütün neftçiləri, bu müqavilənin icrası ilə əlaqədar fəaliyyət göstərmiş, zəhmət çəkmiş bütün təşkilatları, müəssisələri, bütün şəxsləri ürəkdən təbrik edirəm və onların hamısına təşəkkür edirəm.

Bu gün bizim bu möhtəşəm bayrama zəhmət çəkib gəlmiş dövlət nümayəndə heyətlərinə burada söylədikləri xoş sözlərə görə və "Əsrin müqaviləsi"nə, onun icrasına verdikləri yüksək qiymətlərə görə səmimi-qəlbdən təşəkkür edirəm.

Bizim bu bayramımıza təbrik məktubları gəlmişdir. Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Bill Klintondan, Böyük

Britaniyanın Baş naziri cənab Toni Bleyerdən, Türkiyənin Prezidenti cənab Süleyman Dəmirəldən, Yaponiyanın Baş naziri cənab Obuçidən, Norveçin Baş naziri cənab Bondevikdən, Belçikanın Baş naziri cənab Verxofstadtdan, bizim qonşu dövlətlərin prezidentlərindən: Gürcüstan Prezidenti cənab Şevardnadzedən, Ukrayna Prezidenti cənab Kuçmadan, Özbəkistan Prezidenti cənab Kərimovdan, Qazaxıstan Prezidenti cənab Nazarbayevdən, Səudiyyə Ərəbistanının kralından və bir çox başqa siyasi xadimlərdən, dövlət xadimlərindən təbriklər gəlmiş, bu təbriklər burada səslənmişdir.

Bu təbriklərdə Azərbaycan dövlətinə böyük hörmət və ehtiram hissi əks olunubdur. Bu təbriklərdə Azərbaycanla dünyanın bir çox dövlətlərinin dünyanın böyük neft şirkətləri ilə gördükləri iş yüksək qiymətləndirilibdir. Bu təbriklərdə bizə xoş arzular bildirilib və gələcək işlərimiz üçün bizə uğurlar dilənibdir. Mən bütün bunlara görə təşəkkür edirəm.

Azərbaycan qədim neft diyarıdır. Azərbaycanda sənaye üsulu ilə neft hasilatının 150 illik tarixi vardır. Bu tarix şərti olaraq üç mərhələyə bölünə bilər: **birinci** – neft hasilatı başlanandan 1918-1920-ci illərə qədər, **ikinci** – ondan sonra Azərbaycan dövlət müstəqilliyini əldə edənə qədər, **üçüncü** – Azərbaycanın dövlət müstəqilliyi dövrü.

Bütün bu 150 il müddətində Azərbaycanda neft sənayesi daim inkişaf edibdir və təkcə Azərbaycan üçün yox, bütün dünya xalqları üçün öz xidmətlərini göstəribdir. 1918-1920-ci illərdən sonra Azərbaycanda neft sənayesi güclü inkişaf edibdir, neft sənayesinin böyük elmi-texniki, kadr potensialı yaranıbdır. Azərbaycan keçmiş Sovetlər İttifaqının ərazisində yeni neft yataqlarının aşkar olunması və işlənilməsində öz xidmətlərini göstərmişdir.

İkinci Dünya müharibəsi zamanı Azərbaycanda hasil olunan neft bu müharibədə alman faşizminə qələbə çalmaqda xüsusi rol oynamışdır. **Azərbaycan neft akademiyasına çevrilmişdir.**

Keçmiş Sovetlər İttifaqının ərazisində, Rusiyada "İkinci Bakı", "Üçüncü Bakı", "Dördüncü Bakı" və sair bölgələrdə Azərbaycan neftçiləri də çalışıblar və bu gün də çalışmaqdadırlar. Azərbaycan xalqının, Azərbaycan neftçilərinin və alimlərinin

ən böyük xidməti ondan ibarətdir ki, 50 il bundan əvvəl Xəzər dənizində zəngin neft və qaz yataqlarının olduğunu aşkar ediblər və 50 il bundan əvvəl Neft Daşlarında ilk dəfə neftin dənizdə sənaye üsulu ilə hasil edilməsinə başlanıbdır.

Bu, dünyada ilk hadisə idi. Böyük Britaniyadan burada çıxış edən qonağımız qeyd etdi ki, onlar 30 ildir ki, Şimal dənizində neft hasil edirlər. Bəli, amma Azərbaycan 50 il bundan əvvəl Xəzər dənizində neft hasilatına başlayıbdır. Ondan sonra bizim təcrübəmiz dünyaya yayılmış və indi dünyada müasir texnikaya, texnologiyaya malik olan, dənizin dərinliklərindən neft çıxara bilən böyük neft mədənləri yaranmışdır. Xəzər dənizində neft və qaz yataqlarının olması, onların kəşfi və indi dünyaya təqdim edilməsi Azərbaycan xalqının, alimlərinin, neftçilərinin böyük xidmətidir.

Biz məhz beş il bundan öncə bunların əsasında "Əsrin müqaviləsi"ni imzalaya bildik. Məlumdur ki, "Günəşli" yatağı 1970-ci illərdə kəşf edilmişdir və orada hasilat başlanmışdır. Sonra Xəzər dənizinin dərin hissəsində olan digər yataqlar kəşf edilmişdir, onların qaz və neft potensialı müəyyən olunmuşdur. Azərbaycan neftçiləri, geoloqları, alimləri təkcə Xəzərin Azərbaycan sektorunda yox, dənizin bütün akvatoriyasında neft və qaz yataqları aşkar etmişlər. Bunlar hamısı neft sahəsində bizdən əvvəl fəaliyyət göstərən neftçilərin, alimlərin, geoloqların böyük xidmətləridir. Biz bu gün bunu minnətdarlıq hissi ilə yad etməliyik və keçmiş nəsillərə bütün bu xidmətlərinə görə daim minnətdarlığımızı bildirməliyik.

Azərbaycan beş il bundan əvvəl "Əsrin müqaviləsi"ni imzalayandan sonra başqa Xəzəryanı ölkələr də Xəzər dənizindəki öz sektorlarında, sahələrində neft və qaz yataqlarının işlənilməsinə başlayıb. Beləliklə, Azərbaycan Xəzər dənizinin zəngin neft və qaz yataqlarını aşkar edib, Azərbaycan Xəzər dənizində neft və qaz hasilatının təmin olunmasında böyük rol oynayıbdır. Azərbaycan indi, XX əsrin sonunda, XXI əsrə gedərək Xəzər dənizinin bütün enerji sərvətlərindən, ehtiyatlarından təkcə Azərbaycan üçün yox, bütün dünya üçün, o cümlədən bütün Xəzəryanı dövlətlər üçün istifadə edilməsinin əsasını qoyubdur. Biz bu gün bununla fəxr edirik.

Bütün bunlara görə "Əsrin müqaviləsi" və bizim gördüyümüz işlər böyük tarixi əhəmiyyət kəsb edir. Bütün bunlara görə "Əsrin müqaviləsi" beynəlxalq əhəmiyyət kəsb edir. Bütün bunlara görə də beş il bundan əvvəl imzalanmış müqavilə məhz "Əsrin müqaviləsi" adlandırılıbdır.

Bu gün burada İlham Əliyevin məruzəsində, başqa çıxışlarda beş il müddətində görülən işlər haqqında ətraflı məlumat verildi. Artıq biz neft müqaviləsinin bəhrələrini gördük. Azərbaycan gəlirlər əldə edibdir. Artıq biz neft hasil edirik, neft ixrac edirik və neftin ixracı üçün iki neft kəməri yaratmışıq, əsas neft kəmərini də yaratmağa çalışırıq.

**Mən bu gün bəyan edirəm ki, Azərbaycan neftinin, Xəzər neftinin dünya bazarlarına çıxarılması üçün çox böyük əhəmiyyət daşıyan Bakı-Ceyhan neft kəməri tikilməlidir, istifadəyə verilməlidir.**

Biz gələn illərdə, onilliklərdə "Əsrin müqaviləsi"nin və imzalanmış başqa müqavilələrin Azərbaycana nə qədər mənfəət verəcəyinə dair konkret rəqəmlər eşitdik. "Əsrin müqaviləsi" imzalanarkən bəziləri bizə inanmırdı, ehtiyat edirdi, bəziləri təxribat edirdilər.

Hər halda, onun imzalanma, həyata keçirilmə prosesi də Azərbaycan üçün çox çətin olubdur, çox ağır olubdur. Ancaq biz bütün sınaqlardan çıxdıq, bütün çətinlikləri aradan qaldırdıq, bizə göstərilən bütün müqavimətlərə sinə gərdik və verdiyimiz sözə əməl etdik, 1997-ci ildə ilkin nefti hasil etdik. Məhz böyük dövlətlərin, böyük ölkələrin, onların neft şirkətlərinin müstəqil Azərbaycan dövlətinə göstərdiyi etimadın nəticəsində "Əsrin müqaviləsi" imzalanmışdır.

Ondan sonra isə tərəfdaşlarımızla, Beynəlxalq Əməliyyat Şirkətinə daxil olan şirkətlərlə və başqa xarici şirkətlərlə bizim gördüyümüz işlər dünyaya bir daha sübut etdi ki, birincisi, Xəzər dənizi, onun Azərbaycan sektoru zəngin neft və qaz yataqlarına malikdir, ikincisi, Azərbaycan dövləti ilə uzunmüddətli, etibarlı iş görmək olar. Bunların əsasını Azərbaycanda aparılan demokratik quruculuq prosesləri təşkil edir. Bunların əsasını Azərbaycanın bütün dünyaya açıq olması prinsipi təşkil edir. Bunların əsasını 1993-cü ildən sonra Azərbaycanda ardıcıl olaraq daxili ictimai-siyasi vəziyyətin normallaşdırılması və sabitləşdirilməsi təşkil edir.

Məhz belə bir sabitlik şəraitində, Azərbaycanın bugünkü sabit, sərbəst yaşaması şəraitində dünya neft şirkətləri, böyük ölkələr, dövlətlər Azərbaycana etimad, etibar göstərib bizimlə əməkdaşlıq edib. Məhz buna görə də ötən üç ildə əlavə 18 müqavilə də imzalanıbdır. İndi dünyanın böyük neft şirkətləri ilə, 14 dövlətə, ölkəyə məxsus olan şirkətlərlə bizim 19 müqaviləmiz vardır.

Sizə cəsarətlə deyə bilərəm ki, bunların hər biri "Əsrin müqaviləsi" kimi ardıcıl surətdə yerinə yetiriləcəkdir. Bizim gördüyümüz işlər və gələcəkdə görəcəyimiz işlər həm Azərbaycanın bu günü üçündür, həm də Azərbaycanın gələcəyi üçündür. Biz öz ölkəmizi əbədi müstəqil, azad dövlət etmək istəyirik. Biz buna nail olmuşuq.

Ancaq hələ müstəqilliyimizi, iqtisadi, siyasi müstəqilliyimizi təmin etmək üçün çox işlər görmək lazımdır. Biz ölkəmizi iqtisadi cəhətdən inkişaf edən ölkə etmək istəyirik. Biz ölkəmizin vətəndaşlarına firavan həyat yaratmaq istəyirik. Biz müstəqil dövlət kimi daim yaşamaq istəyirik. Bütün bu işlər – təkcə neft sahəsində deyil, Azərbaycanın iqtisadiyyatının, həyatının bütün başqa sahələrində də gördüyümüz işlər məhz bu məqsədi daşıyır. Bilirsiniz ki, iqtisadiyyatın başqa sahələrində də dəyərli nailiyyətlər əldə etmişik. Biz 1995-ci ildən əvvəlki illərdə baş vermiş iqtisadi tənəzzülün qarşısını aldıq.

Azərbaycanın iqtisadiyyatı 1996-cı ildən inkişaf dövrü keçirir və ümumi daxili məhsul, sənaye, kənd təsərrüfatı məhsulu istehsalı ilbəil inkişaf edir, artır. 1994-cü ildə Azərbaycanda inflyasiya 1600 faiz təşkil edirdi. Biz 1997-ci ildə bunun qarşısını aldıq. İndi inflyasiya yoxdur, milli valyutamız olan manatın dəyəri artmışdır. Bunlar hamısı bizim vətəndaşlarımızın güzəranının yaxşılaşmasına kömək edibdir. Son 3-4 ildə vətəndaşlarımızın orta əməkhaqqısı üç dəfə artıbdır. Bunlar hamısı azdır. Biz bununla qane ola bilmərik. Biz əldə olunan nailiyyətləri bu gün, sadəcə, bir daha yada salmaq istəyirik.

Bu gün burada "Əsrin müqaviləsi"nin beşilliyini qeyd edərkən Azərbaycanın hər bir guşəsində bizi dinləyirlər. Düşünürəm ki, çadır şəhərciklərində yaşayan əziz soydaşlarımız, yerindən, yurdundan didərgin düşmüş, Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində qaçqın düşmüş soydaşlarımız

da çadırlarda bizi dinləyirlər. Onlar bizə inanırlar, dözürlər, indi bizi dinləyərək düşünürlər ki, bunlar hamısı yaxşıdır, bəs biz nə vaxt öz yerimizə, torpaqlarımıza qayıdacağıq. Mən bu gün bəyan edirəm ki, bizim gördüyümüz bütün bu işlər Azərbaycanı bir dövlət kimi möhkəmləndirmək, gücləndirmək, Azərbaycanın iqtisadi potensialını artırmaq üçündür. Şübhəsiz ki, bunlar bütün başqa məsələlərin də həll olunmasına kömək edəcəkdir. Mən bəyan edirəm ki, biz Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsinə nail olacağıq, yerindən-yurdundan didərgin düşmüş soydaşlarımız öz doğma torpaqlarına, evlərinə qayıdacaq, Azərbaycanın ərazi bütövlüyü təmin olunacaqdır.

Beləliklə, Azərbaycan dövlətinin neft strategiyası artıq öz müsbət nəticələrini verib, dünyada tanınıb və XXI əsrdə Azərbaycanın müstəqil, azad inkişaf etməsinin əsasını təşkil edən amillərdən biridir. Mən qeyd etdim ki, bizim gördüyümüz işlər gələcəyə yönəlibdir. Biz bu işlərin gözəl nəticələrini ilbəil əldə edəcəyik və xalqımız bunu hiss edəcəkdir.

Ancaq bizim bugünkü nəsillərin borcu, o cümlədən Azərbaycan Prezidenti kimi mənim borcum ondan ibarətdir ki, Azərbaycanda dövlət quruculuğu o qədər möhkəmlənsin, Azərbaycan dövləti o qədər qüdrətlənsin ki, ölkəmiz daim müstəqil ola bilsin. Bizim borcumuz ondan ibarətdir ki, gələcək nəsillərin azad, sərbəst, firavan həyat yaratmasının əsasını qoyaq.

Biz bunları edirik və "Əsrin müqaviləsi"ndən, digər müqavilələrdən əldə olunan böyük gəlirlər, sərvətlər Azərbaycan xalqının gələcək nəsillərinin firavan yaşaması üçün əsas yaradır. Bu bizim onların qarşısında olan borcumuzun yerinə yetirilməsidir. Azərbaycan sülhsevər dövlətdir. Azərbaycan həm ölkədə, həm bölgədə, həm də dünyada sülh istəyir. Ona görə də biz Qafqazda, dünyada sülh istəyirik. Əminəm ki, biz sülhə, əmin-amanlığa nail olacağıq. Hamımızın arzusu ondan ibarətdir ki, Azərbaycan bundan sonra da sülh, əmin-amanlıq, rahatlıq şəraitində yaşasın.

Mən Azərbaycan dövlətinə, xalqına, millətinə gələcək uğurlar arzulayıram. Tam əminəm ki, bizim bu gün gördüyümüz işlər Azərbaycanı günü-gündən irəliyə aparacaq, Azərbaycanın bayrağını yüksəldəcək, yüksəldəcək, yüksəldəcək!

## "Əsrin müqaviləsi"nin beşinci ildönümünə həsr edilmiş rəsmi qəbulda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi

*20 sentyabr 1999-cu il, Bakı, Gülüstan sarayı*

– Hörmətli xanımlar və cənablar! Hörmətli qonaqlar, dostlar!

Mən sizin hamınızı bu möhtəşəm Gülüstan sarayında bir daha salamlayıram və sizə bu bayram günündə xoş əhvali-ruhiyyə arzulayıram. Bu gün "Əsrin müqaviləsi"nin beşinci ildönümünə həsr olunmuş təntənəli mərasimdə bu müqavilənin siyasi, iqtisadi, sosial, mənəvi əhəmiyyəti haqqında ətraflı danışıldı. Ancaq bu gün bizi daha da çox sevindirən müqavilənin özü deyil, beş il müddətində onun uğurla icra olunması və verdiyi müsbət nəticələr, bizim müştərək işimizin böyük nailiyyətləridir.

Bu gün mən öz çıxışımda bildirdim ki, Azərbaycan neft sənayesinin 150 illik tarixi var və deyə bilərəm ki, ölkəmiz öz müstəqilliyini əldə edənə qədər Azərbaycan xalqı heç vaxt bu sərvətlərin sahibi olmamışdır. Azərbaycan, Bakı öz nefti ilə dünyanın şirkətlərini, iş adamlarını XIX əsrin ikinci yarısından, XX əsrin əvvəllərindən cəlb etmiş və bir çox xarici şirkətlər burada uğurlu fəaliyyət göstərmiş, neft hasilatını təmin etmişdir. Bu prosesə Azərbaycanın yeni sahibkarları da, iş adamları da qoşulmuş və onlar xarici neft şirkətləri ilə bərabər neftin hasil olunmasını və dünya bazarına çıxarılmasını təmin etmişlər. Təbiidir ki, bunların hamısı Azərbaycana, ancaq deyə bilərəm ki, Bakı şəhərinə çox fayda vermişdir və Bakının inkişafı üçün xidmətlər göstərmişdir.

Bu gün biz Nobel qardaşlarını, Azərbaycanın böyük sahibkarlarından və xeyriyyəçilərindən biri olan Hacı Zeynalabdin Tağıyevi və o illərdə Azərbaycanın təbii sərvətlərindən istifadə edib mənfəət götürən, eyni zamanda Bakı şəhərini inkişaf etdirən insanları xatırlaya bilərik. Bakı şəhəri XIX əsrin sonlarında, XX əsrin əvvəllərində çox güclü inkişaf etmişdir. Burada o dövrün tələblərinə uyğun olan sənaye müəssisələri, yaşayış evləri, ofislər üçün müxtəlif binalar, ticarət mərkəzləri yaradılmış və bunların hamısı Bakını bir növ Avropa üslubunda olan gözəl bir şəhərə çevirmişdir. O vaxtlar yaradılan binaların bir çoxu, həqiqətən, gözəl memarlıq abidələridir.

Biz o dövrdə Azərbaycan neftinin çıxarılması ilə məşğul olub ölkəmizdə iş görmüş xarici şirkətləri də və öz sahibkarlarımızı da bu gün minnətdarlıq hissi ilə xatırlayırıq. Sonra isə, bilirsiniz ki, 1918-ci ildə ilk Azərbaycan Xalq Cümhuriyyəti bir müstəqil dövlət kimi öz sərvətlərindən xalqı üçün istifadə etməyə çalışmış, amma o, az yaşamış, buna nail ola bilməmişdir.

1920-ci ildən isə Azərbaycan Sovetlər İttifaqının, sovet hakimiyyətinin tərkibində olmuşdur. Bu gün cəsarətlə demək lazımdır ki, 1920-ci ildən keçən 70 il ərzində Azərbaycanda neft sənayesi çox güclü inkişaf etmişdir və bunun da səbəbi ondan ibarətdir ki, o vaxt sovet hakimiyyətinə, sovet dövlətinə neft lazım idi. Sovet İttifaqını sənayeləşdirmək, onun iqtisadiyyatını inkişaf etdirmək üçün neft çox lazım idi. Əgər nəzərə alsaq ki, o illərdə Sovetlər İttifaqının ərazisində hasil edilən neftin 80, bəlkə də, 90 faizi Bakıda əldə olunurdu, onda anlamaq olar ki, sovet hakimiyyəti üçün, SSRİ dövləti üçün Bakının nefti nə qədər lazım idi. Azərbaycan xalqı, ölkəmizin neftçiləri və alimləri neft sənayesinin inkişaf etməsi üçün böyük xidmətlər göstərmiş və nailiyyətlər əldə etmişlər.

Mən bir daha qeyd etmək istəyirəm ki, İkinci Dünya müharibəsində alman faşizmi üzərində qələbə çalınmasında Azərbaycan neftinin misilsiz rolu olmuşdur. Azərbaycan Sovetlər İttifaqının başqa bölgələrində neft sənayesinin inkişaf etdirilməsi üçün də böyük xidmətlər göstərmişdir. Biz iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan neftçiləri, alimləri Rusiyada "İkinci Bakı", "Üçüncü Bakı", "Dördüncü Bakı" kimi neft mədənlərinin və yataqlarının açılmasında iştirak ediblər və onların çoxu o vaxtdan indiyə qədər o diyarlarda, Sibirdə, Tümendə yaşayır və bu gün də neft hasilatı ilə məşğuldurlar.

Azərbaycan Xəzər dənizində neft yataqlarının aşkar olunmasında, bu yataqların sənaye üsulu ilə istismar edilməsində dünyada birinci yerdə olmuşdur. Azərbaycanda neftin sənaye üsulu ilə hasil olunmasına başlanandan bu günə qədər yerin təkindən, dənizin dərinliklərindən 1 milyard 500 milyon tona qədər neft hasil edilmişdir. Bunun təxminən 450-500 milyon tonu Xəzər dənizinin dərin sularından çıxarılmışdır. Amma bütün bu zamanlarda Azərbaycan xalqı özünün zəngin təbii sərvətlərinin

sahibi olmamış, Azərbaycanın öz müstəqil dövləti olmamış və ölkəmizdə hasil edilən neft, şübhəsiz ki, Sovetlər İttifaqının bütün tələbatlarını təmin etmək üçün istifadə edilmişdir.

Keçmişdə mən uzun illər Azərbaycanda işləmişəm və 1969-cu ildən Azərbaycanın başçısı olmuşam. Mən bunları yaxşı bilirəm və yaxşı xatırlayıram. Bizdən tələb olunurdu ki, neft-qaz hasilatını artıraq. Biz bunu edirdik. Ancaq bundan əldə olunan gəlirlərin hamısı Sovet İttifaqının vahid büdcəsinə gedirdi. Yəni o illərdə neft sənayesinin Azərbaycana nə qədər mənfəət verməsinə baxmayaraq, ölkəmiz əldə olunan neftin faydasının çox hissəsini görməyibdir. Tarixin səhifələrini sizə xatırladaraq onu demək istəyirəm ki, Azərbaycan yalnız dövlət müstəqilliyini əldə etdikdən sonra öz aqibətinin, öz sərvətlərinin sahibi olmuş və ölkəmizin ən zəngin sərvəti olan qaz və neft ehtiyatlarından müstəqil, sərbəst istifadə etmək imkanı əldə etmişdir. Biz keçmişə minnətdarlıq edirik. Ancaq xoşbəxtik ki, nəhayət, XX əsrin sonunda Azərbaycan öz milli azadlığını, dövlət müstəqilliyini əldə edib və öz təbii sərvətlərindən nə cür, hansı yolla istifadə olunmasını özü müəyyən edir. "Əsrin müqaviləsi" məhz Azərbaycanın dövlət müstəqilliyinin əldə olunmasından irəli gəlmiş bir tarixi hadisədir.

Biz yalnız müstəqil dövlət olandan sonra dünyanın müxtəlif ölkələri, neft şirkətləri ilə sərbəst, heç kəsdən asılı olmayaraq danışıqlar aparmaq imkanı əldə etmişik və bu sahədə gördüyümüz işlərin ən görkəmlisi, ən böyüyü, ən mühüm tarixi əhəmiyyət kəsb edəni "Əsrin müqaviləsi"nin hazırlanıb imzalanması idi.

Bu gün təntənəli mərasimdə artıq deyildi ki, bu müqavilənin hazırlanması ilə biz nə cür ağır şəraitdə məşğul olmuşuq, daxili və xarici qüvvələrin yaratdığı nə qədər çətinliklərlə rastlaşmışıq. Ancaq biz iradə və əzm göstərmişik, risk etmişik və "Əsrin müqaviləsi"ni nizamlamağa nail olmuşuq.

"Əsrin müqaviləsi" bu möhtəşəm Gülüstan sarayında imzalanıbdır. O gün bizim üçün böyük sevinc, bayram günü idi. Eyni zamanda biz yaxşı bilirdik ki, üzərimizə böyük məsuliyyət götürmüşük və qarşımızda çox böyük sınaqlar vardır. Bu gün iftixar hissi ilə deyirəm ki, bu beş illik yolun bütün sınaqlarından

şərəflə keçmişik, bütün çətinliklərin qarşısını almışıq, hər cür təzyiqlərə cavab vermişik və "Əsrin müqaviləsi"nin qısa bir zamanda həyata keçirilməsinə nail olmuşuq.

Təbiidir ki, bu nailiyyətlərimiz böyük neft şirkətləri ilə bizim müştərək işimizin nəticəsidir. Bu gün tam cəsarətlə demək olar ki, müqavilənin imzalanmasından sonra yaranmış Beynəlxalq Əməliyyat Şirkəti, Azərbaycan Dövlət Neft Şirkəti Azərbaycan dövlətinin və hökumətinin rəhbərliyi altında, daim onun dəstəyini alaraq çox böyük işlər görmüş və bizi bu nəticəyə gətirmişdir.

"Əsrin müqaviləsi"nin beş illiyini qeyd edərək deyirik ki, biz böyük sınaqlardan çıxmışıq. Tərəfdaşlarımızın və böyük neft şirkətlərinin mənsub olduqları ölkələrin, dövlətlərin etimadını doğrultmuşuq. Azad, müstəqil dövlət kimi dünyaya nümayiş etdirmişik ki, Azərbaycan xalqı, ölkəmizin neftçiləri, alimləri daha böyük nailiyyətlər əldə etməyə qadirdirlər. Təbiidir ki, bunların hamısı bizdə, şəxsən məndə böyük iftixar hissi doğurur. Bu gün "Əsrin müqaviləsi"nin beş illiyini qeyd edərkən bu müqavilənin imzalanmasında xidmətlər göstərmiş və bizə dəstəklər vermiş dövlətlərin, təşkilatların, şirkətlərin hamısını minnətdarlıqla xatırlayırıq.

Biz bu gün Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinə, Azərbaycan Dövlət Neft Şirkətinə və bunların ətrafında müqavilənin icrası ilə məşğul olan mütəxəssislərə, alimlərə, mühəndislərə, texniklərə, fəhlələrə, bu sahədə çalışanların hamısına təşəkkürümüzü bildiririk. Müqavilənin imzalanması və həyata keçirilməsində, qeyd etdiyim kimi, biz bir çox maneələrlə, çətinliklərlə rastlaşırıq. Ancaq müqaviləni imzalamış şirkətlər, onların mənsub olduqları dövlətlər və biz inamla irəliləyirdik. Ona görə də mən müqaviləni imzalamış şirkətlərin mənsub olduqları dövlətlərə, onların hökumətlərinə təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Müqavilənin hazırlanması və xüsusən həyata keçirilməsi dövründə, o cümlədən Bakı-Supsa neft kəmərinin yaranması üçün qərarların qəbul olunması zamanı Amerika Birləşmiş Ştatları hökumətinin, xüsusən Prezident cənab Bill Klintonun rolunu mən bu gün xüsusi qeyd edirəm. İndi, müqavilənin gözəl nəticələrini bayram edərkən ötən illərdə "Əsrin müqaviləsi"ndən sonra 18 müqavilənin imzalandığını dünyaya nümayiş etdirərək

sübut etdik ki, Azərbaycan müasir səviyyədə, bazar iqtisadiyyatı prinsipləri əsasında, xarici sərmayədən istifadə etməklə çox işlər görə bilər və bundan sonra da görəcəkdir.

Bu gün Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti cənab Vudvord öz çıxışında müqavilənin həyata keçirilməsi üçün altı il müddətində Azərbaycanda ictimai-siyasi sabitliyin təmin olunması və burada bizim gördüyümüz işlər haqqında dedi və bu işləri yüksək qiymətləndirdi. Dövlət və hökumət başçılarından, şirkətlərdən, ayrı-ayrı təşkilatlardan və bir çox neft şirkətlərindən aldığımız təbrik məktublarında da məhz Azərbaycanda xarici sərmayədən istifadə olunması üçün yaxşı şərait yaradılması xüsusi qeyd edilir.

Bəli, əgər biz ölkəmizdə ictimai-siyasi sabitliyi təmin etməsəydik, Azərbaycanı dağıdan, parçalayan qüvvələri aradan çıxarmasaydıq, onları ləğv etməsəydik, respublikamızda vətəndaşların rahat yaşaması üçün lazımi şərait yaratmasaydıq, xarici şirkətlər buraya gəlməzdi, gəlsəydi də, qısa müddətdə buradan dönüb gedəcəkdilər. Biz sübut etdik ki, Azərbaycan etibarlı tərəfdaşdır. Biz sübut etdik ki, Azərbaycana xarici sərmayənin gəlməsi və istifadə olunması üçün burada bütün imkanlar yaradılıbdır. Biz sübut etdik ki, Azərbaycana gələn hər bir iş adamı, şirkət, vətəndaş burada azad, sərbəst, rahat işləyə və yaşaya bilər. Ümidvaram ki, "Əsrin müqaviləsi"ndən sonra imzaladığımız müqavilələr daha da gözəl nəticələr verəcəkdir.

"Şahdəniz" yatağında aşkar olunan qaz ehtiyatları və əldə etdiyimiz gözəl nəticələr bunu aydın göstərir. Məlumdur ki, "Şahdəniz" yatağı ilə bağlı hazırlanmış müqaviləni də daxilimizdəki qüvvələr bu sənədin imzalanmasına bir həftə qalmış pozmaq istədi. Ancaq biz bu müqaviləni imzaladıq və həmin müqaviləyə inanmayan, yaxud qəsdən bunun əleyhinə çıxan adamlara sübut etdik ki, Azərbaycan xalqının milli mənafeləri üçün çalışırıq və ona görə də bu cür nailiyyətləri əldə etməyə qadirik.

Xəzərin Azərbaycan sektorunda hələ çoxlu neft və qaz yataqları var. Şübhə etmirəm ki, gələcək illərdə yeni-yeni müqavilələr imzalanacaqdır. Biz artıq bu barədə çoxlu təkliflər almışıq. Mən bəyan edirəm və hamını əmin edirəm ki, Azərbaycanın

milli mənafelərinə cavab verən yeni-yeni müqavilələrin imzalanması və onların həyata keçirilməsi üçün bundan sonra daha da böyük imkanlar, daha da yaxşı şərait yaranacaqdır. Biz böyük işin başlanğıcındayıq.

Bu gün gördüyümüz bütün işlər, "Əsrin müqaviləsi" ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, XXI əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır.

Bu beş il müddətində bizimlə əməkdaşlıq edənlərin hamısına bir daha təşəkkür edirəm. Bu bayram gününü bizimlə qeyd etmək üçün Azərbaycana gəlmiş dövlət nümayəndə heyətlərinə təşəkkür edirəm və minnətdarlığımı bildirirəm. Hamınıza gələcək işlərinizdə uğurlar arzulayıram.

"Əsrin müqaviləsi"nin şərəfinə!

"Əsrin müqaviləsi"nin gələcək nailiyyətləri şərəfinə! Gələcəkdə daha da səmərəli müştərək iş şərəfinə!

Azərbaycan neftçilərinin şərəfinə!

Azərbaycan neftçiləri ilə ölkəmizdə çiyin-çiyinə işləyən xarici mütəxəssislərin şərəfinə!

Sizin şərəfinizə, hörmətli qonaqlar, bu badəni qaldırıram! Sağ olun!

## İlk mənfəət nefti və Neft Fondunun yaradılması

Azərbaycanın neft strategiyasının növbəti mərhələsini ölkənin neft yataqlarının xarici şirkətlərlə birgə işlənilməsindən əldə olunan neft gəlirlərinin toplanaraq səmərəli idarə edilməsi, həmin vəsaitlərin öncül sahələrin inkişafına və sosial-iqtisadi baxımdan böyük əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəldilməsi təşkil edirdi.

Azərbaycan tərəfi "Azəri-Çıraq-Günəşli" üzrə müqavilə çərçivəsində həyata keçirilən "İlkin neft" layihəsindən ilk mənfəət neft partiyasını 1999-cu ilin dekabrında aldı. Bu məqsədlə Prezident

Heydər Əliyevin 29 dekabr 1999-cu il tarixli 240 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Dövlət Neft Fondu (AR DNF) təsis olundu.

Hazırda institusional cəhətdən çox yüksək səviyyədə formalaşan, bununla bərabər, ölkə daxilində, eləcə də beynəlxalq səviyyədə tanınan və vəsaitlərin idarə edilməsi, şəffaflığın təmin olunması baxımından digər dövlətlərlə öz təcrübəsini bölüşməyə qadir bir quruma çevrilən DNF faktiki olaraq “Əsrin müqaviləsi”nin yetirməsidir.

### Azərbaycan Respublikasının Dövlət Neft Fondunun yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın tanınmış neft şirkətləri arasında 1994-cü ildə “Əsrin müqaviləsi” ilə təməli qoyulmuş işgüzar əməkdaşlıq ilkin real nəticələrini vermək ərəfəsindədir. Bu sahədə gözlənilən gəlirlərin Azərbaycan Respublikasının sosial-iqtisadi tərəqqisinə istiqamətləndirilməsi dövlət siyasətinin başlıca məqsədidir.

Bunu nəzərə alaraq, ölkənin neft yataqlarının xarici şirkətlərlə birgə işlənilməsindən əldə edilən mənfəət neftinin satışından daxil olan valyuta vəsaitlərinin və digər gəlirlərin toplanması və səmərəli idarə edilməsi, həmin vəsaitlərin öncül sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəldilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Dövlət Neft Fondu yaradılsın.
2. Azərbaycan Respublikası Dövlət Neft Fondunun aşağıdakı mənbələr hesabına formalaşdırılması müəyyən edilsin:
   2.1. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və ya səlahiyyətli dövlət orqanı ilə sərmayəçilər arasında bağlanmış Azərbaycan Respublikasında, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına

mənsub olan bölməsində neftin və qazın kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsünə dair sazişlərin, habelə neft-qaz ehtiyatlarının kəşfiyyatı, işlənilməsi və nəqlinə dair digər sazişlərin həyata keçirilməsindən əldə edilən aşağıdakı gəlirlər:

**2.1.1.** Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlər (karbohidrogenlərin nəql edilməsi üzrə məsrəflər, bank, gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət (sörveyer), marketinq və sığorta xərcləri çıxılmaq şərtilə, habelə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayəçisi, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər istisna olmaqla);

**2.1.2.** neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə və ya səlahiyyətli dövlət orqanına sərmayəçilər tərəfindən ödənilən bonuslar (mükafatlar);

**2.1.3.** karbohidrogen ehtiyatlarının işlənilməsi ilə əlaqədar sərmayəçilər tərəfindən müqavilə sahəsindən istifadə üçün Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə və ya səlahiyyətli dövlət orqanına ödənilən akrhesabı ödənişlər;

**2.1.4.** neft-qaz layihələrinin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının payına düşən dividendlər və mənfəətin bölüşdürülməsindən əldə edilən gəlirlər (Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayəçisi, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər istisna olmaqla);

**2.1.5.** neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum ixrac boru kəmərləri vasitəsilə ötürülməsindən əldə edilən gəlirlər (Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayəçisi,

payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər istisna olmaqla);

**2.1.6.** neft-qaz sazişləri çərçivəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə və ya səlahiyyətli dövlət orqanlarına sərmayəçilər tərəfindən verilən aktivlərdən əldə edilən gəlirlər;

**2.2.** Neft Fondu tərəfindən Fondun vəsaitinin (aktivlərinin) (o cümlədən maliyyə aktivlərinin və neft-qaz sazişləri çərçivəsində sərmayəçilərin verdiyi aktivlərinin) yerləşdirilməsindən, idarə olunmasından, satışından və ya digər təqdim edilməsindən və yaxud satışındankənar əldə edilən gəlirlər, aktivlərinin balans valyutasında (Azərbaycan manatı) yenidən qiymətləndirilməsindən alınan gəlirlər və sair.

**2.3.** Qrantlar və digər təmənnasız yardımlar.

**2.4.** Qanunvericiliyə uyğun olaraq, digər gəlirlər və daxilolmalar.

**3.** Azərbaycan Respublikasının payına düşən xam neftin və qazın satışı Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti tərəfindən həyata keçirilsin.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Dövlət Neft Fondunun Əsasnaməsini və onun ali idarəetmə orqanının tərkibi barədə təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**5.** Azərbaycan Respublikasının Mərkəzi Bankına tapşırılsın ki, Azərbaycan Respublikasının Dövlət Neft Fondu fəaliyyətə başlayanadək onun vəsaitlərinin xüsusi hesabda toplanmasını təmin etsin.

**6.** Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər Əliyev**
Bakı şəhəri, 29 dekabr 1999-cu il

### "Neftçilər Günü" peşə bayramının təsis edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Zəngin neft və qaz sərvətlərinə malik olan Azərbaycan bütün dünyada "Neft diyarı", "Odlar diyarı" kimi tanınmışdır. 1848-ci ildə Bakıda, Bibiheybət yatağında qazılmış quyudan neft fontan vurmuş və bu hadisə dünyada neftin sənaye üsulu ilə çıxarılmasının başlanması kimi tarixə həkk olunmuşdur.

XIX əsrdə Azərbaycanın neft sənayesi sürətlə inkişaf etmiş, güclü istehsal bazaları və elmi mərkəzlər yaradılmışdır. Azərbaycan İkinci Dünya müharibəsi illərində Sovet İttifaqında çıxarılan neftin 75 faizini verməklə cəbhəni yanacaqla təmin edərək alman faşizminin məğlubiyyətə uğradılmasında böyük rol oynamışdır.

Keçmiş Sovet İttifaqının hər yerində yeni neft yataqlarının aşkara çıxarılmasında Azərbaycanın qüdrətli elmi-texniki potensialının mühüm yeri vardır. Təsadüfi deyildir ki, Rusiyanın neft regionları "İkinci Bakı", "Üçüncü Bakı" kimi adlandırılırdı.

Ölkəmizin ən böyük nailiyyətlərindən biri də dəniz neft-qaz yataqlarının kəşfi və işlənilməsidir. 1949-cu ildə sahildən 100 kilometr məsafədə, o zaman üçün unikal yataq sayılan Neft Daşlarında dünya təcrübəsində ilk dəfə olaraq açıq dənizdə neft hasil olundu.

1970-1980-ci illər Azərbaycan neftçiləri tərəfindən dənizin daha dərin sahələrinin mənimsənilməsi ilə səciyyələnmişdir. Məhz bu dövrdə görülən məqsədyönlü tədbirlər nəticəsində neft sənayesi möhkəmlənmiş və onun geniş infrastrukturu yaranmışdır. Azərbaycanda dəniz yataqlarının işlənilməsi üçün qazma qurğuları, dənizdə tikinti işlərini təmin etmək üçün xüsusi gəmilər, texnika və avadanlıq gətirilmiş, Bakı Dərin Özüllər Zavodu tikilmişdir. Bununla yanaşı, neft emalı, neft-kimya sənayesi və neft maşınqayırmasının inkişafında böyük sıçrayış olmuşdur.

Son illərdə neft sənayesində çox mühüm strateji əhəmiyyət daşıyan nailiyyətlər əldə olunmuşdur. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ilə yeni neft strategiyası və doktrinası irəli sürülərək dünyanın bir çox şirkətləri ilə Xəzər dənizində ilk dəfə olaraq neft və qaz yataqlarının birgə istismarına

başlanılmışdır. Bu gün Azərbaycan Xəzər hövzəsində neft və qaz yataqlarının birgə işlənilməsi sahəsində 14 ölkənin 30 iri neft şirkəti ilə ümumi dəyəri 60 milyard ABŞ dollarına yaxın olan 21 beynəlxalq saziş imzalayıb.

Çox qısa müddətdə "Çıraq-1" ilk hasilat platforması istismara verilmiş, Bakı-Novorossiysk neft kəməri bərpa edilmiş, Bakı-Supsa yeni neft boru kəməri tikilmiş, "Dədə Qorqud", "İstiqlal", "Qurtuluş" kimi nəhəng dəniz qazma qurğuları istifadəyə verilmişdir.

Neft və qaz müqavilələri üzrə aparılan işlər artıq keyfiyyətcə yeni, həlledici mərhələyə daxil olur. Bu, xüsusilə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri-Çıraq-Günəşli" yatağının tammiqyaslı işlənilməsi, habelə "Şahdəniz" kimi dünya miqyaslı qaz yatağının işlənilməsi, Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin və "Şahdəniz" yatağından təbii qazın ixrac boru kəmərinin tikintisi və istismara verilməsi layihələri ilə bağlı məsələlərə aiddir.

Beləliklə, 1994-cü il sentyabrın 20-si imzalanmış və müstəqil Azərbaycanın iqtisadi suverenliyini əks etdirən ilk beynəlxalq neft sazişi iqtisadiyyatımızın dinamik inkişafının əsasını qoydu və onun praktiki nəticələri göz qabağındadır. Həmin tarixdən başlayaraq görülən işlər bugünkü və gələcək nəsillərə xidmət edir.

Azərbaycanın neft və qaz sənayesinin inkişafında Azərbaycan xalqının dəyərli insanları: böyük alimləri, mühəndisləri, geoloqları, neftçiləri və başqa mütəxəssisləri zəngin neft və qaz sərvətlərinin vətən, xalq naminə istifadə edilməsi üçün böyük işlər görmüş, fədakarcasına çalışmış və xalqımızın tarixinə şanlı səhifələr yazmışlar.

Azərbaycanın tarixində, onun iqtisadiyyatının inkişafında, xüsusilə müstəqilliyinin möhkəmləndirilməsində neft sənayesinin əhəmiyyətini nəzərə alaraq və neftçilərin əməyini yüksək qiymətləndirərək qərara alıram:

1. Hər il sentyabrın 20-si Azərbaycan Respublikasında "Neftçilər Günü" peşə bayramı kimi qeyd olunsun.
2. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər Əliyev**
Bakı şəhəri, 16 avqust 2001-ci il

## AÇG-nin tammiqyaslı işlənilməsi layihəsi

### *"Faza-1" layihəsi*

2001-ci il avqustun 30-da ABƏŞ-in Rəhbər Komitəsi "Faza-1. Azəri-Çıraq-Günəşli dəniz yataqlarının tammiqyaslı işlənilməsi" layihəsini təsdiqlədi. Bununla bağlı müvafiq sənədi Azərbaycan Respublikası Prezident Aparatında dövlət başçısı Heydər Əliyevin iştirakı ilə ARDNŞ prezidenti Natiq Əliyev və ABƏŞ rəhbəri Devid Vudvord imzaladılar.

"Faza-1" layihəsi çərçivəsində "Azəri" yatağının mərkəzi hissəsinin işlənilməsi nəzərdə tutulurdu. İmzalanma zamanı təxmin edilən proqnozlara görə, müqavilə dövrü müddətində "Faza-1" layihəsi üzrə 1,425 milyard barel və ya 193 milyon ton neftin hasil edilməsi gözlənilirdi.

Sənədə görə, imzalanma tarixindən "Faza-1" layihəsinin icrasına başlanılırdı. "Faza-1" layihəsinin ümumi dəyəri 3,4 milyard dollar təşkil edirdi ki, bunun da 2,74 milyard dolları tikinti işlərinə, qalan hissəsi quyuların qazılmasına sərf olunacaqdı. Bundan əlavə, təxminən 700 milyon dollar vəsait material və avadanlıqların Bakıya daşınmasına xərclənəcəkdi.

Platformanın dayaq bloklarının tikintisi və platformanın modullarının montaj edilməsi "Şelflayihətikinti" İstehsalat Birliyinin (hazırkı Heydər Əliyev adına Dərin Özüllər Zavodu, ARDNŞ-nin strukturudur) meydançasında həyata keçirildi. Bundan əlavə, layihə çərçivəsində ARDNŞ-nin neft flotuna daxil olan borudüzən gəmilərdən, kran və barjalardan, xidməti gəmilərdən istifadə edildi.

"Faza-1" layihəsi çərçivəsində müqavilə sahəsindən gündəlik neft hasilatının 375 min barelə (layihə təsdiq edilərkən AÇG-nin "İlkin neft" layihəsi çərçivəsində 2001-ci ilin III rübündə gündəlik neft hasilatı 133 min barel təşkil edirdi) çatdırılması planlaşdırılırdı.

2001-ci il noyabrın 30-da Bakıda "Faza-1" layihəsinin həyata keçirilməsi çərçivəsində beş xarici şirkətlə ümumi dəyəri 750 milyon dollar olan 6 böyük müqavilə imzalandı.

Aşağıda həmin müqavilələrin detalları əksini tapıb:

| Layihənin adı | Podratçı | Müqavilənin müddəti | Müqavilə |
|---|---|---|---|
| 1. Platformanın üst modullarının tikintisi | "McDermott Caspian Constractors" (ABŞ) | Dekabr 2001 – sentyabr 2004 | İnteqrə edilmiş yaşayış blokunun tikintisi, quraşdırılması, tənzimləmə işləri və istismara verilməsi |
| 2. Tikinti | "McDermott Caspian Constractors" (ABŞ) | Dekabr 2001 – may 2005 | Neft platformasından 186 km uzunluğunda sualtı neft kəmərinin və 12 uzunluğunda borunun kompressor platformasına çəkilməsi |
| 3. Dayaq blokunun, svayların və qazma əməliyyatları üçün dayaq plitəsinin tikintisi | "Bouygues Offshore", (Fransa) | Dekabr 2001 – mart 2005 | Platformanın dayaq bloklarının, qazma əməliyyatları üçün dayaq plitəsinin və bərkidici svayların tikintisi, onların dənizə nəql edilməsi üçün barjaya yüklənməsi |
| 4. Dənizdə nəqletmə və quraşdırma işləri | "Saipem" (İtaliya) | Dekabr 2001 – iyul 2005 | Hasilat və kompressor platformaları üçün dayaq bloklarının, qazma əməliyyatları üçün dayaq plitəsinin və bərkidici svayların dənizdə nəql edilməsi, üst modulların dayaq blokları üzərinə quraşdırılması |
| 5. Qazma avadanlığı ilə təminat | "Eiffel" (Fransa) | Dekabr 2001 – iyul 2003 | Qazma avadanlığının layihələndirilməsi, alınması və qazma modulunun tikintisi |
| 6. Yaşayış bloklarının tikintisi | "Emtunga International" (İsveç) | Dekabr 2001 – noyabr 2003 | Yaşayış bloklarının layihələndirilməsi, avadanlıqların alınması və hasilat blokundakı yaşayış bloklarının tikintisi |

**Mənbə:** "BP-Azərbaycan" şirkəti

## Layihə çərçivəsində inşa edilən platformalar

### *"Mərkəzi Azəri" platforması*

"Mərkəzi Azəri" Bakıdan 100 kilometr şərqdə, Xəzər dənizində suyun dərinliyinin təxminən 128 metr olduğu yerdə yerləşən dəniz hasilat, qazma və yaşayış (HQY) platformasıdır.

2005-ci ilin fevralından istismarda olan platforma "Azəri" yatağının mərkəzi hissəsindən neft hasil etmək üçün tikilib.

HQY platformasından əlavə, yaşayış, qazma, hasilat, texnoloji emal, kompressiya və laya qaz, su, şlam vurulması obyektlərini əhatə edən iri bir dəniz kompleksi yaratmaq məqsədilə "Mərkəzi Azəri"də bir kompressor və suvurma platforması quraşdırılıb və körpü ilə HQY platformasına birləşdirilib.

"Mərkəzi Azəri" platforması obyektlərinə daxildir:

- 48 quyu gövdəsinə malik HQY platforması;
- "Mərkəzi Azəri" platformasından Səngəçal terminalına qədər 30 düymlük sualtı neft boru kəməri;
- "Mərkəzi Azəri" platformasından Səngəçal terminalına qədər 28 düymlük qaz boru kəməri;
- Qurudakı mövcud Səngəçal terminalının genişləndirilməsi.

"Mərkəzi Azəri" platformasında hasilat 2005-ci il fevralın 14-də başlayıb. Platformada illik olaraq ən çox neft hasilatı 2007-ci ildə qeydə alınıb (gündəlik orta hasilat 244 min barel və ya illik 12 milyon ton). 2022-ci ilin I yarısının yekunlarına görə, platformada gündəlik hasilat orta hesabla 108 min barel təşkil edib. Hasilat başlayandan 1 iyul 2022-ci il tarixinə qədər "Mərkəzi Azəri" platformasında 140,2 milyon ton neft hasil olunub.

"Mərkəzi Azəri" platforması



## *"Faza-2" layihəsi*

"Faza-2" layihəsi "Azəri" yatağının şərq və qərb hissələrinin AÇG müqavilə sahəsi çərçivəsində işlənilməsini nəzərdə tutur və "Faza-1" layihəsi ilə birlikdə bütövlükdə "Azəri" yatağının istismar edilməsini təmin edəcək.

"Faza-2" qurğuları "Azəri" yatağı üçün dənizdə və quruda inkişaf kompleksi yaratmaq məqsədilə "Faza-1" obyektləri ilə birləşdiriləcək.

Təqdim olunan müqavilələrə aşağıdakılar daxildir:

| Podratçı | Müqavilə |
|---|---|
| 1. Amerika-Azərbaycan birgə müəssisəsi "McDermott Caspian Contractors, Inc." (MCCI)/Şelflayihətikinti | "Şelflayihətikinti"nin (SOCAR-ın strukturu) tikinti meydançasında "Şərqi Azəri" və "Qərbi Azəri" platformalarının üst modullarının tikintisi |
| 2. Azərbaycan-Türkiyə-Britaniya "Azfen"/"Tekfen"/"Amec" (ATA) alyansı | "Xəzərdənizqazmatikinti" (SOCAR-ın strukturu) ərazisində kompressor platforması üçün suvurma qurğusu da daxil olmaqla üst modulların tikintisi |
| 3. "Pharmadule Emtunga AB International" (İsveç) | "Şərqi Azəri" və "Qərbi Azəri" platformaları üçün yaşayış bloklarının İsveçdə layihələndirilməsi, alınması və hazırlanması |
| 4. Fransa-Azərbaycan birgə müəssisəsi "Bouygues Offshore Construction" Şelflayihətikinti | "Şelflayihətikinti" zavodunun (SOCAR-ın strukturu) meydançasında "Şərqi Azəri" və "Qərbi Azəri" platformaları üçün dayaq bloklarının hazırlanması |
| 5. "KCA Deutag" (Böyük Britaniya) | "Şərqi Azəri" və "Qərbi Azəri" platformaları üçün qazma modullarının layihələndirilməsi və onların alınması |
| 6. "McDermott Caspian Contractors, Inc."(ABŞ) | "Azəri" yatağından Səngəçal terminalına qədər 28 düymlük sualtı qaz kəmərinin çəkilməsi |
| 7. Azərbaycan-Almaniya birgə müəssisəsi "Azpetrol/Eupec Pipecoatings" | Bakı şəhərində 28 düymlük qaz kəmərinin betonla örtüklənməsi |
| 8. "Kvaerner Process Systems" (Kanada) | Səngəçal terminalında kondensat yaranmasını tənzimləmək üçün qurğu |

* **Mənbə:** "BP-Azərbaycan" şirkəti

5,2 milyard dollarlıq investisiya xərclərinin təqribən 3,8 milyard dolları qurğuların inşasına və 16 quyunun qazılmasına (öncə qazma), qalan hissəsi isə sonrakı istehsal dövründə istehsal quyularının qazılmasına sərf ediləcək.

Səngəçal terminalından əlavə, 30 düymlük neft boru kəmərinin inşası, Səngəçalda mövcud sahil terminalının genişləndirilməsi və “Faza-1” layihəsi çərçivəsində qurulmuş qaz kompressor platformasının suvurma avadanlığı ilə genişləndirilməsi də nəzərdə tutulur.

HPB müqavilə müddətində “Faza-2” layihəsi çərçivəsində gözlənilən hasilat ehtiyatları 210 milyon ton (1,6 milyard barel) neft təşkil edir.

“Faza-2” layihəsinin işlənilməsi üzrə 2002-ci il oktyabrın 8-də ABƏŞ əsas podrat müqavilələrin verildiyini elan edib.

## *“Şərqi Azəri” platforması*

“Şərqi Azəri” Xəzər dənizində, Bakıdan 100 kilometr aralı, suyun dərinliyinin təxminən 152 metr olduğu yerdə yerləşən dəniz HQY platformasıdır. 2006-cı ilin oktyabr ayından istismarda olan bu platforma AÇG yatağının şərq hissəsindən neft hasil etmək üçün tikilib.

“Şərqi Azəri” obyektlərinə daxildir:

- 48 quyu HQY platforması;
- “Şərqi Azəri”dən “Mərkəzi Azəri” platformasına çəkilmiş 22 düymlük qaz boru kəməri;
- 30 düymlük “Faza-2” boru kəməri (“Mərkəzi Azəri”dən Səngəçal terminalınadək).

“Şərqi Azəri” platformasında hasilat 2006-cı il oktyabrın 21-də başlayıb. Platformada illik olaraq ən çox neft hasilatı 2010-cu ildə qeydə alınıb (gündəlik orta hasilat 140,7 min barel və ya illik 7 milyon ton). 2022-ci ilin I yarısının yekunlarına görə, platformada gündəlik hasilat orta hesabla 62 min barel təşkil edib. Hasilat başlayandan 1 iyul 2022-ci il tarixinə qədər “Şərqi Azəri” platformasında 76,3 milyon ton neft hasil edilib.

## *“Qərbi Azəri” platforması*

“Qərbi Azəri” Xəzər dənizində, Bakıdan 100 kilometr aralı, suyun dərinliyinin 120 metr olduğu yerdə yerləşən dəniz HQY platformasıdır. 2005-ci ilin dekabr ayının sonundan istismarda olan bu platforma ACG yatağının qərb hissəsindən neft hasil etmək üçün inşa edilib.



“Şərqi Azəri” platforması

"Qərbi Azəri" obyektlərinə daxildir:

- 48 quyu gövdəsinə malik HQY platforması;
- "Qərbi Azəri"dən Səngəçal terminalınadək 30 düymlük neft boru kəməri.

"Qərbi Azəri" platformasında hasilat 2005-ci il dekabrın 30-da başlayıb. Platformada illik olaraq ən çox neft hasilatı 2010-cu ildə qeydə alınıb (gündəlik orta hasilat 248,2 min barel və ya illik 12,24 milyon ton). 2022-ci ilin I yarısının yekunlarına görə, platformada gündəlik hasilat orta hesabla 109 min barel təşkil edib. Hasilat başlayandan 1 iyul 2022-ci il tarixinə qədər "Qərbi Azəri" platformasında 128,5 milyon tondan çox neft hasil edilib.

"Qərbi Azəri" platforması



## "Faza-3" layihəsi

"Günəşli" yatağının dərinsulu hissəsindən neft və qaz hasilatını həyata keçirməyi planlaşdıran "Faza-3" layihəsinin sanksiyalaşdırılması "Əsrin müqaviləsi"nin yubileyinə - 10-cu ildönümünə təsadüf etdi. Yubiley tədbirində verilən məlumata görə, "Faza-3" layihəsi çərçivəsində təxminən 176 milyon ton və ya 1,25 milyard barel neftin çıxarılması planlaşdırılır.

Layihə çərçivəsində ümumi kapital qoyuluşu 4,7 milyard dollar təşkil edirdi ki, bunun da 3,2 milyard dolları tikinti-quraşdırma işlərinə yönəldiləcəkdi. Layihə üzrə işlərin 80 faizdən çoxunun Azərbaycanda, həm də yerli işçi qüvvəsindən və ölkənin mövcud infrastrukturundan istifadə olunmaqla yerinə yetirilməsi vurğulanmışdı.

"Faza-3" layihəsi dənizin 175 metr dərinliyində iki platformanın: hasilat və kompressor (laylarda təzyiqi saxlamaq üçün su və qazın vurulması) platformalarının tikintisini nəzərdə tuturdu. Onlar bir-biri ilə suüstü körpü ilə birləşdiriləcəkdi.

Bundan əlavə, layihə çərçivəsində bir sıra sualtı birləşdirici kəmərlərin tikintisi də nəzərdə tutulurdu. Platformada hasil edilən xammal onların köməyi ilə müqavilə sahəsindəki əsas nəqletmə boru kəmərlərinə (neft, qaz və su) birləşdirilərək Səngəçal terminalına çatdırılacaqdı.

Layihənin mühəndis-təfsilat işlərini həyata keçirmək üçün ABŞ-nin "Halliburton International" şirkəti ilə dəyəri 160 milyon dollar olan müqavilə imzalanmışdı. Bu işlərin qrafikə uyğun olaraq, iki il müddətində başa çatdırılması gözlənilirdi. Layihənin özəlliyi ondan ibarət idi ki, platforma müqavilə sahəsinin dərin hissəsində inşa ediləcəkdi. O daha mürəkkəb geoloji şəraitdə hasilatın həyata keçirilməsinə hesablanmışdı.

Platformaların tikintisi üzrə müqavilə Fransanın "BOS Shelf" şirkətinin və Heydər Əliyev adına Dərin Özüllər Zavodunun (SOCAR-ın strukturu) yaratdıqları birgə müəssisəyə ("BOS Shelf LLC") həvalə edilmişdi. Layihənin dəyəri 200 milyon dollar qiymətləndirilirdi.

ABŞ-nin "McDermott" şirkəti layihə üzrə iki xidmət müqaviləsi bağlamağa müvəffəq olmuşdu: bunlar 140 milyon və 90 milyon dollar dəyərində olan tikinti layihələrinin reallaşdırılması ilə bağlı idi. Müqaviləyə qazma, texnoloji təchizat və yaşayış platformasının

birləşmiş göyərtəsinin yığılması, quraşdırılması və istismara verilməsi daxil idi. Bu işlərin bir qismi Bakıda tikinti-quraşdırma sahəsində, digər qismi isə “McDermott”un Dubaydakı müəssisələrində iki il müddətində yerinə yetirildi.

Britaniya–Türkiyə–Azərbaycan alyansı olan “Amec”/“Tekfen”/“Azfen” “Faza-3” layihəsinin həyata keçirilməsində tikinti-quraşdırma işləri üçün 175 milyon dollarlıq podrat müqaviləsi imzalamışdı. Müqaviləyə emal, qaz kompressoru, suvurma və texnoloji təchizat platformasının yığılması, quraşdırılması və istismara verilməsi daxil idi.

Bundan başqa, “Faza-3” layihəsi çərçivəsində “BP-Azerbaijan” şirkəti ilə İtaliyanın “Saipem” şirkəti arasında 50 milyon dollarlıq, İsveçin “Pharmadule Emtunga AB” şirkəti ilə 22 milyon dollarlıq, Niderlandın “Mercon Steel Structures BV” şirkəti ilə 50 milyon dollarlıq, Britaniyanın “KCA Deutag” şirkəti ilə 10 milyon dollarlıq, Türkiyə-Azərbaycan “Tekfen/Azfen” alyansı ilə 80 milyon dollarlıq, ABŞ-nin “Vetco Grey Controls” şirkəti ilə 10 milyon dollarlıq və ABŞ-nin “Cooper Cameron” şirkəti ilə 15 milyon dollarlıq podrat müqavilələri imzalanmışdı.

Bu layihənin icrası zamanı AÇG layihəsini həyata keçirən konsorsium (ABƏŞ) 30 milyon adam/saatın tələb olunacağını proqnozlaşdırmış və Azərbaycanın yerli kadr potensialından maksimum istifadə edərək işçilərin ümumi heyətində onların xüsusi çəkisinin ən azı 80 faiz olmasını qarşıya məqsəd qoymuşdu.

## *“Dərinsulu Günəşli” platforması*

“Dərinsulu Günəşli” Xəzər dənizinin Azərbaycan sektorundakı AÇG yatağının işlənilməsinin üçüncü fazasıdır. “Dərinsulu Günəşli” kompleksi “Günəşli” yatağının şərqində, suyun dərinliyinin 175 metr olduğu ərazidə yerləşir. Platforma 2008-ci ilin aprel ayından istismardadır. Bu kompleks körpü ilə birləşdirilmiş iki platformadan ibarətdir:

- 48 quyu gövdəsinə malik qazma, texnoloji təchizat və yaşayış platforması (QTTYP);
- Texnoloji emal, qaz kompressor, suvurma və texnoloji təchizat platforması;


DWG-DUQ



"Dərinsulu Günəşli" platforması

- 48 quyu gövdəsinə malik QTTYP;
- "Dərinsulu Günəşli" platformasından Səngəçal terminalına aparan 30 düymlük neft kəməri;
- "Dərinsulu Günəşli" platformasından Səngəçal terminalına aparan 28 düymlük qaz kəməri.

"Dərinsulu Günəşli" platformasında hasilat 2008-ci il aprelin sonlarında başlayıb. Platformada illik olaraq ən çox neft hasilatı 2014-cü ildə qeydə alınıb (gündəlik orta hasilat 145,9 min barel və ya illik 7,2 milyon ton). 2022-ci ilin I yarısının yekunlarına görə, platformada gündəlik hasilat orta hesabla 78 min barel təşkil edib. Hasilat başlayandan 1 iyul 2022-ci il tarixinə qədər "Dərinsulu Günəşli" platformasında 80,4 milyon ton neft hasil edilib.

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Əsrin müqaviləsi"nin 10 illiyinə həsr edilmiş təntənəli mərasimdəki nitqi

– Hörmətli xanımlar və cənablar! Hörmətli qonaqlar! Əziz dostlar!

Bu gün çox əlamətdar bir gündür. Düz on il bundan əvvəl bu gözəl Gülüstan sarayında "Əsrin müqaviləsi" imzalanmışdır. Əminəm ki, bu mərasimdə iştirak edən insanların hamısı o günü çox yaxşı xatırlayır. Azərbaycanın tarixində çox əlamətdar bir hadisə olan "Əsrin müqaviləsi" Azərbaycanın gələcək inkişafının təməlini qoydu.

On il bundan əvvəl bu müqaviləni imzalayarkən, yəqin ki, siz müxtəlif hisslər keçirirdiniz. Fikirləşirdiniz ki, bu müqavilədən nə vaxt əməli-praktiki nəticələr olacaqdır. Müqavilənin icrası necə olacaq, qarşımızda hansı çətinliklər duracaq və s. Ancaq eyni zamanda hamımız istəyirdik ki, müqavilə Azərbaycana xoşbəxtlik gətirsin, əmin-amanlıq gətirsin, rifah gətirsin.

Azərbaycan Respublikasının Prezidenti, xalqımızın Ümummilli lideri Heydər Əliyevin də arzusu məhz bu idi. O, çox istəyirdi ki, Azərbaycanın dövlət müstəqilliyi daha da möhkəmlənsin.

Bilirsiniz ki, 1994-cü ildə müstəqilliyimiz üçün müəyyən təhlükələr var idi. Heydər Əliyev çox istəyirdi ki, Azərbaycan xalqı xoşbəxt yaşasın, sülh, əmin-amanlıq bərqərar olsun. Azərbaycan tərəqqi yoluna, inkişaf yoluna qədəm qoysun. Biz bu gün çox böyük məmnunluq hissi ilə deyə bilərik ki, qarşımızda duran bütün məsələlər öz həllini tapdı.

On il ərzində xalqımızın Ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan çox uğurlu yol keçmişdir. Ölkəmiz inkişaf etdi, Azərbaycan dünyada öz mövqelərini möhkəmləndirdi, dünya birliyinin çox dəyərli üzvünə çevrildi. Azərbaycan öz iqtisadi potensialını çox böyük həcmdə realizə etdi. Bu gün Azərbaycan müasir, dinamik inkişaf edən bir ölkədir. Regional məsələlərdə fəal iştirak edən bir ölkədir. Heç kəs üçün sirr deyil ki, regional əməkdaşlıq Azərbaycanın iştirakı olmadan həyata keçirilə bilməz. Azərbaycan bütün regional layihələrdə çox fəal və aparıcı rol oynayan bir ölkədir.

Mən bu gün çox xoşbəxtəm ki, Azərbaycanın qarşısında duran vəzifələr, xalqımızın Ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş məsələlər öz həllini tapır. Bu gün "Əsrin müqaviləsi"nin 10-cu ildönümünü qeyd edərək, fərəhlə deyə bilərik ki, ölkəmiz bu illər ərzində daha da gücləndi, daha da möhkəmləndi, xalqımız öz gələcəyini müstəqil, azad şəkildə müəyyən edir. Bu ən böyük xoşbəxtlikdir, ən böyük nailiyyətdir ki, Azərbaycan müstəqil dövlət kimi dünyada özünə layiq yerini tuta bildi.

Mən bu gün, eyni zamanda bu müqavilənin icrasında fəal rol oynamış bütün insanları xüsusilə qeyd etmək istəyirəm. Azərbaycan Dövlət Neft Şirkətini, bizim xarici tərəfdaşlarımızı, müqavilənin icrasında həlledici rol oynayan BP şirkətini, digər şirkətləri qeyd etmək istəyirəm.

Əminəm ki, bu şirkətlərin vahid siyasəti, vəhdəti uğurların qazanılmasında həlledici rol oynamışdır. Mən çox şadam ki, Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlərlə yerli şirkətlər: Dövlət Neft Şirkəti və Azərbaycanın digər şirkətləri arasında çox uğurlu işbirliyi, əməkdaşlıq var. Məhz bu əməkdaşlıq bizə imkan verir ki, bütün çətin vəziyyətlərdən şərəflə çıxaq, qarşımızda duran bütün maneələrə baxmayaraq, istədiyimizə, arzumuza nail ola bilək.

Mən onu da qeyd etmək istəyirəm ki, sentyabrın 20-si Azərbaycanda Neftçilər Günüdür. Bildiyiniz kimi, böyük bir qrup – həm xarici şirkətlərin işçiləri, eyni zamanda Dövlət Neft Şirkətinin işçiləri Azərbaycan dövlətinin yüksək orden və medalları ilə təltif olundu. Mən bu fürsətdən istifadə edib təltif olunanların hamısını ürəkdən təbrik edirəm.

Azərbaycan uğurla inkişaf edir. Əminəm ki, Azərbaycanın qarşısında duran bütün məsələlər öz həllini tapacaqdır. Əlbəttə, Azərbaycanın iqtisadi potensialının formalaşmasında müstəsna rol oynayan Azərbaycan Dövlət Neft Şirkəti və onun əməkdaşları bu gün xüsusilə qeyd olunmalıdırlar. Mən çox şadam, xoşbəxtəm ki, həyatımın böyük hissəsi – 9 ili Azərbaycan Dövlət Neft Şirkəti çərçivəsində keçmişdir. Bütün bu layihələrdə, bütün bu işlərdə hamımız birlikdə, vahid bir komanda kimi işləmişik, bir məqsədə qulluq etmişik: Azərbaycanı daha da gücləndirmək, Azərbaycanı daha da zənginləşdirmək, Azərbaycanın dövlət maraqlarını daha da yüksək səviyyədə müdafiə etmək. Mən çox şadam ki, bütün bu məqsədlər öz həllini tapıbdır və biz bu gün gözəl mərasim keçiririk.

Mən bu müqavilədə fəal iştirak etmiş, kömək etmiş, bizim uğurlarımıza sevinmiş bütün insanlara, dostlarımıza öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Bütün Azərbaycan xalqını bu gözəl bayram münasibətilə təbrik etmək istəyirəm.

Bu badələri Azərbaycanın xoşbəxt gələcəyi şərəfinə qaldırıram. Sağ olun!

## Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti Devid Vudvordun çıxışı

– Zati-aliləri cənab Prezident! Hörmətli qonaqlar, xanımlar və cənablar!

Belə bir xüsusi münasibətlə BP şirkəti, bizim Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətindəki tərəfdaşlarımız: Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, "Unocal", "İnpex", "Statoil",

"Exxon/Mobil", TPAO, "Devon", "İtochu" və "Amerada Hess" şirkətləri adından burada olmaq mənə böyük məmnunluq verir.

Bakıda Prezident Heydər Əliyev və BP qrupunun prezidenti Lord Con Braun tərəfindən digər on xarici neft şirkətinin nümayəndələri ilə birlikdə "Azəri", "Çıraq" yataqları və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsi üzrə hasilatın pay bölgüsü sazişinin – "Əsrin müqaviləsi"nin imzalandığı gündən on il keçir. Bu dövr ərzində Azərbaycanın, Azərbaycan xalqının və ABƏŞ tərəfdaşlarının mənfəəti üçün bu ölkənin neft və qaz ehtiyatlarının işlənilməsi üzrə öz uzunmüddətli məqsədlərimizə doğru əla irəliləyiş edilmişdir.

Keçib gəldiyimiz bu yolda çoxlu mühüm addımlar atılmışdır. Onların hamısının adını çəksək, siyahı çox böyük olar. Lakin icazə verin son on il ərzində nə qədər nailiyyət qazandığımızı yadımıza salmaq üçün onlardan yalnız bir neçəsini xatırladım.

1994-cü il sentyabrın 20-də müqavilə imzalanandan sonra 1995-ci ilin fevral ayında Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti təşkil olundu və həmin ilin oktyabr ayında "İlkin neft" layihəsinə sanksiya verildi. İki ildən bir qədər sonra, 1997-ci il noyabrın 7-də "Çıraq" yatağından ilkin neft hasil olundu. Qərb ixrac boru kəməri marşrutu istismara verildikdən sonra isə, 1999-cu ilin aprelində Supsa terminalından ilk tanker neftlə yüklənib yola salındı. Yataqların tammiqyaslı işlənilməsinin 1-ci fazasına – "Mərkəzi Azəri" layihəsinə 2001-ci ilin avqust ayında sanksiya verildi və gələn ilin əvvəlində hasilat başlayacaq. 2002-ci ilin sentyabr ayında 2-ci fazaya – "Qərbi Azəri" və "Şərqi Azəri" layihələrinə sanksiya verildi və burada 2006-2007-ci illərdə hasilata başlanılacaq.

Bu gün isə biz "Faza-3" layihəsinə – "Günəşli"nin dənizin dərin hissəsində yerləşən sahəsinin işlənilməsinə sanksiya verilməsini qeyd edirik. Bu layihə "Azəri-Çıraq-Günəşli" üçün yataqların tammiqyaslı işlənilməsi konsepsiyasında yekun mərhələni göstərir. "Faza-3" layihəsi bizim indiyədək bütün nail olduqlarımız və öyrəndiklərimiz üzərində qurulur və bu layihə "Faza-1" və "Faza-2"də yaradılmış standartlaşdırma və tikinti-istehsal

xəttindən faydalanır. "Faza-3" layihəsinin ümumi əsaslı xərcləri 4,7 milyard ABŞ dolları məbləğindədir və təxminən 1,2 milyard barel neft çıxarılması nəzərdə tutulur. Biz ilk neftin hasil olunmasını təxminən 2008-ci ilin ortalarında gözləyirik və bu, 2009-cu ilədək "Azəri-Çıraq-Günəşli" üzrə gündəlik ümumi hasilatı bir milyon bareldən yuxarı səviyyəyə çatdıracaqdır.

Əlavə məhsulun idarə edilməsi məqsədilə "Faza-3" layihəsinin bir hissəsi olaraq Səngəçal terminalındakı obyektlər genişləndiriləcək. Bura iki əlavə texnoloji emal sistemi, üçüncü xam neft çəni və ikinci qaz texnoloji emal qurğusu daxildir. Bunlar Səngəçal terminalını dünyadakı ən böyük terminallardan birinə çevirəcək. Artıq qalan səmt qazının hamısının ARDNŞ vasitəsilə Azərbaycan bazarına çatdırılması mümkün olacaq. Lakin, əlbəttə, əhəmiyyətli şəkildə genişləndirilmiş ixrac imkanları olmadan bu nailiyyətlərdən heç birinin real dəyəri ola bilməzdi.

Mən burada Bakı-Tbilisi-Ceyhan boru kəməri layihəsi üzrə yaxşı irəliləyiş barədə hesabat verə bilməyimdən də məmnunluq duyuram. Biz artıq Bakıdan Ceyhana qədər 1760 kilometr uzunluğunda bütün boru kəməri dəhlizini açmışıq və boruların 90 faizdən çoxunu qaynaqlamışıq. Bütövlükdə layihənin 85 faizi başa çatdırılıb və "Azəri" layihəsi hasilata başlayanda, ilk neftin qəbul edilməsi və gələn ilin ikinci yarısında Ceyhandan ilk tankerin yola salınması üçün Bakı-Tbilisi-Ceyhan boru kəməri hazır olacaq.

Beləliklə, həqiqətən, bu gün tarixi bir gündür. Yalnız Azərbaycan və onun xalqı üçün deyil, həmçinin Gürcüstan və Türkiyə, onların xalqları üçün də tarixi bir gündür. Bir həqiqəti deməliyik ki, çoxsaylı müxtəlif maraqlı tərəflərin həyati əhəmiyyətli köməyi və tərəfdaşlığı olmadan nə bu miqyasda layihələrlə bu gün gəlib yetişdiyimiz məqama çata bilərdik, nə də son on ildəki nailiyyətlər əldə olunardı. Biz aşağıda adları çəkilən tərəfdaşlarımıza çox minnətdarıq:

Birləşmiş Ştatların, Böyük Britaniyanın və ABƏŞ-in təmsil etdiyi digər tərəfdaş ölkələrin hökumətlərinə; beynəlxalq agentliklərə, podratçılara və tədarükçülərə; Azərbaycan

Respublikasının Dövlət Neft Şirkətinə və ABƏŞ-dəki tərəfdaşlarımıza; yerli ictimaiyyətə, Azərbaycan, Gürcüstan və Türkiyə xalqlarına. Lakin, hər şeydən əvvəl, davamlı uzaqgörənliklərinə və rəhbərliklərinə görə Prezident Heydər Əliyevin və indiki Prezident İlham Əliyevin xidmətlərini xüsusi qeyd etmək istərdim. Onların dəstəyi olmadan biz bu tədbirə toplaşa və son 10 ildə əldə edilmiş bu mühüm nailiyyətlər və irəliləyişlər barədə hesabat verə bilməzdik.

Cənab Prezident, Siz və mərhum atanız Gürcüstan və Türkiyə rəhbərliyi ilə birlikdə, düzgün siyasi və hüquqi mühit, dəqiq desək, regionda sülh və sabitlik, eləcə də bizim aramızdakı sazişləri müdafiə edən hüquqi təməl yaratmaqla bizi milyardlarla dollar dəyəri olan bu sərmayələrlə irəli getməyə ruhlandırmısınız.

BP və tərəfdaşları yalnız Sizin layihələrimizə göstərdiyiniz uzaqgörənliyi deyil, həm də Sizin nazirlərin və rəsmi dövlət nümayəndələrinin dəstəyini yüksək qiymətləndirirlər. Mən əminəm ki, biz irəli getdikcə, gələcəkdə qarşımıza çıxacaq vəzifələrin öhdəsindən gəlmək üçün Sizin dəstəyinizin davam edəcəyinə ümid bəsləyə bilərik. İcazə verin sözümü başladığım kimi, "Əsrin müqaviləsi"nin 10 illik yubileyi ilə yekunlaşdırım.

Zati-aliləri cənab Prezident! Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən əvvəllər də demişəm ki, bizim bir arzuya çatacağımıza inanıram. Elə bir arzuya ki, Azərbaycanda, Gürcüstanda və Türkiyədə dünya səviyyəli neft və qaz layihələri ilə gerçəkləşəcək və bununla həmin ölkələrə, onların vətəndaşlarına sanballı gəlirlər və mənfəətlər gətirəcəkdir.

Beləliklə, biz bu arzunun mühüm bir hissəsini artıq gerçəkliyə çevirmiş olan onillik yubiley münasibətilə buradayıq. Biz çox böyük uğurlar qazanmışıq, ancaq hələ çox böyük nailiyyətlər əldə etməliyik. Biz bunu əldə edəcəyik və birlikdə, əsl tərəfdaşlıq və əməkdaşlıq ruhu ilə buna nail olacağıq.

Cənab Prezident, nəhayət, şəxsən məni və BP-dəki həmkarlarımı bu münasibətlə təltif etdiyiniz mükafatlara görə Sizə səmimi minnətdarlığımı bildirirəm. Təşəkkür edirəm.

## Səngəçal terminalı

- Sahəsi – təxminən 550 hektar;
- Yerləşdiyi ərazi – Bakıdan 55 km cənubda, Qaradağ rayonu;
- Texnoloji emal gücü – gün ərzində 1,2 milyon barel neft və 49,3 milyon kubmetr qaz;
- Maksimum tutumu – təxminən 4 milyon barel;
- İşlək tutumu – təxminən 3,2 milyon barel.

Səngəçal terminalı



Səngəçal terminalı Azərbaycanın neft və qaz sənayesində həyati əhəmiyyətə malik obyektlərdən biridir. Terminal Xəzər hövzəsində BP tərəfindən işlədilən bütün mövcud dəniz yataqlarından hasil olunmuş xam nefti və qazı qəbul etmək, texnoloji emaldan keçirmək, saxlamaq, ixrac etmək üçün nəzərdə tutulub və genişləndirilmək imkanı var. Terminala neft və qazı texnoloji emal edən qurğular, Bakı-Tbilisi-Ceyhan boru kəmərinin birinci nasos stansiyası, Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) kompressor stansiyası və digər qurğular daxildir.

Dənizdəki qurğulardan terminala səkkiz müxtəlif boru kəməri daxil olur və terminaldan da səkkiz boru kəməri çıxır. Onlar müxtəlif marşrutlara istiqamətlənməklə yüksək keyfiyyətli Azərbaycan xam neftini və qazını dünya bazarlarına nəql edir. Bundan əlavə, terminal Qazaxıstan, Türkmənistan və Rusiyadan daxil olan üçüncü tərəfə aid nefti də qəbul edir.

Səngəçal terminalı təxminən 550 hektar ərazini əhatə edir, bu da onu dünyanın ən böyük neft və qaz terminallarından birinə çevirir. Terminal iki əsas hissədən ibarətdir: "İlkin neft layihəsi" (İNL) və "Səngəçal terminalının genişləndirilməsi proqramı" (STGP).

Terminalın İNL hissəsi Xəzərdəki "Çıraq" dəniz yatağından hasil edilən nefti texnoloji emaldan keçirmək, anbarlarda toplamaq və ixrac etmək üçün inşa olunub. İNL terminalında hər birinin tutumu 25 500 barel olan dörd ədəd xam neft saxlama çəni var. Terminal ildə 6 milyon tondan artıq xam nefti texnoloji emaldan keçirə, anbarlarda saxlaya və ixrac edə bilir.

STGP terminalın bir hissəsidir və o, "Azəri-Çıraq-Günəşli" yatağının "Azəri" və "Dərinsulu Günəşli" hissələrindən hasil olunan nefti və "Şahdəniz" yatağından hasil olunan qazı qəbul etmək, anbarlarda saxlamaq və texnoloji emaldan keçirmək üçün genişləndirilib. Terminalda hər birinin tutumu 880 000 barel olan üç xam neft çəni də daxil olmaqla bir sıra qurğular var.

Səngəçal terminalında, eləcə də BTC boru kəməri üçün çox mühüm iki qurğu var: əsas nasos stansiyası və dispetçer otağı. Dispetçer otağı bütün boru kəmərinə nəzarət edir, problemləri aşkara çıxara, hər üç ölkədə boru kəmərinin lazımi hissələrini təcrid edə bilir və ya fövqəladə halda qurğunun işini dayandırır.

Terminalın operatoru BP şirkətidir. Terminalın texniki emal sistemlərinin gündəlik gücü hazırda 1,2 milyon barel neft və "Şahdəniz" qazı üçün təqribən 55 milyon standart kubmetr qazdır. Ümumi qaz emalı və ixracı gücü isə (AÇG səmt qazı da daxil olmaqla) gündəlik təqribən 75 milyon standart kubmetrdir.

Qaz terminaldan, əsasən, CQBK və terminalın qaz emalı obyektlərini "Azəriqaz"ın qazpaylama sistemi ilə birləşdirən SOCAR-a məxsus qaz kəməri ilə ixrac olunur.

## "Qərbi Çıraq" layihəsi

### *"Qərbi Çıraq" platforması*

2010-cu il martın 9-da AÇG-nin işlənilməsi üzrə Rəhbər Komitə yeni "Çıraq" neft layihəsinə (ÇNL) sərmayə qoyulmasına qərar verdi. Dəyəri 6 milyard dollar olan bu layihənin məqsədi mövcud "Dərinsulu Günəşli" və "Çıraq" platformaları arasında yataq

"Qərbi Çıraq" platforması



infrastrukturunda hiss olunan boşluğu layihələşdirilmiş yeni bir dəniz qurğusu vasitəsilə doldurmağa nail olmaq idi.

"Qərbi Çıraq" platforması dənizin 170 metr dərinliyində, mövcud "Çıraq" və "Dərinsulu Günəşli" platformaları arasında quraşdırılıb. Yeni platformanın layihə gücü gündəlik 183 min barel neft təşkil edir. Platforma həmçinin gündəlik 285 milyon standart kubfut qaz ixrac etmək gücündədir.

"Qərbi Çıraq" platformasından hasilat 2014-cü il yanvarın 28-də öncəqazma quyularından biri olan J05 quyusundan başlayıb. Neft əvvəlcə platformada quraşdırılmış texnoloji qurğulardan keçərək, yeni yataqdaxili boru kəməri vasitəsilə mövcud 30 sualtı ixrac boru kəmərinə ötürüldü və bu kəmərlə də Səngəçal terminalına ixrac edildi. Digər öncəqazma quyuları işə düşdükcə hasilat da artmağa başladı.

"Qərbi Çıraq" platformasından hasilatın başlanması ilə 2010-cu ildə sanksiya verilmiş ÇNL başa çatmış oldu.

"Qərbi Çıraq" platformasında illik olaraq ən çox neft hasilatı 2016-cı ildə qeydə alınıb (gündəlik orta hasilat 120 min barel və ya illik 6 milyon ton). 2022-ci ilin I yarısının yekunlarına görə, platformada gündəlik hasilat orta hesabla 42 min barel təşkil edib. Hasilat başlayandan "Qərbi Çıraq" platformasında təqribən 28,8 milyon ton neft hasil olunub.

V FƏSİL

# AÇG–2

“Müqavilənin müddəti bitəndən sonra Azərbaycan istənilən başqa tərəfdaşla yeni müqavilə imzalaya bilərdi və bu imkanlar bizdə var idi. Ancaq BP ilə SOCAR arasında yaranmış qarşılıqlı etimad, işgüzar münasibətlər bugünkü seçimi şərtləndirdi. Mən buna çox şadam”.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
14 sentyabr 2017-ci il

“Bu gün imzalanan saziş rəsmi London və Bakı arasında enerji sahəsində əməkdaşlığın yeni mərhələsidir. Azərbaycan müstəqillik qazanandan sonra “Əsrin müqaviləsi”nin imzalanması ilə ilk dəfə Xəzərdə resurslarından istifadə etmək imkanı qazanıb. Azərbaycan öz neftini Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə dünyaya ixrac edib. Əminəm ki, bu saziş əməkdaşlığımızı daha da gücləndirəcək”.

**Tereza Mey**
Böyük Britaniya Baş nazirinin
mərasim iştirakçılarına ünvanladığı məktubdan
14 sentyabr 2017-ci il

## "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasilatın pay bölgüsü haqqında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

"Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və neft hasilatının pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "Amoko Kaspian Si Petroleum Limited", "Bi-Pi Eksploreyşn (Kaspian Si) Limited", "Delta Nimir Xəzər Limited", "Den norske stats olyeselskap a.s.", "LUKoyl" Səhmdar Cəmiyyəti, "MakDermott Azərbaycan İnk.", "Pennzoyl Kaspian Korporeyşn", "Remko Xəzər Enerci Limited", "Türkiye Petrolleri A.O.", "Yunokal Xəzər, Ltd." arasında Saziş" 1994-cü il sentyabrın 20-də bağlanmış (bundan sonra – 1994-cü il tarixli Saziş) və Azərbaycan Respublikasının 1994-cü il 2 dekabr tarixli 933 nömrəli Qanunu ilə qəbul və təsdiq edilmiş, onun həyata keçirilməsinə icazə verilmişdir.

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "Azərbaycan (EySiCi) Limited", "Bi-Pi Eksploreyşn (Kaspian Si) Limited", "Şevron Xəzər, Ltd.", "Ekson Azərbaycan Limited", "Hess (ACG) Limited", "İnpeks Sausvest Kaspian Si, Ltd.", "İtoçu Oyl Eksploreyşn (Azərbaycan) İnk.", "Statoyl Abşeron AS" və "Türkiye Petrolleri A.O." şirkətləri arasında 1994-cü il tarixli Sazişə əlavə və dəyişikliklər edilməsi haqqında Birinci Qoşma (bundan sonra – Birinci Qoşma) 2011-ci il iyunun 17-də bağlanmış və Azərbaycan Respublikasının 2011-ci il 24 iyun tarixli 182-IVQ nömrəli Qanunu ilə qəbul və təsdiq edilmiş, onun həyata keçirilməsinə icazə verilmişdir.

1994-cü il tarixli Saziş və Birinci Qoşmanın düzəliş edilməsi və yenidən tərtib edilməsi barədə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "Azərbaycan (ACG) Limited", "BP Eksploreyşn (Kaspian Si) Limited", "Şevron Xəzər, Ltd.", "Ekson Azərbaycan

Limited", "İnpeks Sausvest Kaspian Si, Ltd.", "İtoçu Oyl Eksploreyşn (Azərbaycan) İnk.", "ONGC Videş Limited", "Statoyl Abşeron AS", "Türkiye Petrolleri A.O." arasında aparılmış danışıqların yekunu olaraq 2017-ci il sentyabrın 14-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "Azərbaycan (ACG) Limited", "BP Eksploreyşn (Kaspian Si) Limited", "Şevron Xəzər, Ltd.", "Ekson Azərbaycan Limited", "İnpeks Sausvest Kaspian Si, Ltd.", "İtoçu Oyl Eksploreyşn (Azərbaycan) İnk.", "ONGC Videş Limited", "Statoyl Abşeron AS", "Türkiye Petrolleri A.O." arasında "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasilatın pay bölgüsü haqqında Saziş imzalanmışdır.

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq qərara alır:

1. "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "Azərbaycan (ACG) Limited", "BP Eksploreyşn (Kaspian Si) Limited", "Şevron Xəzər, Ltd.", "Ekson Azərbaycan Limited", "İnpeks Sausvest Kaspian Si, Ltd.", "İtoçu Oyl Eksploreyşn (Azərbaycan) İnk.", "ONGC Videş Limited", "Statoyl Abşeron AS", "Türkiye Petrolleri A.O." arasında 2017-ci il sentyabrın 14-də imzalanmış Saziş (bundan sonra – Saziş) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Sazişdə iştirak edən Podratçı tərəflərə verilən Azərbaycan Respublikası hökumətinin təminatı və öhdəlikləri (bundan sonra – Hökumət təminatı) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.
3. Sazişin əsas mətninə edilmiş on beş (15) Əlavə (bundan sonra – Əlavələr) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olur. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.
5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.
6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçı tərəflərin (və ya onların hüquq varislərinin) Saziş, Hökumət təminatı və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçı tərəflərin qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.
7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.
8. Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 31 oktyabr 2017-ci il

## Yeni müqaviləni zəruri edən şərtlər

"Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş sazişə ehtiyac var idimi? Onun 2017-ci ildə birinci müqavilənin başa çatmasına təqribən 7 il 3 ay qalmış yenidən imzalanması hansı zərurətdən doğurdu?

Qeyd etmək lazımdır ki, hələ 2016-cı il dekabrın 23-də SOCAR və ABƏŞ AÇG dəniz blokunun 2050-ci ilədək gələcək işlənilməsinə dair razılaşmanın prinsiplərini imzalamışdı. O zaman tərəflərin ictimaiyyət üçün açıqladığı press-relizdə bildirilirdi ki, birgə razılaşma bundan sonra AÇG-yə irihəcmli sərmayələrə yol açacaq.

SOCAR-ın prezidenti Rövnəq Abdullayevin press-relizdə verilmiş fikirləri maraqlıdır: "Biz xeyli müddətdir ki, AÇG-nin xarici tərəfdaşları ilə danışıqlar aparırıq. Yaxın vaxtlarda tam razılaşdırılmış sazişləri yekunlaşdıracağıq. AÇG dünyada "Əsrin müqaviləsi" kimi tanınır. Bu yataq Azərbaycan üçün çox vacib əhəmiyyət kəsb edir. Bu yataq bizim neft sənayemizin simvoludur. AÇG-nin işlənilməsi ölkəmizin inkişafı üçün tamamilə yeni bir dövrün başlanmasına səbəb olub. AÇG-nin xarici tərəfdaşları ilə bu gün imzaladığımız niyyət məktubu onu göstərir ki, biz bundan sonra da hələ uzun illər AÇG-nin uğurlarının şahidi olacağıq".

Press-relizdə daha sonra isə "Azəri-Çıraq-Günəşli" ilə bağlı bəzi məlumatlar yer alır:

- Hazırda AÇG-dən hasilat gündəlik təxminən 620 min barel neft ekvivalenti səviyyəsindədir;
- Gələcək illərdə çoxsaylı iş yerləri yaradacaq;
- AÇG tərəfdaşlığı üzrə işləri BP idarə edəcək.

Beləliklə, "Əsrin müqaviləsi"nin "Yenilənmiş Əsrin müqaviləsi" ilə əvəz edilməsini aşağıdakı şərtlər zəruri edirdi:

- *Fərqli ictimai-siyasi vəziyyət.* 90-cı illərin əvvəlində Azərbaycan öz tarixinin ən gərgin və qeyri-müəyyən dövrünü yaşayırdı. Müstəqilliyimizin ilk günlərindən Azərbaycan Ermənistanın təcavüzünə məruz qalmış, müqavilə imzalanan ərəfədə artıq torpaqlarının 20 faizi işğal olunmuş,

1 milyona qədər insan məcburi köçkün və qaçqın kimi yaşamağa məcbur olmuşdu. Qızğın müharibə şəraiti, siyasi böhran, daxili siyasi çaxnaşmalar 1995-ci ilin əvvəllərinə qədər Azərbaycan üçün xarakterik bir mənzərə idi. Yenilənmiş müqavilə hazırlananda isə Azərbaycan artıq 20 ildən çox idi ki, stabil ölkə imicində tanınırdı.

- *Fərqli iqtisadi vəziyyət.* SSRİ-nin süqutu nəticəsində keçmiş sovet respublikaları arasında uzun illər mövcud olmuş iqtisadi bağlantılar qırılmışdı (1992-1994-cü illərdə xarici ticarət dövriyyəsinin həcmi 42% azalmışdı[17]), istehsal ilbəil azalmışdı (1991-1994-cü illər ərzində ölkə iqtisadiyyatında ÜDM hər il orta hesabla 16,5% azalırdı[18]) və ölkədə siyasi stabilliyin olmaması yeni dövrün tələblərinə uyğun olaraq, bazar iqtisadiyyatını inkişaf etdirməyə mane olurdu, ölkədə hiperinflyasiya baş verirdi (1994-cü ildə Azərbaycanda inflyasiya 1763,5% təşkil edirdi[19]) nəticədə iqtisadiyyat ümumilikdə böhran vəziyyətinə düşmüşdü. Bütün bu faktorlar investisiya iqliminə mənfi təsir göstərərək, beynəlxalq investorlar üçün ciddi risklər yaradırdı. Yeni müqavilə imzalanan ərəfədə Azərbaycan artıq regionun lider dövlətinə çevrilmişdi. Nəinki ölkə daxilində və regionda, hətta ölkə hüdudlarından xeyli uzaqlarda da müxtəlif investisiya layihələrini uğurla həyata keçirən bir dövlət kimi tanınırdı.
- *Fərqli sosial vəziyyət.* XX əsrin 90-cı illərinin ortasına qədər Azərbaycandakı qeyri-stabil iqtisadi-siyasi vəziyyət əhalinin həyat səviyyəsinə təsirsiz ötüşməyə bilməzdi. 1991-1995-ci illərdə əhalinin pul gəlirləri real ifadədə 3,3 dəfə, adambaşına pul gəlirləri orta hesabla 3,6 dəfə aşağı düşmüşdü. 1991-ci ildən başlayaraq 4 il ərzində əhalinin əməkhaqqısı isə 5,7 dəfə azalmışdı.[20] Neft vəsaitlərinin bir hissəsini əhalinin sosial rifahının yüksəldilməsinə yönəldən Azərbaycan hökuməti 2013-cü ildə ölkədə yoxsulluq dərəcəsinin 5,3%-ə qədər endirilməsinə nail oldu.[21] 2015-ci ildə isə bu göstərici 5%-ə qədər azaldı.
- *Fərqli maliyyə durumu.* Azərbaycanın dövlət büdcəsinin gəlirləri dominasiya edilmiş manatla 1994-cü ildə 79 milyon

manat təşkil edirdi. Büdcə kəsirinin ümumi daxili məhsula nisbəti 1991-ci ildəki 0,1%-dən 1994-cü ildə 13%-ə qədər artmışdı. 1994-cü ildə Milli Bankın uçot dərəcəsi 250%-ə çatmışdı. Ölkənin valyuta ehtiyatı, demək olar ki, yox idi. 2017-ci ildə Azərbaycanın dövlət büdcəsinin gəlirləri 16,255 milyard manat, büdcə xərcləmələri isə 16,9 milyard manat olmuşdu. Ölkənin valyuta ehtiyatları 41 milyard dolları üstələmişdi[22] (*cədvəl 5*).

- *Fərqli texnoloji imkanlar.* Azərbaycan neft hasilatında "pioner ölkə" adını daşısa da, dənizdə sənaye üsulu ilə neft hasilatı onun adı ilə bağlı olsa da, xarici şirkətlərlə HPB tipində ilk neft müqaviləsinin imzalandığı dövrdə onun texnoloji imkanları məhdud idi. Azərbaycan Xəzərin yalnız dayaz hissəsində hasilatı həyata keçirir və neft sənayesinin mövcud maddi-texniki təchizatını normativ qaydalara uyğun təşkil edə bilmədiyindən ölkədə həm neft, həm də qaz hasilatı azalırdı.

**Cədvəl 2.** Azərbaycanda müstəqilliyin ilk dövründə neft və qaz hasilatı

| İllər | Neft hasilatı (min ton) | Qaz hasilatı (milyon kubmetr) |
|---|---|---|
| 1992 | 11 084 | 7 872 |
| 1993 | 10 295 | 6 805 |
| 1994 | 9 563 | 6 379 |
| 1995 | 9 151 | 6 644 |
| 1996 | 9 300 | 6 305 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

XXI əsrin ikinci onilliyinin ortasında isə Azərbaycan Dövlət Neft Şirkəti ölkə iqtisadiyyatının flaqman şirkəti kimi artıq bir çox uğurlara imza atmağa nail olmuşdu. O öz neft və qazını xarici bazarlarda istehlakçılara birbaşa satmaq imkanı qazanmış,

Türkiyə kimi inkişaf etməkdə olan ölkənin iqtisadiyyatına ən böyük yatırım edən şirkətə çevrilmişdir. Bu gün SOCAR TANAP kimi nəhəng layihələri operator qismində idarə etməyə, dənizdə müasir özülləri öz imkanları ilə tikib quraşdırmağa və istismar etməyə qadirdir. Xarici şirkətlərlə əməkdaşlığı nəticəsində qazandığı təcrübə SOCAR-a "Ümid" kimi mürəkkəb geoloji quruluşlu yatağı açmaq və burada 6000 metrdən çox dərinliyi olan quyular qazaraq onları istismar etmək imkanı verdi. Bundan başqa, şirkət Gürcüstanın əsas qaz tədarükçüsünə və paylayıcı şirkətinə çevrilib, yanacaq bazarında aktiv oyunçulardan biridir. Məhz Gürcüstandakı əhatəli fəaliyyəti nəticəsində SOCAR qonşu ölkənin dövlət büdcəsinə ən çox vergi ödəyən şirkət kimi adını tarixə yazdırıb. Nəticədə 23 il əvvəlki durumla 2017-ci ildəki vəziyyətin diametral şəkildə fərqləndiyini müşahidə edirik. Artıq xarici neft şirkətləri uzun müddət tanıdıqları, stabil siyasi-iqtisadi duruma malik ölkədə fəaliyyət göstərdiklərinin fərqində idi. Şirkətlər bu dövrdə Azərbaycan hökumətinin HPB sazişi üzrə imzaladığı hər bir müqavilənin şərtlərinə sadiq qaldığını, digər neft ölkələrindən fərqli olaraq, onun heç bir bəndinin dəyişdirilməsinə cəhd etmədiyini müşahidə edirdi. Bu onlarda investisiya mühitinin əlverişli olduğu bir ölkə ilə əməkdaşlığı davam etdirmək və yeni yatırımlar üçün inam hissi yaradırdı. Bundan əlavə, əgər ilk müqavilə imzalanan zaman xarici neft şirkətlərinin böyük yatırım etməsini əngəlləyən bir sıra obyektiv səbəblər (Xəzər regionu kimi qapalı su hövzəsindən dünya bazarlarına xammalın çıxarılmasının mürəkkəbliyi) var idisə, indiki dövrdə neftin həm Qara dənizə, həm də Aralıq dənizinə boru kəmərləri ilə daşınmasını təmin edən, illik buraxıcılıq gücü 70 milyon tondan artıq olan müasir infrastruktur (Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa və Bakı-Novorossiysk boru kəmərləri) var.

Bu baxımdan xarici neft şirkətləri yenilənmiş müqaviləyə gedərkən mövcud reallıqları və münbit investisiya şəraitini nəzərə aldı və SOCAR-ın payını 25 faizədək artırmağa, bonus ödənişlərini əvvəlki müqavilə ilə müqayisədə 100 milyon dollar artıraraq 400 milyon dollara çatdırmağa və Azərbaycan üçün bir sıra güzəştlərə gedilməsinə razı oldular.

Deməli, birinci müqavilənin başa çatmasını gözləmədən onun müddətini uzatmağın və müqavilə şərtlərini yeniləməyin əsas məqsədi:

- müqavilənin bütün tərəfdaşlarında yeni uzunmüddətli investisiyalara maraq yaratmaqdan;
- yataqların davamlı istismarını təşkil etməkdən;
- həm Azərbaycanın, həm də onun tərəfdaşı olan şirkətlərin gələcəkdə yeni müqavilə üzrə gəlir əldə etmək imkanlarını reallaşdırmaqdan ibarət idi.

## Yeni müqavilənin şərtləri

AÇG üzrə yenilənmiş müqavilə iki dildə: Azərbaycan və ingilis dillərində tərtib edilib, 301 səhifədən, 31 maddədən və müqavilə mətninə əlavə edilmiş 15 əlavədən ibarətdir.

| | |
|---|---|
| **İmzalanma tarixi** | 14 sentyabr 2017-ci il |
| **Milli Məclisdə təsdiqi** | 31 oktyabr 2017-ci il |
| **Qüvvəyə minmə tarixi**[23] | 1 yanvar 2017-ci il (müqavilə üzrə tərəflərin razılaşmasına görə) |
| **Müqavilə müddəti**[24] | 31 dekabr 2049-cu il |
| **İlkin neftin ACE layihəsindən alınması**[25] | 2023-cü il |
| **Bonus**[26] | 3,6 milyard $ (hər il 450 milyon $ olmaqla 8 il; 2024-cü ildə son tranş ödənilir) |
| **Mənfəət neftinin bölüşdürülməsi:**[27] | 75% - Azərbaycan dövlətinin payı, 25% - şirkətlər |
| **Mənfəət vergisi** | 25% |
| **Müqavilə müddəti ərzində işçi heyətin Azərbaycan vətəndaşlarından komplektləşdirilməsi:**[28] | Mühəndis-texniki işçilər - 90%<br>Fəhlə heyəti - 95% |

## Müqavilədə pay bölgüsü[29]

Müqavilənin 1-ci maddəsinin 1-ci bölümündə bildirilir ki, hər bir podratçı tərəfin bu Saziş çərçivəsindəki hüquqları və öhdəlikləri 1 yanvar 2017-ci il tarixi üçün iştirak paylarının aşağıda göstərilmiş müvafiq faizlərində ("İştirak payı") təsbit edilir:

| Podratçı tərəflər | Pay faizləri |
|---|---|
| "AzAÇG" | 25,000 000 |
| BP | 30,37 4551 |
| "Chevron" | 9,569 102 |
| "İnpex" | 9,307 229 |
| "Statoil" | 7,269 034 |
| "Exxon" | 6,791 381 |
| TPAO | 5,729 798 |
| "İtochu" | 3,648 905 |
| "ONGC Videsh" | 2,310 000 |
| **CƏMİ** | **100,000 000** |

*Arbitraj* – Bu Saziş Azərbaycan Respublikasının və İngiltərənin qanunları üçün ümumi olan hüquq prinsiplərinə müvafiq surətdə, hər hansı məsələyə dair ümumi prinsiplər olmadığı halda isə Kanadanın Alberta əyalətinin ümumi hüquq prinsiplərinə müvafiq surətdə tənzimlənir və təfsir edilir (hüquq normalarının kolliziyalarına aid qanunlar istisna olmaqla).[30]

## Yeni müqavilənin imzalanma mərasimi

2017-ci il sentyabrın 14-də Bakıda, Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişin imzalanması mərasimi keçirildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak edirdilər. Dövlət başçısı mərasimdə nitq söylədi.




## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi

– Hörmətli xanımlar və cənablar! Hörmətli qonaqlar!

Bu gün ölkəmizin həyatında çox əlamətdar və tarixi bir gündür. "Azəri-Çıraq-Günəşli" nəhəng neft yatağının işlənilməsində yeni dövr başlayır. Bu tarixi mərasimdə bizimlə bərabər iştirak etmək üçün xaricdən gələn bütün qonaqları səmimiyyətlə salamlayıram. Onların bu tədbirdə iştirakı bir daha bugünkü tədbirin önəmini əks etdirir.

Bu gün imzalanacaq kontraktın ölkəmiz üçün çox böyük əhəmiyyəti var. "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənilməsi 2050-ci ilə qədər uzadılır. Yeni imzalanacaq kontrakt Azərbaycan üçün daha da əlverişlidir, baxmayaraq ki, 1994-cü ildə imzalanmış kontrakt da bizim maraqlarımızı tam təmin edirdi. Bu dəfə isə daha da yaxşı şərtlərlə kontrakt imzalanır.

Bunun bir neçə əsas parametrlərini diqqətinizə çatdırmaq istəyirəm:

- kontrakt imzalanandan sonra ölkəmizə xarici investorlar tərəfindən 3,6 milyard dollar həcmində bonus ödəniləcək;

- SOCAR-ın "AzAÇG" şirkəti podratçı kimi kontraktın icrasında iştirak edəcək;
- SOCAR-ın payı 11,6 faizdən 25 faizə qaldırılır;
- Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi 75 faiz təşkil edəcək.

Bunlar əsas şərtlərdir. Əlbəttə ki, kontraktın bir çox müddəaları var. Əsas şərtlər artıq göstərir ki, Azərbaycanın gələcək inkişafı, maliyyə imkanlarımızın genişləndirilməsi üçün bu kontraktın çox böyük əhəmiyyəti var. Eyni zamanda onu qeyd etməliyəm ki, 23 il ərzində kontraktın icrası da çox uğurlu idi. Bu illər ərzində "Azəri-Çıraq-Günəşli"dən 436 milyon ton neft hasil edilmişdir. Yaxşı xatırlayıram ki, 1994-cü ildə kontrakt imzalananda təxmin edilən neft ehtiyatları 511 milyon ton müəyyən olunmuşdu. Ancaq bugünkü məlumat, – əminəm ki, bu, son məlumat deyil, ehtiyatlar daha da artacaq, – onu göstərir ki, hələ də "Azəri-Çıraq-Günəşli"də hasil edilməmiş təxminən 500 milyon ton neft ehtiyatı vardır. Yenə də qeyd etmək istəyirəm ki, bu, ilkin hesablamalardır. Əminəm ki, kontraktın icrası müddətində bu rəqəm daha da artacaq.

23 il bundan əvvəl ölkəmizin tarixində çox əlamətdar hadisə baş vermişdir. Bakının Gülüstan sarayında Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə "Əsrin kontraktı"nın imzalanması mərasimi keçirilmişdir və bununla da ölkəmizin uğurlu inkişafına təkan verildi. O günü mən çox yaxşı xatırlayıram, o gün mənim gözümün qabağındadır. Doğrudan da, Azərbaycan öz tarixində ən önəmli addımlarından birini atırdı. "Əsrin müqaviləsi"nin imzalanması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Çünki Azərbaycan 1991-ci ildə müstəqilliyə qovuşanda çox ağır problemlərlə üzləşmişdi.

Xüsusilə 1992-ci ildə dövlət çevrilişindən sonra hakimiyyəti qanunsuz zəbt etmiş AXC-Müsavat cütlüyünün yarıtmaz fəaliyyəti nəticəsində ölkəmiz uçurum kənarına qoyulmuşdu. İqtisadi tənəzzül, sənaye potensialının azalması, inflyasiya min faizlərlə ölçülürdü. Ölkəmizdə iqtisadi perspektivlər, demək olar ki, yox idi. Siyasi, hərbi, iqtisadi böhran, anarxiya,

xaos yaşanırdı. Laxlayan hakimiyyəti saxlamaq üçün ovaxtkı hakimiyyəti qanunsuz zəbt etmiş hakimiyyət silaha əl atdı, Azərbaycanda vətəndaş müharibəsinə start verdi, qardaş qanı axıdıldı. Ölkəmizin ikinci böyük şəhəri – Gəncə AXC-Müsavat hakimiyyəti tərəfindən bombalandı. Azərbaycan böyük faciə ilə üz-üzə idi.

Bununla paralel olaraq Ermənistan ölkəmizə qarşı işğalçılıq siyasəti aparırdı və bu siyasət nəticəsində torpaqlarımızın böyük hissəsi işğal altına düşmüşdür, bir milyondan çox qaçqın-köçkünümüz var idi. Bax belə bir ağır vəziyyətdə xalq yeganə düzgün seçim etdi, Heydər Əliyevə müraciət etdi, onu hakimiyyətə dəvət etdi və onun 1993-cü ildə prezident vəzifəsinə seçilməsindən sonra vəziyyət yavaş-yavaş düzəlməyə başladı. İqtisadi, siyasi islahatlar aparılmağa başlanılmışdır, bütün qanunsuz silahlı birləşmələr tərk-silah edilmişdir, ölkəmiz demokratiya yoluna qədəm qoymuşdur, Azərbaycan beynəlxalq təcriddən çıxa bilmişdir.

Əlbəttə ki, ölkəmizin inkişafı üçün xarici sərmayə lazım idi. Çünki o vaxt xəzinə boş idi, inkişaf üçün də heç bir imkan yox idi. Belə bir vəziyyətdə xarici böyük neft şirkətlərini inandırmaq, onları Azərbaycana cəlb etmək, əlbəttə ki, böyük müdriklik, bacarıq, səriştə və siyasi təcrübə tələb edirdi. Heydər Əliyev bu tarixi missiyanı uğurla icra etdi. Azərbaycan o vaxt çox riskli bir yer sayılırdı və belə bir vəziyyətdə 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması, ölkəmizə böyük sərmayə qoyuluşunun cəlb edilməsi, doğrudan da, tarixi nailiyyətdir.

O gündən 23 il keçir. Bu illər ərzində Azərbaycan sürətlə inkişaf etmişdir. Bu gün ölkəmiz dünyada ayaqda möhkəm dayanan ölkə kimi tanınır. Bu gün bizim beynəlxalq əlaqələrimiz çox genişdir. Azərbaycan beynəlxalq aləmdə çox yüksək və müsbət reputasiyaya layiq olan ölkədir. Təsadüfi deyil ki, bir neçə il bundan əvvəl 155 ölkə Azərbaycanı BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçmişdir və bu da beynəlxalq aləmin bizə olan rəğbətinin, hörmətinin, dəstəyinin əlaməti idi. Azərbaycan bu gün o ölkələrdəndir ki, öz hesabına yaşayır. Bizim kifayət qədər böyük valyuta ehtiyatlarımız var, iqtisadiyyat dinamik

şəkildə inkişaf edir, iqtisadi şaxələndirmə, neft-qaz amilindən asılılığın azaldılması istiqamətində çox önəmli addımlar atılmışdır və ölkəmizin gələcək inkişafı üçün nə siyasi, nə iqtisadi, nə hər hansı bir başqa maneə və ya problem yoxdur. Azərbaycan bundan sonra ancaq uğurla inkişaf edəcək, ölkəmizin böyük potensialı var.

Son illər ərzində biz bu potensialı gücləndirmişik və bu potensialın inkişafında "Əsrin müqaviləsi"nin xüsusi rolu vardır. **İndi təsəvvür etmək çətindir ki, əgər 1994-cü ildə "Əsrin müqaviləsi" imzalanmasaydı, biz hansı vəziyyətlə üzləşə bilərdik.**

Biz bu gün müstəqil siyasət aparan ölkələrdənik. Bunun təməlində bizim güclü siyasi iradəmiz və iqtisadi müstəqilliyimiz dayanır. Biz heç kimdən asılı deyilik, öz taleyimiz öz əlimizdədir və müstəqil siyasət aparmaq imkanlarımız ilk növbədə iqtisadi imkanlarımızdan qaynaqlanır. **Bu imkanları da bizə "Əsrin müqaviləsi" yaratdı.**

O vaxtdan bu günə qədər Heydər Əliyev neft strategiyası uğurla icra edilir, zənginləşir. Yeni önəmli sərmayələr cəlb edilir, addımlar atılır.

**Əgər biz 1994-cü ildən neft-qaz sahəsində xronologiyaya baxsaq, görərik ki, bu ancaq uğurlar xronologiyasıdır.**

1994-cü ildə "Azəri-Çıraq-Günəşli" neft yatağı üzrə müqavilə imzalanmışdır. 1996-cı ildə dünyanın ən böyük qaz yataqlarından biri olan "Şahdəniz" yatağı üzrə müqavilə imzalanmışdır. 1997-ci ildə "Çıraq" platformasından ilk neft çıxarılmışdır. Bu da dünyanın neft tarixində nadir hadisələrdəndir. 1994-cü ildə müqavilə imzalanır, üç ildən sonra artıq ilk neft çıxarılır. 1998-ci ildə həmin bu neft fəaliyyəti bərpa edilmiş Bakı-Novorossiysk kəməri ilə Qara dənizə ixrac edilməyə başlamışdır. 1999-cu ildə Qara dənizin digər limanına – Supsaya Bakıdan neft kəməri çəkilib istifadəyə verilmişdir və artıq Azərbaycan nefti iki istiqamət üzrə dünya bazarlarına çıxarılmağa başlanmışdır.

2002-ci ildə Heydər Əliyevin şəxsən iştirakı ilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməli qoyulmuşdur. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəməri Türkiyənin Ceyhan limanında istifadəyə verilmişdir.

2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verilmişdir və "Şahdəniz" qazının ilk hissəsi Türkiyəyə ixrac edilməyə başlamışdır.

2012-ci ildə İstanbulda Azərbaycanla Türkiyə arasında TANAP layihəsinə imza atıldı və bu gün bu layihə uğurla icra edilir. Bunun tamamlanmasına az bir vaxt qalıb. 2013-cü ildə TAP layihəsi qaz kəməri kimi seçilmişdir və o istiqamətdə də işlər gedir. Yəni əsas xronoloji mənzərə bundan ibarətdir.

Bunlardan əlavə, dünyanın ən böyük Səngəçal neft-qaz terminalı tikilmişdir. Bakıda gəmiqayırma zavodu tikilmişdir, hansı ki indi Azərbaycanda istənilən növ gəminin istehsalı mümkündür. Dünyanın ən böyük qazma qurğularından biri – Heydər Əliyevin adını daşıyan qazma qurğusu istifadəyə verilmişdir. Azərbaycanda platformalar tikilir. Azərbaycan mütəxəssisləri xarici neft-qaz layihələrinin icrasında əksəriyyət təşkil edirlər. **Yəni budur "Əsrin müqaviləsi"nin Azərbaycana verdiyi faydalar.**

Bizim çox böyük maliyyə resurslarımız var. Artıq 1999-cu ildən fəaliyyətə başlamış Azərbaycan Dövlət Neft Fondu bizim üçün çox önəmli bir amildir. Biz valyuta ehtiyatlarımızı artırırıq, hətta neftin qiymətinin aşağı düşməsi ilə əlaqədar yaranmış bəzi çətinliklər də bizi bu yoldan döndərə bilmədi. Biz hətta bu illərdə də öz valyuta ehtiyatlarımızı artırmışıq, artıracağıq. Əlbəttə ki, "Əsrin müqaviləsi"nin uzadılması və "Şahdəniz" layihəsinin, "Cənub Qaz Dəhlizi"nin icrası nəticəsində bizim maddi imkanlarımız daha da genişlənəcək.

Mən bu gün bu mərasimdə Azərbaycan neftçilərinin fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. Azərbaycan o ölkədir ki, burada 1846-cı ildə dünya miqyasında sənaye üsulu ilə ilk neft hasil edilmişdir. Birinci neft buruğu artıq bir tarixi abidə kimi qorunur və şəhərimizin mərkəzində yerləşir.

Azərbaycanda ilk dəfə dünya miqyasında dənizdən də neft çıxarılmışdır – XX əsrin ortalarında Neft Daşlarından. Yəni bizim çox böyük və zəngin ənənələrimiz var. Azərbaycan neftçiləri bütün dövrlərdə öz fədakarlığı, peşəkarlığı ilə cəmiyyətdə çox böyük hörmət qazanmışlar. Azərbaycanda neftçi peşəsi çox hörmətli peşədir. Bütün bu uğurlarımızın əldə edilməsində

Azərbaycan neftçilərinin çox böyük xidməti, zəhməti, böyük payı var. Ona görə mən Dövlət Neft Şirkətində doqquz il çalışmış bir insan kimi özümü də müəyyən dərəcədə neftçi hesab edirəm. Bugünkü mərasimdə xüsusilə nəzərə alsaq ki, neftçilərin peşə bayramı yaxınlaşır, Azərbaycan neftçilərinə öz səmimi təbriklərimi, minnətdarlığımı bildirirəm.

Bu gün mən xüsusilə bizim əsas tərəfdaşımızın – BP şirkətinin fəaliyyətini qeyd etmək istəyirəm. Bizimlə BP arasında əməkdaşlığımızın da 23 illik tarixi var. Yəni BP bizim bütün əsas layihələrimizdə əsas tərəfdaş və investor kimi fəaliyyət göstərir. Həm "Azəri-Çıraq-Günəşli"də, Bakı-Tbilisi-Ceyhan layihəsində, "Şahdəniz" layihəsində, "Cənub Qaz Dəhlizi" layihəsində. Yəni bu strateji tərəfdaşlıq artıq böyük sınaqlardan çıxıb. Bizim aramızda – SOCAR ilə BP arasında yaranmış çox gözəl işgüzar münasibətlər, qarşılıqlı etimad o cümlədən bugünkü mərasimi mümkün etmişdir. Çünki sirr deyil ki, – mən də bunu qeyd etdim, – "Azəri-Çıraq-Günəşli" yatağının çox böyük potensialı var. Bir daha qeyd etmək istəyirəm, bugünkü hesablamalara görə, 1 milyard ton neft ehtiyatı var. **Bu gün imzalanan saziş 1994-cü ildə imzalanan sazişdən daha da böyükmiqyaslıdır.**

"Əsrin müqaviləsi"nin ömrü artıq sona çatır. Əlbəttə ki, müqavilənin müddəti bitəndən sonra Azərbaycan istənilən başqa tərəfdaşla yeni müqavilə imzalaya bilərdi və bu imkanlar bizdə var idi. Ancaq BP ilə SOCAR arasında yaranmış qarşılıqlı etimad, işgüzar münasibətlər bugünkü seçimi şərtləndirdi. Mən buna çox şadam. Əminəm ki, bundan sonra da BP ilə SOCAR uzun illər ərzində Azərbaycanın neft-qaz yataqlarının işlənilməsinin uğurunu təmin edəcək.

Eyni zamanda mən "Azəri-Çıraq-Günəşli"nin bütün tərəfdaşlarını da xüsusi qeyd etmək istərdim. Onlara da öz minnətdarlığımı bildirmək istəyirəm. Onlar Azərbaycana böyük sərmayə qoyublar. Bugünkü qərarın qəbul edilməsində hər bir tərəfdaş şirkətin öz payı var. Onların qərarı olmasaydı, bugünkü mərasim də olmayacaqdı.

Bir sözlə, Azərbaycan aparıcı xarici neft, enerji şirkətləri ilə çox uğurlu, qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq formatı

yaratmışdır. Bu bizə böyük faydalar gətirib. Əlbəttə ki, xarici tərəfdaşlar da bu layihənin icrası nəticəsində böyük mənfəət əldə ediblər. Bu o hadisələrdəndir ki, burada hər iki tərəf qalib gəlir.

"Əsrin kontraktı" bizə imkan verdi ki, neftdən gələn gəlirləri qeyri-neft sektoruna yönəldək. Hesab edirəm ki, bu sahədə də bir çox neft hasil edən ölkələrdən fərqli olaraq, Azərbaycan nefti insan kapitalına çevirə bildi. Çünki neft həm xeyir, həm də başağrısı, problem gətirə bilər.

Biz bilirik ki, dünyada neft üstündə əvvəlki dövrlərdə də, hazırda da mübarizələr, münaqişələr gedir, qan axıdılır. Neft hasilatı hələ o demək deyil ki, ölkələr çiçəklənəcək, orada inkişaf olacaq. Neftlə zəngin olan bir çox ölkələrdə bu gün müşahidə edilən mənzərə bunun əksini deyir. Ona görə bizim əsas vəzifəmiz ondan ibarət idi ki, neft gəlirlərini insan kapitalına çevirək və hər bir Azərbaycan vətəndaşı bu müsbət dəyişikliyi görsün.

Bu gün bizim abadlaşan bölgələrimiz, inkişaf edən ölkə, Bakı şəhəri – dünyanın ən gözəl şəhərlərindən biridir, – tikdiyimiz 3 mindən artıq məktəb, 600-dən çox xəstəxana, bölgələrdə tikdiyimiz 50-dən çox Olimpiya mərkəzi, inşa etdiyimiz 11 min kilometrdən çox yollar, enerji infrastrukturumuz, iqtisadi inkişafımız, iqtisadiyyatın şaxələndirilməsi – bütün bunların təməlində neftdən əldə edilən gəlirlərdən səmərəli istifadəetmə imkanlarımız dayanır.

Biz bu illərdə Dövlət Neft Fondundan məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün böyük vəsait ayırdıq və 250 min köçkünü 100-ə yaxın yeni salınan qəsəbədə gözəl evlərlə, mənzillərlə təmin etdik. Bu proses davam edir. Eyni zamanda biz neftdən əldə edilən gəlirləri Dövlət Neft Fondunda çox şəffaf şəkildə qoruyuruq. Dövlət Neft Fondunun fəaliyyəti çox şəffafdır. Onun fəaliyyəti, gəlirləri, xərcləri haqqında məlumat müntəzəm olaraq ictimaiyyətə çatdırılır. Dövlət Neft Fondunun xərcləri ancaq parlamentin təsdiqi ilə mümkündür. Büdcəmiz təsdiq ediləndə o vaxt hökumətin təklifi ilə Milli Məclis transfertin həcmini müəyyən edir. Yəni maksimum şəffaflıq bizə imkan verdi ki, bu imkanlardan səmərəli istifadə edək. Bu gün Azərbaycan o ölkələrdəndir ki, şəffaflığa görə çox yüksək beynəlxalq qiymətə layiqdir.

Mən çıxışımın əvvəlində qeyd etdim ki, "Əsrin müqaviləsi" Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərindən biridir. Bu gün bütün Azərbaycan xalqı bu kontraktın gözəl nəticələrini öz həyatında görür. Hesab edirəm ki, bugünkü mərasimin Ulu Öndərin adını daşıyan Heydər Əliyev Mərkəzində keçirilməsi də rəmzi xarakter daşıyır.

1994-cü il sentyabrın 20-də Gülüstan sarayında o tarixi gündə Ulu Öndər Heydər Əliyev öz çıxışında müqavilənin əhəmiyyətini qeyd etmişdir. Qeyd etmişdir ki, bu müqavilənin Azərbaycana çox böyük xeyri, faydası olacaq. 23 ildən sonra biz bunun əyani sübutunu görürük. 23 ildən sonra Ulu Öndərin adını daşıyan bu möhtəşəm, dünya miqyasında ən gözəl memarlıq abidələrindən biri olan Heydər Əliyev Mərkəzində imzalanma mərasimi keçirilir. Yenə də "Azəri-Çıraq-Günəşli" yatağı üzrə. Bu eyni zamanda onu göstərir ki, bu gün Azərbaycanda Heydər Əliyev siyasəti yaşayır və yaşayacaq. Sağ olun.

## Türkiyənin enerji və təbii sərvətlər naziri Berat Albayrak Prezident Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubunu oxudu və çıxış edərək dedi:

– Cənab Prezident və hörmətli qonaqlar.

Bu gün burada, həqiqətən, təkcə Azərbaycan üçün yox, bölgə və dünya enerji bazarı baxımından çox tarixi bir müqavilə olan, ötən əsrin müqaviləsi olaraq adlandırılsa da, XXI əsrin də müqaviləsi olacaq yenilənmə sazişi ilə əlaqədar bu tədbirdə iştirak etməkdən məmnunluğumu bildirirəm.

1994-cü ildə imzalanan hasilatın pay bölgüsü müqaviləsinə əsasən, "Azəri-Çıraq-Günəşli" yataqlarında hasilata başlanan bu proses həmin tarixdən etibarən Azərbaycanın zəngin təbii sərvətlərinin rəmzinə çevrilməklə yanaşı, 2006-cı ildən bəri buradan hasil olunan neftin Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə dünyanın enerji bazarlarına çıxarılması enerji təhlükəsizliyinə töhfə verən bir layihədir.

Bu gün bu sahədəki işlərin davam etdirilməsi üçün bu müqavilənin 2050-ci ilə qədər uzadılması və bundan sonrakı mərhələdə Azərbaycanın neftlə bərabər, təbii qaynaqlarının işlənilməsinin davam etməsi üçün çox böyük əhəmiyyət daşıyır. Bu münasibətlə başda Azərbaycan dövləti və SOCAR şirkəti olmaqla bu layihənin bütün beynəlxalq hissədarlarına öz təbriklərimi çatdırıram.

1994-cü ildə "Əsrin kontraktı"nın imzalanması, 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan boru kəmərinin işə düşməsi ilə bu proses çox mühüm mərhələyə qədəm qoydu. Təqribən 11 ildə 2,6 milyard barel xam neft BTC vasitəsilə təhlükəsiz və davamlı şəkildə dünya bazarına çatdırılıb. Neftlə yanaşı, Azərbaycan qaz tədarükündə də həm Türkiyə, həm də digər istehlakçı ölkələr üçün mühüm və etibarlı tərəfdaş olaraq qəti addımlar atır.

Mənbələrin şaxələndirilməsi baxımından Avropa İttifaqı tərəfindən irəli sürülən "Cənub Qaz Dəhlizi" layihəsinin ən önəmli mənbə ölkələrindən biri Azərbaycandır. Ancaq Avropa İttifaqı tərəfindən irəli sürülsə də, "Cənub qaz dəhlizi" layihəsini, sözün əsl mənasında, həyata keçirən Türkiyə-Azərbaycan əməkdaşlığı və iradəsi olub. Bu layihənin irəli sürülməsindən xeyli əvvəl "Şahdəniz-1" yatağından çıxarılan qaz artıq Bakı-Tbilisi-Ərzurum boru kəməri ilə nəql olunurdu.

"Şahdəniz-2" yatağı üzrə Türkiyə və Azərbaycan bir tərəfdən Azərbaycanın qaz ticarətinə töhfə verir, digər tərəfdən də həm Türkiyə, həm də Avropa təbii qaz bazarları üçün önəmli bir mənbə şaxələndirməsini təmin edəcək TANAP layihəsini həyata keçirir. Hamımıza məlumdur ki, uzun illər Avropa İttifaqının alternativ enerji mənbələri ilə bağlı həyata keçirdiyi layihələrdən fərqli olaraq, TANAP layihəsi iki ölkənin güclü əməkdaşlığının bir rəmzi olaraq gələn ilin ikinci yarısında, inşallah, açılışının da həyata keçirilməsi ilə xüsusilə Avropanın enerji təhlükəsizliyi baxımından tarixi imkan olacaq.

Bu layihənin həyata keçirilməsi, xüsusilə "Cənub qaz dəhlizi"nin işə salınması ilə Türkiyə-Azərbaycan əməkdaşlığının daha da güclənməsi sayəsində Avropa ölkələri və dünya bazarları çox önəmli bir qaynaq əldə edəcək.

2019-cu ildə TAP-ın TANAP ilə birləşdirilərək işə düşməsi ilə Avropa istehlakçıları üçün dördüncü əsas qaz arteriyası təmin olunacaq və beləliklə, mühüm qaz tədarükü kanalı reallaşacaq. İki tərəf olaraq, strateji rollarımız çərçivəsində "Cənub qaz dəhlizi" layihəsinin həyata keçirilməsində qətiyyətli qərarlar qəbul edərək atdığımız doğru addımlarla həm Türkiyənin, həm də Azərbaycanın birlikdə olması Avropa və dünya üçün çox önəmli bir nümunə təşkil edir.

Tikintinin gələn il başa çatmasından sonra ilk boru kəməri ilə təqribən 16 milyard kubmetr qazın həm Türkiyəyə, həm də bu kəmərin keçdiyi Gürcüstan, Yunanıstan və İtaliya əraziləri vasitəsilə Avropaya nəqli təmin olunacaq.

Hörmətli mərasim iştirakçıları, "Azəri-Çıraq-Günəşli"nin də ortağı olan milli neft şirkətimiz – "Türkiye Petrolleri" Azərbaycanda uzun illərdir fəaliyyət göstərir. 1991-ci ildən bəri Azərbaycanda investisiya fəaliyyətlərini həyata keçirən "Türkiye Petrolleri" nazirliyimizin təşviqi ilə beynəlxalq arenada ilk sərmayəsini Azərbaycana yatırıb. "Türkiye Petrolleri" Azərbaycandakı beynəlxalq layihələrdə iştirak edərək, fəaliyyətini gündən-günə inkişaf etdirib.

SOCAR ilə "Türkiye Petrolleri" arasındakı əməkdaşlıq şirkətimizin "Şahdəniz" layihəsinə qatılması ilə birlikdə 1996-cı ildə daha geniş vüsət alıb. 2014-cü ildə isə "Türkiye Petrolleri" "Şahdəniz" yatağındakı 10 faizlik hissə artımı ilə 19 faizlik paya sahib olaraq layihənin ikinci ən böyük sərmayədarı olub.

"Azəri-Çıraq-Günəşli" üzrə 1994-cü ildən etibarən 23 ildir bu layihənin ortağı olan "Türkiye Petrolleri" bu gün atılacaq imzalarla bu əməkdaşlığı və qarşılıqlı etimada söykənən tərəfdaşlığı 2050-ci ilə qədər uzadaraq layihəyə, Azərbaycana olan güvəni bir daha vurğulamaqdan qürur duymaqdadır.

Xanımlar və cənablar, Türkiyə olaraq biz enerjini münaqişənin və yoxsulluğun səbəbi olmaqdan daha çox, – cənab Prezident bir az əvvəl bəhs etdi, bir çox mənalarda bəzi ölkələrdə enerji münaqişələri yoxsulluğun və problemlərin mənbəyi olaraq görülsə də, – biz enerjinin sülhün və sabitliyin lokomotivi kimi qəbul edilməsinə inanırıq. Bu gün bu layihə ilə bağlı iş gördüyümüz bütün

coğrafiyada ortaya qoyduğumuz əməkdaşlıq önəmli bir uğur rəmzidir. Bu baxımdan Türkiyə-Azərbaycan əməkdaşlığının dünyanın çətin sınaqlardan keçdiyi bu dövrdə bölgəmiz üçün gələcəyə istiqamətlənən örnək təşkil edəcək ortaqlıq olduğunu xüsusi bildirmək istəyirəm. Türkiyə Azərbaycandakı bütün layihələrə önəm verməyə və ölkədəki yeni təşəbbüslərdə əsas ortaqlardan biri olmağa davam edəcək. Azərbaycanın enerji mənbələri uğrunda artan beynəlxalq rəqabət mühitində "Türkiye Petrolleri" ölkələrimizin maraqlarını əsas tutaraq, Azərbaycandakı sərmayələrini artırmağa davam edəcək.

Çıxışımın sonunda bu gün burada imzalanacaq tarixi Sazişin möhtərəm cənab Prezidentin timsalında Azərbaycan xalqına xeyirli olmasını, layihənin bütün iştirakçılarının və tərəfdaşlarının bu günə qədər olduğu kimi, 2050-ci ilə qədər davam edəcək bu tərəfdaşlıq prosesində də çox uğurlu və sərfəli əməkdaşlıq baxımından nümunə təşkil etməsini diləyir, dəvətinizə və iştirakınıza görə hamınıza minnətdarlıq edirəm.

## Böyük Britaniyanın dövlət naziri Alan Dunkan mərasimdə çıxış edərək dedi:

– Cənab Prezident. Xanım Birinci vitse-prezident.

Bu gün mənə çıxış etmək şərəfini verdiyiniz üçün Sizə təşəkkürümü bildirirəm. Mən burada xarici dövlətin bir naziri kimi yox, həm də neft sənayesində 20 il təcrübəsi olan bir şəxs qismində çıxış edirəm. Ona görə ki bu təcrübə bu gün "Azəri-Çıraq-Günəşli" müqaviləsinin uzadılması ilə bağlı olan əlamətdar imzalama mərasimində peşəkar həyatımın bu iki tərəfinin bir araya gəlməsini gördüyüm üçün mənə böyük zövq verir.

Bu mənim Azərbaycana ilk səfərimdir. Lakin, əlbəttə ki, bu mənim sonuncu səfərim olmayacaq. Qeyd etməliyəm ki, Heydər Əliyev Mərkəzinin möhtəşəm arxitekturası mənə çox böyük təsir bağışladı. Bu, şəhər landşaftında gözəl bir təəssüratdır.

Bu, Azərbaycanın müstəqilliyinin bərpasından bəri öz yolu ilə uğurla irəliləməsinin mükəmməl bir təcəssümüdür. Bu əsərin müəllifinin məşhur Britaniya memarı mərhum Zaha Hadidin olması faktı son onilliklər ərzində ölkələrimiz arasındakı əlaqələrin necə güclənməsinin və inkişaf etməsinin əyani sübutudur.

Əlbəttə ki, ən mühüm hadisələrdən biri 1994-cü ildə baş verdi, BP və SOCAR arasında "Əsrin müqaviləsi" imzalandı. O vaxtdan bəri bu iki qurum arasında çox mükəmməl uğurlu tərəfdaşlıq formalaşdı və tərəfdaşlığın növbəti fəslinin başlanmasının səfərimlə üst-üstə düşməsi məni məmnun edir. Rəhmətlik Prezident Heydər Əliyev Birləşmiş Krallığın dünya səviyyəli şirkətlərini zəngin təcrübələrini paylaşmaq, Azərbaycanda neft və qaz infrastrukturunu inkişaf etdirməyə kömək göstərmək məqsədilə dəvət etdiyi üçün öz uzaqgörənliyinə görə təqdir olunmalıdır. Ötən 23 il ərzində buraya milyardlarla dollar sərmayə yatırılmış və 3 milyard bareldən çox neft dünya bazarlarına çıxarılmışdır. Beləliklə, "Azəri-Çıraq-Günəşli" yatağı Azərbaycanın iqtisadi inkişafına böyük töhfə verdi. Bu töhfənin sübutunu bu gün paytaxt Bakıda gəzdikdə şəxsən görməyim məndə möhtəşəm hisslər oyadır.

Müqavilənin uzadılmasının ölkələrimizə iqtisadi faydalar verəcəyinə görə məmnunluq hissi keçirirəm. Belə əlaqələrin qurulması ilə biz gələcək üçün uzunmüddətli çiçəklənməni və sabitliyi təmin edəcəyik. Birləşmiş Krallığın bizim ikitərəfli əməkdaşlığımıza ticarət tərəfdaşlığımıza verdiyi önəmin əyani sübutu kimi indi mən Baş nazir Tereza Meyin, cənab Prezident, Sizə ünvanladığı xüsusi məktubunu oxumaq istəyirəm.

Alan Dunkan Böyük Britaniyanın Baş naziri xanım Tereza Meyin Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubunu oxudu. Sonra Böyük Britaniyanın dövlət naziri Alan Dunkan çıxışını davam etdirərək dedi:

– Möhtərəm cənab Prezident, xanımlar və cənablar.

Bu gün bu imzalanma mərasimində iştirak etmək mənim üçün böyük şərəfdir. Mən Bakıya səfərimin qalan hissəsini səbirsizliklə gözləyirəm. İnanıram ki, bu müqavilənin uzadılması

nəticəsində gələcək illərdə hər iki ölkənin firavanlığı artacaq və onlar güclü ticarət əlaqələrindən faydalanmağa davam edəcəklər. İcazə verin bu tarixi gündə hər birinizi səmimi-qəlbdən təbrik edim.

## Gürcüstanın energetika naziri Elia Eloşvili çıxış edərək dedi:

– Cənab Prezident. Xanım Birinci vitse-prezident.

Bu gün, həqiqətən, böyük və tarixi bir gündür. Bu gün ölkələrimizin enerji müstəqilliyi və təhlükəsizliyi istiqamətində böyük bir nailiyyət əldə edilir və mühüm addım atılır. Bu qərar, sadəcə, müqavilənin əhatə etdiyi tərəfdaş ölkələrə deyil, milyonlarla insana fayda gətirəcək.

Gürcüstan etibarlı tranzit ölkə və Azərbaycanın strateji tərəfdaşı olaraq əməkdaşlığımızın bundan sonra da genişlənməsinə səy göstərəcək. Gürcüstan bu Sazişin imzalanmasını alqışlayır və əməkdaşlığımızın bundan sonra da inkişaf etməsi üçün Azərbaycanla strateji tərəfdaşlığını daha da möhkəmləndirəcək.

Cənab Prezident, bu gün Sizə Baş nazir Giorgi Kvirikaşvilinin müraciətini oxumaq şəxsən mənim üçün böyük şərəfdir.

Nazir Elia Eloşvili Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvilinin Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubunu oxudu.

## Yaponiyanın xarici işlər nazirinin parlamentari müavini Manabu Hori çıxış edərək dedi:

– Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri cənab İlham Əliyev. Hörmətli həmkarlar, xanımlar və cənablar.

Yaponiya hökuməti adından belə bir mötəbər tədbirdə çıxış etməkdən böyük şərəf hissi duyuram. İlk növbədə "Əsrin

müqaviləsi" adlanan "Azəri-Çıraq-Günəşli" neft yataqları üzrə hasilatın pay bölgüsü müqaviləsinin 2050-ci ilə qədər uğurla uzadılması münasibətilə bütün tərəfləri təbrik etmək istəyirəm.

"Azəri-Çıraq-Günəşli" sabit enerji təminatını həyata keçirmək, enerji mənbələrini şaxələndirmək baxımından Yaponiya üçün çox böyük əhəmiyyət kəsb edir. Yaponiya adından "İnpex" və "İtochu" korporasiyaları "Azəri-Çıraq-Günəşli" neft yataqlarının işlənilməsində iştirak edib. Mən səmimi-qəlbdən ümid edirəm ki, bu Yaponiya şirkətləri layihənin uğur qazanması üçün Azərbaycan hökuməti və konsorsiumla əməkdaşlığı davam etdirəcək.

Xanımlar və cənablar, ötən həftə Azərbaycanla Yaponiya arasında diplomatik münasibətlərin qurulmasının 25-ci ildönümü qeyd olundu. Son 25 il ərzində iki ölkə arasında əməkdaşlıq əhəmiyyətli şəkildə inkişaf edib. Son illərdə qarşılıqlı fəaliyyətimiz siyasi və iqtisadi sahələrlə yanaşı, hər iki ölkə parlamentləri və bələdiyyələri arasında mübadilənin aparılması ilə genişlənib. "Azəri-Çıraq-Günəşli" yataqları üzrə uzunmüddətli əməkdaşlığımızın ikitərəfli əlaqələrimizin formalaşmasına təkan verməsi ilə bağlı heç bir şübhə yoxdur. Bununla da mən diplomatik əlaqələrimizin qurulmasının 25-ci ildönümünə təsadüf edən bu müqavilənin uzadılmasını alqışlamaqdan məmnunluq hissi keçirirəm.

Baş nazir Şinzo Abe diplomatik əlaqələrin 25-ci ildönümü münasibətilə Prezident Əliyevə məktub ünvanlayıb. Həmin məktubda Baş nazir enerji sektorunda Yaponiya şirkətlərinin fəaliyyətini alqışlayır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Yaponiya təxminən 1240,7 milyard yen məbləğində maliyyə dəstəyi ayırmışdır. Azərbaycanda iqtisadi infrastrukturun inkişafına və sosial xidmətlərin yaxşılaşdırılmasına ümumilikdə 1,1 milyard dollar vəsait yönəldilmişdir. Məsələn, Yaponiya "Şimal" elektrik stansiyasının podrat layihəsi, eləcə də kənd yerlərində su təchizatının yaxşılaşdırılması kimi iqtisadi və sosial infrastrukturun təkmilləşdirilməsini nəzərdə tutan irimiqyaslı milli layihələrə dəstək verib. Bundan əlavə, Yaponiya insanların həyatına birbaşa töhfə verən uşaq bağçalarının, ictimai səhiyyə mərkəzlərinin təkmilləşdirilməsi ilə bağlı kənd yerlərində ümumilikdə 222 layihəni yerli qrant dəstəyi yolu ilə həyata keçirib.

Xanımlar və cənablar, Yaponiya insan resurslarının inkişafına da xüsusi önəm verir. Biz təlimçilər layihəsini həyata keçirmişik ki, bu layihə vasitəsilə təxminən 640 nəfər Azərbaycandan Yaponiyaya səfər edib. Yaponiya bu cür insan resurslarının inkişafını və mübadilə proqramlarının icrasını fəal şəkildə davam etdirmək niyyətindədir. Əlavə olaraq "İnpex" və özəl sektor tərəfindən təmin olunan digər təlim proqramları Azərbaycanda xeyli sayda istedadların inkişafına töhfə verib. Məsələn, 2016-cı ildə SOCAR ilə "İnpex" arasında gənc mühəndislər üçün təlim proqramının icrasına başlanılıb. Hazırda SOCAR təlimçilərinin builki proqram çərçivəsində Yaponiyaya səfər etməsi məni məmnun edir. Ümid edirəm ki, belə mübadilə proqramları Azərbaycan və Yaponiya şirkətləri arasında çoxtərəfli əməkdaşlığa əlavə təkan verəcək.

Sonda ümidvaram ki, iki ölkə arasında əməkdaşlıq əlaqələri bütün sahələrdə inkişaf edəcək, bu müqavilənin uzadılması və diplomatik əlaqələrin 25-ci ildönümü bizim əməkdaşlığa yeni töhfələr verəcək. Diqqətinizə görə çox sağ olun.

## BP şirkətinin baş icraçı direktoru Robert Dadli çıxış edərək dedi:

**– Cənab Prezident, xanım Birinci vitse-prezident, zati-aliləri, nazirlər, SOCAR-dan olan dostlarımız, möhtərəm qonaqlar.**

Hər birinizin sabahı xeyir. Ümid edirəm ki, hər kəsin foyedə təşkil edilmiş sərgiyə baxmaq imkanı oldu. Sərgidə ötən 25 il ərzində baş vermiş bütün əlamətdar hadisələr öz əksini tapıb.

Bu, kifayət qədər uzun bir tarixçədir.

Möhtəşəm nailiyyətlərə görə cənab Prezidentə və onun hökumətinə minnətdarlığımı bildirmək istəyirəm. Eləcə də Rövnəq Abdullayevə və onun SOCAR-dakı heyətinə və bu gün burada iştirak edən bütün tərəfdaşlarımıza təşəkkür edirəm.

Bütün bu nailiyyətlər yalnız mərhum Prezident Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində mümkün olmuşdur. Onun da xatirəsini dərin ehtiramla yad etmək istəyirəm. 1994-cü

ildə imzalanmış və haqlı olaraq "Əsrin müqaviləsi" adlandırdığımız saziş məhz onun uzaqgörənliyinin bəhrəsidir.

Altı fərqli ölkədən olan 11 şirkət SOCAR ilə birlikdə ölkənin enerji yolunda yeni bir səhifə açdı.

1994-cü il sentyabr ayının məhz həmin əlamətdar günündə mərhum Prezident Heydər Əliyev "Azərbaycanın həyatında yeni dövrün başlandığı"nı demişdir. O, haqlı idi.

Azərbaycanın dənizdəki neft ehtiyatlarının işlənilməsində və eləcə də həmin ehtiyatların dünya bazarlarına nəql edilməsində möhtəşəm nailiyyətlər əldə olunmuşdur. Bu vaxtadək təxminən 33 milyard dollar investisiya qoyulmuş və 3,2 milyard barel neft hasil edilmişdir. Həmçinin "Azəri-Çıraq-Günəşli" yatağından ümumilikdə 30 milyard kubmetr səmt qazı hasil edilərək Azərbaycan hökumətinə verilmişdir.

Buna görə də haqlı olaraq qeyd etmək olar ki, cənab Prezident, məhz Sizin və atanız, mərhum Prezident Heydər Əliyevin enerji sahəsində verdiyi qərarlar bu möhtəşəm ölkənin iqtisadi inkişafına yol açıb və dünyanın enerji xəritəsini həmişəlik dəyişdirib.

Bu gün biz sazişin müddətini əsrin ortasınadək uzadırıq və bu çox əlamətdar bir andır. Biz burada bu tarixi hadisəni qeyd etmək üçün toplaşmışıq və hesab edirəm ki, bunu "Yeni əsrin müqaviləsi" adlandırmaq düzgün olar.

İcazə verin, cənab Prezident, Sizə, hökumətinizə, SOCAR-a və Türkiyə, Norveç, Yaponiya, ABŞ və Hindistandan olan tərəfdaşlarımıza bu vaxtadək əldə etdiyimiz nailiyyətlər və bugünkü tarixi imzalanma münasibətilə təbriklərimi bildirim. Bu sazişin imzalanması AÇG-nin tarixində növbəti mərhələyə qədəm qoymaqla tərəfdaşlığımızın yeni səhifəsini açmağa imkan verir.

Növbəti 32 il ərzində birgə işləyərək və AÇG üzrə potensial olaraq 40 milyard dollardan artıq həcmdə yeni sərmayə qoyaraq, biz Azərbaycanın neft və qaz hasilatının uzunmüddətli gələcəyini təmin etməyə davam edəcəyik.

Bu da öz növbəsində Türkiyə və Gürcüstan əraziləri ilə əlverişli təchizat marşrutlarına malik olan bu regionun rolunu daha da gücləndirməklə onu bütövlükdə mühüm beynəlxalq enerji

mərkəzinə çevirir. Bütün bunlara dəstək vermək üçün BP şirkəti olaraq biz dünyada aparıcı mövqe tutan texnoloji imkanlarımızla, dünyanın bir çox yerlərindəki nəhəng yataqlar boyunca həyata keçirdiyimiz işlərdən qazandığımız təcrübələr və xüsusi biliklərimizlə töhfə verərək Azərbaycandakı 25 illik uğurlu fəaliyyətimizi davam etdirəcəyik. Xəzər dənizində də bu dünya səviyyəli infrastrukturun inkişafını davam etdirəcəyik. Elə ötən həftə "Şahdəniz" konsorsiumu ilə birgə sualtı tikinti işləri üçün dünyada ən qabaqcıl gəmilərdən biri olan "Xankəndi" gəmisini istismara verdiyimiz kimi.

Cənab Prezident, həmin mərasimdə iştirak etdiyinizə görə Sizə təşəkkürümü bildirirəm. Həmçinin qeyd etmək istəyirəm ki, BP-nin Azərbaycandakı öhdəliyi genişlənərək biznes və sosial inkişafın digər sahələrini də əhatə etməyə davam edəcək.

Cənab Prezident, Siz dəfələrlə qeyd etmisiniz ki, dünyada müasir inkişaf biliyə, texnologiyalara və təhsilə əsaslanacaq. BP şirkəti və bütün tərəfdaş şirkətlər Azərbaycanda bu sahələrin hər birinə töhfə verməyimizdən qürur duyuruq.

Bizim Azərbaycan qarşısındakı öhdəliyimiz nəhəng platformalar və uzun boru kəmərləri ilə bitmir. İqtisadiyyatı quran enerjini istehsal etdiyimiz kimi, biz hər mərhələdə təhsilə dəstək olmaqla yerli potensialın yaradılmasının da önəmli olduğuna inanırıq. Bu, uşaq bağçalarındakı uşaqlardan tutmuş universitetlərdə, o cümlədən Bakı Ali Neft Məktəbindəki Layihələrin İdarə Edilməsi Məktəbində və ADA Universitetindəki "Big Data" Mərkəzində yetişən gənclərlə yanaşı, sənayedəki yeni nəsil rəhbər şəxslərədək hər kəsi əhatə edir.

Biz bacarıqları inkişaf etdirməklə, yeni biznes imkanları yaratmaqla və gəlir mənbələrinin formalaşdırılmasına dəstək olmaqla yaşadığımız və fəaliyyət göstərdiyimiz regionlardakı icmalara yardım etməyin əhəmiyyətli olduğuna inanırıq.

Biz mədəniyyətə və müxtəlifliyə hörmətlə yanaşmağın və idman sahəsindəki təşəbbüsləri dəstəkləməyin önəmli olduğunu hesab edirik. BP şirkəti olaraq biz "Bakı-2015" Avropa Oyunlarının və "Bakı-2017" İslam Həmrəyliyi Oyunlarının rəsmi tərəfdaşı olmaqdan çox qürur duymuşuq.

Biz Azərbaycan Milli Olimpiya və Paralimpiya komitələri ilə tərəfdaşlıq sazişlərimizi uzatmaqla Azərbaycanın istedadlı idmançılarına dəstəyi davam etdirəcəyimizə ümid edirik.

Beləliklə, Azərbaycanın gələcəyi bir çox istiqamətlərdə parlaqdır və BP ölkənin davamlı inkişafının bir hissəsi olmaqdan qürur duyur.

İcazə verin qarşıdan gələn uzun illər ərzində AÇG-də yeni mühüm mərhələlərin təməlinin qoyulmasına başladığımız bir vaxtda bütün tərəfdaşlarımıza bir daha öz təşəkkürümü bildirim. Çox sağ olun!

Sonra Azərbaycanın neft-qaz strategiyasına həsr olunan videoçarx nümayiş etdirildi. Videoçarxda Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılması istiqamətində həyata keçirilən layihələrdən bəhs olunub.

Yenilənmiş müqavilənin imzalanma mərasimi. 14 sentyabr 2017-ci il, Bakı





Yenilənmiş müqavilənin imzalanma mərasimindən xatirə fotosu. 14 sentyabr 2017-ci il, Bakı

Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və nümayəndə heyətləri başçılarının iştirakı ilə Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Saziş imzalandı.

Sazişi Azərbaycan hökumətinin, SOCAR-ın, BP, "Chevron", "İnpex", "Statoil", "ExxonMobil", TP, "İtochu" və "ONGC Videsh" şirkətlərinin rəsmiləri imzaladılar.

## Layihənin icrası

2019-cu il aprelin 19-da "Azəri", "Çıraq" və "Dərinsulu Günəşli" yataqlarının işlənilməsi üzrə Rəhbər Komitə (SOCAR, BP, "Chevron", "İnpex", "Equinor", "ExxonMobil", TPAO, "İtochu" və "ONGC Videsh") AÇG-nin işlənilməsinin növbəti mərhələsi olan "Azəri-Mərkəzi-Şərqi" (ACE) layihəsini təsdiq etdi.

Layihənin dəyəri 6 milyard dollardır. O, yeni dəniz platformasının tikintisini və gündəlik 100 min barel neft hasilatını təmin

edəcək qurğuların yaradılmasını nəzərdə tutur. Platformanın istismar müddəti ərzində 300 milyon barel neftin hasil olunması proqnozlaşdırılır. İlk hasilatın başlaması 2023-cü ildə gözlənilir.

Bu, 2017-ci ildə AÇG üzrə hasilatın pay bölgüsü sazişinin 2049-cu ilə qədər uzadılmasından sonra ilk böyük investisiya qərarıdır. Layihənin sanksiyalaşdırılması ilə bağlı yayılan rəsmi məlumatda bildirilir ki, 1994-cü ildə birinci AÇG HPB sazişinin imzalanmasından ötən 25 il ərzində AÇG sahəsinin işlənilməsinə ümumilikdə 36 milyard dollardan çox investisiya qoyulub.

Layihə üzrə tikinti işlərinə 2019-cu ilin ikinci yarısında başlanıb. 2022-ci ilin ortalarına qədər davam edən tikinti prosesində yerli işçi resurslarından istifadə olunub. İnşaat işlərinin pik dövründə 8000 işçinin cəlb olunacağı planlaşdırılırdı.

SOCAR-ın prezidenti bununla bağlı deyib: "Bu gün biz 25 il əvvəl "Əsrin müqaviləsi" ilə ölkənin rifahı naminə əsası qoyulmuş AÇG yataqlar blokunun inkişafının daha bir mühüm mərhələsinin astanasındayıq. Ötən onilliklərdə SOCAR Azərbaycanın neft gəlirlərini ölkədə yüksək ixtisaslı işçi qüvvəsinin və müasir sənaye obyektlərinin inkişafına yönləndirib. Bu gün artıq bizim dünya standartlarına cavab verən zavodlarımız, istehsalat və quraşdırma komplekslərimiz, gəmilərimiz və bacarıqlı işçi qüvvəmiz var. Əlimizdə olan bütün bu imkanlar yeni "Azəri-Mərkəzi-Şərqi" platformasının məhz ölkə daxilində Azərbaycan mütəxəssisləri tərəfindən tikilməsi və quraşdırılması üçün şərait yaradıb. Layihə çərçivəsində biz 3 milyard bareldən çox əlavə neftin hasil olunmasını gözləyirik. Bu strateji qərar Azərbaycanın enerji təchizatçısı kimi regional və dünya bazarlarında mövqelərinin daha da güclənməsinə təkan verəcək".

Bu məsələ haqqında BP qrupunun baş icraçı direktoru Robert Dadli də fikirlərini açıqlayıb: "Birgə fəaliyyətimizin ötən 25 ili ərzində bizim uğurlu tərəfdaşlığımız Azərbaycan xalqının dünya səviyyəli aktivlərini xalq üçün böyük mənfəətə çevirib. AÇG-nin gələcəyi həmin irsin üzərində qurulacaq və növbəti 25 ilin də eyni cür parlaq olmasını təmin edəcək".

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qari Counz bildirib: "Bugünkü bəyanat Hasilatın Pay

Bölgüsü sazişini uzadarkən qarşıya qoyduğumuz uzunmüddətli hasilat planlarını dəstəkləyir. Bu qərar Azərbaycan hökuməti və SOCAR-la sıx əməkdaşlıq etmək, AÇG yatağının ehtiyatlarını daha da səmərəli və rəqabətə davamlı şəkildə reallaşdırmaq niyyətimizi nümayiş etdirir".

"Azəri-Mərkəzi-Şərqi" layihəsi çərçivəsində dənizin təxminən 140 metr dərinliyində, mövcud "Mərkəzi Azəri" və "Şərqi Azəri" platformalarının arasında yeni 48 şaxtalı hasilat, qazma və yaşayış platforması quraşdırılacaq. Platformadan əldə olunacaq neft və qaz məhsulunun Səngəçal terminalına qoşulan mövcud AÇG-2 ixrac kəmərinə ötürülməsi məqsədilə yeni yataqdaxili sualtı boru kəmərləri də inşa ediləcək.

Bundan əlavə, laya vurulan suları "Mərkəzi Azəri" kompressiya və suvurma platformasından ACE qurğularına nəql etmək məqsədilə "Azəri-Mərkəzi-Şərqi" və "Şərqi Azəri" platformaları arasında suvurma boru xətti tikiləcək.

## Layihə üzrə müqavilələrin imzalanması

"Azəri-Çıraq-Dərinsulu Günəşli" yatağının işlənilməsi üzrə operator olan BP şirkəti 2019-cu ilin sentyabrında "Azəri-Mərkəzi-Şərqi" layihəsinin əsas müqavilələrini imzaladı. "BP-Azerbaijan" şirkətinin rəsmi məlumatına görə:[33]

- ACE platformasının dayaq bloku və ətək payalarının istehsalı üzrə müqavilə "BOS Shelf" MMC və "Star Gulf FZCO" şirkətlərindən təşkil olunmuş konsorsiumla imzalanmışdır. Müqavilənin dəyəri **260 milyon dollar** civarındadır.

Müqavilə üzrə işlər həcmi istehsal sexləri və quraşdırma işləri ilə əlaqədar mühəndislik, boruyayma işləri, dayaq bloku və ətək payalarının hazırlanması və yığılması, quraşdırma sistemlərinin istismara verilməsi, qurğunun yüklənib göndərilməsi və dənizdə yerinə bərkidilməsindən ibarətdir.

Bu müqavilə üzrə bütün tikinti və istehsal işləri yerli resurslardan, o cümlədən işçi qüvvəsi və tikinti meydançalarından istifadə etməklə SOCAR-ın Heydər Əliyev adına Bakı Dərin Özüllər

Zavodunda yerinə yetirilib. Tikinti işləri artıq başlayıb və 2021-ci ildə başa çatdırılacağı gözlənilirdi.

- İkinci müqavilə üzrə ACE platformasının üst modullarının hazırlanması və inteqrasiyası nəzərdə tutulur. Həmin müqavilə 2019-cu ilin iyulunda "Azfen" şirkəti ilə imzalanıb. Müqavilənin dəyəri **486 milyon dollardan** çoxdur.

Bu müqavilə çərçivəsində işlər həcminə istehsal və quraşdırma mühəndisliyi, həmçinin platformanın üst modullarının hazırlanması, yığılması və birləşdirilməsi daxildir. Müqavilə üzrə nəzərdə tutulan işlərə ("National Oilwell Varco" şirkəti tərəfindən layihələndirilib) yüngül bir qazma blokunun hazırlanması, istismara təhvilvermə işlərinə dəstək xidmətləri, yükləyib göndərmə, sazlama və dənizdə istismara təhvilvermə işlərinə dəstək də aiddir.

Üst modullar Bakı yaxınlığında Bibiheybətdəki istehsal meydançasında inşa olunub. Bu müqavilə üzrə tikinti işlərinin 2022-ci ildə başa çatdırılacağı gözlənilirdi.

- Üst modulların qazma qurğusu ilə əlaqədar layihələndirilmə, satınalma və tikintiyə nəzarət üzrə müqavilə ABŞ-nin "National Oilwell Varco" (NOV) şirkəti ilə imzalanıb. Bu müqavilənin dəyəri **151 milyon dollardan** çoxdur.

Bu müqavilə çərçivəsində işlər həcminə müfəssəl layihələndirmə, mühəndislik təminatı və avadanlığın satın alınması və qazma qurğusunun Bakıya çatdırılması daxildir. İşlər həcmi, həmçinin üst modullar və qazma qurğusu istehsalçısının tikinti işlərinə, o cümlədən qazma qurğusunun hazırlanması, birləşdirilməsi, sazlanması və istismara verilməsi ilə əlaqədar fəaliyyətə nəzarət daxildir.

- Platformanın yaşayış blokları ilə əlaqədar layihələndirmə, satınalma və tikinti müqaviləsi İsveçin "Emtunga Solutions AB" şirkəti ilə imzalanıb. Bu müqavilənin dəyəri 34 milyon dollar civarındadır. Layihələndirmə, satınalma və tikinti ilə yanaşı, işlər həcminə yaşayış bloklarının inteqrasiyası və istismara təhvil verilməsinə texniki dəstək də daxildir.

Bu müqavilə üzrə işlər artıq başlayıb və 2022-ci ildə başa çatacağı gözlənilirdi. Yaşayış bloklarının yığılması və istismara verilməsi, Bakı yaxınlığında Bibiheybətdəki istehsal meydançasında, platformalar üçün üst modulların inşa olunacağı yerdə yerli resurslardan istifadə etməklə həyata keçirilib.

- Layihələndirmə işlərinin icrası ilə əlaqədar müqavilə SOCAR-KBR MMC birgə müəssisə ilə imzalanıb. Müqavilənin dəyəri **76 milyon dollardan** çoxdur.

Bu müqavilə üzrə işlər həcminə üst modullar, dayaq bloku və ətək payalarının layihələndirilməsi; ACE layihəsi üçün mövcud obyektlərin yenilənməsi işləri; sualtı qurğular üçün sistemin layihələndirilməsi və mühəndislik təminatı; layihənin idarə edilməsi – materialların idarə edilməsi, interfeyslərin idarə edilməsi, məlumatların idarə edilməsi; satınalma dəstəyi; keyfiyyətin idarə edilməsi və tikinti sahəsində dəstək daxildir. Bu müqavilə üzrə işlər SOCAR-KBR şirkətinin Böyük Britaniyadakı “Leatherhead” və Bakıdakı mühəndislik ofisləri vasitəsilə yerinə yetirilir.

- Yüklərin idarə edilməsi xidmətləri ilə əlaqədar müqavilə Regional çərçivə Sazişi çərçivəsində 2019-cu ilin avqustunda “Transglobal Projects” MMC ilə imzalanıb. Bu müqavilə çərçivəsində işlər həcminə materialların və avadanlıqların təchizatçıların obyektlərindən toplanması və Bakıdakı sahələrə çatdırılması, o cümlədən gömrük rəsmiləşdirməsi daxildir. Bu müqavilə üzrə göstəriləcək xidmətlər nəqliyyatın bütün növlərini, o cümlədən beynəlxalq və daxili avtomobil nəqliyyatı, çay gəmiləri, barjalar, dəniz nəqliyyatı, hava nəqliyyatı ilə daşıma haqqında razılaşmalar, yüklərin hava nəqliyyatı və dəmir yolu ilə daşınmasını əhatə edir.

Qeyd etmək lazımdır ki, “Azəri-Mərkəzi-Şərqi” layihəsi üzrə tikinti işlərinə 2019-cu ildə start verilib və layihənin operatoru 2022-ci ilin ortalarına qədər bütün işləri tamamlamağı proqnozlaşdırırdı. Bu zaman tikinti işləri yerli resurslardan istifadə etməklə tamamilə ölkə daxilində yerinə yetiriləcəkdi və pik səviyyədə tikinti işləri üçün 8000-ə qədər iş yerinin açılacağı təxmin edilirdi.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü il aprelin 4-də Bayıl tikinti-quraşdırma sahəsində "Azəri-Mərkəzi-Şərqi" platformasının üst modullarının dənizə rəmzi yola salınması mərasimində iştirak edib[31]

## "Azəri-Mərkəzi-Şərqi" (ACE) platforması

ACE layihəsinin aşağıdakılardan ibarətdir:

- Suyun təxminən 137 metr dərinliyində quraşdılıb;
- Mərkəzi Azəri (MA) və Şərqi Azəri (ŞA) platformaları arasında yerləşdirilib;
- Bir platformadan ibarət olacaq, onun üst modulları yaşayış blokundan və qazma qurğularından təşkil edilib;
- Üç yeni yataqdaxili sualtı qaz, neft və suvurma boru xətti birləşmələri və əlaqədar sualtı infrastruktur yaradılıb;
- ŞA platformasından ACE platformasına istiqamətlənən birləşdirilmiş sualtı enerji (ehtiyat) və telekommunikasiya kabeli çəkilib;

- Platformadan gündəlik 100 min barelədək neft hasilatı gözlənilir, layihənin istismar müddəti ərzində isə ümumilikdə 300 milyon barelədək neftin çıxarılması proqnozlaşdırılıb. Platformadan ilk neftin hasilatı 2024-cü ilin əvvəlinə gözlənilir.
- ACE platforması Səngəçal terminalından uzaq məsafədən idarə edilə bilir. Bu, AÇG platformaları arasında uzaq məsafədən idarə olunan ilk platformadır. Bunun üçün platformanın idarə mexanizminə innovativ sistem avtomatlaşdırmaları daxil edilib və Səngəçal terminalında yeni idarəetmə mərkəzi yaradılıb.

# YEKUN

Artıq "Azəri-Çıraq-Günəşli" müqaviləsinin imzalandığı zamandan əsrin dörddəbiri arxada qalıb. Bu layihə imzalandığı zamandan gündəmə "Əsrin müqaviləsi" kimi daxil oldu və həqiqətən də, indi mübaliğəsiz demək olar ki, o müqavilə olmasaydı, bəlkə də, hazırda Azərbaycan xalqının əldə etdikləri nailiyyətlərə çatmaq üçün ona bir əsrə yaxın vaxt gərək olardı.

"Əsrin müqaviləsi" ilk növbədə ümid, sonra imkanlar, daha sonra isə onların gercəkləşdirilməsi idi. "Əsrin müqaviləsi" Azərbaycana yeni idarəçiliyi, müasir dövrdə əməklə kapital arasındakı yeni münasibətləri gətirdi.

Sovet sisteminin ətalətindən çıxmaqda çətinlik çəkən insanlara belə sonda aydın oldu ki, əmək məhsuldarlığının artımı məhz düzgün idarəçilik, innovativ texnologiyaların tətbiqi, məhsuldar qüvvələrin əmək şəraitinin daim yaxşılaşdırılması və cəmiyyətə açıqlıq prinsipləri ilə şərtlənir. Bu cür yanaşmanın nəticəsi idi ki, "Əsrin müqaviləsi" çərçivəsində Xəzər dənizinin dərin hissəsində gerçəkləşdirilən layihəni qonşu ölkələrin quruda reallaşdırdığı layihələrlə müqayisədə daha az kapital qoyuluşu hesabına ərsəyə gətirmək mümkün olmuşdu.

İndiyə qədər Azərbaycan cəmiyyətinin "Əsrin müqaviləsi"nə göstərdiyi maraq qədər ikinci bir layihəni xatırlamaq olmur. İctimai maraq isə layihənin uğurunun bir hissəsi, bəlkə də, başlıca hissəsidir.

Bu baxımdan "Əsrin müqaviləsi" başlanğıcdan Azərbaycanın bir tanıtım layihəsi kimi ərsəyə gəldi. O, daxildə iqtisadi stabilliyin yaranmasının başlıca elementi kimi çıxış edirdisə, beynəlxalq əlaqələrin qurulmasında və inkişaf etdirilməsində gənc bir dövlət üçün böyük əhəmiyyət kəsb edən vasitə idi.

Ona görə də layihənin hər bir detalı da, onunla əlaqəli hər bir yeni yaranan qurum da Azərbaycanın həyatında "Əsrin müqaviləsi"nin adına layiq şəkildə öz yerini tuturdu.

Azərbaycan Dövlət Neft Fondu birbaşa "Əsrin müqaviləsi" çərçivəsində ölkənin əldə etdiyi gəlirlərin idarə olunması, xərclənməsi və gələcək nəsillərə saxlanılması kimi vacib məqsədlə bağlıdır. Bu baxımdan dövlət başçısının vaxtında və düzgün atdığı addım Azərbaycanı bir sıra ölkələrin vaxtilə təcrübəsizlikdən getdiyi neqativ yollardan çəkindirdi və indi əminliklə demək olar ki, artıq Neft Fondu ölkənin iqtisadi təhlükəsizliyində mühüm rol oynayan bir institusional quruma çevrilib. Bu isə iqtisadiyyatı dünya neft bazarında baş verən kataklizmlərdən qorumaq, ölkə iqtisadiyyatının stabil inkişafı üçün çox yaxşı bir imkandır.

Beləliklə, "Azəri-Çıraq-Günəşli" müqaviləsi Azərbaycanı yenidən dünyanın neft xəritəsinə yerləşdirdi. Ehtiyatlarının həcmi, gətirəcəyi mənfəət və iqtisadiyyatın digər sahələrində (tikinti və xidmət) yaradacağı əlavə dəyər nəzərə alınmaqla AÇG müqaviləsi Azərbaycanın nəinki neft tarixində, habelə iqtisadi tarixində ən mühüm layihə oldu.

İri neft müqaviləsinin imzalanması ilə Azərbaycan cəmiyyətində gələcəyə ümid, xaricdə isə Azərbaycana bir maraq yarandı.

"Əsrin müqaviləsi" sayəsində Azərbaycan sənaye sektorunda bazar iqtisadiyyatına müvəffəqiyyətli keçidi nümayiş etdirdi. 1995-ci ildə ölkənin neft sənayesində hasilatla məşğul olan ilk meqa qeyri-dövlət strukturu – ABƏŞ yaradıldı.

Bu müqavilə Azərbaycanın xarici aləm üçün pozitiv fonda ilk tanıtımı idi, müqavilənin icrası isə kapital dünyası üçün ciddi bir mesaj idi ki, Azərbaycanla istənilən mürəkkəb layihəni işləmək mümkündür.

Bu günə qədər Azərbaycan tərəfinin imzaladığı neft müqavilələrində birtərəfli qaydada nəyisə dəyişməyə cəhd etməməsi onun beynəlxalq aləmdəki nüfuzunun yüksəlməsinə, investorlarda Azərbaycana olan inamın artmasına səbəb olub.

"Əsrin müqaviləsi"nin həyata keçirilməsi Azərbaycan Respublikası ərazisində özəl şirkətlərin səhmdarı olduğu ixrac boru kəmərlərinin yaranmasına gətirib çıxardı.

Beynəlxalq maliyyə təşkilat və təsisatlarında Azərbaycanın kredit ödəmək qabiliyyəti xeyli yüksəldi. Müqavilə Azərbaycanın böyük həcmdə valyuta ehtiyatlarına malik olmasına yol açdı. Bu da öz növbəsində ölkənin özünün investisiya və iqtisadi siyasətini aparmasına gətirib çıxardı.

Azərbaycanın dünya iqtisadi birliyinə, dünya bazarına daxil olması və inteqrasiyası prosesi sürətləndi, bazar münasibətləri getdikcə dərinləşdi.

Müqavilə Azərbaycanın iqtisadi müstəqilliyinin möhkəmlənməsində müstəsna rola malikdir. Onun reallaşmasından ölkənin əldə etdiyi gəlirlərlə iqtisadiyyatın heç bir sektorunun gətirdiyi qazancı müqayisə etmək mümkün deyil.

"Əsrin müqaviləsi" ardınca Azərbaycanla neft və qaz kəşfiyyatı və hasilatı üzrə daha 40 hasilatın pay bölgüsü sazişi imzalandı. Ümumilikdə ölkənin neft sənayesinə 101 milyard dollar sərmayə qoyuldu.

Azərbaycanda fəaliyyət göstərən xarici neft şirkətləri yerli kadrlara neft mühəndisliyi kimi son dərəcə təkmil sahələrdə qabaqcıl biliklər və təcrübə verdi. Yerli işçilər bu biliklərdən xeyli faydalandı və faydalanırlar. Bu gün Azərbaycan peşəkarlarını dünyanın istənilən neft və qaz məkanlarında görmək mümkündür.

Beləliklə, yerin təkindəki ehtiyatlarından xarici neft şirkətləri ilə əməkdaşlıq formasında rasional şəkildə istifadə etmək siyasəti Azərbaycanı qlobal neft bazarlarına çıxış əldə etməyə, bu bazarın birbaşa iştirakçısına çevrilməyə və beynəlxalq aləmlə sıx münasibətlər qurmağa imkan yaratdı.

Nəhayət, Heydər Əliyevin neft strategiyasının ardıcıl həyata keçirilməsi ilə Azərbaycan 25 ildə böyük iqtisadi, siyasi və coğrafi-strateji uğurlara nail oldu. Gələcəkdə isə bu uğurlar daha da artacaq. Azərbaycan indi artıq bölgənin coğrafi-siyasi mərkəzinə çevrilib. Azərbaycanın bölgədəki və onun hüdudlarından kənardakı vəziyyətə təsiri isə reallaşdırdığı qlobal layihələr hesabına getdikcə daha da artacaq.

# ƏLAVƏLƏR

## Cədvəllər

**Cədvəl 3.** 1994-2021-ci illərdə SOCAR və tərəfdaşları arasında imzalanan neft-qaz sazişləri

| Sazişlər | Layihənin operatoru | İmzalanma tarixi | Qüvvəyə minmə tarixi | Hazırkı statusu |
|---|---|---|---|---|
| 1. AÇG | BP | 20.09.1994 | 12.12.1994 | Hasilat |
| 2. "Qarabağ" | "Pennzoil" | 10.11.1995 | 23.02.1996 | Xitam verilib |
| 3. "Şahdəniz" | BP | 04.06.1996 | 17.10.1996 | Hasilat |
| 4. "Əşrəfi-Dan ulduzu" | "Amoco" | 14.12.1996 | 07.03.1997 | Xitam verilib |
| 5. "Lənkəran/Talış dəniz" | "Total" | 13.01.1997 | 30.07.1997 | Xitam verilib |
| 6. D222 | "LUKoil" | 03.07.1997 | 10.12.1997 | Xitam verilib |
| 7. "Oğuz" | "Mobil" | 01.08.1997 | 05.12.1997 | Xitam verilib |
| 8. "Naxçıvan" | "Exxon" | 01.08.1997 | 05.12.1997 | Xitam verilib |
| 9. "Abşeron" | "Chevron" | 01.08.1997 | 05.12.1997 | Xitam verilib |
| 10. Kürdaşı | "Agip" | 02.06.1998 | 30.06.1998 | Xitam verilib |
| 11. "Cənub-Qərbi Qobustan" | "Commonwealth Oil & Gas" | 02.06.1998 | 27.11.1998 | Hasilat |
| 12. "Muradxanlı" | "Ramco" | 21.07.1998 | 27.11.1998 | Xitam verilib |
| 13. "İnam" | BP | 21.07.1998 | 28.12.1998 | Xitam verilib |
| 14. "Araz", "Alov", "Şərq" | BP | 21.07.1998 | 23.03.1999 | Xitam verilib |
| 15. "Kürsəngi"və "Qarabağlı" | GL | 15.12.1998 | 22.04.1999 | Hasilat |
| 16. "Ataşgah", "Yanan tava" və "Muğan" | "Japex" | 25.12.1998 | 17.06.1999 | Xitam verilib |
| 17. "Zəfər"və "Məşəl" | "Exxon" | 27.04.1999 | 08.05.2000 | Xitam verilib |

| Sazişlər | Layihənin operatoru | İmzalanma tarixi | Qüvvəyə minmə tarixi | Hazırkı statusu |
|---|---|---|---|---|
| 18. "Padar" | "Nations Energy" | 27.04.1999 | 22.11.2000 | Xitam verilib |
| 19. "Mişovdağ"və " Kəlaməddin" | "Global Energy" | 12.09.2000 | 22.11.2000 | Hasilat |
| 20. "Pirsaat" | "Petro Hong Kong Ltd." | 04.06.2003 | 29.12.2003 | Hasilat |
| 21. "Qaraçuxur" | "Noble Sky" | 18.06.2004 | 02.08.2006 | Xitam verilib |
| 22. "Binəqədi" | | 29.09.2004 | 01.09.2005 | Hasilat |
| 23. "Suraxanı" | "Rafi Oil" | 16.08.2005 | 01.06.2006 | Hasilat |
| 24. "Zığ-Hövsan" | "Global Energy" | 03.11.2006 | 08.10.2007 | Hasilat |
| 25. "Kürovdağ" | "Global Energy" | 03.02.2009 | 05.10.2009 | Hasilat |
| 26. "Neftçala" | "Shirvan" | 03.02.2009 | 05.10.2009 | Hasilat |
| 27. "Abşeron" (2-ci dəfə) | "Total" | 27.02.2009 | 30.06.2009 | İşlənmə |
| 28. "Bahar" və "Qum dəniz" | "Greenfields Petroleum" | 22.12.2009 | 01.10.2010 | Kəşfiyyat və hasilat |
| 29. "Balaxanı" | "UQE Lanser PTİ" | 03.06.2010 | 01.01.2012 | Hasilat |
| 30. "Şəfəq", "Asiman" | BP | 07.10.2010 | 01.07.2011 | Kəşfiyyat |
| 31. "Dayazsulu Abşeron" (SWAP) | BP | 22.12.2014 | 01.05.2015 | Xitam verilib |
| 32. "Muradxanlı" (2-ci dəfə) | "Zenith Energy" | 16.03.2016 | 11.08.2016 | Kəşfiyyat və hasilat |
| 33. "Ümid" və "Babək" | SOCAR/"Nobel Oil" | 12.01.2017 | 01.01.2018 | Kəşfiyyat və hasilat |
| 34. D230 | BP | 26.04.2018 | 01.12.2018 | Kəşfiyyat |
| 35. "Qarabağ" (2-ci dəfə) | "Equinor" | 30.05.2018 | 01.04.2019 | İşlənmə |
| 36. "Əşrəfi-Dan ulduzu" (2-ci dəfə) və "Aypara" | "Equinor" | 30.05.2018 | 01.08.2018 | Kəşfiyyat |
| 37. "Buzovna", "Maştağa", "Qala", "Zirə" | GL | 14.12.2021 | 01.07.2022 | Hasilat |

**Cədvəl 4.** SOCAR və xarici neft şirkətləri arasında imzalanan, lakin hüquqi qüvvəyə minməyən HPB tipli sazişlər

| HPB sazişinin adları | Layihənin operatoru | İmzalanma tarixi | Statusu |
|---|---|---|---|
| "Savalan" və "Dalğa" | "ExxonMobil" | 27.04.1999 | Saziş parlamentə təqdim edilməyib |
| "Zığ" və "Hövsan" | "LUKoil" | 09.01.2001 | Saziş parlamentdə təsdiq edilsə də, hüquqi qüvvəyə minmədən ləğv edilib |
| "Buzovna", "Maştağa" | "DB Petroleum" | 02.06.2009 | Saziş parlamentə təqdim edilməyib |
| "Kürovdağ" | "Caspian Energy Group" | 05.11.2004 | Saziş parlamentə təqdim edilməyib |

**Cədvəl 5.** AÇG blokunda platformalar üzrə hasil edilən neft

| Platformanın adı | Hasilatın başlanma tarixi | 01.01.2023 tarixinədək hasil edilmiş neft | |
|---|---|---|---|
| | | milyon barellə | milyon tonla |
| "Çıraq" | 7 noyabr 1997 | 767,8 | 103,8 |
| "Mərkəzi Azəri" | 13 fevral 2005 | 1 056,1 | 142,7 |
| "Qərbi Azəri" | 30 dekabr 2005 | 970,1 | 131,1 |
| "Şərqi Azəri" | 22 oktyabr 2006 | 577,3 | 78,0 |
| "Dərinsulu Günəşli" | 22 aprel 2008 | 607,2 | 82,0 |
| "Qərbi Çıraq" | 28 yanvar 2014 | 219,4 | 29,7 |
| **Cəmi** | | **4 197,9** | **567,3** |

**Mənbə:** "BP Azərbaycanda. Davamlı inkişaf hesabatı 2019" və "BP-Azərbaycan" şirkətinin hesabatları əsasında "Caspian Barrel"Neft Araşdırmaları Mərkəzinin hesablamaları

**Cədvəl 6.** "Azəri-Çıraq-Günəşli" layihəsi çərçivəsində xərcləmələr

| İllər | İstismar xərcləri (milyon $-la) | Kapital xərcləri (milyon $-la) | Ümumi xərclər (milyon $-la) |
|---|---|---|---|
| 1995 | - | - | 140 |
| 1996 | - | - | 416 |
| 1997 | - | - | 519 |
| 1998 | 131 | 467 | 598 |
| 1999 | 107 | 212 | 319 |
| 2000 | 91 | 158 | 249 |
| 2001 | 81 | 218 | 299 |
| 2002 | 88 | 1 185 | 1 273 |
| 2003 | 90 | 2 129 | 2 219 |
| 2004 | 126 | 2 555 | 2 681 |
| 2005 | 191 | 2 711 | 2 902 |
| 2006 | 234 | 2 477 | 2 711 |
| 2007 | 445 | 2 822 | 3 267 |
| 2008 | 645 | 1 897 | 2 542 |
| 2009 | 659 | 1 051 | 1 710 |
| 2010 | 426 | 1 648 | 2 074 |
| 2011 | 699 | 1 912 | 2 511 |
| 2012 | 725 | 2 495 | 3 220 |
| 2013 | 772 | 2 833 | 3 605 |
| 2014 | 1 000 | 2 300 | 3 300 |
| 2015 | 760 | 1 900 | 2 660 |
| 2016 | 503 | 1 450 | 1 953 |
| 2017 | 456 | 1 180 | 1 636 |
| 2018 | 505 | 1 150 | 1 655 |
| 2019 | 567 | 1 476 | 2 043 |
| 2020 | 531 | 1 817 | 2 348 |
| 2021 | 533 | 1 660 | 2 193 |
| 2022 | 470 | 1 624 | 2 094 |

01.01.2023 tarixinə AÇG layihəsi üzrə əsaslı xərcləmələr **42 306** milyon dollar, əməliyyat xərcləmələri isə **11 394** milyon dollar təşkil edib

**Mənbə:** ABƏŞ-in, "BP-Azərbaycan" şirkətinin mətbuat üçün açıqlamaları və hesabatları

**Cədvəl 7.** AÇG-dən SOCAR-a təhvil verilən səmt qazı həcmləri

| İllər | Həcm (milyard kubmetrlə) |
|---|---|
| 2000-2004 | 4,22 |
| 2005 | 1,88 |
| 2006 | 2,4 |
| 2007 | 2,4 |
| 2008 | 2,1 |
| 2009 | 4,0 |
| 2010 | 3,4 |
| 2011 | 3,3 |
| 2012 | 3,4 |
| 2013 | 2,19 |
| 2014 | 2,76 |
| 2015 | 3,2 |
| 2016 | 2,75 |
| 2017 | 2,9 |
| 2018 | 2,3 |
| 2019 | 2,1 |
| 2020 | 2,2 |
| 2021 | 3,0 |
| 2022 | 2,6 |
| **Cəmi** | **53,1** |

“BP-Azerbaijan”ın biznesə dair məlumatları əsasında

**Cədvəl 8.** Azərbaycanın valyuta ehtiyatları

| Tarix | ARDNF-in valyuta ehtiyatları (mln. $) | AMB-nin valyuta ehtiyatları (mln. $) | Azərbaycanın valyuta ehtiyatları (mln. $) |
|---|---|---|---|
| 01.01.2023 | 49 033,6 | 8 995,7 | 58 029,3 |
| 01.01.2022 | 45 025,1 | 7 075,0 | 52 100,1 |
| 01.01.2019 | 38 515,2 | 5 625,7 | 44 140,9 |
| 01.01.2018 | 35 806,5 | 5 334,6 | 41 141,1 |
| 01.01.2017 | 33 147,0 | 3 974,4 | 37 121,4 |
| 01.01.2016 | 33 574,1 | 5 016,7 | 38 590,8 |
| 01.01.2015 | 37 104,1 | 13 758,3 | 50 862,4 |
| 01.01.2014 | 35 877,5 | 14 152,0 | 50 029,5 |
| 01.01.2013 | 34 129,4 | 11 694,8 | 45 824,2 |
| 01.01.2012 | 29 800,0 | 10 481,5 | 40 281,5 |
| 01.01.2011 | 22 766,8 | 6 407,6 | 29 174,4 |
| 01.01.2010 | 14 900,4 | 5 151,7 | 20 062,1 |
| 01.01.2009 | 11 219,2 | 6 137,0 | 17 356,2 |

**Mənbə:** Azərbaycan Dövlət Neft Fondu və Azərbaycan Mərkəzi Bankı

# Qrafiklər

## "AZƏRİ-ÇIRAQ-GÜNƏŞLİ" HAQQINDA ƏSAS FAKTLAR

| | |
|---|---|
| **Müqavilə sahəsi:** | 432,4 $km^2$ |
| **Ehtiyatlar:** | 930 mln ton neft |
| **Çıxarılıb (01.01.2023):** | 567,3 mln ton |
| **Dənizin dərinliyi:** | 120-170 m |
| **Hasilat platformalarının sayı:** | 6 |
| **Texniki platformalar:** | 2 |
| **Əsaslı kapital qoyuluşu (01.01.2023):** | 42,3 mlrd ABŞ dolları |

**Qrafik 1.** Azərbaycanda neft hasilatının dinamikası (mln tonla)




**Mənbə:** AR Dövlət Statistika Komitəsi və "BP-Azərbaycan" şirkəti məlumatları

**Qrafik 2.** AÇG blokunda yataqlar üzrə hasilat, mln tonla (01.01.2023 tarixinədək)




**Mənbə:** "BP-Azərbaycan" şirkətinin illik hesabatları

**Qrafik 3.** 2022-ci ildə yataqların AÇG bloku üzrə hasilatda payları




**Mənbə:** "BP-Azərbaycan" şirkətinin illik hesabatları

**Qrafik 4.** AR Dövlət Neft Fondunun AÇG-dən gəlirlərinin (mlrd $-la) neftin ixrac qiymətindən ($-la) asılılığı




**Mənbə:** AR Dövlət Neft Fondunun illik hesabatları

# İSTİNADLAR


1. М.А.Мирзоев, “На шельфе Каспия”, стр. 138, Баку 1995
2. М.А.Мирзоев, “На шельфе Каспия”, стр. 134, Баку 1995
3. Akademik Xoşbəxt Yusifzadə, “Biblioqrafiya”. Bakı, 2019, səh. 226
4. М.А.Мирзоев, “На шельфе Каспия”, стр. 140, Баку 1995
5. https://www.BP.com/content/dam/BP-country/az_az/ PDFs/sustainability-reports/BP_Report_19_Az_Interactive. pdf səh. 7
6. https://www.BP.com/content/dam/BP-country/az_az/ PDFs/legalagreements/PSAs/ACG-psa-aze.pdf səh. 4-6
7. https://www.BP.com/content/dam/BP-country/az_az/ PDFs/legalagreements/PSAs/ACG-psa-aze.pdf səh. 136-137
8. https://www.BP.com/content/dam/BP-country/az_az/ PDFs/legalagreements/PSAs/ACG-psa-aze.pdf səh. 36
9. https://www.BP.com/content/dam/BP-country/az_az/ PDFs/legalagreements/PSAs/ACG-psa-aze.pdf səh. 36
10. https://www.BP.com/content/dam/BP-country/az_az/ PDFs/legalagreements/PSAs/ACG-psa-aze.pdf səh. 36
11. https://www.BP.com/content/dam/BP-country/az_az/ PDFs/legalagreements/PSAs/ACG-psa-aze.pdf səh. 53
12. https://www.BP.com/content/dam/BP-country/az_az/ PDFs/legalagreements/PSAs/ACG-psa-aze.pdf səh. 45-48
13. https://www.BP.com/content/dam/BP-country/az_az/ PDFs/legalagreements/PSAs/ACG-psa-aze.pdf səh. 26
14. https://www.BP.com/content/dam/BP-country/az_az/ PDFs/legalagreements/PSAs/ACG-psa-aze.pdf səh. 45
15. https://www.BP.com/content/dam/BP-country/az_az/ PDFs/legalagreements/PSAs/ACG-psa-aze.pdf səh. 5
16. https://www.azer.com/aiweb/categories/magazine/32_fol- der/32_articles/32_adams.html From Azerbaijan Internatio- nal (3.2) Summer 1995
17. “Turan” agentliyinin xəbərlər bülleteni: 17 fevral 1996-cı il
18. http://republic.preslib.az/az_c1.html
19. http://republic.preslib.az/az_c1.html
20. http://republic.preslib.az/az_c1.html
21. https://fins.az/sosium/976386/azerbaycanda-yoxsulluq-seviyyesi-achiqlandi.html

22. https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_Respub-likas%C4%B1n %C4%B1n_d%C3%B6vl%C9%99t_b%C3%- BCdc%C9%99si
23. http://www.maliyye.gov.az/sites/default/files/_Qanun_bu- dce_2017_.pdf
24. https://www.BP.com/content/dam/BP-country/az_az/ PDFs/legalagreements/ PSAs/EN-AZ-Restated-ACG-PSA.pdf səh. 5
25. https://www.BP.com/content/dam/BP-country/az_az/ PDFs/sustainability-reports/BP-SR-2004-aze.pdf səh. 16
26. https://www.BP.com/content/dam/BP-country/az_az/ PDFs/legalagreements/ PSAs/EN-AZ-Restated-ACG-PSA.pdf
27. https://www.BP.com/content/dam/BP-country/az_az/ PDFs/legalagreements/ PSAs/EN-AZ-Restated-ACG-PSA.pdf səh. 173-176
28. https://www.BP.com/content/dam/BP-country/az_az/ PDFs/legalagreements/ PSAs/EN-AZ-Restated-ACG-PSA. pdf səh. 53-55
29. https://www.BP.com/content/dam/BP-country/az_az/ PDFs/legalagreements/ PSAs/EN-AZ-Restated-ACG-PSA.pdf
30. https://www.BP.com/content/dam/BP-country/az_az/ PDFs/legalagreements/ PSAs/EN-AZ-Restated-ACG-PSA.pdf səh. 5
31. https://president.az/az/articles/view/59288

# İNDEKS


## A

Abe, Şinzo 188
ABŞ 5, 11-2, 32, 42, 46-7, 55, 57, 78, 80, 85, 103-4, 109, 118, 122-3, 126, 142, 144, 146, 150-1, 158, 190, 196, 198
*AÇG* 9, 65-7, 77, 80, 143, 145-147, 151, 162, 169, 173, 190-5, 200, 205, 207
ADA Universiteti 191
Adams, Terri 72, 87-92, 96, 98-9, 102-3
*ADNOC* 73
Aktau 112, 113
Albayrak, Berat 182
*Alberta* 59, 174
Almaniya 103, 146
Alyaska 74
Ameli, Con 48
*Amoco* 11-2, 26, 33, 42, 46, 48, 57, 103-4, 205
*Amoko Kaspian Si Petroleum Limited* 27, 29, 63, 166
*ACE* 193, 195, 196, 197, 198
*ARDNŞ* 4-5, 12, 13, 23, 25, 42, 46, 58-60, 72, 73, 77, 79, 103, 143, 158. *Həmçinin bax:* SOCAR
Asiya 111, 114
Avropa 20, 99, 103, 114, 123, 132, 183-4, 191
AXC 176-7
*Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ)* 6, 72-80, 87, 90-4, 99, 103-4, 109-10, 117-9, 124, 126, 129, 135-6, 143, 147, 151, 156-9, 169, 200
Azərbaycan Demokratik Respublikası 49, 56
Azərbaycan Respublikasının Konstitusiyası 62
Azərbaycan Xalq Cümhuriyyəti 133
Azəri-Mərkəzi-Şərqi 193-5, 197-8
*Azəri-Çıraq-Dərinsulu Günəşli* 195
*Azəri-Çıraq-Günəşli* 1, 4-5, 14, 79, 81, 137, 142, 145, 157, 158, 161, 169, 175-6, 178, 180, 182, 184, 185, 186, 188, 190, 199, 200, 208
*Azəri* 4-5, 10, 11, 12, 13, 20, 26, 27, 29, 34, 38, 46, 52, 54, 57, 61, 62, 77, 84, 104, 118, 143, 144, 146, 157, 158, 161, 166, 167, 169, 174, 193
*Azfen* 146, 151, 196

## B

Bakı 49, 52, 73, 84, 96, 108, 132, 133, 176
Bakı Ali Neft Məktəbi 191
Bakı Dərin Özüllər Zavodu 191, 195
*Bakı-2015* 191
*Bakı-2017* 191
*Bakı-Ceyhan* 7, 113, 129
*Bakı-Novorossiysk* 6, 120, 124, 142, 172, 178
*Bakı-Supsa* 119-20, 122, 123, 124, 125, 135, 139, 142, 172
*Bakı-Tbilisi-Ceyhan* 6-7, 66, 122, 123, 139, 142, 158, 161, 165, 172, 178-83
*Bakı-Tbilisi-Ərzurum* 139, 179, 183
Belçika 127
Bi-Pi Eksploreyşn 27, 29, 166. *Həmçinin bax:* BP
Bibiheybət 196, 197
Bleyer, Toni 127
BMT Təhlükəsizlik Şurası 177
Bolqarıstan 113
Bondevik 127
*BOS Shelf* 150, 195

*Bouygues Offshore Construction* 146
Böyük Britaniya 4, 8, 11-2, 42, 46, 47, 55, 96, 103-4, 109, 126-28, 146, 151, 158, 165, 185-6, 197
*BP* 2-4, 7, 9, 11-2, 42, 46, 48, 57, 73, 144, 146, 151, 155-7, 169, 161-2, 165-69, 174, 180, 186, 189, 191-5, 205-6
*BP-Azerbaijan* 2-4, 9, 144, 146, 195
Braun, Con 48
Britaniya-Norveç alyansı 4
*BTC* 6-8, 161, 183

## C

*C&WP* 8
*Cənub Qaz Dəhlizi* 179, 180, 183-4
*Cənubi Qafqaz Boru Kəməri* 161
*Chevron* 98, 112, 174, 193, 205
Counz, Qari 194
Cövhəri, Nəcməddin 47
*CQBK* 161, 162

## Ç

*Çıraq-1* 3, 58, 76, 101-3, 142
*Çıraq-2* 98
*Çıraq* 3-6, 10-3, 24, 26, 27, 29, 34-8, 46, 52, 56, 57, 61, 62, 65, 66, 77, 80, 84, 94, 101, 104, 107, 108, 109, 115-6, 118, 120, 157, 161-3, 166-7, 169, 174, 178, 193, 207
Çörçill, Uinston 102

## D

Dadli, Robert 189, 194
*Delta İnternational* 48
*Delta Nimir* 42, 63, 166
*Delta* 17, 13, 46, 57, 104
*Den Norske Stats Olyeselskap a.s.* 63, 166
*Devon* 157
*Dədə Qorqud* 2, 83, 87-90, 94, 142
Dəmirəl, Süleyman 127
*Dərin Özüllər Zavodu* 143, 150
*Dərinsulu Günəşli* 3, 8, 9, 66, 77, 151, 154, 161, 162, 163, 207
*Dördüncü Bakı* 50, 104, 127, 133
dövlət büdcəsi 172
*Dövlət Neft Şirkəti.* 4, 12, 24-36, 46-7, 52-3, 55, 61-2, 69-71, 83, 87-92, 98, 100, 103-4, 119, 121, 135, 138-40, 155-6, 159, 166-7, 171, 179-81.
*Həmçinin bax:* SOCAR
Dunkan, Alan 185, 186
Dünya Bankı 99

## E

Ekvatorial Qvineya 43
Elçibəy, Əbülfəz 3
*Elf Akiten* 96
Eloşvili, Elia 187
*Emtunga Solutions AB* 196
Eqqar, Timoti 47
*Equinor* 193, 206
Ermənistan 130-1, 177
*Eupec Pipecoatings* 146
*Exxon Azerbaijan Limited* 166, 167
*Exxon* 73, 96, 104, 174, 205, 206
*ExxonMobil* 193, 207

## Ə

Əbu-Dabi 72
Ələkbərov, Vahid 48
Əliyev, İlham 23, 25, 103, 129, 154, 159, 165, 168, 174-5, 187, 192, 193, 203
Əliyev, Natiq 29, 19-20, 79, 89, 91, 94, 99-100, 103, 143
Əliyev, Vaqif 198
Ərdoğan, Rəcəb Tayyib 182
*Əsrin müqaviləsi* 2-3, 23-5, 41, 55, 65, 69, 83-4, 89-90, 101, 104, 107, 119-20, 123-5, 129-32, 134-8, 141, 150, 154-7, 169, 165, 169, 176-83, 186-7, 190, 194, 199-203

## F

Fakihi, Osam Cəfər 47
Fateh əl-Alban 48
*Faza-1* 7, 143, 146, 147, 157
*Faza-2* 7, 66, 145, 146, 147
*Faza-3* 8, 150, 151, 157, 158
Filippin 43
Fransa 96, 150

## G

*Gəncə* 177
Gil, Hokon 103
Gülüstan sarayı 33, 46, 47, 117, 132, 134, 154, 176, 182
*Günəşli* 2-3, 5, 10, 12-3, 20, 26-7, 29, 32, 38, 46, 52, 56-7, 61-2, 84, 104, 118, 128, 150-1, 157, 166-7, 169, 176, 193
Gürcüstan 6,-8, 97, 103, 108-9, 112-4, 118-9, 158-9, 172, 184, 187, 190

## H

Hadid, Zaha 186
*Halliburton International* 150
Hasilatın Pay Bölgüsü 5, 9, 42-4, 75, 147, 171, 172, 194, 207
*Hawthorne* 8
*Hess* 157, 166
Heydər Əliyev 5-6, 13-5, 23, 26, 29-30, 46, 64, 67, 83, 90, 101-3, 117, 119, 125, 132, 138, 140, 142-3, 150, 154-5, 157, 159, 176-79, 185, 186, 189-92, 195, 201, 203
Heydər Əliyev Mərkəzi 174, 182
HQY 80, 144, 145, 147, 149
Hyuston 32

## X

Xakulov, Kayum 103
*Xankəndi*, tanker, 191
Xəzər dənizi 10, 17, 29, 56-7, 61-2, 68, 71, 84, 96, 100, 103, 105-6, 108, 110-13, 113-4, 117, 118, 121, 123, 125, 128, 133, 138, 142, 151, 166, 167, 176, 193, 199
Xəzərdənizneft 2
Xəzərdənizneftqaz 4, 10-1
Xəzərdənizneftqazsənaye 3

## İ

*İkinci Bakı* 50, 104, 127, 133, 141
İkinci Dünya müharibəsi 50, 102, 104, 127, 141
ilk quyunun fontanı 16
İlkin neft 65, 80
İndoneziya 43
İngiltərə 47, 54, 75, 78
*Inpex Southwest Caspian Sea* 156, 166-7, 174, 188-1, 193
*İslam İnkişaf Bankı* 47
*İstiqlal* 142
İsveç 151, 196
İtaliya 151
*İtochu* 96, 104, 157, 166-7, 174, 188, 193

## K

Kanada 31, 59, 146, 174
*KCA Deutag* 146, 151
Kərimov, İslam 127
Klinton, Bill 123, 126, 135
Kot d'İvuar 43
*Koveroçkin* 3
Kuçma, Leonid 119, 123, 127
*Kürdaşı* 111
Küveyt 74
*Kvaerner Process Systems* 146
Kvirikaşvili, Giorgi 187

## Q

Qafqaz 66, 75, 123, 161
Qara dəniz 108, 112, 114, 172, 178
Qarabağ neft yatağı 98,160
Qazaxıstan 74, 103, 106, 112-3, 121, 123, 127, 161
Qərb Marşrutu İxrac Boru Kəməri 6
*Qərbi Azəri* 4, 8, 66, 146, 147, 149, 157, 207
*Qərbi Çıraq* 3, 9, 66, 162, 163, 207
QİBK 6-7
Qroznı 109
Quliyev, Fuad 61
Quliyev, Rəsul 23, 24
Qurtuluş 142

## L

Lauri, Uilyam 48
Liberiya 43
London 24, 31, 77
*LUKoil* 5, 13, 27, 29, 33, 42, 46, 48, 57, 63, 104, 166, 205, 207

## M

Malayziya 43
Manafov, Marat 23-4
*McDermott* 11, 12, 26-7, 29, 33, 42, 46, 48, 57, 63, 144, 146, 150, 151, 166
*Mercon Steel Structures BV* 151
Mey, Tereza 165, 186
Meycor, Con 96
mənfəət nefti 43, 137
*Mərkəzi Azəri* 4, 7-8, 66, 80, 144, 145, 147, 157, 195, 198, 207
*Mərkəzi-Şərqi Azəri* 9, 66
Milli Bank 171
Milli Elmlər Akademiyası 2
Milli Məclis 5, 23, 25, 44, 57, 62, 69, 79, 167, 173, 181
Milli Olimpiya Komitəsi 192
Misir 43
*Mobil* 73, 96, 205
Morninqstar, Riçard 122
Moskva 21
Müsavat 176, 177

## N

*National Oilwell Varco* 196
Nazarbayev, Nursultan 127
Nazirlər Kabineti 61, 63-4, 100, 140, 167
Neft Daşları 2, 16, 37, 50, 80, 105, 107-8, 119, 128, 141, 179
Nemtsov, Boris 103, 113, 118
Niderland 151
Nobel qardaşları 48, 132
Nobel, Alfred 78
Norveç 16, 11-2, 42, 46-7, 54-5, 103-4, 127, 190
Novorossiysk 6, 94, 108-9, 120, 124, 142, 172, 178

## O

Odessa-Brodı 125
ONGC Videsh 167, 174, 193
Onshore Operating Company 73
*Onshore Operating Company* 72

## Ö

Özbəkistan 103, 118, 127

## P

Paralimpiya 192
*Pennzoil* 5, 12, 26, 33, 42, 46, 48, 57, 104, 205
*Pennzoyl Kaspian Korporeyşn* 27, 29, 166
*Permina* 42
*Pertamina* 42
*Pharmadule Emtunga AB* 151
Polşa 125
Puqaç, Stanislav 47

## R

*Ramco* 26, 42
Rasizadə, Artur 94, 100
*Remco* 11, 12, 33, 46, 48, 57, 96, 104
*Remko Xəzər Enerci Limited* 27, 29, 63, 166
Rempo, Stiven 48
Rumıniya 113
Rusiya 5-6, 13, 33, 42, 46-7, 49-50, 54-6, 75, 78, 94, 103-4, 106, 108, 112-3, 118, 120-1, 123, 141, 161

## S

Saipem 151
*Sante-Fe* 88
səmt qazı 24, 28, 57, 108, 162, 190, 209
Səncər, Sidqi 48
Səngəçal 5, 66, 80, 103, 145-7, 149-50, 154, 158, 160-1, 163, 179, 195
Səudiyyə Ərəbistanı 5, 13, 42, 46, 104, 127
*Shell* 73
Sibir 50, 133
Slovakiya 23
*SOCAR* 2, 9, 12, 71, 126, 146, 150, 155, 162, 165, 169, 172, 176, 180, 183, 184, 186, 189, 190, 193-8, 205, 206-9.
*Həmçinin bax:* Dövlət Neft Şirkəti
Sovet İttifaqı (SSRİ) 2, 4, 11, 13-6, 21, 36-9, 49-51, 56, 74, 93, 133-4, 141, 170
SSRİ Neft və Qaz Sənayesi Nazirliyi 2, 4, 11
*Star Gulf FZCO* 195

*Statoil* 4, 11, 12, 26, 33, 42, 46, 48, 57, 104, 154, 166-7, 174, 193
Supsa 6-7, 108, 119-20, 122, 123, 124, 125, 135, 139, 142, 157, 172, 178

## Ş

*Şahdəniz-1* 66, 183
*Şahdəniz-2* 183
*Şahdəniz* 1, 4, 11, 96, 98, 136, 142, 161, 162, 178, 179, 180, 184, 191, 205
*Şelf-1* 4
*Şelf-2* 3, 37
*Şelflayihətikinti* 143, 146
Şevardnadze, Eduard 103, 118, 119, 124, 127
*Şevron Xəzər* 166, 167
*Şərqi Azəri* 4, 8, 66, 146-7, 157, 195, 198
Şimal dənizi 74-5, 128
Şimal neft kəməri 94

## T

Tağıyev, Hacı Zeynalabdin 132
*TANAP* 172, 179, 183, 184
*TAP* 179, 184
*Tekfen* 146, 151
tender 56, 75
Tetçer, Marqaret 4, 11
Trans-Xəzər boru kəməri 75, 77, 123
*Transglobal Projects* 197
Transneft 94
Tümen 50, 133
Türkiye Petrolleri A.O. (TPAO) 12, 26, 42, 46, 48, 63, 104, 157, 166-7, 193
Türkiyə 7, 12, 27, 29, 31, 33, 42, 46-7, 54-5, 78, 103-4, 112-3, 118, 122-3, 127, 146, 151, 158-9, 172, 178-9, 182-5, 190, 194
Türkmənistan 74, 106, 113, 122-3, 161

## U

Uayt, Uilyam 35
Ukrayna 103, 101, 118, 107, 111, 113, 115
Unocal. *Həmçinin bax:* Yunokal Xəzər, Ltd. 5, 11-3, 26, 43, 42, 46, 48, 57, 63, 104, 156, 166

## Ü

*Üçüncü Bakı* 50, 104, 127, 133, 141
*Ümid* 172, 206

## V

Vaşinqton 99
Verxofstadt 127
*Vetco Grey Controls* 151
Vitnis, Uilyam 48
Vold, Yohan Nik 48
Vudvord, Devid 136, 143, 156

## Y

Yaponiya 103, 187, 188, 189, 190
yarımdalma üzən qazma qurğuları (YÜQQ) 2-4
Yeltsin, Boris 5
Yılmaz, Məsud 103, 118
Yusifzadə, Xoşbəxt 2

**Qeyd:**